AZƏRBAYCAN TARİXİ

Metodik vəsait

10



Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

ELNUR HÜSEYNOV
NİYAMƏDDİN QULİYEV

AZƏRBAYCAN TARİXİ

10

Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün
Azərbaycan tarixi fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2017

MÜNDƏRİCAT

Dərslik və müəllim üçün metodik vəsait haqqında..... 3

10-cu sinif Azərbaycan tarixi fənni üzrə məzmun standartları 8

10-cu sinif Azərbaycan tarixi fənni üzrə alt standartlarının şərhi 10

10-cu sinif Azərbaycan tarixi fənni üzrə məzmun standartlarının

inteqrasiya imkanları..... 14

Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi 16

Qiymətləndirmə üçün meyarların işlənib-hazırlanması..... 25

Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi..... 31

Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr..... 33

İnteraktiv tədris haqqında ümumi məlumatlar..... 36

Fənnin tədrisində müasir təlim metodlarının nəzərə alınması 38

Fəal dərsin quruluşu. Planlaşdırma 52

Perspektiv (illij5k) planlaşdırma 54

Dərs nümunələri və tövsiyələr 62

İstifadə edilmiş ədəbiyyat 191

DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA

Müstəqillik qazandığı gündən inkişaf edən Azərbaycan dövləti bütün sahələrdə fəaliyyət göstərərək özünü dünyanın qabaqcıl ölkələri ilə bərabər səviyyəyə çatdırmağa çalışır. Qloballaşan dünyada inteqrativliyin qorunub saxlanması, nailiyyətlərə doğru irəliləmək, uğurlar əldə etmək üçün təhsilin, xüsusilə də dərsliklərin rolu günümüzün əsas vasitələrindən biri kimi hələ də öz aktuallığını qoruyub saxlamaqdadır. Şəxsiyyətyönümlü inteqrativ məzmuna əsaslanan yeni təlim strategiyalarından istifadə etməyə şərait yaradan dərslik hazırlamaq müasir dövrün tələblərindən biridir. Xüsusən, təhsilə yeni yanaşma və bu yanaşmanın nəticəsi olaraq öhdəyə düşən vəzifəni layiqincə yerinə yetirmək bir sıra işlərin həyata keçirilməsini zəruri edir. Hər bir tarix müəllimi tədris etdiyi fənnə uyğun olaraq tədris resurslarının yaradılması sahəsində maraqlı olmalı, dərsin gedişində əyaniliyə üstünlük verməklə yanaşı, fəal-interaktiv təlim mühiti yaratmalıdır. Bunun üçün də 10-cu sinif Azərbaycan tarixi dərsliyi hazırlanarkən ölkədə həyata keçirilmiş təhsil islahatlarına, xüsusən də dərsliklə bağlı qarşıya qoyulan tələblərə xüsusi diqqət ayrılmışdır. Təlim və tərbiyənin daim nəzarətdə saxlanılması və bu sahədə aparılan işin mühüm hissəsi kimi dövlətin qoyduğu təhsil standartlarının tələbinə uyğun dərsliklərin hazırlanmasının vacibliyi əsas götürülmüşdür. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün 10-cu sinif Azərbaycan tarixi dərsliyi və eləcə də Müəllim üçün metodik vəsait Azərbaycan tarixi fənn kurikulumu əsasında tərtib olunmuşdur.

Bildiyiniz kimi, müasir dövrdə dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri hesab edilir. Şagird səxsiyyətinin formalaşdırılmasında və inkişafında dərsliklərin rolu əvəzsizdir və onun tələblərə uyğun hazırlanması zəruridir. Sizə təqdim etdiyimiz dərslik komplekti öz funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsasları sistemli və anlaşıqlı şəkildə təqdim olunmuşdur. İdraki təhsilin əsas resurslarından biri hesab edilən dərslik özünəməxsus, orijinal xüsusiyyətləri ilə daha çox maraq doğuracaqdır. Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları özündə əks etdirən 10-cu sinif Azərbaycan tarixi dərsliyi özündə istiqamətverici, yönəldici, düşündürücü funksiyaları birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Fənn kurikulumlarına uyğunluq dərsliyin əsas keyfiyyətlərindən biri kimi qeyd edilə bilər. Bunu nəzərə alaraq hazırlanmış dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq edəcəkdir. Bununla yanaşı, təqdim olunan şəkil və illüstrasiyalar, sual və tapşırıqlar

şagirdləri tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirəcəkdir. Dərslik təkcə bilik vermək, məlumatlandırmaq funksiyasına deyil, şəxsiyyətin formalaşmasına imkan yaradacaqdır. Onunla tanışlıq zamanı şagirdlərin öz üzərlərində çalışmasına, tənqidi, məntiqi və yaradıcı təfəkkürün formalaşdırılaraq inkişaf etdirilməsinə şərait yaradacaq imkanlara da rast gələcəksiniz.

Bildiyiniz kimi, şagirdləri fəaliyyətə sövq etmək, həmçinin praktik olaraq işin icrasına imkan yaratmaq müasir dərsliklərin əsas keyfiyyəti olmalıdır. Bacarıqları formalaşdıra bilmək imkanının olması isə üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur və dərslikdə, eləcə də Müəllim üçün metodik vəsaitdə bu tələbləri nəzərə almaqla əsas nüanslara yer ayrılmışdır. Bununla yanaşı, dərslik komplekti inteqrativ bacarıqların inkişafına və onu şəxsiyyətin ümumi keyfiyyətinə çevirməyə yetəri qədər imkan yaradacaq. Şagirdlərin dünyagörüşünün formalaşdırılması üçün lazımi məlumatlar, şəkil və illüstrasiyalar, eləcə də digər öyrədici və düşündürücü vasitələr də dərslikdə özünü qabarıq şəkildə əks etdirmişdir.

Yeni dərslikləri kurikulumların tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm pedaqoji prinsiplərin gözlənilməsi zəruri hesab edilir.

Düzgünlük. Bu prinsip dərsliyi qeyri-ciddi faktlardan uzaqlaşdırır, inandırıcı, stimullaşdırıcı mənbəyə çevirir. Şagirdlər dərsliyə etibarlı tədris vəsaiti kimi yanaşırlar. Dərsliyin bu prinsipə uyğun hazırlanması üçün aşağıdakı tələblərin nəzərə alınmasını vacib hesab etmişik:

- ✓ təlim standartlarına uyğunluq;
- ✓ faktların dəqiqliyi;
- ✓ orfoqrafik və qrammatik qaydaların gözlənilməsi;
- ✓ mübahisəli faktların olmaması.

Əyanilik. Dərslikləri baxımlı etmək, onları şagirdin ən yaxın müsahibi kimi dəyərləndirmək, eləcə də stimullaşdırıcı vasitəyə çevirmək üçün əyaniliyə mühüm prinsip kimi müraciət olunur. Aşağıdakılar nəzərə alınmaqla bu prinsip tam reallaşdırılıb:

- ✓ şəkillər, fotolar;
- ✓ illüstrasiyalar;
- ✓ sxemlər;
- ✓ cədvəllər;
- ✓ xəritələr;
- ✓ qrafiklər.

Əyaniliyi təmin etmək üçün yuxarıda sadalanan bütün vasitələrin dərsliyə daxil edilməsi tələb olunmur. Azərbaycan tarixi dərsliyi hazırlanarkən onun özünəməxsus cəhətləri, xüsusiyyətləri əsas götürülmüş, zəruri hesab edilən müvafiq əyani vasitələr seçilib təqdim olunmuşdur.

Müasirlik. Dərsliyin ən mühüm atributlarından biri onun yeniliyi, müasirliyidir. Dövrün, zamanın tələb və ehtiyaclarını özündə əks etdirməsi, şagirdlərdə yenilik əhvali-ruhiyyəsi yarada bilməsidir. Buna aşağıdakı tələblər nəzərə alınmaqla nail olunmuşdur:

- ✓ sosial-iqtisadi sahələrdəki nailiyyətlərin nəzərə alınması;
- ✓ elmin özündəki inkişafın nəzərə alınması;
- ✓ təlim materiallarının müasir dünyagörüşü formalaşdırmasına istiqamətlənməsi.

Dərsliyin müasir olması üçün fakt və hadisələrin inkişafla bağlı olması, onu əks etdirməsi əsas şərtlərdən biridir. Lakin bununla yanaşı, yeni texnologiyalara istinad olunması və onların dərsliyin məzmununa gətirilməsi müasirliyin əlamətlərindən biri kimi vacib tələblərdəndir. Bütün verilən bu tələbləri nəzərə almaqla ölkəmizin keçmişini özündə əks etdirən Azərbaycan tarixi dərsliyi şagirdlərin, müəllimlərin, valideynlərin, eləcə də dərsliklə maraqlananların nəzərinə təqdim edilmişdir.

Tamlıq. Tədris vəsaitlərindən biri kimi dərsliyin bütövlüyü, tamlığı onun məzmununda aşağıdakı komponentlərin olmasını tələb edir:

- ✓ nəzəri materiallar;
- ✓ praktik materiallar;
- ✓ təsviri materiallar;
- ✓ qiymətləndirmə materialları.

Dərsliyin məzmununda verilməsi nəzərdə tutulan bu materialların hər biri mühüm didaktik əhəmiyyət daşıyır və şagirdlərin təlim fəaliyyətinə sövq edilməsi, öyrənmə prosesinin təşkili və bacarıqların dəyərləndirilməsi baxımından vacibdir. Ona görə də 10-cu sinif üçün Azərbaycan tarixi dərsliyi hazırlayarkən bu prinsipə əməl olunmuşdur.

Ardıcıllıq. Dərsliklərin məzmunundakı materialların sıralanmasında ardıcıllıq mühüm prinsiplərdən biri kimi gözlənilir. Bu zaman ardıcıllığın aşağıdakı parametrləri əsas götürülür:

- ✓ psixoloji baxımdan;
- ✓ məzmun baxımından;
- ✓ təqvim-tematik baxımdan;
- ✓ məntiqi baxımdan.

Psixoloji baxımdan ardıcıllıq. Təlim materialları, ilk növbədə, şagirdlərin psixi proseslərlə bağlı fəaliyyətlərinin inkişafının təmin edilməsi üçün seçilmişdir. Bu, hafizə, təfəkkür və təxəyyül proseslərinin formalaşmasına, şagirdlərin müstəqil düşünməsinə, fəaliyyətinə və tətbiqi icra ilə məşğul olmasına şərait yaradacaqdır.

Məzmun baxımından ardıcıllıq. Təlim materiallarının sadədən mürəkkəbə doğru sıralanmasında özünü göstərir. Kurikulumda əsas olan sadədən mürəkkəbə prinsipi bu dərsliyin hazırlanması zamanı da diqqət mərkəzində saxlanılmışdır.

Təlim vaxtına uyğunluq. Təlim materiallarının miqdarı və ağırlığı müəyyənləşdirilərkən dərs üçün ayrılan vaxt nəzərə alınmışdır. Bu zaman nəzəri və praktik materialların balansının gözlənilməsi, standartların reallaşdırılmasına yönəldilməsi zəruridir. Şagirdlərin təlimə marağının gücləndirilməsi üçün motivasiya imkanları genişləndirilir.

Məntiqi baxımdan ardıcıllıq. Bu zaman sadədən mürəkkəbə prinsipi qorunmuş, verilən məzmun, eləcə də tapşırıq və suallar məntiqə uyğun yerləşdirilmişdir.

Yaş səviyyəsinə uyğunluq. Dərslik şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmışdır. Bu zaman iki əsas tələb diqqət mərkəzində saxlanılmışdır: a) dizayn; b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı. Bütün bunlar şagirdin yaş xüsusiyyəti nəzərə alınmaqla seçilib. Bu da şagirddə ölkəmizin tarixinə marağı daha da gücləndirərək onun layiqli vətəndaş kimi yetişməsinə xidmət edəcəkdir.

Dərslik hazırlanarkən şagirdin sinif mühiti ilə yanaşı, müstəqil işləməsinə şərait yaradan amillər nəzərə alınmış, motivasiya imkanları gücləndirilmiş, vaxt nəzərə alınmaqla verilən materiallarda ən zəruri və düşündürücü məqamlara yer ayrılmışdır.

Oxunaqlılıq. Oxunaqlılığın nəzərə alınması üçün məzmun materiallarının maraqlı olması vacibdir. Belə materiallar şagirdlərin diqqətinə səbəb olur, onları öyrənməyə sövq edir. Təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə olması öyrənmə fəaliyyətinin səmərəliliyini artırır.

Bu tələbin də nəzərə alınması maksimum gözlənilmiş, hadisələrin şərhi aydın və anlaşılan şəkildə dərslikdə veilmişdir.

İnklüzivlik. Bu prinsip əsasında yazılmış dərslik öz əhatəliliyinə görə seçilməli, təlim prosesində müxtəlif səviyyələri ehtiva etməli, həm istedadlı, həm də müəyyən səbəblərdən geridə qalan şagirdlərin təlim maraqlarını ödəməlidir. Bunun üçün təlim materiallarının seçilməsinə və dərsliyə daxil edilməsinə diferensial yanaşılmalı, hər bir sinifdə şagirdlərin inkişaf səviyyələri nəzərə alınmalıdır.

Dərslikdə inklüzivlik dövrün əsas tələbi kimi diqqət mərkəzində saxlanılmış, şagirdlərin inkişafı üçün zəruri olacaq imkanlar təqdim olunmuşdur. Şagirdlərdə inklüzivlik dərsliyin yazılmasında əsas meyara çevrilmişdir.

Fəal təlim üçün şəraitin yaradılması. Fəal təlim müasir təhsil prosesinin əsas atributlarından hesab edilir. Onun qurulmasında bir çox amillərlə yanaşı, dərslik də həlledici rol oynayır. Nəticəyönümlü kurikulumlar məhz belə dərsliklərin hazırlanmasını tələb etdiyi üçün dərslik hazırlanarkən fəal təlimə şərait yaradılmasına mühüm didaktik prinsip kimi önəm verilmişdir. Hər bir paraqrafda təlim materiallarının verilməsi fəal təlim prosesinə uyğunlaşdırılmış, təlim marağının formalaşdırılması, problemin qoyuluşu, həll edilməsi, təqdimolunma və qiymətləndirmə üçün şəraitin yaradılması əsas tutulmuşdur.

Gigiyenik tələblərə uyğunluq. Yeni dərsliklər həm də gigiyenik tələblərə cavab verməli və ona uyğun hazırlanmalıdır. Bu zaman Azərbaycan hökuməti ilə razılaşdırılmış "Ümumtəhsil sistemində dərslik siyasəti" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin qəbul etdiyi "Dərsliklərin texniki və gigiyenik standartları" adlı normativ sənədlərə istinad olunmalıdır. Yeni dərsliklərin hazırlanmasında mənbələrin göstərilməsi, təlim materiallarında kütləvi informasiya vasitələrindən istifadə imkanlarının nəzərə alınması da mühüm prinsiplər kimi dəyərləndirilməli, onların da nəzərə alınması diqqət mərkəzində saxlanılmalıdır. Hazırlanmış 10-cu siniflər üçün Azərbaycan tarixi dərsliyi məhz bu tələblərə uyğun şəkildə formalaşdırılmışdır. Müxtəlif psixoloq və pedaqoqların fikrinə görə, fəaliyyətlər üç istiqamətdə qruplaşdırılır: idraki, informativ-kommunikativ, psixomotor. Bu fəaliyyətləri formalaşdırmaq və inkişaf etdirmək zərurətini əsas tutmaqla dərslik verilən bütün tələblərə uyğun işlənilmişdir.

Sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə almaqla dərslik 44 paraqraf və 4 bölmədən ibarət bölgü əsasında tərtib edilmişdir. Paraqraflar tərtib olunarkən standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. vasitələr nəzərə alınmışdır. Metodik vəsaitin hazırlanmasında standartlar, standartların şərhi, inteqrasiya cədvəli, dərslərin icmalı, açıq dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır. Bununla yanaşı, dərslik və metodik vəsaitin hazırlanmasında istifadə edilmiş mənbə və ədəbiyyat, internet resurslarının siyahısı təqdim edilmişdir. Tərtib olunmuş paraqrafların hər biri qruplaşdırılmış, forma və üsullar təqdim edilmiş, işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. İstifadə edilmiş resursların, eləcə də istifadəsi mümkün olan resursların siyahısı göstərilmişdir. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və müəllim üçün metodik vəsait dövlətin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin qoyduğu tələbi maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

Dərslikdəki mövzular aşağıdakı şərti işarələrin köməyi ilə qruplaşdırılmışdır:

Giriş, problemə istiqamətləndirmə

Açar söz

Mövzuda araşdırma məqsədilə verilmiş suallar

Mövzuda araşdırma məqsədilə verilmiş tapşırıqlar

Mənbə

Mövzunun sonunda verilmiş sual və tapşırıqlar

10-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

10-cu sinfin sonunda şagird:

- mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, xronoloji cədvəllər hazırlayır;
- yazılı mənbənin aid olduğu dövrü və müəllifin mövqeyini müəyyənləşdirir;
- insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir;
- müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir, qrafik və diaqramlar tərtib edir;
- dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir;
- görkəmli tarixi şəxsiyyətlər haqqında referat və təqdimatlar hazırlayır;
- Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirir.

Məzmun xətləri üzrə əsas və alt standartlar

1. Tarixi zaman

Şagird:

1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərinə dair xronoloji cədvəllər hazırlayır.

1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir.

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2. Tarixi məkan

Şagird:

2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3. Dövlət

Şagird:

3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

4. Şəxsiyyət

Şagird:

4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

5. Mədəniyyət

Şagird:

5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

10-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ ALT STANDARTLARIN ŞƏRHİ

1. Tarixi zaman		
Standartlar	**Şərhlər**	**Açar sözlər**
1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.	Müxtəlif mənbələr əsasında Azərbaycanın tarixi keçmişini araşdırır, qədim Aşşur (Assuriya), Roma-yunan və s. mənbələri əsasında dövrün proseslərini təhlil edir. Bununla yanaşı, baş vermiş prosesləri müasir dövrün prosesləri ilə müqayisə edir. Əldə olunmuş məlumatlar əsasında müxtəlif növ təqdimatlar hazırlayır.	Azərbaycan ərazisi, Azərbaycanda ilk insan cəmiyyətlərinin yaranması, Azərbaycanda dövlətçilik, Azərbaycan müasir dövrdə, tarixi keçmiş.
1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərinə dair xronoloji cədvəllər hazırlayır.	Müxtəlif mənbələrdən istifadə edir. Herodot, Strabon və digər müəlliflərin Azərbaycan haqqında verdiyi məlumatlar əsasında, eləcə də daha tutarlı mənbələrə istinad edərək müqayisəli təhlilər aparır. Mənbələrin köməyi ilə xronoloji cədvəllər qurur, Azərbaycanın keçmiş və müasir dövrünü təhlil edə bilir.	Azərbaycanın keçmişi. Azərbaycan müasir dövrdə, xronoloji cədvəl.
1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Tarixi hadisəyə dair yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirmək üçün onun tədqiqatçılıq bacarığını, baş verən hadisəyə münasibətini, şəxsiyyətini araşdırır, həmin mənbəni bu hadisəyə həsr edilmiş digər uyğun mənbələrlə, tarixi əsərlərlə tutuşdurur və müqayisə edir, beləliklə, hadisəyə obyektiv münasibəti öyrənir və yalnız bundan sonra son nəticəyə gəlir.	Mənbəşünaslıq, tədqiqatçılıq, müəllifin mövqeyi, Azərbaycan tarixi, Azərbaycan tarixinə dair mənbələr.
1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirmək üçün, ilk növbədə, mənbədə, yaxud da tarixi sənəddə göstərilən hadisənin nə vaxt baş verdiyini, onun müəllifini və onu hazırlayan təşkilatın mövcud olduğu vaxtı, çap olunmuş tarixi əsərlərdə belə məlumatın olub-olmadığını müəyyənləşdirir.	Yazılı mənbə, tarixi sənəd, dövri mətbuat.
1.3.1. İnsanların həyat tərzində dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Azərbaycan tarixinə aid İnternetdən, ensiklopediyalardan, tarixi mənbələrdən istifadə etməklə ta qədimdən XIX əsrin əvvəllərinə qədər olan dövrdə insanların həyat tərzindəki dəyişiklikləri araşdırır və müxtəlif formalarda təqdim edir. İbtidai icma quruluşu, quldarlıq və feodal münasibətlərinin insanların həyatındakı təsirini mənbələrdən istifadə etməklə təqdim edir.	Həyat tərzi, ibtidai icma quruluşu, quldarlıq quruluşu, feodalizim quruluşu, Azərbaycan tarixinə dair mənbələr.

2. Tarixi məkan		
Standartlar	**Şərhlər**	**Açar sözlər**
2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	Müxtəlif tarixi dövrlərdə Azərbaycanın əlverişli geosiyasi mövqeyə malik olduğunu, qədim dövlətçilik ənənəmizin başladığı dövrdən mövcud olmuş Azərbaycan torpaqlarının əhəmiyyətini qiymətləndirir. Həmçinin Azərbaycan torpaqlarının şimalda Dərbənddən başlamış cənubda Zəncan, Qəzvin, Həmədan bölgələrinə qədər çatdığını, şərqdə Xəzər dənizindən başlayaraq qərbdə Borçalını, Göyçə mahalını, İrəvanı və Urmiya gölünün sahillərini əhatə edən əlverişli bir ərazidə yerləşdiyini dəyərləndirir.	Azərbaycanın geosiyasi mövqeyi, Azərbacanın əlverişli təbii-coğrafi şəraiti, tarixi torpaqlarımız.
2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.	Müxtəlif tarixi dövrləri, məsələn, Manna dövlətinin yaranmasından xanlıqların mövcud olduğu dövrədək geniş bir zaman kəsiyini təhlil etməklə Azərbaycanın geosiyasi mövqeyinə, baş vermiş dəyişikliklərə dair qrafik və diaqramlar tərtib edir.	Azərbaycanın dövlətləri, geosiyasi mövqeyi, təsərrüfat həyatı, qrafik və diaqramlar.

3. Dövlət		
Standartlar	**Şərhlər**	**Açar sözlər**
3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Qədim tarixə malik Azərbaycan xalqının dövlətçilik ənənələrini qorumasını, inkişaf etdirməsini və təkmilləşdirməsini, tariximizin müəyyən dövrlərində müxtəlif səbəblər üzündən müvəqqəti olaraq müstəqilliyini itirməsini, torpaqları başqa imperiyaların tərkibinə qatılmış olsa da, şərait yarandıqda onu yenidən bərpa etməsini, lakin dövlətçilik ənənələrinin qorunub saxlanılmasını dövr baxımından qiymətləndirir. İlkin dövlət qurumlarının mövcudluğundan xanlıqların yaranması dövrünə qədər olan özünəməxsus xüsusiyyətlərini dəyərləndirir.	Azərbaycan xalqının dövlətçilik ənənələri, tariximizin müəyyən dövrləri, ilkin dövlət qurumları, xanlıqların yaranması.
3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	Müxtəlif dövrlərdə Azərbaycanın daim böyük dövlətlərin maraq dairəsində olmasını, bu maraq dairəsinə cavab verəcək mövqeyin nümayiş etdirilməsini qiymətləndirir. Azərbaycan ərazisində mövcud olan dövlətlərin diplomatik münasibətlərini şərh edir.	Diplomatik münasibətlər, Azərbaycanın mövqeyi, müxtəlif dövrlər.
3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.	Azərbaycan tarixinin müxtəlif dövrlərini araşdıraraq ölkəmizdə sosial-iqtisadi proseslərin inkişafına dair qrafik və diaqramlar tərtib edir.	Sosial-iqtisadi proseslər, qrafik və diaqramlar, müxtəlif dövrlər.

4. Şəxsiyyət		
Standartlar	**Şərhlər**	**Açar sözlər**
4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas,-Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dövr baxımından dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə (I Tutmos, Hammurapi, I Dara, Mete Xaqan, İsgəndər, Solon, Yuli Sezar, Attila, Məhəmməd Peyğəmbər, Mahmud Qəznəvi, Böyük Karl, Çingiz xan, Fateh II Mehmet, Əmir Teymur, I Pyotr, Corc Vaşinqton, III Səlim və b.) dövlətçiliyin bərpası, inkişafı və qorunması, siyasi, iqtisadi, sosial və mədəni sahədə həyata keçirdiyi tədbirlər baxımından müqayisə edir və dəyərləndirir.	Görkəmli tarixi şəxsiyyətlər, I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar.
4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır.	İnternetdən, ensiklopediyalardan, tarixi əsərlərdən, ilkin sənədlərdən topladığı və təhlil etdiyi materiallara əsasən görkəmli tarixi şəxsiyyətlər haqqında plan əsasında referat və ya təqdimatlar hazırlayır.	Tarixi şəxsiyyətlər, referat və təqdimatlar, I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar.

5. Mədəniyyət		
Standartlar	**Şərhlər**	**Açar sözlər**
5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycan xalqının qədim mədəniyyəti olan bir xalq kimi inkişaf etməsini və formalaşmasını, IX əsrin ortalarından başlayaraq Azərbaycanda mədəniyyətin tərəqqi etməsini, Xilafətin sərhədləri daxilində mədəni oyanışda, müsəlman intibahı adlanan mədəniyyətin yaranmasında yaxından iştirak etməsini, kapitalizmin inkiaşfı nəticəsində mədəniyyətdə həlledici dəyişikliklər dövrünün başlanmasını, yeni tipli məktəb və mədəni-maarif müəssisələrinin, milli mətbuatın və teatrın yaranmasını, əhalinin qabaqcıl ziyalılarının xalqın milli şüurunun oyanmasında ideya istiqamətində təsirini və s. tarixi şərait və sosial-iqtisidai vəziyyət baxımından dəyərləndirir.	Qədim dövr mədəniyyəti, orta əsr mədəniyyəti, Türk-islam mədəniyyəti, tarixi şərait və sosial-iqtisadi vəziyyət.
5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Azərbaycan mədəniyyətinin Türk-islam mədəniyyətinin tərkib hissəsi olmasını konkret faktlarla əsaslandırır, Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri qiymətləndirir.	Türk-islam mədəniyyəti, Azərbaycan mədəniyyəti.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.	İnternetdən, ensiklopediyalardan, tarixi sənədlərdən, ədəbi nümunələrdən, muzey materiallarından və dərsliklərdən istifadə etməklə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin (təhsil, elm, incəsənət, ədəbiyyat və s. sahələrdə) inkişafına dair araşdırmalar aparır, nəticələrinə dair referat və təqdimatlar hazırlayır.	Azərbaycan mədəniyyəti, dünya mədəniyyəti, elm və mədəniyyət, görkəmli nümayəndələr, təhsil, elm və incəsənət, ədəbiyyat sahəsində nailiyyətlər, Türk-islam mədəniyyəti.

10-cu SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARININ İNTEQRASİYA İMKANLARI

Standartlar	Digər fənlərlə inteqrasiyası
1. Tarixi zaman	
1.1.Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.	
1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.	Ümumi tarix (Ü.t.) – 1.1.2. Azərbaycan dili (Az.d.) – 1.2.4.
1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrlərə dair xronoloji cədvəllər hazırlayır.	Ümumi tarix (Ü.t.) – 1.1.3.
1.2. Mənbələr üzərində tədqiqat bacarıqlarını nümayiş etdirir.	
1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Ümumi tarix (Ü.t.) – 1.1.2. Azərbaycan dili (Az.d.) – 1.2.4.
1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	İnformatika (İnf.) – 1.1.3. Ədəbiyyat (Əd.) – 1.1.4.
1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.	
1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Ümumi tarix (Ü.t.) – 2.1.1. Azərbaycan dili (Az.d.) – 3.1.2.
2. Tarixi məkan	
2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.	
2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	Kimya (Kim.) – 4.2.1. Ümumi tarix (Ü.t.) – 2.1.2. Coğrafiya (Coğ.) – 3.2.1.
2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.	Coğrafiya (Coğ.) – 3.2.4 Ümumi tarix (Ü.t.) – 2.1.2 Fizika (F.) – 2.2.1.

3. Dövlət	
3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.	
3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Ümumi tarix (Ü.t.) – 3.1.1. Coğrafiya (Coğ.) – 3.2.1
3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	Ümumi tarix (Ü.t.) – 3.1.1. Azərbaycan dili (Az.d.) – 3.1.2.
3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.	Ümumi tarix (Ü.t.) – 3.1.3. İnformatika (İnf.) – 4.1.2.

4. Şəxsiyyət	
4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.	
4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar və b.) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Ümumi tarix (Ü.t.) – 4.1.1. Azərbaycan dili (Az.d.) – 1.2.4.
4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.	Ümumi tarix (Ü.t.) – 4.1.2. İnformatika (İnf.) – 4.1.2. Azərbaycan dili (Az.d.) – 3.1.2. Kimya (Kim.) – 4.3.1. Ədəbiyyat (Əd.) – 3.1.2.

5. Mədəniyyət	
5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.	
5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Ümumi tarix (Ü.t.) – 5.1.1. Azərbaycan dili (Az.d.) – 3.1.2. Biologiya (B.) – 1.1.1.
5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Ümumi tarix (Ü.t.) – 5.1.2. Azərbaycan dili (Az.d.) – 2.2.3 Biologiya (B.) – 1.1.1 Kimya (Kim.) – 4.3.1.
5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.	Ümumi tarix (Ü.t.) – 5.1.3 Ədəbiyyat (Əd.) – 3.1.2 Kimya (Kim.) – 4.1.1 Azərbaycan dili (Az.d.) – 1.1.2, 2.2.3. İnformatika (İnf.) – 4.1.2.

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı mənbədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində qiymətləndirmə mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin ""Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın təsdiq edilməsi barədə" 13 yanvar 2009-cu il tarixli 9 nömrəli, ""Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nda dəyişikliklər edilməsi haqqında" 03 iyun 2010-cu il tarixli 103 nömrəli qərarları və onların icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq olunan "Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair Müvəqqəti təlimat"ı və "Təlimatda dəyişiklik edilməsi barədə" 7 iyul 2014-cü il 782 nömrəli əmri ilə tənzimlənmişdir.

Qiymətləndirmə üç istiqamətdə aparılır:

- Beynəlxalq;
- Milli;
- Məktəbdaxili.

Beynəlxalq qiymətləndirmə:

- TIMSS;
- PIRLS.
- PISA;

TIMSS (Trends in International Mathematics and Science Study) – Riyaziyyat və təbiət elmləri üzrə orta təhsilin keyfiyyətinin beynəlxalq qiymətləndirilməsi tədqiqatı. Məqsədi: Ölkələrinin təhsil siyasətlərini qiymətləndirib yenidən formalaşdırmaları məqsədilə tədqiqatçılara, məktəb kurikulumunu hazırlayanlara, təhsil siyasəti ilə məşğul olanlara dəstək vermək üçün təşkil edilmiş geniş miqyaslı beynəlxalq layihədir. Qurumların, kurikulumların, dərsdəki fəaliyyətlərin şagird nailiyyəti baxımından müqayisə edilməsinin əhəmiyyətinə ortaq inam yaradır. Başqa ölkələrin təcrübəsindən öyrənmə imkanı verir. 1995-ci ildən başlayaraq 4 ildən bir keçirilir. (1995, 1999, 2003, 2007, 2011)

PIRLS (Progress in International Reading Literacy Study) – Oxunun və qavramanın keyfiyyətinin beynəlxalq qiymətləndirilməsi tədqiqatı. İbtidai təhsilin 4-cü sinif şagirdlərinin (9 yaş qrupu) oxu qabiliyyəti, oxu vərdişləri, oxu qabiliyyətini qazandırmaq üçün müəllimlərin tətbiq etdikləri tədris metodları, dərs vəsaitlərinin qane ediciliyi, oxu qabiliyyətlərinin əldə edilməsində ailələrinin rolu qiymətləndirilir.

PISA (Programme for International Student Assessment) – Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) üç ildən bir 15 yaşlı şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsinə istiqamətlənmiş tədqiqatdır. 15 yaşlı şagirdlərin kurikulumda nəzərdə tutulan mövzuları (riyazi savad, təbiət elmlərində savad və oxu savadı) hansı səviyyədə öyrəndiklərini

deyil, müasir informasiya cəmiyyətində qarşılaşdıqları məsələlərin həllində əldə etdikləri bilik və bacarıqlardan istifadə edə bilmə qabiliyyətini ölçmək məqsədi daşıyır. İlk dəfə 2000-ci ildə, növbəti dəfə isə 2000, 2003, 2006, 2009, 2012-ci illərdə keçirilib.

Milli qiymətləndirmə:

Milli qiymətləndirmədə təhsillə bağlı bütün amillər tədqiqata cəlb edilir, şagird "Ana dili" və "Riyaziyyat" fənləri üzrə verilən suallarla yanaşı, onun təhsilə münasibətini, yaşadığı mühitin təhsilə təsirini öyrənən sorğulara cavab verir. Geniş və ətraflı təhlil aparmaq məqsədilə tərtib olunan sorğu kitabçaları şagirdlərin valideynləri, fənn müəllimləri və təhsil aldıqları məktəb direktorları üçün də hazırlanır. Nəticədə təhsilə təsir edən bütün amillər ən xırda təfərrüatına qədər təhlil edilmək imkanı qazanır. Milli qiymətləndirməyə cəlb edilən məktəblər həm ölkə paytaxtını, paytaxtın mərkəzini və şəhər ətrafını, həm də bütün bölgələri və ucqar dağ kəndlərini təmsil etməklə tipinə görə ibtidai, əsas və orta məktəbləri, lisey, gimnaziya və internatları əhatə edir. İndiyə qədər Azərbaycanda aparılan milli qiymətləndirmə seçmə üsuluna əsaslanmışdır.

Məktəbdaxili qiymətləndirmə:

- Diaqnostik;
- Formativ;
- Summativ.

Əslində, bunlar yeni qiymətləndirmə sisteminə daxil olan və bir-birindən asılı olmadan fəaliyyət göstərən alt sistemlərdir. Onların arasında ən əhatəlisi və əhəmiyyətlisi məktəbdaxili qiymətləndirmədir. Məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir.

Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:

- Təlim nəticələrinin standartlarının mənimsənilməsi;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdin güclü və zəif cəhətlərini müəyyən etmək;
- Şagird nailiyyətini dəyərləndirmək;
- Şagirdin nəyə nail olduğuna əmin olmaq;
- Şagirdin gələcək uğurlarının maksimallaşdırılması.

Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsinin növləri:

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;

- təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növ üzrə həyata keçilir:

- diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi);
- formativ (irəliləmə və geriləmələrin izlənməsi);
- summativ (yekun).

Diaqnostik qiymətləndirmə:

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirməklə müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. O öyrədənin təlim strategiyasını müəyyənləşdirməsində əvəzolunmaz rola malikdir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır. İlkin səviyyənin dəyərləndirilməsi zamanı müəllim aşağıda təqdim olunan konkret məzmunlu suala cavab tapmağı qarşısına məqsəd qoymalıdır:

Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi?

Həyata keçirilən qiymətləndirmə hər ilin şagirdə bəxş etdiyi xüsusiyyətlərə görə tamam başqa məzmun kəsb edir. Sinifə qədəm qoyan məktəblinin ilkin səviyyəsinin dəyərləndirilməsi digərlərindən kəskin şəkildə fərqlənir, şagird nailiyyətlərinə görə deyil, inkişaf sahələrinə (şəxsi inkişaf, sosial-emosional inkişaf, fiziki inkişaf, idraki inkişaf) uyğun olaraq qiymətləndirilir. Bu həmin şagirdlərlə iş zamanı müəllimə pedaqoji fəaliyyətini tənzimləməyə, planlaşdırmağa yardım edir. Prosesin reallaşdırılmasında üsul və vasitələrin seçimi birbaşa müəllimdən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, onlardan siniflər üzrə istifadə eynilik təşkil edə bilməz. Təlimə başlanılmazdan öncə aparılan səviyyə müəyyənetmə ilə ilin davamında, yeri gəldikcə aparılan diaqnostik qiymətləndirmə məzmunca fərqlənir. Məhz bu səbəbdən həmin üsul və vasitələrin seçimi müəllimdən xüsusi diqqət və yaradıcılıq tələb edir. Məsələn, aşağı sinifdə diaqnostik qiymətləndirmə aparılarkən daha çox tapşırıqvermə, müsahibə, valideynlər və müəllimlərlə əməkdaşlıq üsulundan, çalışma, müəllimin qeydiyyat vərəqi, söhbət və müəllimin sorğu vərəqi vasitələrindən istifadə olunursa, digər siniflərdə uyğunluq aşağıdakı formada tənzimlənir: üsullar – şifahi sual-cavab, yazı, oxu, tədqiqat, test, sorğu, özünüqiymətləndirmə, rollu oyunlar; vasitələr – müəllimin müşahidə vərəqləri, bacarıqlar üzrə qeydiyyat vərəqi, imla, inşa, ifadə, məsələ, misal həlli, yoxlama yazı işləri, mətnlər, ayrı-ayrı şagirdlərin hazırladığı layihə, test tapşırıqları, ayrı-ayrı şagirdlərin hazırladığı sorğu vərəqləri, özünüqiymətləndirmə vərəqləri, meyar cədvəli. Şagird nailiyyətlərinin diaqnozunun digərlərindən əsas fərqi müəllimin əvvəlki sinfin təlim standartlarından çıxan məqamları ön plana çəkə bilməməsidir.

Diaqnostik qiymətləndirmə ilə bağlı bir məqamı xüsusi vurğulamaq lazımdır: onun nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yalnız müəllimin şəxsi qeyd dəftərində öz

əksini tapır, yekunlar barədə isə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır.

O, formativ və summativ qiymətləndirmələr üçün bazis, zəmin rolunu oynayır. Düzgün diaqnoz nəticəsində sonrakı fəalliyyətin aspektləri konkret olaraq müəyyənləşir.

Formativ qiymətləndirmə:

Formativ qiymətləndirmə şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqları mənimsəməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır, dərsi müşayiət edən proses kimi qəbul olunur. İrəliləmə və geriləmələrin izlənməsi zamanı müəllim konkret məzmunlu bir sualı özlüyündə cavablandırmağı qarşısına məqsəd qoymalıdır: Məktəblilər "standartların mənimsənilməsinə doğru kifayət qədər irəliləyə bilirlərmi?"

Yaxın keçmişə qədər uşağının məktəbli kitabçasında rəqəmli qiymət görməyə öyrəşən valideynin formativ dəyərləndirmənin mahiyyətini öz məzmununda dərk etməsi məsələsi hələ də müasir qiymətləndirmənin problemi olaraq qalır. Bunun həlli müəllimin pedaqoji ustalığından asılıdır. Prosesin düzgün tənzimlənməsi həm şagird, həm müəllim, həm də valideyn üçün əlverişlidir. Yeni sistemin tətbiqinə qədərki dövrdə təhsilalan gündəlikdə aşağı qiymət gördükdə onun təlimə marağı azalır və dərsdən uzaqlaşırdı. "Qiymətsiz" qiymətləndirmə isə müəllim və valideynin birlikdə fəaliyyət göstərməsi ilə bu tip problemlərin aradan qalxmasına zəmin yaradır və şagirdin irəliləməsini təmin edir. Belə ki, məktəbli kitabçasında qeyd olanan "tarixi faktları şərh edir" ifadəsi (verbal dəyərləndirmə) özlüyündə hər üç tərəfin qarşılıqlı əlaqəsinin düzgün qurulmasına təkan verir, çatışmazlıqların aradan qaldırılmasına zəmin yaradır.

Formativ rəsmi qiymətləndirmə olmadığından nəticələr məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və ya simvollardan, "mənimsəyir", "mənimsəmir", "bilir", "bilmir", "yaxşı", "orta", "zəif" və sair bu kimi ifadələrdən istifadə edilmir. Müəllim formativ qiymətləndirmədə şagirdin fəaliyyətini bütün dərs boyu izləyir.

Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.
- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır. Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.

"Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması barədə Təlimat"ın 3.3. bəndinə uyğun olaraq, şagird bacarığa yiyələnməni müəyyən məzmun üzərində icra edir. Bacarığa yiyələnmənin məzmunla vəhdətdə qiymətləndirilməsi müəllimin öz yaradıcılığının məhsulu olmalıdır. Verilən nümunələrdə müəllim şagirdlərin fəaliyyət səviyyələri ilə bağlı qeydlərini məzmun üzərində yazılı izah edə bilər.

Summativ qiymətləndirmə:

"Ümumi təhsil müəssisələrində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi Qaydaları"nın layihə variantında göstərilir ki, summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla və şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Bu zaman müəllim özlüyündə belə bir sualı cavablandırmağı bacarmalıdır: "Şagirdlər verilmiş standart qrupunda müəyyən edilmiş məqsədlərə çatırlarmı?"

Summativ qiymətləndirməni aparmaq üçün müəllim aşağıda qeyd edilən bilik və bacarıqlara malik olmalıdır:

- summativ qiymətləndirmənin tətbiqi bacarığı;
- qiymətləndirmə standartlarının mahiyyətini nümunələrlə şərh etmək;
- qiymətləndirmə standartlarından istifadə yollarını bilmək.

Summativ qiymətləndirmə kiçik və ya böyük olur.

Kiçik summativ qiymətləndirmə bəhs və ya bölmələrin sonunda bir dərs saatı və ya dərs saatının bir hissəsi müddətində aparılır. Onun keçirilməsi üçün vaxtı da fənni tədris edən müəllim təyin edir və asan, orta, çətin olmaqla qiymətləndirmə vasitələrini hazırlayır. Asan tapşırıqlar idrakın bilmə mərhələsinə aid olub məktəblinin hər hansı bir məlumatı bilməsini və yadda saxlamasını ölçür. Orta səviyyəli tapşırıqlar idrakın anlama, tətbiq və təhlil mərhələsinə aid olub şagirdin səbəb-nəticə əlaqələrini anlamaq, tətbiq etmək, müqayisə etmək və fərqləndirmək kimi bacarıqlarını qiymətləndirir. Çətin səviyyəli tapşırıqlar idrakın sintez və dəyərləndirmə mərhələsinə aid olub öyrənənin sintez etmək, qarşılaşdırmaq, dəyərləndirmək, qərar qəbul etmək bacarıqlarını ölçür.

Böyük summativ qiymətləndirmə isə yarımillərin sonunda həyata keçirilir. Təhsil Nazirliyinin qiymətləndirmə ilə bağlı verdiyi müvəqqəti təlimata dəyişikliklərlə əlaqədar olaraq BSQ-nin keçirilməsi təhsil müəssisələrinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi qiymətləndirmə vasitələrindən istifadə etməklə fənni tədris edən müəllim tərəfindən aparılmalıdır.

Yekun qiymətləndirmə təhsil səviyyələrinin sonunda buraxılış imtahanları şəklində keçirilir.

Summativ şagird nailiyyətinin rəsmi qiymətləndirilməsidir, bu da onu digərlərindən fərqləndirən əsas cəhətdir.

Şagird nailiyyətlərinin dəyərləndirilməsinin ən səmərəli və optimal mexanizmi olaraq "portfolio" (hərfi mənada, ingilis dilindən tərcümədə portfel – mühüm sənədlər üçün qovluq) sistemindən istifadə edilir. Kurikulumun tətbiqi ilə əlaqədar bütün siniflərdə hər bir şagirdin belə qovluğu mövcuddur.

“Portfolio”nun tərkibinə daxildir:

- qiymətlər;
- şagirdlərin dərs fəaliyyəti, əhvali-ruhiyyəsi, iş qabiliyyəti, yaşıdları və yaşlılarla münasibəti üzərində gündəlik müşahidələr;
- meydana çıxan problemlərin təsviri və təhlili;
- müəllimin bu şagirdə fərdi yanaşmağa düzəlişlər etməsi haqqında onun təliminin fərdiləşməsi istiqamətləri barədə qeydləri və proqnozları;
- valideynlərin məktəblə əlaqələrinin qeydiyyatı, müəllimin onlarla müzakirə etdiyi mövzular, şagirdin ailə şəraiti barədə qeydlər;
- psixoloqun tədqiqatların nəticələri əsasında rəyi.

Beləliklə, aparılmış tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, müasir qiymətləndirmə sistemi bütövlükdə təhsildəki nailiyyətlər və nəticələr haqqında əsaslı fikir yürütməyə imkan verir və prosesin hansı dərəcədə uğurlu olduğunu müəyyənləşdirmək üçün meyar rolunu oynayır.

Qiymətləndirmənin reallaşdırılmasında ““Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 saylı 13 yanvar 2009-cu il tarixli qanunu hüquqi əsas kimi götürülür.

“Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nın 1.3. bəndində (1.3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər) mövcud problemlərdən biri kimi qiymətləndirmə vasitələrinin texniki keyfiyyətlərinə diqqət yetirilməməsi və qeyri-standart vasitələrdən istifadə olunması göstərilir. Bu da məsələyə diqqətin təzahürü kimi dəyərləndirilməlidir.

Konsepsiyanın 1.4. (1.4. Konsepsiyanın yaradılması üçün zəruri səbəblər) bəndində isə onun yaradılmasını labüd edən səbəblər sırasında vasitələrin hazırlanması ilə bağlı əlavələr edilib: “Təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən məktəbdaxili qiymətləndirmə sisteminin yaradılması məqsədilə müasir məzmun standartlarına cavab verən yüksəkkeyfiyyətli qiymətləndirmə vasitələrinin hazırlanması, təhsil pillələri üzrə buraxılış imtahanları üçün müvafiq prosedurların daha ədalətli və şəffaf tətbiq edilməsi və bu məsələlərin tənzimlənməsi üçün normativ hüquqi bazanın yaradılması”.

“Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması” adlı 1.8. bəndinin ikinci hissəsi isə işin tənzimlənməsi istiqamətini tam aydın şəkildə təqdim edir.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində onların məqsədəuyğunluğu (məhz "nəzərdə tutulanı" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);
- səmərəlilik üçün hər sinif üzrə nisbətən az (<10) və nisbətən çox (>10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;
- yekunda (summativ) bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi;
- yekunda (summativ) bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi (1-ci səviyyə üzrə suallar 20%, 2-ci səviyyə üzrə suallar 30%, 3-cü səviyyə üzrə suallar 30%, 4-cü səviyyə üzrə suallar 20%).

Müasir qiymətləndirmə vasitələrinin hazırlanmasını, nəticələrin təhlili üsullarını və hesabatlar hazırlanması qaydalarını öyrənmək də (4.1. Beynəlxalq qiymətləndirmə Proqramının əsas məqsədləri) Konsepsiyada öz əksini tapmışdır.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəb rəhbərliyi tərəfindən təsdiq edilir.

Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin hansı növünün aparılması müəyyənləşdirilməlidir, yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə (həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə), onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun.

Diaqnostik qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr:

- Çalışmalar;
- Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq);
- Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq);
- Formativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr;
- Müşahidə vərəqləri;
- Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi;
- Çalışmalar;
- Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq);
- Dinləmə üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli;
- Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası;
- Meyar cədvəli;
- Test tapşırıqları;
- Özünüqiymətləndirmə vərəqləri.

Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr:

- Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

Hazırda test tapşırıqları qiymətləndirmə vasitəsi kimi genişmiqyaslı tətbiq olunsa da, müəllim diaqnostik, formativ, hətta summativ qiymətləndirmədə yalnız bir üsula məxsusi aludəçilik göstərməməli, şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, məntiqi təfəkkürünü, müstəqil düşünmə qabiliyyətini inkişaf etdirən üsullardan – layihə (qiymətləndirmə vasitəsi – şagirdlərin təqdimatı və müəllimin tərtib etdiyi meyar cədvəli), şifahi sorğu (qiymətləndirmə vasitəsi – şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), yoxlama yazı işlərindən (imla, inşa, esse, məsələ və misal həlli) də istifadə etməlidir.

Test tapşırıqlarının yalnız davamlı olmamaqla, yeri gəldikcə tətbiqi tövsiyə olunur. O cümlədən testlərin hazırlanması məsələsinə də ciddi diqqət yetirilməlidir. Testlərin hazırlanmasına qoyulan tələblər:

- Psixometrik tələb;
- Metodoloji tələb.

Bütün qeyd olunan fikirlər nəzərə alınaraq Azərbaycan tarixi fənni üzrə test planını təqdim edirik:

AZƏRBAYCAN TARİXİ ÜZRƏ TEST PLANI									
Mətnlər	**Bacarıqlar**								
	Fərqləndirmə	Əlaqələndirmə	Nümunəgöstərmə	İzləmə	Xülasələtmə	Şərh vermə	Müqayisələtmə	Təxminetmə	Qruplaşdırma
Məlumatlandırıcı mətn	ÇS 1 sual	DY 1 sual			AC 1 sual	AC 1 sual	ÇZS 1 sual		
Mənbə	ÇZS 1 sual				DY 1 sual			ÇS 1 sual	
Xronologiya									AC 1 sual
ÇS = Çoxseçimli DY = Doğru-Yanlış ÇZS = Çarpazseçimli AC = Açıq cavablı tapşırıq									

Azərbaycan tarixi üzrə testlər hazırlanarkən aşağıdakı cəhətlər nəzərdə tutulmalıdır:

- Məlumatlandırıcı mətndə obyektiv və subyektiv ifadələri ayırd etmək;
- Mətndə açıq verilmiş situasiyalar üçün səbəb-nəticə əlaqələrinin qurulması;
- İnformasiyaya şərhlər vermək;
- Mətn içində verilmiş dolayı məlumatlara əsaslanaraq səbəb-nəticə əlaqəsi qurmaq;
- Mətndə verilmiş sətiraltı məlumatlardan nəticə çıxarmaq;
- Mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq yer, zaman, şəxslər və bunlarla bağlı amilləri müqayisə etmək;
- Mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq önəmli olan faktları ayırd etmək;
- Mətndə dolayı ifadələrlə verilmiş məlumatları birləşdirərək ümumiləşdirmələr aparmaq;
- Sətiraltı verilən mətnin bütünündən çıxış edərək fərqli yanaşma ifadə edən cümlələri təxmin etmək.

"Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat"ın 4.15. bəndinə (Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir) əsasən, hazırlanmış test üzrə qiymətin verilməsi aşağıdakı cədvəl üzrə həyata keçirilir:

№	Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı	Şagirdin qiyməti
1	(0% – 40%)	2 (qeyri-kafi)
2	(40% – 60%)	3 (kafi)
3	(60% – 80%)	4 (yaxşı)
4	(80% – 100%)	5 (əla)

Öncəliklə qeyd edək ki, nümunələr hazırlanarkən konkret istiqamətlərə diqqət edilməlidir, bu, uyğunluğu təmin etmək üçün çox vacibdir:

- Tapşırıq yalnız bir idraki prosesi ölçürmü?
- Tapşırıq nəzərdə tutulan idraki prosesi ölçürmü?
- Tapşırıqda yoxlanmaq istənilən xüsusiyyətə arzuolunmaz amillər qarışdırılmayıb ki?
- Tapşırığın növü ilə yoxlanılan bacarıq arasında uyğunluq varmı?
- Tapşırığın növləri düzgün seçilibmi?
- Tapşırığın növlərini özündə əks etdirən sxemə əsasən məqsədəuyğun olaraq seçim etmək olar.



Açıq cavablı tapşırıq

Cavabı məhdudlaşdırılmış:

Şagirddən cavabın keyfiyyət, uzunluğu və ya quruluşuna dair məhdudiyyət qoyması tələb olunur. Yüksək idraki bacarıqların nümayiş etdirilməsinə imkan verir (tətbiq, analiz, sintez, qiymətləndirmə, təşkil etmə, orijinal yanaşma və yaradıcılıq).

Cavabı məhdudlaşdırılmamış:

Cavabın keyfiyyəti və uzunluğu baxımından şagirdlərə sərbəstlik verilir. Şagird özü fikirləşib yazmalıdır. Cavablara məhdudiyyət qoyulmur. Cavabları "tamamilə doğru", "tamamilə yanlış" kimi təsnif etmək, çətinlik səviyyəsini təyin etmək müşküldür. Təsadüfi uğur ehtimalı aşağıdır.

Qısacavablı tapşırıqlar:

Hər hansı bir mövzu ilə bağlı faktoloji bilikləri qiymətləndirmək üçün istifadə edilir.

Qapalı cavablı tapşırıq

Çoxseçimli tapşırıq:

Bir sual mətni və bu suala cavab qismində bir və ya bir neçəsi doğru, qalanları yanlış olan distraktordan ibarətdir. Həqiqi sual cümləsi vasitəsilə şagirdə sual verilə bilər. Bir mövzu, hadisə, vəziyyət, problem, xəbər, düşüncə və s. verilərək onunla bağlı sualın da soruşulması mümkündür.

Doğru-yanlış tapşırıq:

Tapşırıqda verilən mülahizənin "doğru" və ya "yanlış" olduğunun təyin edilməsidir.

Uyğunlaşdırma tapşırıqları:

Çoxseçimli və doğru-yanlış tipli tapşırıqların sintezidir. Cavablandırma prosesi iki dəst halında olan soruşulanlar və cavablar arasında doğruluq əlaqəsinin qurulmasına əsaslanır.

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN MEYARLARIN İŞLƏNİB-HAZIRLANMASI

Müəllim üçün ən çətini və eyni zamanda ən vacibi həm ayrı-ayrı şagirdlərin işini, həm də bütövlükdə kiçik qruplardakı işi kifayət qədər obyektiv qiymətləndirməyə imkan verən qiymətləndirmə meyarları tərtib etməkdir.

Qiymətləndirmə "qarşılıqlı əlaqə" yaratmalı, yəni şagirdlərlə müəllimlərin bir-birini yaxşı başa düşməsinə imkan yaratmalıdır. Buna görə, müəllim işlənib hazırlanmış qiymətləndirmə meyarları ilə şagirdləri də tanış etməlidir. Bundan əlavə, o xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda "əla", "yaxşı" və "kafi" qiymət meyarlarını müəyyənləşdirsin, sonra siniflə birlikdə bunları müzakirə etsinlər.

Düzgün tərtib edilmiş qiymətləndirmə meyarları obyektiv qiymətləndirməyə kömək etməlidir. Bu meyarların əsasında müəllimlər bu və ya digər şagirdin işini eyni mövqedən qiymətləndirə bilərlər.

Şagirdlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim üçün çox faydalıdır. Özünüqiymətləndirmə prosesi, məsələn, sorğu vərəqləri və anketlərin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir, belə ki, bu onlara öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağı, özlərində obyektivlik hissini tərbiyə etməyi, öz münasibətlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir. Bu halda özünüqiymətləndirmə və kənardan verilən qiymətlər arasındakı fərq qrup və fərd üçün zəngin informasiya mənbəyi rolunu oynaya bilər.

Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən və müəllimin verdiyi qiymətin toplanmasından yarana bilər.

Qiymətləndirmənin müxtəlif üsul və formaları:

Aşağıda qruplardakı işin, təqdimatda iştirakın və s. qiymətləndirilməsinin bəzi forma və meyarları, habelə fəal təlim metodlarının tətbiqi ilə keçən dərslərdə müəllimin öz şagirdlərinin özünüqiymətləndirməsi üçün istifadə etməli olduğu vərəqlər göstərilib. Müəllimlər öz qiymətləndirmə sistemlərini yaradarkən bunlardan tövsiyə qismində istifadə edə bilərlər.

Hər bir sinfin, məktəbin özünəməxsus cəhətlərini nəzərə almaqla müəllimlər mövcud meyarları müxtəlif variantlarda tətbiq edə, onlara əlavələr edə və öz istədikləri kimi dəyişdirə bilərlər.

Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi:

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

a) İnformasiyanın təqdim edilməsi:

- Həmişə dəqiqdir – 5
- Əsasən dəqiqdir – 4
- Kifayət qədər dəqiq deyil – 3
- Qeyri-dəqiqdir – 2
- İnformasiya yoxdur – 1

b) İnformasiyanın təhlili aşağıdakı meyarlar üzrə qiymətləndirilə bilər:

empirik səviyyə: şagird hadisələri təsvir edir, lakin onların mahiyyətini başa düşə bilmir;

nəzəri səviyyə: daha yüksək səviyyədir, belə ki, bu halda şagird nəinki hadisəni təsvir edir, həm də hadisələrin mahiyyətini izah edir və nəticə çıxarmağı bacarır.

Dəyərlərin qiymətləndirilməsi:

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki insan hüquqları dəyərlərinin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz.

Ola bilər ki, bu dəyərlər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazımdır. Buna görə, müəllim qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya başqa sözlə desək, "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirilməlidir.

a) "Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarları:

- Şagird yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyə bilirmi?
- O, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?
- O, müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarırmı?
- O, yeni faktlarla əlaqədar öz fikrini dəyişirmi?
- O hər kəs barəsində ədalətli fikir yürüdürmü?
- O, məsələnin bütün cəhətlərini nəzərdən keçirirmi?
- O, stereotip və qərəzli rəylərə meyil göstərirmi?

b) Dəyərlərin inkişafında özünüqiymətləndirmə:

Dərsin sonunda müəllim cədvəlləri paylayır və şagirdlərə aşağıdakı suala cavab verməklə cədvəli doldurmağı təklif edir:

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

Meyarlar	A – əla	B – yaxşı	C – kafi	D – qeyri-kafi
Başqalarına hörmət				
Başqalarına maraq				
Dinləmək bacarığı				
Başqalarının ehtiyaclarına humanist yanaşma				
Başqaları haqqında ədalətlə fikir yürütmə				
Əməkdaşlıq				
Hərəkət etməzdən qabaq düşünmək				
Düzlük				
Səmimiyyət				
Başqalarına kömək				
Səhvin etirafı				

Qruplarda işin qiymətləndirilməsi:

a) Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal (2-dən 5-ə qədər) verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıdakı cədvəl şəklində göstərilib:

əla qiymət (5) – şagird bu bacarığı həmişə nümayiş etdirdikdə; yaxşı qiymət (4) – tez-tez nümayiş etdirdikdə; kafi qiymət (3) – hərdən nümayiş etdirdikdə; qeyri-kafi qiymət (2) isə bu bacarığı, demək olar, heç vaxt nümayiş etdirmədikdə verilir.

Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər. Aya, rübə və ya yarımilliyə görə mövcud ümumi orta bal şagirdin qiyməti sayıla bilər.

Qrupda işləmək bacarığı	həmişə 5	tez-tez 4	bəzən 3	demək olar, heç vaxt 2
Qrupda şifahi müzakirələrdə iştirak edir.				
Başqalarının sözünü kəsmədən dinləyir.				
Qrupun digər üzvlərinin danışdıqlarını təkrar nəql edə bilir.				
Qrupun işi üçün zəruri olan tapşırıqları yerinə yetirir.				
Qrupun digər üzvlərini ümumi işə cəlb edir.				

b) Şagirdin öz işinə və qrupun fəaliyyətindəki iştirakına verdiyi qiyməti nəzərə almaq faydalıdır.

Şagirdin özünüqiymətləndirmə vərəqi

Ad .....

Tarix .....

Qrupun işində fəaliyyətinizi müvafiq bal ilə (1-dən 5-dək) qiymətləndirin:

- Tapşırığı başa düşdüm və başqalarına izah etdim.
- Başqaları ilə əməkdaşlıq edirdim.
- İşin müəyyən hissəsini yerinə yetirdim.
- Fəallıq göstərir və vaxtdan səmərəli istifadə edirdim.
- İdeyalarımı qrupla bölüşdüm.
- Mənbələrdən istifadə edirdim.

c) Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə qiymətləndirə bilərlər.

Qrupun özünüqiymətləndirmə vərəqi

1. Qrupun iş ovqatı necədir (bunu rənglə ifadə etmək olar)?

.....

2. Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bilibmi?

.....

3. Kimlər passiv, kimlər fəal olub?

.....

4. Qrupun işi hamını təmin edibmi?

.....

5. Qrup öz vəzifəsinin öhdəsindən gələ bilib, ya yox?

.....

Qrup təqdimatının qiymətləndirilməsi:

Təqdimatın hər bir növünün öz qayda və ənənələri var. Məsələn, şifahi təqdimatın qiymətləndirilməsi zamanı səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilərə diqqət edilməlidir:

biliklər: faktlar, problemlər, anlayışlar, ideyalar;

əqli vərdişlər: təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti;

kommunikativ vərdişlər: informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

a) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya əlavələr edilə bilər.

Meyarlar	IV səviyyə	III səviyyə	II səviyyə	I səviyyə
Əsas anlayışlar, problemlər, mövzular, ideyalar	Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir.	Yaxşı seçilir, tərifi və təsviri verilir.	Seçilir, tərifi verilir və təsvir edilir.	Seçilmir, və ya təsviri qarışıq verilir.
Faktlar, informasiya	Yanlışlıqlar yoxdur.	Kiçik yanlışlıqlar var.	Səhvlər var.	Yoxdur və ya qeyri-dəqiqdir.
Problemə aid göstəricilərin toplanması	Məntiqlə seçir və hər şeyi təşkil edir.	Məntiqlə seçir və bir hissəsini təşkil edir.	Problem üzrə az göstərici tapır.	Problem üzrə göstərilən tapşırıq çox qarışıqdır.
Nəticə çıxarmaq bacarığı	Göstəricilərə əsaslanır.	Göstəricilərə əsaslanan məlumatlı nəticələr çıxarır.	Yarımçıq nəticələr çıxarır.	Nəticələr yoxdur və ya dəqiq deyil.

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilmədikləri, yəni nə dərəcədə səylə öyrəndikləri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etdikləri ilə izah olunur.

4-cü və **3-cü səviyyələr:** şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər (müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.). Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

2-ci və **1-ci səviyyələr:** şagirdlər əsas anlayışları, problemləri izah edə, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onları nəzərə almırlar. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

b) Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır.

Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi

Qrupun üzvləri .....

Tarix .....

Təqdimatın adı .....

1-dən 5-dək ballar verin

- Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi .....
- Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi .....
- Hamı əlbir və ahəngdar işləyirdi .....
- Qrup bütün sinfi fəal olmağa sövq edirdi .....
- Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi.....
- Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi .....

Essenin qiymətləndirilməsi:

Esseni adi məktəb inşası kimi ənənəvi üsulla qiymətləndirmək olar. Müəllim aşağıda göstərilmiş meyarlardan da istifadə edə bilər:

- esse əsasında mövzunun mahiyyətinin tam açılması;
- faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- terminlərdən, faktlardan düzgün istifadə olunması;
- mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması, fikrin ardıcıllığı.

Diskussiyanın qiymətləndirilməsi:

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz fikirlərini təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

a) Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadə etmə bacarığı;
- mülahizələrin məntiqiliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı;
- sual vermək, diskussiya ilə bağlı rəqibin dəlillərini zəiflədən əks dəlillər tapmaq məharəti.

Mənfi ballar (1-dən 5-dək) aşağıdakı parametrlərlə ölçülə bilər:

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- başqa şəxslərə əngəl törədilməsi;
- şəxsiyyətə qarşı hücum (şəxsiyyətə toxunmaqla tənqid).

b) Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi

Ad .....

Tarix .....

Qrupda işləmək bacarığı	həmişə 5	tez-tez 4	bəzən 3	demək olar, heç vaxt 2	heç vaxt 1
Fəal iştirak edirdi.					
Tapşırıqları yerinə yetirirdi.					
Öz ideyalarını dəqiq izah edirdi.					
Başqalarını dinləyir və dəstəkləyirdi.					

Mən bugünkü diskussiyaya hazır gəlmişəm: HƏ YOX

FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ

İnteqrasiya müasir təlimin əsas prinsipi kimi öz aktuallığını qoruyub saxlamaqdadır. Tarix fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktivliyini təmin etmək üçün başlıca amildir. Ənənəvi təlimdə daha çox şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə şagirdlər onlara lazım olmayan məsələləri də öyrənməli olurlar. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlamaq, onlarda birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmağa köməklik göstərir.

İnteqrasiya necə həyata keçirilməlidir? İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında reallaşdırılır. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumatda əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi tarix fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Çünki ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Tarix fənninin tədrisi prosesində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfüqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfüqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;
- əlaqəli inteqrasiya;
- sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş inteqrasiya digər fənlərdə olduğu kimi, Azərbaycan tarixinin də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil pillələrində “Ümumi tarix” ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Azərbaycan tarixi fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqlarının və konsepsiyalarının sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, 10-cu sinifdə “Səfəvilər dövləti” və “Azərbaycan Sasani ağalığı dövründə” mövzuları bu qəbildəndir. Belə ki, Erkən Orta əsrlərdə Albaniya və Atrpopatena Sasanilər imperiyasının tərkibində olduğundan onların hər ikisində baş vermiş hadisə və təzahürlərdə oxşarlıq çoxdur. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir.

Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Əlaqəli inteqrasiya modeli "Ümumi tarixi" fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da öz növbəsində xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə malik olmaq və s. ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu da öz növbəsində fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) modelə çox vaxt “yuva” modeli də deyirlər. Azərbaycan tarixinin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi əsas diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara (sosial bacarıq, düşünmə bacarığı və məqsədyönlü bacarıq) yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim sasanilərin, ərəblərin və monqolların köçürmə siyasətini şagirdlərin diqqətində saxlamaqla yanaşı, köçürülmə siyasətinin doğurduğu demoqrafik, siyasi və iqtisadi problemlərin onlar tərəfindən müəyyənləşdirilməsinə, o dövrə aid sənədlərin təhlili əsasında “Azərbaycan torpaqlarına köçürülmələr: nəticə və reallıqlar” mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənlər arasında tətbiq olunur. Bu zaman Azərbaycan tarixinin ümumi orta və tam orta təhsil səviyyəsində Ana dili, Riyaziyyat, Ümumi tarix, Coğrafiya, Kimya, Biologiya və s. fənlər ilə inteqrasiyası mümkündür. Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək mümkündür:

- ardıcıl (sıralanmış model);
- ümumi (ortaq model);
- zəncirvarı (hörülmüş) model.

Azərbaycan tarixi fənninin Ümumi tarix fənni ilə inteqrasiyası daha çox ardıcıl (sıralanmış) modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, (bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır) əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaransın və eyni vaxtda öyrənilsin. Bu cür inteqrasiyanın həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun hökmən balanslaşdırılmalıdır. Bu zaman standartın standartla uyğunluğu mütləq nəzərə alınmalıdır. Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox tarix və ədəbiyyat

fənlərinin tədrisində mümkündür. İnteqrasiya olunmuş model, tarixin tədrisinin inteqrasiyası kurikulumun tələbinə görə fənlərarası standartların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fəndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib-ayırmaq nəticəsində yaranır.

TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- Təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- Məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- Məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- Məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);
- Məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);
- Hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçüləbilən olması;
- Təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.
- Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvarı şəkildə, iyerarxiya üzrə inkişafı əks etdirən formada yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri siniflendirən zaman asandan çətinə prinsipi nəzərə alınır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:
- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması

Təlim metodları seçilərkən şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipinə istinad olunmuşdur. Hərçənd ki, bu yaş qrupunda daha mürəkkəb metodlarla işləmək problem deyil, amma fərqli qavrama tiplərini nəzərə alaraq metodlar sadədən mürəkkəbə doğru çətinləşdirilmişdir. Metodlar seçilərkən və tapşırıqlar hazırlanarkən Hovard Qardner nəzəriyyəsi əsas götürülmüşdür. Bu nəzəriyyəyə görə, dərketmənin 8 üsulu var:

1. Linqvistik/söz
2. Məntiqi/riyazi
3. Vizual/məkan
4. Bədən/kinestik
5. Musiqi/səs
6. Fərdlərarası
7. Fərddaxili
8. Naturalistik/təbiət

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

Bilmə	Şagird
Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsidir. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır.	– istifadə olunan terminləri bilir; – konkret faktları bilir; – proseduru və metodları bilir; – əsas anlayışları bilir; – prinsipləri və qaydaları bilir.
Anlama	**Şagird**
Bu kateqoriya şagirdin öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə şəkildə yadda saxlanılmasından üstündür.	– prinsipləri, qaydaları və faktları başa düşür; – materialı öz sözləri ilə izah edir; – sxemləri, diaqramları izah edir; materialın izahı zamanı başqa anlayışlardan istifadə edə bilir; – əldə edilmiş biliklərdən yararlanaraq gələcəkdə əldə edilə biləcək nəticəni təsvir edir.
Tətbiq	**Şagird**
Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, ondan daha yüksək səviyyədə istifadə edilməsi lazımdır.	– yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir; – konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir; – prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir.

Təhlil	Şagird
Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsipləri daxildir. Bu zaman tədrisin nəticələri daha yüksək intellektual səviyyəyə uyğun olur, nəinki başadüşmə və tətbiq.	– gizli, gözə görünməyən təsəvvürləri açıqlayır; – məntiqi izahatda səhvləri və unudulmuşları görür; – faktla nəticələr arasında fərqi üzə çıxarır; dəlillərin əhəmiyyətini qiymətləndirir.
Sintez	**Şagird**
Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq yeni sxem və strukturların formalaşmasına imkan yaradır.	– kiçik yaradıcı xarakterli inşa yazır; – eksperimentin həyata keçirilmə planını təklif edir; – müəyyən problemin həlli və plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir.
Qiymətləndirmə	**Şagird**
Bu kateqoriya bu və ya digər materialın (bədii əsər, tətqiq materialı və s.) əhəmiyyətini qiymətləndirmə və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyaların şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyən olunması mümkündür.	– materialın məntiqi quruluşunu və nəticələrin faktlara əsaslanmasını qiymətləndirir; – bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir.

İNTERAKTİV TƏDRİS HAQQINDA ÜMUMİ MƏLUMATLAR

Məşhur Britaniya alimi Jon Raven tərəfindən şagirdlər arasında təhsil məqsədlərinin vacibliyi haqqında keçirilən test sorğusunun nəticələri göstərdi ki, təklif olunan 50 bənddən aşağıda qeyd olunanları oğlan şagirdlər birinci yerə qoymuşlar – özünəinam, təşəbbüs və islahatçılıq istedadlarını üzə çıxarmaq bacarığını formalaşdırmaq, əldə olunmuş bilik və vərdişlərdən yeni problemlərin həllində istifadə etməyi öyrətmək; müxtəlif məsələləri müzakirə etməyə və öz mövqeyini söyləməyə imkan yaradan diskussiya-dərslər keçirmək, xasiyyət və şəxsiyyətin formalaşmasına yardımçı olmaq. J.Raven tərəfindən qız şagirdlər arasında keçirilən test sorğusunun nəticələri isə belə olmuşdur – özünəinam, təşəbbüs və islahatçılıq istedadlarını üzə çıxarmaq bacarığı formalaşdırmaq, xasiyyət və şəxsiyyətin formalaşmasına yardımçı olmaq, əldə olunmuş bilik və vərdişlərdən yeni problemlərin həllində istifadə etməyi öyrətmək, müxtəlif məsələləri müzakirə etməyə və öz mövqeyini söyləməyə imkan yaradan diskussiya-dərslər keçirmək.

Testlərin nəticələrindən bəlli olur ki, şagirdlər heç də yalnız məktəbdə onlara təklif olunan biliklərə can atmırlar. Müəllimlər şagirdləri hazır bilik və ifadələri öyrənməyə, "əzbərləməyə" məcbur etməklə, sərbəst hərəkət və düşüncələrə həvəslərini öldürür, yuxarıda qeyd olunanları öyrənmək arzularını dəf edir, yeni bacarıq və vərdişləri əldə etmələrinə mane olur.

J.Ravenin müəllimlər arasında keçirdiyi eyni mövzulu testlər isə göstərdi ki, müəllimlər də şagird şəxsiyyətinin inkişafını çox mühüm sayırlar (hərçənd bu məqsədi yalnız "yaxşı davamiyyətli şagirdlər" üçün nəzərdə tutaraq qeyd ediblər). Lakin tədris məqsədlərinə nail olmağın müvəffəqiyyətliliyi haqqında onlar arasında keçirilən test sorğusu zamanı müəllimlərin rəsmi imtahanlara imkan daxilində yaxşı yardımçı olmağı birinci yerdə yekdilliklə qeyd olunmuşdur. Bu isə müəllimlərdə müəyyən ətalətin olduğuna dəlalət edir. Bu dilemmanın mövcudluğunu çoxları təsdiqləyir. Bununla belə, müəllimlər müəyyən mənada haqlıdırlar, çünki yuxarıda qeyd olunan bacarıq və vərdişlərin inkişafı üçün "akademik" məşğələlərin zərərinə daha çox vaxt ayrılarsa, şagirdlərin (məktəb) buraxılış və qəbul (ali məktəbə) imtahanlarında yüksək qiymətlər almaq şansı azalacaqdır.

Yuxarıda göstərilən məlumatlar nəinki Azərbaycanda, eləcə də bütün dünyada məktəb təhsil sisteminin əsaslı islahata ehtiyacı olduğuna dəlalət edir. Hazırda ölkəmizdə belə bir islahat aparılır. Bu islahat, əsasən, məktəblərdə şagirdlərə hazır bilik və bacarıqların verilməsinə deyil, onlarda faktlarla sərbəst işləmək, təhlil etmək və müstəqil nəticələr çıxarmaq bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə yönəlmişdir. İslahat şagirdlərin qiymətləndirilməsi sisteminə də toxunur və öyrənilmiş, "əzbərlənmiş" biliklərin aşkarlanmasını deyil, şagirdlərin sərbəst işləmək bacarıq və vərdişlərinin qiymətləndirilməsini əsas götürür.

Müəllimlər təklif olunan metodik üsullara və dərs modellərinə istinad edərək onları tədrisdə tətbiq edə və ya tarix dərsi üzrə öz dərs modellərini hazırlaya bilərlər. Qeyd

etmək lazımdır ki, müasir didaktikada mütləqləşdirilib digərlərinin zərərinə hər zaman və hər yerdə tətbiq edilə biləcək yeganə üsul və tədris modeli yoxdur. Buna görə də dərs aparılmasında üsul və model seçimi müəllimin öz öhdəsinə düşür, onun istək və təcrübəsindən asılı olur. Buradan belə bir nəticə çıxır ki, deyilən tövsiyələrə bir qədər yaradıcı yanaşmaq lazımdır. Tarixin tədrisi yaradıcılıqdır və müəllim şagirdlərin ürəklərinə və düşüncələrinə öz yolunu tapmalıdır.

Hazırda bizdə dərsin tipləri və strukturunda çox ciddi yerdəyişmə olmuşdur. Nə ənənəvi dərs üsulundan, nə də yeni dərs üsulundan geniş istifadə edilmir. Məktəblərdə, əsasən, ənənəvi dərs üsulunun pozulmuş variantından yararlanırlar. Yeni təlim metodları da hələ özünə möhkəm yer etməmişdir. Bunu biz öz müşahidələrimizə, təcrübəli və metodist müəllimlərin fikirlərinə istinadən söyləyirik.

TARİXİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODLARININ NƏZƏRƏ ALINMASI

Müstəqil Azərbaycan təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası üçün bu sahədə köklü dəyişikliklər, islahatlar gedir. Bu islahatların məqsədi demokratik cəmiyyət üçün sağlam düşüncəli, sərbəst fikir söyləmək qabiliyyətinə malik, ətrafda baş verən hadisələrə tənqidi yanaşmağı, münasibət bildirməyi bacaran gənclər yetişdirməkdir. Elm və texnikanın inkişafı, informasiya bolluğu böyüməkdə olan gənc nəslə imkan verir ki, hadisələrin məcrasında bilavasitə özləri iştirak etsin, baş verənlərdən nəticə çıxarmağı bacarsınlar. Onları bu sahədə düzgün istiqamətləndirmək isə məktəbin, müəllimlərin öhdəsinə düşür.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalıdır. Müasir şəxsiyyəti hafizənin gücləndirilməsinə və yalnız informasiya toplanılmasına yönəlmiş, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyil. Yəni ənənəvi təlim yaddasaxlama qabiliyyətinə əsaslanır, şagird materialın təhlilini, təsvirini, nəticələri və ümumiləşdirmləri hazır şəkildə alır. Həyatın belə bir dinamik inkişafında ənənəvi dərs metodlarından istifadə bugünkü məktəbliyə cansıxıcı, darıxdırıcı görünür, onların dərsə olan marağını azaldır. Beləliklə, məktəb dövründə həyat üçün gərəkli olan, əldə edilməli bilik və bacarıqlarda boşluq yaranır. Həmin vaxt ikincidərəcəli işlərə yönəldilir ki, bu da yaranmış boşluğu doldurur. Bu gün məktəblidə elmə marağı artırmaq, yaradıcı fəaliyyət bacarığı tərbiyə etmək, humanist dünyagörüşü, milli özünüdərk, vətəndaşlıq mövqeyi, milli dəyərlərə hörmət və məhəbbət hissi formalaşdırmaq günün ən aktual problemlərindəndir. Bu baxımdan əməkdaşlığa, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə əsaslanan yeni təlim metodları mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, biz bunu deməklə ənənəvi dərs metodlarını kölgədə qoymaq istəmirik. Böyük bir nəsil məhz bu metodlarla formalaşmış, cəmiyyətin inkişafında xüsusi rol oynamışdır. Sadəcə, həyatın elə məqamları, elə dövrləri var ki, hər bir cəmiyyət özünə lazım olan şəxsin formalaşmasını diktə edir. Bu gün bazar iqtisadiyyatına keçid, demokratik cəmiyyət qurulması hadisələri olduğu kimi qəbul etməyi deyil, ona tənqidi yanaşmağı, öz münasibətini bildirməyi bacaran sərbəstdüşüncəli, azadfikirli şəxsiyyətin yetişdirilməsini tələb edir.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə olunması məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsi ilə yanaşı, kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas vəzifələrindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır.

Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil düşünməyi, müstəqil bilik almağı və fərdi inkişaf bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirilməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsun. Bu cəhətdən interaktiv təlim metodları çox səmərəlidir.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü və standartlara uyğun olsun.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləmək lazımdır:

1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi.
2. Fəal dərsin mərhələləri.
3. Fəal dərsin strukturu.

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı, iş formalarının, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiq olunması zəruri hesab edilir. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır.

Mühazirə üsulu

Mühazirə üsulu məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Digər fənlərdə olduğu kimi, tarix fənninin tədrisində də bu üsuldan geniş istifadə edilir. Araşdırılacaq problemlə bağlı şağirdin təsəvvürünün formalaşdırılması üçün problemin həllinin qısa yolla izahı verilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyyə edilir:

- mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

Müzakirə

Tarix fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şıfahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Modelləşdirmə

Şagirdləri real hadisənin sadələşdirilmiş, lakin canlı nümunəsi olan mücərrəd və ya uydurma şəraitə (vəziyyətə, hadisəyə) çəkib gətirən metodik üsuldur.

Yaxşı modelləşdirmə şagirdlər qarşısında ciddi dilemma və problem qoyur ki, onlar bunu təklif edilmiş şəraitdə – sinif yoldaşları ilə birlikdə, gerçək həyatda rast gəlinən müəyyən rolları oynamaqla həll etməlidirlər. Beləliklə, sinif, bir növ, miniatür və ciddi hadisəyə – müzakirə, mübahisə və diskussiyalar üçün mövzunu özündə daşıyan əhvalata, tamaşaya çevrilir. Hadisə bölünmüş rollar vasitəsilə inkişaf etdirildiyindən modelləşdirmədə, müəyyən mənada, oyunun və tamaşanın bir çox cəhətləri müşahidə olunur. Lakin oyundan və həqiqi tamaşadan fərqli olaraq, modelləşdirmənin maraqlı cəhəti onda qeyri-müəyyənlik faizinin yüksək olmasıdır. Modelləşdirmə bu mənada daha sərbəstdir, belə ki, heç kəs əsl həqiqətdə son nəticəni görə bilmir, heç kəs deyə bilməz ki, əhvalat nə ilə bitəcək, çünki son nəticə, əsasən, rolların necə oynanılacağından asılı olur. Modelləşdirmə yalnız eskizi, rolun qısa təsvirini təklif edir, rolun ifaçısı bu müxtəsər məlumata əsaslanaraq öz həyat duyumunu yaratmalı, öz nöqteyi-nəzərini inkişaf etdirməlidir. Şagirdlər modelləşdirməyə başlayarkən inanırlar ki, konkret məqsədə nail ola biləcəklər, lakin çox vaxt başları oyuna qarışdığından ilkin məqsədi unudur, qarşılarına yeni məqsədlər qoyurlar. Artıq dediyimiz kimi, modelləşdirməni əyləncəli və maraqlı edən onun qeyri-müəyyənliyi, məchulluğudur, çünki ən yaxşı halda da nəticələri qabaqcadan yalnız qismən müəyyən etmək olur. Məhz bu bilinməzlik real həyata daha çox oxşayır, onu daha çox xatırladır. Bu da nəticələri qəti müəyyən edilmiş tamaşalar və ya oyunlarla müqayisədə modelləşdirmənin xeyrinə çox əsaslı dəlil ola bilər.

Modelləşdirmənin vəzifələri nədən ibarətdir?

Dərslərdə modelləşdirmədə müəllimin vəzifəsi aşağıdakılardan ibarət ola bilər:

- ✓ yaradıcı qabiliyyətləri və təxəyyülü inkişaf etdirmək üçün şagirdləri zəruri əsaslarla təchiz etmək;
- ✓ cütlük şəklində öz baxışlarını və dəyərləri müzakirə etmək üçün şagirdlərə sərbəst diskussiya təklif etmək;
- ✓ şagirdləri problemi tapmağa və onu real həyatı modelləşdirən şəraitdə həll etməyə həvəsləndirmək;
- ✓ şagirdlərə təhlil aparmaq və alternativ hərəkətləri qiymətləndirmək bacarığını aşılamaq;
- ✓ şagirdləri ictimai və ya qrup fəaliyyətinin tərkib hissəsi olan qərarların qəbul edilməsi prosesinə cəlb etmək;
- ✓ məşğələ ərzində qəbul edilmiş qərarlara yenidən baxmaq və təhlil etmək, habelə uydurma situasiyanı gerçək vəziyyətlə müqayisə etmək üçün şagirdlərə imkan yaratmaq.

Modelləşdirmə gerçək həyatı əks etdirən problem üzərində cəmlənməlidir. Bu cür nümunələri cari reportajlarda, sənədlərdə, tədqiqatlarda və digər mənbələrdə tapmaq olar. Mövzunu seçdikdən sonra bir neçə problemi müəyyənləşdirmək lazımdır, əks halda oyun maraqlı olmaması səbəbindən öz mənasını itirər. Oyun yerli şəraitə uyğunlaşdırılmaqla, rolların artırılması və ya ixtisar edilməsi, problemin əvəzlənməsi ilə dəyişdirilə bilər.

Diskussiya

Təlimin ən mühüm metodik üsullarından biridir.

Diskussiya müstəqil metodik üsul kimi, eləcə də fəaliyyətin digər növlərinə əlavə şəklində tətbiq edilə bilər. Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə fikirlərini söyləməklə öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli düşüncəyə dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır. Diskussiya mədəniyyəti olduqca vacib və əhəmiyyətli məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibət aşılamaqdır. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir. Belə ki, o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezası kimi çıxış edir.

Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, fərqli düşüncələrə dözümlülük və s.) nail olmaq üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Müəllim təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını şagirdlər özləri tərtib etsinlər. Bu zaman onlar "əqli hücum" üsulu ilə diskussiyanın uğurla aparılmasına kömək edə biləcək təkliflər irəli sürə bilərlər.

Qaydalar aşağıdakılardan ibarətdir:

- ✓ eyni vaxtda yalnız bir nəfər danışa bilər;
- ✓ danışanı dinləmək;
- ✓ sözü kəsməmək;
- ✓ sinif yoldaşının fikrinə tənqidi münasibət bildirmək;

- ✓ reqlamenti nəzərə almaq;
- ✓ heç kəsi məsxərəyə qoymamaq;
- ✓ söz demək istədikdə əl qaldırmaq və s.

Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə divardan asa bilər. Onların dərs ilinin axırına qədər saxlamaq olar ki, sonralar istinad və ya əlavə və düzəlişlər etmək mümkün olsun.

Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:

- ✓ düzgün təriflər, aydın mülahizələr;
- ✓ yadda qalan və aktual misallar;
- ✓ sanballı dəlillər və analogiyalar;
- ✓ ümumiləşdirmə aparma və yekun vurma bacarığı;
- ✓ başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı düzgün olmayan hərəkətlərə mülahizələrdə təkrarlar, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri suçlama, şəxsi təhdid və s. kimi hərəkətlər aid edilə bilər.

Akvarium

Diskussiya vərdişlərini inkişaf etdirmək üçün ən yaxşı üsullardan biri akvariumdur. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil. Başlıcası, problemin müzakirəsində irəliləmək və düzgün diskussiya aparmaq vərdişlərini nümayiş etdirməkdir.

Bütün qaydalar diskussiyadan öncə ciddi şəkildə müəyyən edilməlidir (bax: “Diskussiya”).

“Akvarium”un keçirilməsinin 1-ci variantı:

Şagirdləri 2 qrupa bölürlər. Bir qrup stullarda əyləşərək daxili dairə təşkil edir: bu iştirakçılar müəllimin təklif etdiyi problemi müzakirə edəcəklər. Digər qrup xarici dairədə stullarda oturur: onlar diskussiyanı müəyyən qaydalar üzrə keçib-keçmədiyini müşahidə edəcəklər. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, “xarici dairə”nin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

Akvariumun keçirilməsinin 2-ci variantı:

“Daxili dairə”nin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir, lehinə olan dəlilləri irəli sürürlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər – onlar dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks-dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. İndi onlar diskussiya apararaq əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər.

Debatlar

Diskussiyanın yalnız bir-birlərinə opponentlik (etiraz) edən tərəflərin arasında keçirildiyi mübahisə, müzakirə, rəy mübadiləsi kimi məlum formalarından fərqli olaraq, debatlar opponentini deyil, üçüncü tərəfi inandırma prosesini nəzərdə tutur. Üçüncü tərəfin vəzifəsi hər bir tərəfin mövqeyini dinləyib öz seçimini etməkdir. Bu seçim yalnız bir şeyə – "bu tərəf məni inandırdı!" təsdiqinə əsaslanır. Beləliklə, debatlarda iştirak edən tərəflərin əsas məqsədi öz dəlil və sübutlarının köməyi ilə üçüncü tərəfi öz mövqeyinin düzgünlüyünə inandırmaqdır. Bu prosesin yekunları əsasında ona qərarların qəbulu kimi də baxmaq olar.

Debatların əsas ünsürləri:

1. Mövzu. Debatlarda mövzu təsdiq formasında ifadə edilir. Mövzu qısa ifadə edilən zaman aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- ✓ mövzu aktual olmalıdır;
- ✓ mövzu maraqlı olmalıdır;
- ✓ mövzu "münaqişəli" olmalıdır, məsələn, əgər "evtanaziyanın leqallaşdırılması zəruridir" (A mövqeyi) fikri mövcuddursa, bu o deməkdir ki, əks fikir də mövcuddur – "evtanaziyanın leqallaşdırılması zəruri deyildir" (V mövqeyi);

mövzu elə ifadə edilməlidir ki, heç bir mövqeyin üstünlüyü hiss edilməsin;

mövzu nə çox məhdud, nə də çox geniş olmalıdır.

Debatlara daxil olan təlim ünsürləri və ya təhsil texnologiyası:

- ✓ mövzunun araşdırılması;
- ✓ əsas anlayışlarla iş;
- ✓ dəlillərlə iş;
- ✓ sualların hazırlanması və ya "çarpaz suallar";
- ✓ natiqlik məharəti;
- ✓ hakimlik və ya qərarlrı necə qəbul etməli?!

2. Debatda rollar. Debat iştirakçıları və ya debatçılar çıxış zamanı spiker adlanırlar. Debatlar prosesində çıxışların vaxt rejimini təmin edən "taym-kipper"lər iştirak edirlər. Debatlar üçüncü tərəfi təmsil edən hakimlər qarşısında spiker komandaları ("A" mövqeyi və "V" mövqeyi) arasında keçirilir:

- Təsdiqedici "A" mövqeyinin spikerləri debatların mövzusunu onun ifadə edildiyi kimi təsdiq edirlər. Məsələn, "evtanaziyanın leqallaşdırılması zəruridir" və ya "vahid məktəb forması özünü doğrultmur";
- Təkzibedici "V" mövqeyinin spikerləri "A" mövqeyini təkzib etməyə borcludurlar. Bu onların başlıca vəzifəsidir. Həm də onlar təkzibetmədən sonra öz meyar və dəlillərini təklif edirlər. Məsələn, "A" mövqeyi evtanaziyanın leqallaşdırılmasının zəruri olduğunu sübut etdiyi halda "V" mövqeyi "A" mövqeyinin zəif, inandırıcı olmayan cəhətlərini göstərir, sonra isə öz mövqeyinin düzgünlüyünü sübuta yetir-

məyə çalışır, yəni "evtanaziyanın leqallaşdırılması zəruri deyildir" (və ya leqallaşdırmaq olmaz);

- Hakimin vəzifəsi öz şəxsi mövqeyindən asılı olmayaraq bu mövqelərdən hansının daha inandırıcı olduğunu müəyyən etməkdir. O yalnız eşitdikləri əsasında nəticə çıxarır və öz seçimini edir. hakimin seçim etdikdən sonra onu əsaslandıra bilməsi çox vacibdir.

Arqument (dəlil) – faktlar əsasında çıxarılan nəticə, mövzunun tədqiqinin nəticəsidir. Arqument üzərində iş prosesi aşağıdakı hərəkətlərdən ibarətdir:

- ✓ arqument irəli sürülür;
- ✓ arqument izah edilir;
- ✓ arqument sübut edilir;
- ✓ nəticə.

Faktlar, dəstək, sübutlar

Debatların spikerləri arqumentləri irəli sürərkən sübut-dəlilləri – onların mövqeyini təsdiq edən faktları, statistik göstəriciləri, mütəxəssislərin ekspert rəylərini də təqdim etməlidirlər.

Çarpaz suallar – debatlar zamanı bir mövqeyin spikerlərinin suallarından, digər mövqeyin spikerlərinin cavablarından ibarət olan və xüsusi fərqləndirilən raunddur. Verilən sualların və alınan cavabların keyfiyyəti iştirakçıların debatların mövzusunu nə dərəcədə dərindən və hərtərəfli mənimsədiklərini göstərir. Hazırlıq prosesində debatçılar idrak prosesinin mühüm ünsürlərindən olan sualların ifadə texnikası və məharətinə yiyələnirlər. Bu zaman həm də spikerin alınmış cavablardan opponentin mövqeyini zəiflətmək və öz mövqeyini gücləndirmək üçün nə dərəcədə ustalıqla istifadə edə bilməsi qiymətləndirilir.

Layihələrin hazırlanması

Layihələrin hazırlanması müxtəlİf mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Onlara müstəqil şəkildə fəaliyyət proqramlarını qurmağa, habelə vaxtlarını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Tarix fənninin tədrisində bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir. Layihələrin hazırlanması tarix fənninin tədrisində ən uğurlu üsullardan biridir. Şagirdlərdə araşdırma bacarığı formalaşır. Layihələr hazırlanarkən mövzu və ya problemi müəllim müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər layihə üzərində işin başlama və başa çatma müddətini,

istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.), onları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa, qrup şəklində) birlikdə müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

Sorğu vərəqləri və müsahibə

Bu üsullardan araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə istifadə edilir.

Sorğu vərəqi tarix fənninin tədrisində araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil şəkildə doldurur. Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə, daha doğru olar:

- ✓ problemi müəyyən etmək;
- ✓ işi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
- ✓ məlumatları toplamaq (sualların cavablarını toplamaq);
- ✓ əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək.

“Qərarlar ağacı”

Tarix fənninin tədrisində bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və şagirdlərlə birlikdə onun həlli yollarının bir neçə variantı müəyyənləşdirilir. Məsələn, dünyanın üzləşdiyi hər hansı bir qlobal problem müzakirəyə qoyulur. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarını, üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, “+”, və ya “-” işarəsinin qarşısında müvafiq qaydada qeydlər edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

Problemli vəziyyət

Bu üsulun tətbiqi tarix fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyətin əks olunduğu iş vərəqləri, məsələn, “Qarabağ məsələsi” və s. şagirdlərə paylanılır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

Xəritələrlə iş

Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan sual və tapşırıqlar verilir:

- ✓ Xəritədə dünyanın hansı hissəsi təsvir olunur?
- ✓ Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini müəyyənləşdirin.
- ✓ Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
- ✓ Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olardı?
- ✓ Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyən edin.
- ✓ Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
- ✓ Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.
- ✓ Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

Zaman oxu ilə iş

"Zaman oxu" ilə işin təşkili tarix fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan suallar verilir:

1. "Zaman oxu"nda hansı tarixlər qeyd olunub?
2. Nə üçün orada məhz bu tarixlər göstərilib?
3. Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
4. Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
5. "Zaman oxu"nda göstərilən iki hadisə arasında neçə il fərq var?
6. "Zaman oxu"nda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib.

Dərslikdə yoxdursa, "Zaman oxu"nun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

Debat müzakirə dərs modeli

Bu dərs modelində iki rəqib komanda iştirak edir. Dəqiq müəyyənləşdirilmiş, məsələn: "Gələcəkdə Azərbaycanın çiçəklənməsi labüddür" və ya "Azərbaycan neftin çıxarılmasından zərər görmüş və gələcəkdə də yalnız zərər görəcəkdir" tezislərindən birini təsdiq edən və inkar edən tərəflər iştirak edir.

Hər komandadan üç spiker çıxış edir: təsdiq edən tərəfdən T1, T2, T3 spikerlərin hər biri öz tezisinin müddəalarını müdafiə və təsdiq etməlidir. İnkar edən tərəfdən isə İ1, İ2, İ3 spikerləri həmin tezisi inkar etməlidir.

Debatda çıxışların ardıcıllığı və vaxt cədvəli:

Spiker	Vaxt	Rol
T1	3 dəq	Tezisi izah edir, təsdiq edən tərəfin dəlillərini təqdim edir.
İ3-T1-ə	2 dəq	İ3 dəlillərin əhəmiyyətini azaltmaq üçün T1-ə sual verir. T1 cavab verir.
İ1	3 dəq	Bütün mümkün dəlilləri irəli sürür.
T3-İ1-ə	2 dəq	T3 İ1-ə onun dəlillərinin əhəmiyyətini azaldan suallar verir. İ1 cavab verir.
T2	2 dəq	İ1-in dəlillərini rədd edir, sübutlar gətirir, təsdiqedici xətti gücləndirir.
İ1-T2-yə	2 dəq	İ1-T2-yə çarpaz suallar verir. T2 cavab verir.
İ2	2 dəq	T1 və T2-nin dəlillərini inkar edir, inkar edən xətti gücləndirir.
T1-İ2-yə	2 dəq	T1 İ2-yə sual verir. İ2 cavab verir.
T3	3 dəq	Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edərək təsdiqedici xəttin sübutlarını gücləndirir.
İ3	3 dəq	Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edərək təsdiqedici xəttin sübutlarını gücləndirir.

Debatlarda şagirdlərdən bir nəfər taym-kiper (vaxtölçən) rolunu ifa edir. O, vaxta nəzarət edir və vaxtın sonuna yarım dəqiqə qalmış üstündə “30 saniyə” yazılmış vərəqə və ya lövhəni yuxarı qaldırır. Sinfin qalan şagirdləri debatların gedişini müşahidə edir və tərəflərin dəlillərini aşağıdakı cədvəldə qeyd edirlər:

Təsdiqedici tərəfin dəlilləri	İnkaredici tərəfin dəlilləri

Debatların sonunda dəlillərin inandırıcılığı, spikerlərin mübahisə aparmaq qabiliyyətləri müzakirə edilir və nəticədə qələbə tərəflərdən birinə verilir. Debat formasında dərs üçün münsiflər heyətinin əvvəlcədən seçilməsi məqsədəuyğundur. Münsiflər heyəti komandaların iştirakçılarını qiymətləndirir və debatların nəticələrini yekunlaşdırır.

İnsert

Bu üsuldan dərsin dərketmə mərhələsində istifadə olunur. O, oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsul iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn:

(✓) Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (✓) qoyun.

(-) Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi işarəsi qoyun.

(+) Müsbət işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün təzə olsun.

İllüstrasiyalarla iş

İllüstrasiyalar dərslik və ya dərs üçün yaraşıq deyil, həm də şagirdlərin əlavə məlumat mənbəyi olmalıdır. Buna görə də illüstrasiyalarla iş üçün suallar və tapşırıqlar təklif edilməlidir.

İllüstrasiyanın təsviri və ondan məlumat alınması

Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:

- ✓ İllüstrasiyaya əsasən tarixi dövrü və məkanı (hadisə yerini) müəyyən et.
- ✓ Göstərilmiş tarixi hadisələri və onların iştirakçılarını, şəraiti, mühiti təsvir et.
- ✓ İllüstrasiyada əks olunan tarixi dövrün tipik nümayəndələrini müəyyənləşdir (geyim, davranış xüsusiyyətləri).
- ✓ Süjet və detallara görə əsər müəllifinin əsas fikrini aydınlaşdır.
- ✓ İllüstrasiya materiallarının növünü və müəllifinin əsas ideyasına müvafiqliyini müəyyənləşdir.
- ✓ Şəkilaltı mətni (əgər varsa) illüstrasiyanın məzmunu ilə tutuşdur.
- ✓ İllüstrasiya üzrə hekayə hazırla.

İllüstrasiyalarla iş zamanı şagirdlərin fəallıq növləri:

- ✓ İllüstrasiya üzrə ümumi söhbət.
- ✓ İllüstrasiyaya imza toplamaq.
- ✓ "Bərpaçının" vərəqəsinin tərtib olunması.
- ✓ Cütlərdə "rəssamla" müsahibə.
- ✓ Cütlərdə sualların qoyuluşu.
- ✓ İllüstrasiyaların dərk olunması və tətbiqi.

Müxtəlif mürəkkəblik səviyyəsi olan sual və tapşırıqlar:

- ✓ Sizcə, illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
- ✓ Əgər o sonradan yaradılıbsa, mənbəyi nə olub?
- ✓ İki və daha artıq eyni planlı illüstrasiyaları müqayisə edin.
- ✓ Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini müqayisə edin.
- ✓ Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin edin.
- ✓ İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyən edin.
- ✓ Müxtəlif planlı illüstrativ materialları qiymətləndirin və nəticə çıxarın.
- ✓ Problemin həlli üçün illüstrasiya və mənbələrin müqayisəli təhlilindən istifadə edin.
- ✓ Öz mövqeyinizi illüstrasiyanın köməyi ilə əsaslandırın.

Fəallıq növləri:

- ✓ Qruplarda illüstrasiyalar üzrə fikir mübadiləsi aparmaq.
- ✓ Cütlüklərlə mübahisə etmək.
- ✓ Şəklin yaranması haqqında hekayə tərtib etmək.
- ✓ İllüstrasiyalar haqqında rəy yazmaq.

Təqdimatlar. Təqdimat tarix fənni üçün çox əlverişli metoddur. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm də qrup şəklində olması mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə alamaq lazımdır ki, bu iş daha

çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Buna görə də təqdimatların hazırlanması həftədə iki saatlıq Azərbaycan tarixi fənni üçün ən münasib üsullardan biri hesab oluna bilər.

Müasir interaktiv dərslərdə aşağıda verilən tələblər əsas götürülür:

- Diqqət, ilk növbədə, şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir.
- Müəllim ilk növbədə, təlim idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
- Müəllim və şagird arasında əməkdaşlıq məktəblilərin kompitensiyalarının artırılmasına yönəlməsini tələb edir.
- Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, onun möhkəmləndirilməsi və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur. Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintezi baş verir.
- Təlim prosesində şagirdlər arasında ünsiyyət qurulur, cüt, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir.
- Təhsilin məzmunu ilə yanaşı, şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır.
- Dərs tarixi yerlərə ekskursiyalar, tarixi abidələrə, muzey və sərgilərə baxış kimi təlim formaları ilə sıx əlaqəlidir.
- Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayılan və ona qarşı qoyulan bəzi elementləri (məsələn, seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.) assimilyasiya edir.
- Müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi səciyyəvidir: bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırılması, tədqiqat və özünüqiymətləndirmə elementləri.
- Təhsil islahatı proqramında təlimverici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət edilməsi tövsiyə edilir.
- Fəal təlim zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar. Onlar əldə etdikləri bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər. Müəllim bu zaman şagird tərəfindən biliklərin əldə edilməsi yolunda bələdçi rolunu yerinə yetirir, şagirdlər isə tədqiqatçı olurlar.

Fəal təlim metodlarına aşağıdakı xüsusiyyətlər aiddir:

- Şagirdlərin fəal öyrənmə mövqeyi;
- Təfəkkürün müstəqilliyi və sərbəstliyi;
- Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;
- Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi və s.

Şagirdlərdə tənqidi təfəkkürü formalaşdırmaqla onlara hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyəti aşılamaq əsas məqsədlərdən biridir. Bu zaman şagirdlər verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərməklə onu qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

Didaktik təfəkkür vasitəsilə şagirdlərin hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görməsi və onların inkişaf istiqamətlərini aşkar etməsi nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə şagirdlərdə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarıqları formalaşır.

Referatların hazırlanması

10-cu sinif tarix fənninin məzmununu təşkil edən standartların bir neçəsi referatların hazırlanmasını nəzərdə tutur. Bəs referat nədir və onun hazırlanmasına verilən tələblər hansılardır?

Referat intellektual yaradıcılıq prosesi olub müxtəlif mənbələr və orijinal müəllif nəticələri əsasında tərtib edilən, elmi-təcrübi ədəbiyyatın dərin öyrənilməsi prosesini əhatə edən müstəqil işdir. Referat işinin yazılışı şagirdlərdə bir sıra sərişte və bacarıqların formalaşmasına imkan yaradır:

- Düzgün plan qurmaq;
- Dövri nəşrlərlə müstəqil işləmək;
- Konkret materialın müstəqil seçimini, sistemləşdirilməsini və təhlilini aparmaq;
- Təyin edilmiş mövzu üzrə uyğun gələn nəticə və təklifləri formalaşdırmaq;
- Fikirləri anlaşılan və sadə yazılış formasında ifadə etmək;
- Hazırlanmış materialı sistemli təqdim etmək.

Referatların tərtibatı zamanı aşağıdakı struktur ardıcıllığı gözlənilməlidir:

1. Titul vərəqi
2. Mündəricat (plan)
3. Giriş
4. Fəsillər
5. Paraqraflar, yarımbaşlıqlar və bəndlər
6. Nəticələr
7. Əlavələr
8. Ədəbiyyat siyahısı (biblioqrafiya)

Qrafik və diaqramların tərtib edilməsi

Hörmətli müəllimlər!

Metodik vəsaitdə qrafik və diaqramlar tərtib etməyə dair müxtəlif tapşırıq nümunələrinə rast gələcəksiniz. Sizə təqdim olunmuş bu nümunələrdə verilmiş məlumatlar müəllimin fərziyyələrini əks etdirə bilər.

Səfəvilər dövlətində sosial-iqtisadi vəziyyətin dinamikasının qrafiki

Fərz edək ki, siz Səfəvilər dövlətinin sosial-iqtisadi vəziyyətinə dair müəyyən məlumat toplamısınız və bu məlumatlar aşağıdakılardan ibarətdir:

Səfəvilər dövlətinin hökmdarları	Əkinə yararlı torpaqların bəcərilmə faizi
Şah İsmayıl Xətai	80
Şah I Təhmasib	95
Şah II İsmayıl	50
Məhəmməd şah Xudabəndə	60
Şah I Abbas	84
Şah I Səfi	70
Şah II Abbas	55
Şah Süleyman	60
Şah Sultan Hüseyn	60
Şah II Təhmasib	40
Şah III Abbas (Abbas Mirzə)	25

İqtisadi vəziyyətin dinamikası



Səfəvilər dövlətində Şah I Abbasın dövründə ordu quruculuğunun diaqramda təsviri

Şah I Abbasın dövründə Səfəvilərin 120 minlik ordusu var idi. Bu ordunun 84 mini qızıbaşlardan, 18 mini qulamlardan, 12 mini tüfəngçilərdən, 6 mini də topçulardan ibarət olmuşdur. Bu məlumatlar şagirdlərə ötürüldükdən sonra onlar aşağıdakı formada diaqram qura bilərlər.

Ordu bölgüsü

FƏAL DƏRSİN QURULUŞU. PLANLAŞDIRMA

Planlaşdırmanın iki növü var: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq gündəlik və perspektiv planlaşdırma öz mahiyyətini əvvəlki formasından xeyli dəyişmiş interaktivliyə verir və nəticəyönümlülüyə şərait yaradan formada tərtib edilir.

Fəal interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir:

Dərsin birinci mərhələsi: motivasiya, problemin qoyulması

Motivasiya – hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Fəal dərsdə təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığını artıran motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı çıxış edir.

Dərsin ikinci mərhələsi: tədqiqatın aparılması

Bu mərhələdə problemin həlli üçün irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edəcək, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq zərurəti ortaya çıxır. Bunun üçün də tədqiqat müxtəlif iş formalarında aparıla bilər.

Dərsin üçüncü mərhələsi: məlumat mübadiləsi

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat, bir növ, yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir zərurət – bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

Dərsin dördüncü mərhələsi: məlumatın müzakirəsi və təşkili

Bu ən mürəkkəb mərhələdir və bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Müəllim fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və sistemləşdirilməsinə yönəldilir.

Dərsin beşinci mərhələsi: ümumiləşdirmə və nəticə

Şagird nəinki təkcə əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə (onların arasında düzgün olanı varmı?) tutuşdurmalıdır. Bu, çox mühüm məqamdır. Dərsin kulminasiyasını isə bilgiləri özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

Dərsin altıncı mərhələsi: yaradıcı tətbiqetmə

Məlum olduğu kimi, biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, uşağa onun praktiki əhəmiyyətini göstərir. Buna görə də müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli, yaxud hansısa yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Əgər yaradıcı tətbiqetməni dərhal həyata keçirmək mümkün deyilsə və əvvəlcə biliklərin mənimsənilməsi yolunu sona qədər keçmək tələb olunursa, buna əməl etmək lazımdır. Lakin son nəticədə yaxşı olar ki, şagirdlərə kəşf etdikləri bilgilərin yaradıcı surətdə tətbiqinə dair çalışma verilsin, bu halda həmin bilgi həmişəlik onların şüurunda həkk olunacaq. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, yəni onun realizəsi sonrakı dərslərdə də mümkündür.

Dərsin yeddinci mərhələsi: qiymətləndirmə və ya refleksiya

Yuxarıda göstərildiyi kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır.

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini qiymətləndirmək və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin şagirdlərə onları yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sual verməsi kifayətdir (məsələn: “Biz nəticəyə necə gəlib çıxdıq?”, “Biz nə edirdik?”, “Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi?” və s.)

Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk etmiş olacaq.

Kurikulum islahatı ilə əlaqədar olaraq müəllim gündəlik planlaşmanı aşağıdakı kimi aparmalıdır:

Perspektiv planlaşdırma

Perspektiv planlaşdırma aşağıdakı cədvəl əsasında hazırlanır:

Standart	Tədris vahidi	Mövzu	İnteqrasiya	Resurslar	Qiymətlən-dirmə	Saat	Tarix

Perspektiv planlaşdırma hazırlanarkən **tədris vahidi və mövzular üzrə dəqiqləşmələr** aparılmalı, standartların reallaşdırılması **üçün lazımi imkanlar müəyyən edilməlidir.** Tədris vahidlərinin və mövzuların ardıcıllığının müəyyənləşdirilərkən sadədən mürəkkəbə gedişinə, məntiqi və xronoloji ardıcıllığına diqqət yetirilməlidir. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir.

İnteqrasiya imkanları müəyyən edilməli və planlaşmada qeyd olunmalıdır. MV-də sizlərə təqdim olunmuş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra edilməlidir. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 10-cu sinifdə Azərbaycan tarixi fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib olan şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

PERSPEKTİV (İLLİK) PLANLAŞDIRMA

Qeyd: *Məlum olduğu kimi, 10-cu sinif Azərbaycan tarixinin tədrisinə il ərzində 68 saat ayrılmışdır. Sizə təqdim etdiyimiz dərslikdə isə 44 paraqraf verilmişdir. Bu paraqraflardan bəzisi geniş və çoxşaxəli olduğundan onların tədrisinə 2 saat vaxt ayrılmışdır. Eləcə də bəzi bölmələrin sonunda Azərbaycan tarixinin mühüm əhəmiyyət daşıyan dövrlərin və ya dövlətlərin yekunu olaraq ümumiləşdirici dərslər nəzərdə tutulmuşdur. 10-cu sinif Azərbaycan tarixi fənn kurikulumunun alt standartlarına diqqət yetirəndə şahid oluruq ki;*

– 1.1.1., 1.1.2., 1.2.1., 1.2.2., 1.3.1. standartları şagirdlərdə mənbələrlə işləmək,

– 2.1.2., 3.1.3. standartları qrafik və diaqramlar hazırlamaq,

– 4.1.2., 5.1.3. standartları isə referat və təqdimatlar hazırlamaq bacarığının inkişaf etdirilməsini tələb edir.

Bu deyilənləri də nəzərə alsaq, tövsiyə edərdik ki, 2 saat keçməyi məsləhət gördüyümüz mövzuların və ümumiləşdirici dərslərin tədrisi zamanı yuxarıda sadaladığımız standartların reallaşdırılmasına önəm verəsiniz. Bu zaman siz dərslikdəki mövzuların içində, dərsliyin sonunda verilmiş mənbə parçalarından, eləcə də vacib saydığınız qəzet, jurnal, elmi əsər, çap olunmuş mənbələrdən etdiyiniz çıxarışlardan, müxtəlif internet resurslarından istifadə edə bilərsiniz.

Sıra	Standart	Tədris vahidi	Mövzu	Inteqrasiya	Resurslar	Qiymətləndirmə	Saat
Diaqnostik qiymətləndirmə							1
1.	1.3.1.	**Azərbaycan qədim dövrdə**	İbtidai icma cəmiyyəti	Ü.t. 2.1.1.	Dərslik, şəkillər, sxemlər, illüstrasiyalar, xəritələr, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.	Formativ	2
2.	1.3.1., 2.1.1., 3.1.1.		Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumları	Ü.t. 3.1.1., Coğ. 3.2.1	Xəritə, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, dərslik və s.	Formativ	1
3.	2.1.2., 3.1.1.		İlk Azərbaycan dövləti – Manna	Ü.t. 2.1.2., Coğ. 3.2.1.	Dərslik, Manna dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, dünya xəritəsi, Manna dövrünə aid tapılmış mənbələrin şəkilləri, Mannanın tarixini özündə əks etdirən sxem, illüstrasiyalar, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.	Formativ	2
4.	1.2.2., 3.1.1.		Azərbaycan e.ə. VII–IV əsrlərdə	Ü.t. 3.1.1.	Dərslik, İskit dövlətinin xəritəsi, İskit dövrünə aid tapılmış mənbələrin şəkilləri, İskit tarixini özündə əks etdirən sxem, illüstrasiyalar, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.	Formativ	1

5.	3.1.1., 4.1.1.	Azərbaycan qədim dövrdə	Atropatena dövləti	Ü.t. 3.1.1., Coğ. 3.2.1.	Dərslik, Atropatın şəkli, Atropatena dövlətinin xəritəsi, elektron təqdimat, iş vərəqləri və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: http://www.azerbaijans.com/content_355_az.html	Formativ	1
6.	2.1.2., 3.1.1., 3.1.2.		Albaniya dövləti	Coğ. 3.2.4., Ü.t. 3.1.1.	Albaniya dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, şəkillər, Albaniya haqqında mənbələrdən nümunələr, iş vərəqi və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: http://www.azerbaijans.com/content_353_az.html	Formativ	1
7.	1.3.1., 5.1.1.		Mədəniyyət	Ü.t. 5.1.1.	Qədim dövrə aid tapıntıların şəkilləri və ya maketi, Azərbaycan Respublikasının xəritəsi, iş vərəqi və elektron təqdimat, Qobustan və s. abidələrin videogörüntüsü və ya slaydları. Müxtəlif saytlardan və s. istifadə edə bilərsiniz.	Formativ	1
	1.1.1., 1.2.1., 1.2.2.		Azərbaycanın qədim dövlətləri (ümumiləşdirici dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin I cildi, Azərbaycan tarixi üzrə qaynaqlar, Azərbaycan tarixinə dair mixi yazı qaynaqları, qəzet, jurnal, internet resursları və s.		Formativ	1
Kiçik summativ qiymətləndirmə							1
8.	2.1.1., 3.1.2.	Azərbaycan III–XI əsrlərdə	Azərbaycan Sasanilər dövründə	Ü.t. 3.1.1., Coğ. 3.2.1.	Sasanilər dövlətinin xəritəsi, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, dərslik və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: *http://www.anl.az/el/Kitab/2014/Azf-276189.pdf* *https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_tarixi#Sasanil.C9.99rin_t.C9.99rkibind.C9.99*	Formativ	1
9.	1.2.1., 3.1.1., 4.1.1.		Girdiman dövləti. Cavanşir	Ü.t. 1.1.2., Az.d. 1.2.4.	Girdiman dövlətinin xəritəsi, Cavanşirin portreti, dövrə aid sxemlər, şəkillər, audeovizual vasitələr, mənbələr, dərslik, iş vərəqləri. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: *http://www.azerbaijans.com/content_362_az.html*	Formativ	1

10.	1.1.1., 1.3.1., 2.1.1.	**Azərbaycan III–XI əsrlərdə**	Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olması	Ü.t. 1.1.2., Az.d. 1.2.4.	Dərslik, ərəb yürüşlərinə aid xəritə və sxem, ərəblərə və islam dininin yaranması ilə bağlı videomaterial, slayd, mənbələrdən hazırlanmış paylama materialı, iş vərəqləri. Əlavə olaraq aşağıdakı İnternet resurslarından da istifadə edə bilərsiniz: *https://az.wikipedia.org/wiki/Az%C9%99rbay-can_%C6%8Fr%C9%99b_Xilaf%C9%99tinin_t%-C9%99rkibind%C9%99 http://www.anl.az/down/meqale/ses/2012/sentyabr/261065.htm*	Formativ	1
11.	1.2.1., 1.2.2., 3.1.3.		Xilafətin Azərbaycan-dakı siyasəti	İnf. 1.1.3., Əd. 1.1.4.	Dərslik, iş vərəqləri, paylama materialı, Ərəblərin Azərbaycana yürüşünün xəritəsi və s.	Formativ	1
12.	1.1.2., 4.1.2.		Azadlıq hərəkatı. Babək	Ü.t. 4.1.2., İnf. 4.1.2., Az.d. 3.1.2.	Dərslik, Babəkin şəkli, Azərbaycanın xəritəsi, elektron təqdimat, iş vərəqləri, audiovizual vasitələr, mənbələrdən ibarət paylama materialı və s.	Formativ	1
	1.1.2., 1.2.2., 1.3.1.		Azərbaycan Ərəb xilafəti dövründə (ümumiləşdiri-ci dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin II cildi, "Azərbaycan tarixi" üzrə qaynaqlar, Z.Bünyadov "Azərbaycan VII –IX əsrlərdə", N.Vəlixanlı "Ərəb xilafəti və Azərbaycan", qəzet, jurnal, internet resursları və s.		Formativ	1
13.	3.1.1., 3.1.2.		Şirvanşahlar dövləti. Dərbənd əmirliyi	Ü.t. 3.1.1., Coğ. 3.2.1.	Dərslik, Şirvanşahlar dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, elektron təqdimat, iş vərəqləri və s. internet resursları siyahısından bu saytlara da müraciət edə bilərsiniz: *http://www.azerbaijans.com/content_375_az.html*	Formativ	1
14.	1.1.2. , 3.1.1.		Saci, Salari və Rəvvadi dövlətləri	Ü.t. 3.1.1.	İş vərəqi qismində kontur xəritələr, cədvəl, Sacilər, Salarilər və Rəvvadilər dövlətinin xəritəsi, paylama matrealı	Formativ	1

15.	3.1.1., 4.1.2.	Azərbaycan III–XI əsrlərdə	Şəddadilər dövləti. Tiflis müsəlman əmirliyi	Ü.t. 3.1.1., 4.1.2.	Şəddadilər dövlətinin xəritəsi, Tiflis müsəlman əmirliyinin sxemi və təsviri, Xudafərin körpüsü, Gəncə darvazaları və s. şəkilləri, dərslik, iş vərəqləri, mənbələr və s.	Formativ	1
16.	1.1.1., 3.1.3., 5.1.1.		Erkən Orta əsrlərdə sosial-iqtisadi həyat	Ü.t. 3.1.3., İnf. 4.1.2.	Sosial-iqtisadi həyatı əks etdirən sxem, iş vərəqləri, dərslik, dövrə aid şəkil və illüstrasiyalar, müxtəlif növ bitkilərin nümunəsi (pambıq, sünbül və s. ola bilər) və s.	Formativ	1
17.	5.1.1., 5.1.2., 5.1.3.		Mədəniyyət	Ü.t. 5.1.3, Əd. 1.1.4.	Dərslik, şəkillər, iş vərəqləri, paylama materialları, sxemlər və s.	Formativ	1
Kiçik summativ qiymətləndirmə							1
18.	1.1.2., 3.1.1.	Azərbaycan XI–XV əsrlərdə	Azərbaycan və Səlcuqlar	Coğ. 3.2.4, Ü.t. 2.1.2	Dərslik, xəritə, dövrə dair şəkillər, “Dədə Qorqud” filmindən fraqment, iş vərəqləri	Formativ	1
19.	2.1.2., 3.1.1., 4.1.1.		Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti	Coğ. 3.2.4, Ü.t. 2.1.2.	Atabəylər dövlətinin xəritəsi, Z.Bünyadovun “Atabəylər dövləti” kitabı, şəkillər, Eldənizin, Cahan Pəhləvanın portretləri, dərslik, cütlər üçün iş vərəqləri və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar. www.azerbaijans.com/content_361_az.html	Formativ	1
20.	2.1.1., 3.1.2.		Şirvanşahlar XI–XIV əsrlərdə	Ü.t. 3.1.1. Az.d. 3.1.2.	Dərslik, xəritə, Şirvanşahlar dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, Azərbaycanın atlası, iş vərəqləri	Formativ	1
21.	4.1.2., 5.1.2., 5.1.3.		İntibah mədəniyyəti	Ü.t. 5.1.3, Əd. 3.1.2., Az.d. 1.1.2., 2.2.3.	Dərslik, İntibah dövrünün memarlıq abidələrinin şəkilləri, Memar Əcəminin portreti, dövrün digər şəxsiyyətlərinin portretləri, slayd və s.	Formativ	2
22.	1.1.2., 1.3.1., 2.1.2.		Azərbaycan monqol yürüşləri dövründə	Ü.t. 1.1.3., 2.1.2., Az.d. 3.1.2., Coğ. 3.2.4.	Kompüter, proyektor, iş vərəqləri, paylayıcı material, dərslik monqol işğallarını əks etdirən xəritə, şəkillər, “Böyük monqol Çingiz xan” və ya “Çingiz xan” filmlərindən bir fraqment və s.	Formativ	1

23.	2.1.2., 3.1.3.		Azərbaycan Hülakülər dövlətinin tərkibində	Ü.t. 2.1.2., 3.1.3., Coğ. 3.2.4., İnf. 4.1.2.	Proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.	Formativ	1
Kiçik summativ qiymətləndirmə							1
	2.1.2., 3.1.3.		Azərbaycan XI–XIII əsrlərdə (ümumiləşdiri-ci dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin II cildi, Azərbaycan tarixi üzrə qaynaqlar, Z.Bünyadov "Azərbaycan Atabəyləri dövləti", S.Aşurbəyli "Şirvanşahlar dövləti", qəzet, jurnal, internet resursları və s.		Formativ	1
Böyük summativ qiymətləndirmə							1
24.	1.1.2., 2.1.2., 3.1.1.	Azərbaycan XI–XV əsrlərdə	Azərbaycan Cəlairilər və Teymurilərin hakimiyyəti dövründə	Ü.t. 3.1.1.	Xəritə, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, İKT avadanlıqları, dərslik və s.	Formativ	1
25.	2.1.1., 3.1.2., 4.1.1.		Qaraqoyunlu dövləti	Ü.t. 2.1.2., 3.1.1., Coğ. 3.2.1.	Qaraqoyunlu dövlətinin xəritəsi, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, İKT avadanlıqları, dərslik və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: http://www.azerbaijans.com/content_369_az.html	Formativ	1
26.	3.1.1., 4.1.1.		Ağqoyunlu dövləti	Ü.t. 3.1.1., 4.1.1., Coğ. 3.2.1.	XV əsrə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, kompüter, proyektor və s.	Formativ	2
27.	2.1.1., 3.1.2.		Şirvanşahlar dövləti XIV əsrin sonları – XV əsrin əvvələrində	Az.d. 1.1.1., Ü.t. 2.1.2., 3.1.1., Coğ. 3.2.1.	İKT avadanlıqları, fərdi sorğu vərəqləri, dərslik, Şirvanşahlar dövlətinin xəritəsi, şəkillər, flipçart, marker və s.	Formativ	1
28.	1.1.1., 1.2.1., 1.2.2.		Şəki hakimliyi. Səfəvilərin Ərdəbil hakimliyi	Az.d. 1.2.4., Ü.t. 1.1.2.	Dərslik, xəritə, şəkillər, portretlər, flipçart, marker və s.	Formativ	1
29.	5.1.1., 5.1.2., 5.1.3.		XIII–XV əsrlərdə mədəniyyət	Ü.t. 5.1.1., 5.1.3.	İKT avadanlıqları, fərdi sorğu vərəqləri, dərslik, paylama materialı, şəkillər, flipçart, marker və s.	Formativ	1
	4.1.2., 5.1.3.		Azərbaycan XV əsrdə (ümumiləşdiri-ci dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin III cildi, Azərbaycan tarixi üzrə qaynaqlar, T.Nəcəfli "Qaraqoyunlu və Ağqoyunlu dövlətləri", qəzet, jurnal, internet resursları və s.		Formativ	1

30.	3.1.1., 3.1.2., 4.1.1.		Səfəvilər dövlərinin yaranması və yüksəlişi	Az.d. 1.1.1., Ü.t. 3.1.1., 4.1.1., Coğ. 3.2.1.	Proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: http://www.azerbaijans.com/content_373_az.html	Formativ	2
Kiçik summativ qiymətləndirmə							1
31.	1.2.1., 3.1.1.	Azərbaycan XVI–XVIII əsrlərdə	Səfəvilər dövləti XVI əsrin son rübündə	Ü.t. 1.1.2, Az.d. 1.2.4.	Kompüter, proyektor, CD disk, XVI əsrə aid Azərbaycanın xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker və s.	Formativ	1
32.	2.1.1., 3.1.1., 4.1.1.		Səfəvilər dövləti Şah I Abbasın hakimiyyəti illərində	Ü.t. 4.1.1.	Səfəvilər dövlətinin xəritəsi, Şah I Abbasın portreti, dövrə aid mənbələr, dərslik, iş vərəqləri, elektron materiallar və s.	Formativ	2
33.	1.1.1., 1.2.1.,1.2.2., 1.3.1.		Səfəvilər dövləti XVII əsrin II yarısı – XVIII əsrin əvvəllərində	Ü.t. 1.1.2., İnf.1.1.3., Əd. 1.1.4.	Mənbələr və müxtəlif tarixi əsərlərdən hissələr, paylayıcı materiallar, elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.	Formativ	2
34.	1.1.1., 3.1.3.		Azərbaycanın sosial-iqtisadi inkişaf xüsusiyyətləri	Ü.t. 1.1.2., Az.d. 1.2.4., İnf. 4.1.2.	Proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.	Formativ	2
35.	5.1.1., 5.1.2,, 5.1.3.		Səfəvilər dövründə mədəniyyət	Az.d. 1.1.2, 2.2.3., Əd. 3.1.2., İnf. 4.1.2., Ü.t. 5.1.1., 5.1.3.	Proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.	Formativ	1
	4.1.2., 5.1.3.		Səfəvilər dövləti (ümumiləşdirici dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin III cildi, Azərbaycan tarixi üzrə qaynaqlar, T.Nəcəfli "Səfəvi Osmanlı münasibətləri", O.Əfəndiyev "Azərbaycan Səfəvi dövləti", qəzet, jurnal, internet resursları və s.		Formativ	1
Kiçik summativ qiymətləndirmə							1

36.	1.1.1., 2.1.1., 4.1.1., 4.1.2.	Azərbaycan XVI–XVIII əsrlərdə	Azərbaycan torpaqlarının azad olunması uğrunda mübarizə. Nadir şah	Az.d. 3.1.2., Ü.t. 2.1.2., 4.1.2., Əd. 3.1.2., Coğ. 3.2.1.	XVIII əsrə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, kompüter, proyektor və s.	Formativ	2
37.	3.1.1., 4.1.1., 4.1.2.		Quba xanlığının birləşdirmə siyasəti	Az.d. 1.2.4., Ü.t. 4.1.1., Coğ. 3.2.1., İnf. 4.1.2.	İKT avadanlıqları, Quba xanlığının xəritəsi, Azərbaycanın xanlıqlar dövrü xəritəsi, şəkillər, Quba xanlığı haqqında mənbələrdən nümunələr, iş vərəqləri, flipçart, marker və s.	Formativ	1
38.	1.2.1., 3.1.1., 3.1.2.		Şəki xanlığı. Car-Balakən camaatlığı	Az.d. 1.1.1., Ü.t. 3.1.1., Coğ. 3.2.1.	Dərslik, xəritə, şəkillər, portretlər, flipçart, marker və s. Aşağıdakı İnternet saytlarından istifadə etmək olar: http://1905.az/az%-C9%99rbaycan-xanliqlari/	Formativ	1
39.	2.1.1., 3.1.3.		Qarabağ xanlığı	Ü.t. 2.1.2., Coğ. 3.2.1., İnf. 4.1.2.,	Qarabağ xanlığının xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik və s.	Formativ	1
40.	1.2.2., 1.3.1., 2.1.2.		Naxçıvan və İravan xanlıqları	İn.1.1.3., Əd.1.1.4., Ü.t. 2.1.2., Coğ. 3.2.4.	Dərslik, Xanlıqlar dövrü xəritələri, şəkillər, mövzuya aid slayd, portretlər, sxem və s.	Formativ	1
41.	1.1.2., 3.1.2.		Cənub xanlıqları	Az.d. 1.1.1., Ü.t. 1.1.3., 3.1.1.	İKT avadanlıqları, fərdi sorğu vərəqləri, dərslik, Azərbaycanın xanlıqlar dövrü xəritəsi, şəkillər, flipçart, marker və s.	Formativ	1
42.	3.1.1., 3.1.2.		Ağaməhəm-məd şah Qacarın mərkəzləşdir-mə siyasəti	Az.d. 1.1.1., Ü.t. 3.1.1.	Kompüter, proyektor, CD disk, Azərbaycanın XVIII əsrə aid xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker və s.	Formativ	1

43.	1.3.1., 2.1.2.		Xanlıqlar dövründə sosial-iqtisadi həyat	Ü.t. 2.1.2., Az.d. 3.1.2., Coğ. 3.2.4.	İKT, CD disk, Azərbaycanın xanlıqlar dövrünə aid xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri və s.	Formativ	1
44.	5.1.1., 5.1.2., 5.1.3.		Xanlıqlar dövründə mədəniyyət	Az.d. 3.1.2., İnf. 4.1.2., Ü.t. 5.1.3.	Elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.	Formativ	1
Kiçik summativ qiymətləndirmə							1
	1.1.2., 2.1.2., 3.1.3.		Azərbaycan xanlıqlar dövründə (ümumiləşdiri-ci dərs)	Dərslik, 7 cildlik Azərbaycan tarixinin III cildi, Azərbaycanın xanlıqlar dövrünə dair əsərlər, qəzet, jurnal, internet resursları və s.		Formativ	1
Böyük summativ qiymətləndirmə							1

Hörmətli müəllimlər! Sizə təqdim olunan dərs nümunələri və onların təhlili tövsiyə xarakterlidir. Öz fəaliyyətinizi standartlar çərçivəsində istədiyiniz kimi planlaşdıra bilərsiniz. Seçdiyiniz resurslar, inteqrasiya imkanları bu işdə köməyinizə çata bilər. Düşünürük ki, tövsiyələrimiz səmərəli işin təşkilində sizə istiqamət verəcəkdir.

DƏRS NÜMUNƏLƏRİ VƏ TÖVSİYƏLƏR

MÖVZU 1

İBTİDAİ İCMA CƏMİYYƏTİ

Alt standart:

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

Təlim məqsədi:

İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

İnteqrasiya: Ü.t. 2.1.1.

Resurslar: dərslik, şəkillər, sxemlər, illüstrasiyalar, xəritələr, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün müxtəlif yolların olduğu sizə məlumdur. Bu yollardan biri də mövzuda verilmiş giriş hissədən bir parçanı oxuyub şagirdlərin diqqətini Tur Heyerdalın fikrinə cəmləməkdir.

Tur Heyerdal: "Azərbaycan gəmiçiliyin meydana gəldiyi ən qədim diyardır". Şagirdlərə yönləndirici suallar verməklə Tur Heyerdalın fikrinə münasibət bildirmələrini söyləyin. Onlar düşündüklərini söylədikdə motivasiyada nəzərdə tutduğunuz əsas məqsədə cəlb edin. Bunun üçün aşağıdakı suallardan istifadə edə bilərsiniz:

Azərbaycanın qədim dövrü nə vaxtdan başlayır? Azərbaycanın gəmiçilik tarixi barədə nə bilirsiniz? Azərbaycan ərazisində çoxlu qədim düşərgələrin olması nə ilə bağlıdır? Azərbaycan hansı inkişaf pillələrini keçmişdir? İlk inkişaf pilləsi hansıdır?

Sizə təklif olunan suallar tövsiyə xarakterlidir. Özünüz başqa üsul və vasitələrə əl atmaqla motivasiyanı yarada bilərsiniz. Məsələn, Azərbaycanın tarixi keçmişinə dair filmlərdən fraqment göstərməklə şagirdlərin diqqətini araşdırmaqda olacaqları problemə cəlb etmək olar.

Cəmiyyət tarixində ən uzun sürən pillə ibtidai icma quruluşudur. Yaşı milyon illərlə ölçülən bu pillədə Azərbaycanın da öz yeri var. Ölkəmizin ərazisində bütün tarixi dövrlərə aid yaşayış məskənlərinə rast gəlmək mümkündür. Onların sırasında Azıx, Qobustan, Kültəpə, Göytəpə, Kamiltəpə və b. tarixi abidələr dünyanın elm mərkəzlərində yaxşı tanınır.

Tədqiqat sualı: Azərbaycanda ibtidai icma quruluşunun yeri və rolu nədən ibarət olmuşdur?

Tədqiqat sualına cavab tapmaq üçün şagirdləri qrupa bölməklə öncədən hazırladığınız iş vərəqlərini onlara paylaya bilərsiniz. Bildiyiniz kimi, bu mövzu dərs ilinin ilk mövzusu olduğu üçün qabaqlayıcı tapşırığın verilməsinə şərait olmaya bilər. Ona görə də şagirdlər bu mövzu ilə ya mühazirə, ya da fasiləli oxu üsulu vasitəsilə tanış ola bilərlər. Tövsiyə olunan üsullardan hər hansı biri sizin sinfin səviyyəsinə və bacarıqlarına münasibdirsə, onu da tətbiq edin.

Əgər hər hansı bir fənlə inteqrasiya imkanları tətbiq etməyi nəzərdə tutmusunuzsa, mütləq onu tətbiq edin. Müasir təlim prosesində inteqrasiyanın həyata keçirilməsi əsasdır.

Fasiləli oxu zamanı mövzuda verilmiş məlumatlar, şəkil və illüstrasiyalar şagirdlərin düşünməsi və fikir bildirməsi üçün vasitə ola bilər. Mövzuarası verilmiş aşağıdakı suallar taksonomiyaya uyğun olaraq bilmədən qiymətləndirmə və sintezə qədər olan mərhələni həyata keçirmək üçün uğurlu vasitədir.

"Azərbaycan Respublikasının ərazisində dünya əhəmiyyətli hansı abidələri tanıyırsınız?" sualı şagirdlərin bilmə səviyyəsini ölçmək üçün verilir. Şagird bildiyi informasiyanı ötürməklə bu taksonomik mərhələni aşmış hesab olunur. Kurikulumun, eləcə də fəal-interaktiv təlimin əsas məqsədi odur ki, şagird bilmə mərhələsini digər mərhələlərlə əvəzləyib təfəkkürünü inkişaf etdirsin. Onun öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır:

- Düşünməyə yönəltmə mərhələsi;
- Düşünmə mərhələsi;
- Dərketmə mərhələsi.

Düşünməyə yönəltmə mərhələsində şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird ilk olaraq mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir.

Bu mərhələləri əsas tutaraq digər verilmiş sual və tapşırıqları təhlil etsək, görərik ki, mövzu, doğrudan da, şagirdyönümlü və şəxsiyyətyönümlü şəkildə hazırlanmışdır. Sadəcə, sizin pedaqoji ustalığınız buna istiqamət verməlidir.

Tur Heyerdalın səyahəti zamanı gəldiyi qənaəti əsaslandırın. Daha hansı faktlar onun qənaətinin əsaslı olduğunu sübut edir?

Taksonomik sıralamaya görə bu sual şagirdin anlama mərhələsini yoxlamaq üçün verilə bilər. Mövzuda, eləcə də, dərslikdə bu cür suallara çox rast gəlinir ki, bu da şagirdin inkişafı üçün atılmış addımdır.

Taksonomiyanın növbəti mərhələsi tətbiq mərhələsidir ki, bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. Siz bu zaman şagirdləri tədqiqata cəlb etməklə aşağıda verilmiş qrup işlərinin tətbiqi üçün vasitə götürə bilərsiniz.

I qrup – Tunc və Erkən Dəmir dövründə hərbi iş nə üçün əsas məşğuliyyətə çevrilmişdir? Bu dövrü Daş dövrünün naliyyətləri ilə əlaqələndirməklə təhlil edin.

II qrup – İbtidai icma quruluşunun özünəməxsus xüsusiyyətlərini faktlar göstərməklə şərh edin.

III qrup – Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid dövrünün proseslərini mənbələrə əsasən təqdim edin.

IV qrup – İbtidai icma quruluşuna aid Azərbaycanda tapılmış abidələri sistemli şəkildə düzüb ölkəmiz üçün əhəmiyyətini dəyərləndirin.

V qrup – Azərbaycanda mövcud olan ibtidai icma quruluşunu digər ölkələrdə mövcud olan ibtidai icma quruluşu ilə müqayisə edib nəticələri təqdim edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə şagirdlər müəyyən etdiyiniz zaman çərçivəsində verilmiş tapşırıqları iş vərəqlərində icra edib təqdim edirlər. Təqdim olunmuş cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı şagirdlər mücərrəd təsəvvürləri açıqlayır, məntiqi izahatda səhvləri və unudulanları görür, faktla nəticələr arasında fərqi üzə çıxarır, dəlillərin əhəmiyyətini qiymətləndirir. Taksonomik olaraq bu, şagirdlərin təhliletmə bacarığının üzə çıxarılmasına şərait yaradan proses rolunu oynayır. Şagirdlərin müzakirəsi həyata keçirildikdən sonra qruplar qiymətləndirmə meyarı əsasında qiymətləndirilir. Bildiyiniz kimi, meyarlar öncədən lövhədə və ya divarda asılmalı, bal şkalası elan edilməlidir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırığı vaxtında yerinə yetirmə	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər ibtidai icma quruluşunun özünəməxsus xüsusiyyətini təhlil edərək Daş dövrünün müxtəlif mərhələlərinin inkişaf xüsusiyyətlərini şərh edir, metalın kəşfinin insan həyatına təsirini anlayır, bu təsirdən doğan səbəb və nəticələri müəyyənləşdirir.

Bu mərhələdə tədqiqat sualına – "Azərbaycanda ibtidai icma quruluşunun yeri və rolu nədən ibarət olmuşdur?" – qayıtmaqla şagirdlərin bu barədə bilik və bacarıqlarını ümumiləşdirmək olar. Nəticədə bu biliklər əsasında şagirdlər İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdimetmə bacarığına malik olurlar.

Yaradıcı tətbiqetmə: Əgər vaxtınız varsa, o zaman kollektivi işə cəlb edə bilərsiniz. Bu iş üçün aşağıdakı tapşırığı vermək olar:

Mənbələrə istinad etməklə ibtidai icma quruluşuna aid sxem qurun.

Bu tapşırığı lövhədə də icra etmək mümkündür. O zaman sinfin bütün şagirdləri bu sxemin doldurulmasında iştirak etməlidirlər.

Ev tapşırığı: Şagirdlərin öyrəndikləri bilik və bacarıqlarını evdə təkrar tətbiqi üçün müxtəlif tapşırıqların seçilməsi məqsədəuyğundur. Amma bu tapşırıqlar yarım qalmış problemi yox, öz həllini tapmış problemin üzərində yenidən praktik bacarıqların möhkəmlənməsi və şagird yaradıcılığının üzə çıxarılması üçün nəzərdə tutulmalıdır. Bunun üçün "Azərbaycanın tarixi keçmişi daşların yaddaşında" adlı təqdimat hazırlayın.

Qiymətləndirmə meyarı: *təqdimetmə*

Bu mərhələdə məqsəddən doğan meyar əsasında şagirdləri formativ qiymətləndirmək olar. Bunun üçün müxtəlif üsul və vasitələr vardır ki, onlardan biri də şifahi sorğudur. Qiymətləndirmə meyarı aşağıdakı səviyyə əsasında reallaşdırıla bilər:

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında sistemsiz təqdim edir.	İbtidai icma dövründə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

MÖVZU 2

AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK TAYFA İTTİFAQLARI VƏ DÖVLƏT QURUMLARI

Alt standartlar:

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2. Bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3. Azərbaycan ərazisində dövlət qurumlarının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim forması: kollektiv və cütlərlə iş.

Təlim üsulu: beyin həmləsi, müzakirə

İnteqrasiya: Ü.t. 3.1.1., Coğ. 3.2.1.

Resurslar: xəritə, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, dərslik və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Dərslikdə mövzunun əvvəlində verilmiş açar sözlər vasitəsilə motivasiya yaratmaq mümkündür.

Aratta, kutilər, lullubilər, Anubanini. Bu sözlər sizə nə deyir? Bu sözlərin Azərbaycan tarixi üçün önəmi nədir? və s. suallarla şagirdlərə müraciət edə bilərsiniz.

Motivasiya üçün digər bir vasitə keçmiş dərslə əlaqəli suallar verib yeni dərsə körpü atmaqdı. Bunun üçün aşağıdakı suallar köməyinizə çata bilər:

İbtidai icma quruluşu hansı inkişaf pilləsini keçdi?

Bu quruluşun dağılmasına səbəb nə oldu?

İnsanlar arasında bərabərsizlik nə ilə nəticələnə bilərdi?

Tayfaların mövcud olması və tayfa başçılarının seçilməsi nədən xəbər verir?

Sualların istiqaməti şagirdlərin verdiyi cavaba görə dəyişə də bilər. Motivasiya üçün sualları, adətən, mürəkkəbdən asana doğru vermək daha səmərəli olur. Bu zaman şagird 1 dəqiqə içində cavabı tapmır, düşünməyə məcbur olur. Dərs maraqlı alınsın deyə şagirdə araşdırma, öyrənmə hissi aşılamaq üçün sövqedici şərait yaradılmalıdır. Motivasiyalar çox da mürəkkəb qurulmamalıdır. Çünki mürəkkəb motivasiya zaman itkisi deməkdir. Amma çox asan olan motivasiya da şagirdlərdə dərsə olan marağı söndürə bilər.

Əgər motivasiyanız uğurlu alındısa, deməli, tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin tapşırıqların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir. Adətən, sizdə belə fikir formalaşdırılıb ki, bütün qrupların tapşırıqlarının çəkisi eyni olsun. Doğrudur, bu keçərli haldır. Amma bir şeyi də qeyd edək ki, inklüzivliyin qorunmasını nəzərə alsaq, sinfin ən bacarıqlı və savadlı şagirdi və ya ən zəif, hətta fiziki qüsurlu şagirdi bu zaman qiymətləndirmədə öz obyektiv qiymətini almır. Yaxud da onların təlimə marağı itə bilər. Ona görə də müəllim qrup işi və ya cütlərlə iş verərkən inklüzivliyi nəzərə almalıdır. Lakin sinifdə şagirdlərin bilik və bacarığı arasında kəskin fərq yoxdusa, o zaman hər kəsə ağırlıq dərəcəsi eyni olan tapşırıqlar verilə bilər.

Tədqiqat sualı: Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumları tarixin yaddaşında hansı iz qoymuşdur?

Tədqiqat sualına cavab tapmaq üçün qrup və ya cüt bölgüsü də etmək olar. Sizə bu dərs nümunəsi üçün tövsiyəmiz cütlərlə işin tətbiqidir. İdrak taksonomiyasının tələblərini nəzərə almaqla, şagirdlərə elə tapşırıqlar vermək lazımdır ki, onların təfəkkürünü inkişaf etdirsin. Bir dərsdə təfəkkürün hər üç növünü inkişaf etdirməyə imkanınız varsa, bu, çox uğurlu nəticə əldə etdiyiniz deməkdir. Bu mövzunun tədrisi üçün cütlərə qabaqlayıcı, yaxud da dərslikdəki materiallarla tanış olmaq tapşırığı verilə bilər. Bəzən şagirdlərə tapşırıqlar verilərkən müəllimlər onlardan kitab və dəftərlərini bağlamağı tələb edirlər. Bu heç də vacib deyil. Fəal interaktiv təlim mühiti və bacarıqların fomalaşdırılmasını əsas tələb kimi qoyan yeni islahat dəftər-kitabın bağlanıb işin icrasını həyata keçirməyi heç də zəruri saymır. Əksinə, şagird kitablardan və digər mənbələrdən araşdırma apararaq təhliletmə, sintezetmə və s. bacarıqları nəticəsində verilən tapşırığın icrasını sistemli şəkildə həyata keçirməyə cəhd göstərmiş olacaqdır. Əgər siz hafizəyönümlü tapşırıq verirsinizsə, o zaman dəftər-kitabı bağlamaq üçün göstəriş verə bilərsiniz. İdrak məktəbinin inkişafının önə çəkildiyi bir dövrdə hafizə məktəbinin nümunəsindən tamamilə imtina etmək heç də arzuolunan deyil. Biz şagirdlərdə bilmə, anlama prosesini formalaşdırmasaq, nəticəyönümlü təhsilin məqsədlərinə çata bilmərik.

Əgər siz bizim tövsiyə etdiyimiz inteqrasiya imkanlarının tətbiqini nəzərdə tutmusunuzsa, o zaman mütləq tövsiyə olunan standartın tələbinə baxın. Siz standartı, sadəcə, yazmaqla kifayətlənməyin. Şagirdlərdə analizetmə, əlaqələndirmə, sintezetmə və dəyərləndirmə kimi bacarıqların formalaşmasında inteqrasiya vacib amillərdən biridir desək, yanılmarıq. Unutmayın ki, dərs boyu tətbiq etdiyiniz bütün nüanslar qiymətləndirmə zamanı öz əksini tapmalıdır. Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olun. Sinfin səviyyəsini nəzərə alın. Tapşırıqlar verərkən inteqrasiya edilmiş standartların tələblərini unutmayın.

Cütlərə tapşırıq olaraq aşağıdakıları vermək olar:

I cüt – Arattanın təsərrüfat həyatını təsvir edin.

II cüt – Ən qədim tayfa birliklərinin və dövlət qurumlarının tarixdəki rolunu dəyərləndirin.

III cüt – Azərbaycan ərazisində ilk tayfa ittifaqları yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri sistemləşdirib mənbələr əsasında təqdim edin.

IV cüt – Azərbaycan ərazisində ilk dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında araşdırıb təqdim edin.

V cüt – Bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.

VI cüt – Azərbaycan ərazisində dövlət qurumlarının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.

VII cüt – Kuti dövlət qurumunun özünəməxsus xüsusiyyətini Lullubi dövlət qurumunun xüsusiyyətləri ilə müqayisə edin.

VIII cüt – Annubanini və Naram-suenə aid təsvirlər əsasında dövrün hökmdarlarının təsvirini verin.

IX cüt – Mətndə öz əksini tapmış ikinci və üçüncü mənbənin oxşar və fərqli cəhətlərini müqayisə edib gəldiyiniz nəticəni əsaslandırılmış şəkildə təqdim edin.

Cütlərə verilmiş tapşırıqlar sonda tədqiqat sualına cavab tapmaq üçün yardımçı olmalıdır. Hər bir cüt öz işini qısa və konkret şəkildə təqdim edərsə, vaxt problemi ilə üzləşməzsiniz. Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əmək-daşlıq etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə etmə	Ümumi rəyə gəlmə
Günəş					
Ucal					

Məlumatın mübadiləsi və müzakirəsi: Cütlər iş vərəqlərini asaraq təqdimata başlayırlar. İlkin tayfa birlikləri və dövlət qurumları haqqında verilmiş tapşırıqlar, araşdırılmış təqdimatlar dinlənilir. Cütlərin işi müzakirə olunarkən sual doğuran məqamlara aydınlıq gətirilərsə, işin səmərəli alınmasına şərait yaratmış olarsınız. Müzakirənin sonunda nəticə çıxarılır.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Bu mərhələdə şagirdlər qaldırılan problemə yekun vurmalı, bir nəticəyə gəlməlidirlər. Onlar Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməli, bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməlidirlər. Bununla yanaşı, onlar Azərbaycan ərazisində

dövlət qurumlarının yarandığı, dövlətlərin inkişafında rolu olan müvafiq dövrlərin xüsusiyyətlərini dəyərləndirmə bacarığına malik olamalıdırlar.

Yaradıcı tətbiqetmə: "İlkin tayfa birlikləri və dövlət qurumlarının keçdiyi tarixi proses hansılardır?" sualı və ona verilən cavablar vasitəsilə yaradıcı tətbiqetməni qura bilərsiniz.

Bu tapşırıq şagirdlərin dərs ərzində öyrəndikləri və araşdırma zamanı əldə etdikləri bacarıqların nəticəsi kimi təqdim edilir. Hər bir şagird öz fikrini yazmaqda sərbəst olmalıdır.

Ev tapşırığı: Ən qədim tayfa birliklərinin və dövlət qurumlarının tarixinə dair yazılmış əsərlərdən nümunələr göstərməklə referat yazın.

Qiymətləndirmə meyarları: *dəyərləndirmə, təqdimetmə*

Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi səviyyələr üzrə aparılmalıdır. Bu səviyyələr şagirdlərin bilik və bacarıqlarının nəticəsi olaraq 3 və ya 5 formada ola bilər.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında sistemsiz təqdim edir.	Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumlarının yarandığı dövrdə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.
Bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	Bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir lakin bəzi səhvlərə yol verir.	Bəhs olunan dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
Azərbaycan ərazisində dövlət qurumlarının, dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə Azərbaycan ərazisində dövlət qurumlarının, dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Azərbaycan ərazisində dövlət qurumlarının, dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini bəzi yanlışlıqlarla dəyərləndirir.	Azərbaycan ərazisində dövlət qurumlarının, dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

MÖVZU 3

İLK AZƏRBAYCAN DÖVLƏTİ – MANNA

Alt standartlar:

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.
2. Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim forması: kollektiv, qruplarla və fərdi iş

Təlim üsulu: anlayışın çıxarılması, suallar

İnteqrasiya: Ü.t. 2.1.2., Coğ. 3.2.1.

Resurslar: dərslik, Manna dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, dünya xəritəsi, Manna dövrünə aid tapılmış əşyaların şəkilləri, Mannanın tarixini özündə əks etdirən sxem, illüstrasiyalar, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün Manna dövlətinin tarixinə aid müxtəlif tapıntıların şəkillərini şagirdlərə təqdim etməklə onların bu şəkillər haqqında fərziyyələrini ala bilərsiniz. Yaxud Manna dövlətinin xəritəsini təqdim edib onun özünəməxsus xüsusiyyətlərini sadalamaq olar. Dərslikdə mövzu ilə bağlı istifadə edilmiş açar sözlərdən də yararlanmaq mümkündür. Digər bir vasitə isə Manna tarixinə aid hər hansı bir mənbəni oxuyub şagirdləri fəallaşdırmaqdır. Motivasiyaların qoyuluşu şagirdlərin bilik və bacarığına görə müəyyən edilərsə, daha düzgün olar. Anlayışın çıxarılması üsulu ilə də motivasiya qurmaq mümkündür.



Tədqiqat sualı: Manna dövləti Azərbaycan dövlətçilik tarixi üçün hansı izi qoya bilmişdir?

Dərsin gedişi zamanı xəritələrdən istifadə edin. Manna dövlətinin ərazisini müəyyənləşdirib hazırda həmin ərazilərin harada yerləşdiyini xəritə vasitəsilə təqdim etmələri üçün şagirdlərə şərait yaradın.

Tədqiqatın aparılması: Bu mərhələdə şagirdlərə suallar verməklə fəal təlim mühiti yaratmaq olar. Tədqiqat sualına cavab tapmaq üçün verilmiş sual və tapşırıqlar məqsədəmüvafiq seçilməli, ayrılan vaxt üçün münasib olmalıdır. Bəzən verilmiş tapşırıqlar zaman çərçivəsinə sığmır, şagirdlər öz işlərini tələsik və düşünmədən edirlər.

Bu da keyfiyyəti aşağı salır, şagird bacarıqlarının üzə çıxarılması üçün səmərəsiz olur. Aşağıdakı sual və tapşırıqlar sizin üçün vasitə ola bilər.

I qrup – Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyi necə idi? Buna dair diaqram tərtib edin.

II qrup – Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətləri nə idi? Onları dəyərləndirin.

III qrup – E.ə. VII əsrin birinci yarısında Mannanın güclənməsinə hansı amillər təsir göstərmişdi? Şərh edin.

IV qrup – Mannanın timsalında dövlətçiliyin itirilməsinin mənfi nəticələri nədir? İzah edin.

V qrup – Manna dövlətinin idarəçilik sistemində hansı tədbirləri görmək lazım idi? Təhlil edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə müəyyən etdiyiniz zaman çərçivəsində onlar verilmiş tapşırıqların cavabını iş vərəqlərində hazırlayaraq təqdim edirlər. Təqdim olunmuş cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı şagirdlər mücərrəd təsəvvürləri açıqlayır, məntiqi izahatda səhvləri və unudulanları görür, faktla nəticələr arasında fərqi üzə çıxarır, dəlillərin əhəmiyyətini qiymətləndirir. Şagirdlərin müzakirəsi həyata keçirildikdən sonra qruplar qiymətləndirilir. Bildiyiniz kimi, qiymətləndirmə meyarları öncədən lövhədə və ya divarda asılmalıdır.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər Manna dövlətinin yaranması və mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir. Onlarda diaqram tərtibetmə bacarığının formalaşdırılmasında məqsəd gələcəkdə işlərin operativ və rahat yolla təqdim edilməsi bacarığını təkmilləşdirməkdir. Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirmək də şagirdlərin əldə edəcəyi nəticələrdən biri kimi müəyyən edilmiş şəkildə həyata keçirilir.

Yaradıcı tətbiqetmə: Manna dövlətinə aid baş vermiş prosesləri özündə əks etdirən cədvəl tərtib edin. Əgər vaxtınız azdırsa, cədvəli əvvəlcədən hazırlayıb şagirdlərə yanlız onu doldurmaq üçün verə bilərsiniz.

Ev tapşırığı: Manna və Aşşur (Assuriya) münasibətlərinə aid araşdırıma aparıb referat yazın.

Qiymətləndirmə meyarları: diaqram tərtibetmə, dəyərləndirmə

Qiymətləndirmə meyarı aşağıdakı səviyyə əsasında reallaşdırıla bilər.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edərkən bəzi səhvlər edir.	Manna dövlətinin mövcudluğu dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.
Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirərkən faktlarda bəzi səhvlərə yol verir.	Manna dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

MÖVZU 4

AZƏRBAYCAN E.Ə. VII–IV ƏSRLƏRDƏ

Alt standartlar:

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. İskitlərin tarixinə aid yazılı mənbənin aid olduğu dövrü müəyyənləşdirir.

2. İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

İnteqrasiya: Ü. t. 3.1.1.

Təlim forması: kollektiv və qrupla iş

Təlim üsulu: beyin həmləsi, mühazirə

Resurslar: dərslik, İskit dövrünə aid tapılmış mənbələrin şəkilləri, illüstrasiyalar, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun tədrisi zamanı verilmiş açar sözlərdən istifadə etməklə motivasiya qurmaq olar. Yaxud da şaxələndirmə üsulu ilə iskitlərə aid elementləri yazmaqla şagirdlərdən cavabı almaq mümkundur. İskit tayfalarının köçü haqqında olan mənbəni oxuyub motivasiyanı reallaşdıra bilərsiniz. Motivasiya olaraq digər vasitə dərslikdə verilmiş bu parçanı şagirdlərə şifahi şəkildə deməkdir. Lakin bu zaman siz iskitlərin adını çəkmirsiniz. Bu faktların hansının tayfaya aid olduğunu əlaqəli şəkildə tapın.

Bu tayfaların tarix səhnəsinə çıxması Yaxın Şərq xalqlarının həyatında dönüş yaratdı. Onların fəaliyyəti Ön Asiyada, o cümlədən Azərbaycan ərazisində qüvvələr nisbətinin dəyişməsinə, qədim dövlətlərin – imperiyaların dağılmasına, yeni imperiyaların yaranmasına təkan verdi. Özləri ilə yeni silahlar, döyüş üsulu, yeni mədəniyyət gətirmiş bu xalq yazılı mənbələrdə müxtəlif adlarla tanınsa da, soy-kök etibarilə türkmənşəli idi. Sonra şagirdlərin fərziyyələrini almaq olar.

Motivasiya baş tutduqdan sonra dövrə aid mühazirə söyləyə bilərsiniz. Mühazirə zamanı fəal interaktiv təlim mühiti yaradın. Bu vaxt şagirdlərin çoxu özünü təsdiq etmək və bildikləri informasiyanın çatdırmaq, eləcə də müzakirəyə qoşulmaq üçün can atacaqlar.

Tədqiqat sualı:

İskit (işquz) şahlığının tarixdəki rolu nədən ibarət olmuşdur?

Bu suala cavab tapmaq üçün tapşırıqlar verilir.

I qrup – Mənbəyə əsaslanaraq Midiyada İşquz ağalığının əhatə etdiyi dövrdə baş vermiş prosesləri müəyyənləşdirin.

II qrup – İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.

III qrup – Midiya dövlətinin süqutunun səbəblərini müəyyənləşdirib cədvəldə təqdim edin.

IV qrup – Əhəməni işğalı dövrünün Azərbaycan tarixinə təsirlərini müəyyənləşdirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və nəticəyə əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdim-etmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər e.ə. VII əsrdə Azərbaycanda İskit şahlığı dövlətinin yaranması haqqında təqdimat hazırlayırlar. İskitlərin Azərbaycan xalqının formalaşmasında mühüm təsiri olduğuna münasibət bildirirlər. Bəhs edilən dövrdə yaranmış dövlətlərin inkişafında müvafiq dövrün xüsusiyyətlərini qiymətləndirərək nəticə çıxarırlar. İskitlərin tarixinə aid yazılı mənbələrdə müəllifin

mövqeyini müəyyənləşdirir, bu dövlətin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirirlər.

Əgər vaxtınız olarsa, kollektiv şəkildə tapşırıq vermək olar. Bunun üçün aşağıdakı tapşırığı tövsiyə edirik.

Kollektiv iş: Əvvəlki siniflərdə aldığınız tarixi biliklərə əsasən Azərbaycana yürüşlər etmiş digər türk boyları ilə İskit-kimmer axınlarını müqayisə edin, fərqli və oxşar cəhətləri müəyyənləşdirin.

Yaradıcı tətbiqetmə: İskit şahı İşpakay ilə Partatuanın siyasəti arasındakı fərqləri sxem əsasında təqdim edin.

Ev tapşırığı: İskit şahlığı ilə bağlı təqdimat hazırlayın, mənbələrə əsasən onların hərəkət coğrafiyasını dəqiqləşdirib təqdimata əlavə edin.

Qiymətləndirmə meyarları: müəyyənetmə, dəyərləndirmə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdləri fərdi şəkildə qiymətləndirin.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
İskit tayfalarının tarixinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə İskit tayfalarının tarixinə aid yazılı mənbədəki faktlarda müəllifin mövqeyini müəyyənləşdirir.	İskit tayfalarının tarixinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	İskit tayfalarının tarixinə aid yazılı mənbənin müəllifinin mövqeyini sistemli şəkildə müəyyənləşdirir.
İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, lakin bəzi səhvlərə yol verir.	İskit dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

MÖVZU 5

ATROPATENA DÖVLƏTİ

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

2. Atropatı Mokedoniyalı İsgəndərlə müqayisə edir və fəaliyyətini dəyərləndirir.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: "birgə axtarış" sualları ətrafında diskussiya, Venn diaqramı

İnteqrasiya: Ü. t. 3.1.1., Coğ. 3.2.1.

Resurslar: dərslik, Atropatın şəkli, Atropatena dövlətinin xəritəsi, elektron təqdimat, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Bu dərsin tədrisi üçün müəllim qarşısına bir neçə vəzifə qoya bilər. Bu vəzifələr şagirdin bilik və bacarığını üzə çıxarmalı, təfəkkürünü inkişaf etdirməlidir. Konkret vəzifələr mövzuya yanaşmanı məhdudlaşdırır. Şagirdlərə təkcə konkret yox, sübuta ehtiyacı olan tapşırıqlar verilərsə, onlar sübut üçün müxtəlif dəlillərə əl atacaq, daha orijinal cavablar verməyə səy göstərəcəklər. Zehni gərginlik (bu gərginlik yoruculuq mənasında deyil, şagird beyninin fəaliyyəti kimi nəzərdə tutulur) tələb edən tapşırıqların verilməsi zamanı təkcə yadda saxlanılmış material və ya keçilmiş materialı mənimsəmək kifayət etmir. Şagirdlərin idrak prosesi daha yüksək səviyyəyə çatmalı, bilmə, anlama ilə kifayətlənməməli, tətbiq, analiz, sintez və qiymətləndirmə qabiliyyətini formalaşdırmağa xidmət etməlidir. Mövzunun tədrisi planlaşmada qeyd olunan inteqrasiya imkanları ilə də həyata keçirilməlidir. Bu mövzu üçün Coğrafiya fənninin standartlarına uyğun olaraq xəritə üzərində iş və s. həyata keçirilə bilər. Ümumi tarix fənni ilə əlaqəli standart isə dünyada baş vermiş proseslər, dövlətlərin yaranmasındakı oxşarlıqlar və onların dəyərləndirilməsi kimi bilik və bacarıqlar fəal dərsin inteqrasiya imkanları üçün çox səmərəli vasitə olar.

Şagirdləri düşünməyə yönəltmək və fəallaşdırmaq üçün motivasiya mərhələsini həyata keçirməyimiz zəruridir.

Motivasiya. Dərslikdə verilmiş açar sözlər: Makedoniyalı İsgəndər, Parfiya dövləti, Artabazd, Roma, Ariobarzan lövhədə yazılır və şagirdlərə bu anlayışlarla bağlı suallar verilir. Suallara cavab tapmaq onlar üçün heç də çətin olmayacaq. Çünki aşağı siniflərdə

Atropatena dövləti haqqında müəyyən bilik və bacarıqlara yiyələnmişlər. Suallara cavab verildikdən sonra dərslikdə əksini tapmış mövzunun giriş hissəsindəki materialı ya özünüz, ya da şagirdlərdən birinə oxuda bilərsiniz.

Atropat təkcə ölkələr fəth edən müzəffər sərkərdə olmamışdır. O, ağır, qeyri-müəyyənlik hökm sürdüyü bir dövrdə xalqını yadelli işğalından xilas edib, ölkəsini əsarətdən qurtarıb müstəqil dövlət yaradan bacarıqlı, dərin düşüncəli dövlət xadimi kimi tarixdə qalmışdır. Atropatın adı ilə Atropatena adlanan ərazilər VII əsrdən etibarən Azərbaycan adlandırılmağa başlanmış, xalqımızın və dövlətimizin adına çevrilmişdir.

Bu abzası oxuduqdan sonra daha bir neçə sualla şagirdlərə müraciət edə bilərsiniz. Atropatın qüdrəti barədə nə bilirsiniz? Bir dövlətin qüdrətli olmasını zəruri edən məqamlar hansılardır? Atropatena dövlətinin Azərbaycan adı ilə bağlılığını nədə görürsünüz?

Suallara cavablar və ya fərziyyələr irəli sürüldükdən sonra tədqiqat sualının elanına ehtiyac duyulur.

Tədqiqat sualı: Atropatena dövləti tarixdə hansı izləri qoya bilmişdir?

Tədqiqat sualına cavab tapmaq üçün "birgə axtarış" adlanan suallar üzrə diskussiya üsulunu tətbiq etmək olar. Bu üsul zamanı müəllim şagirdlərə qabaqcadan hazırlanmış izahedici sualları nəzərdən keçirməyi və müzakirə etməyi təklif edir. İzahedici suallar mətnin məzmunu ilə bağlı olur və onu həyata keçirmək üçün fərdi, qrup, kollektiv və ya cüt formasını tətbiq etmək olar.

Kollektiv işin təşkili üçün "birgə axtarış" üsuluna əsasən aşağıdakı suallar əsasında diskussiyanı həyata keçirin:

- Sizcə, Atropatın Dara ilə əməkdaşlıq etməməsinin səbəbi nə idi?
- Dövlət müstəqilliyini qorumaq üçün hansı amillər vacibdir?
- Atropat yaratdığı dövləti qorumaq üçün hansı addımları atdı?
- Atropatena dövlətinin yaranmasına hansı amillər təkan verdi? Bu dövlətin yaranmasını zəruri edən səbəblər hansı idi?
- Qohumluq əlaqələri Atropatın hakimiyyətə gəlməsində hansı rolu oynadı?
- Atropatın İsgəndər hakimiyyətinə sadiqlik nümayiş etdirməsinin səbəbini nədə görürsünüz?

Daha sonra sinifi qruplara bölüb şagirdlərə qrup işi tapşırın.

I qrup – Atropatena dövlətinin süqutunun səbəblərini müəyyən edin.

II qrup – Manna və Atropatena dövlətlərini Venn diaqramında müqayisə edin.

III qrup – Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.

IV qrup – Atropatı Mokedoniyalı İsgəndərlə müqayisə edib fəaliyyətini dəyərləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə zamanı araşdırılmış problemləri təqdim etmək işini qrup üzvlərinin seçdikləri lider həyata keçirə bilər. Qrupların təqdimatı zamanı cavablar diqqətlə dinlənilir, səhv fikirlər qeydə alınır, müzakirə olunur və əlavələr edilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müəllim dərsi hansı qaydada yekunlaşdıracağını qabaqcadan müəyyən etməlidir. Onun öz məqsədinə çatması üçün tətbiq etdiyi üsul və formanın nəticəsi olaraq şagirdlər Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməyi bacarmalı, Atropatı dünyanın görkəmli tarixi şəxsiyyəti olan İsgəndərlə müqayisə edərək fəaliyyətini dəyərləndirməlidirlər.

Yaradıcı tətbiqetmə: Təsəvvür edin ki, xarici vətəndaş sizdən Atropatena dövləti haqqında fakt soruşur. Və təklif edir ki, sizin dövlətçilik tarixiniz reklam şəklində internet saytlarında yerləşdirilsin. Bunun üçün hər dövlət haqqında 5 cümlə söyləmək kifayət edər. Atropatena dövləti üçün təklif etdiyiniz 5 əsas cümlə hansı olar?

Ev tapşırığı: Atropatı insan və hökmdar kimi dəyərləndirib haqqında referat hazırlayın.

Qiymətləndirmə meyarı: dəyərləndirmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Atropatena dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini faktlar göstərməklə dəyərləndirir.
Atropatı Makedoniyalı İsgəndərlə müqayisə edir, amma fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Atropatı Makedoniyalı İsgəndərlə müqayisə edir və onun fəaliyyətini dəyərləndirir.	Xronologiyada bəzi səhvlər etməklə Atropatı Makedoniyalı İsgəndərlə müqayisə edir və fəaliyyətini dəyərləndirir.	Atropatı Makedoniyalı İsgəndərlə müqayisə edir və fəaliyyətini dəyərləndirir.

MÖVZU 6

ALBANİYA DÖVLƏTİ

Alt standartlar:

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.
2. Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.
3. Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edir.

İnteqrasiya: Coğ. 3.2.4., Ü. t. 3.1.1.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, müzakirə, İNSERT

Resurslar: Albaniya dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, şəkillər, Albaniya haqqında mənbələrdən nümunələr, iş vərəqi və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Mövzunun tədrisi zamanı müxtəlif sualların köməyi ilə şagirdlərin diqqətini Azərbaycanda baş vermiş proseslərə, qonşu dövlətlərin ərazilərimizə olan maraqlarına və onu narahat edən məqamlara, Azərbaycanın siyasi həyatına, eləcə də ölkədə baş vermiş gərginliyə yönləndirin. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək olar. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək mümkündür. Həmçinin açar sözlərdən istifadə etməklə də şagirdlərə suallar vermək olar. Suallara cavab vermək üçün bir neçə dəqiqə vaxt verilməsi daha düzgündür. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd edilərsə, məqsədəuyğun olar. Cavablar alındıqdan sonra İNSERT üsulundan istifadə edərək mətnlə şagirdləri tanış edə bilərsiniz.

Dərslikdə verilən şəkillərin köməyi ilə şagirdlər dövrün şəxsiyyətlərini yaxından tanıyacaq, xəritə vasitəsilə torpaqlarımızda baş vermiş hadisələrin yerini müəyyən edəcək, Albaniya dövlətinin ərazisini tam şəkildə təsəvvür edəcəklər. Şəkillərlə yanaşı, dövr haqqında dərslikdə əlavə verilən məlumatlar, mənbələr şagirdlərdə Albaniya dövləti haqqında tam təsəvvürün formalaşmasına yardım edəcək. Motivasiya baş tutduqdan sonra tədqiqat sualı ortaya qoyulur.

Tədqiqat sualı: Albaniya dövləti dövlətçiliyimiz tarixində hansı iz qoymuşdur?

Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Dərslikdə verilən sual və tapşırıqlardan bu mərhələ üçün istifadə edə bilərsiniz. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması üçün daha yaxşı olardı ki, müxtəlif rənglərdən, məsələn, qırmızı, sarı, yaşıl, mavi, çəhrayı və s. rənglərdən istifadə edəsiniz. Qrupu 5 yerə bölməklə onların adını mövzu ilə bağlı müəyyənləşdirə bilərsiniz. Bu zaman aşağıdakı tapşırıqlar sizin üçün vasitə ola bilər.

I qrup – Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik tərtib edin.

II qrup – Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.

III qrup – Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edin.

IV qrup – Albaniyanın I əsrdə Roma imperiyası ilə yaxınlaşmasının səbəblərini təhlil edin.

V qrup – Albaniya dövlətinin tarixində baş vermiş prosesləri əks etdirən diaqram tərtib edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə şagirdlər öz qrup işlərini nümayiş etdirirlər. Onların liderləri verilmiş tapşırığın təqdimatını qrup adından müəllimə təqdim edir. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilə bilər.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər İsgəndərin ölümünü, Albaniya dövlətinin yaranması üçün şəraitin yaradılmasını, Albaniya dövlətinin tarixdəki izinin nədən ibarət olduğunu, İsgəndərin adına kəsilmiş pulların tapıntısının əhəmiyyətini şərh edirlər. Albanların ticarət əlaqələrinin genişmiqyaslı olmasının ölkəmiz üçün əhəmiyyətini, əhalisinin çoxsaylı olmasının səbəbini əlaqələndirərək izah edirlər. Albaniyada cəmiyyətin nə cür formalaşdığını, dövlətin mövcudluğunu sübut edən amilləri əlaqələndirərək Albaniya dövlətinin yarandığı dövrdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirib qrafik və ya diaqram tərtib edirlər. Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edirlər.

Yaradıcı tətbiqetmə: Albaniya dövlətinin siyasi və ictimai quruluşu haqqında gəldiyiniz qənaət əsasında esse yazın.

Ev tapşırığı: Albaniya tarixinə aid mənbələrə əsasən referat hazırlayın.

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

Qiymətləndirmə meyarları: qrafik və diaqramlar tərtibetmə, dəyərləndirmə, şərhetmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edərkən sinif yoldaşlarından kömək alır.	Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir, lakin bəzi səhvlər edir.	Albaniya dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.
Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirərkən faktlarda əsaslı səhvə yol verir.	Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, lakin fikrini çatdırmaqda çətinlik çəkir.	Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Albaniya dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini sistemli şəkildə dəyərləndirir.
Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edərkən faktlarda səhvlərə yol verir.	Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edərkən sualların köməyindən istifadə edir.	Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edir, fikrini ifadədə bəzi səhvlər edir.	Dövlətlərarası münasibətlərdə Albaniyanın mövqeyini şərh edir.

MÖVZU 7

MƏDƏNİYYƏT

Alt standartlar:

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

Təlim məqsədi:

1. Qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2. Qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından dəyərləndirir.

İnteqrasiya: Ü.t. 5.1.1.

Təlim forması: fərdi və qruplarla iş

Təlim üsulu: fasiləli oxu, Venn diaqramı

Resurslar: qədim dövrə aid tapıntıların şəkilləri və ya maketi, Azərbaycan Respublikasının xəritəsi, iş vərəqi və elektron təqdimat, Qobustan və s. abidələrin videogörüntüsü və ya slaydları. Aşağıda göstərilən saytlardan və s. istifadə edə bilərsiniz:

http://www.azerbaijans.com/content_351_az.html

http://www.azerbaijans.com/content_326_az.html

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya zamanı siz müxtəlif açar sözlərdən, yaxud da slaydlardan istifadə edə bilərsiniz. Həmçinin şagirdləri mövzunun giriş hissəsində verilmiş "Qədim dövrdə əcdadlarımız öz yaşayış və müdafiəsi üçün zəruri olan tikililəri yaratmaqla memarlıq sənətinin ilk nümunələrinin təməlini qoymuşlar. Yaşayış üçün digər məqamları da yaddan çıxarmamış, hazırladıqları hər növdən olan məişət və yaşayış nümunələrinə bədii görkəm və bəzək vermişlər" materialı ilə cəlb etmək olar. Şagirdlərin aşağı siniflərdən bu haqda məlumatı olmamasına baxmayaraq, çalışın onların fərziyyələrini dinləyəsiniz. Fasiləli oxu üsulunun tətbiqi nəticəsində mövzu ilə tanış olan şagirdləri müzakirələrə cəlb etməklə dərsi daha da fəal edə bilərsiniz. Onlara əvvəllər öyrəndikləri faktlardan suallar verərək müqayisələr aparıb dövrlə əlaqələndirmək olar. Manna və Albaniya mədəniyyəti arasındakı oxşar və fərqli cəhətləri Venn diaqramından istifadə etməklə müqayisə edin.

Kitabda bu dövlətlərin ərazisində formalaşmış mədəniyyət haqqında verilmiş məlumatları şagirdlərin müakirəsinə verin. Onların fikirləri ilə maraqlanın. Sinfin səviyyəsinə görə müxtəlif suallar verməklə şagirdlərin fəallaşmasına səbəb olun. Siz Atropatena mədəniyyətini müasir Azərbaycan mədəniyyəti ilə müqayisə edə bilərsiniz. Onların diqqətini şəkillərə, eləcə də mövzu ilə bağlı fotolara cəlb etmək olar. Bu, dövr haqqındakı təsəvvürləri daha da formalaşdırmağa şərait yaradacaqdır.

Tədqiqat sualı: Qədim dövr mədəniyyəti tarixin yaddaşında nələri qoya bildi?

Tədqiqatı aparmaq üçün mövzunun sonunda yerləşdirilən tapşırıqları qruplara vermək olar.

Bunun üçün sinfi 5 qrupa bölün.

Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən artıq vaxt sərf olunacaq üsullara əl atmayın. Daha rahat yollar axtarın. Bu işdə abidələrin şəkillərinə əsasən qrup bölgüsü etmək köməyinizə çata bilər. Bunun üçün

şagirdlərə abidələrin şəkli olan, lakin üzüaşağı formada qoyulmuş birini seçmək təklif olunur. Sonra hər kəs əvvəlcədən müəyyən edilmiş abidələrin şəkillərinin olduğu üzrə qruplaşsınlar.

Qrupu 5 yerə bölməklə onların adını da mövzuya uyğun qoya bilərsiniz. Bu zaman aşağıdakı tapşırıqlar sizin üçün vasitə ola bilər.

I qrup – Arxeoloji qazıntılar zamanı Həsənli və Ziviyədən tapılmış mənbələr əsasında qədim dövr mədəniyyəti haqqında fikirlərinizi şərh edin.

II qrup – Ellin mədəniyyətinin Atropatenaya təsiri hansı abidədə özünü göstərir? Abidələr haqqında məlumatı sxem əsasında təqdim edin.

III qrup – Zərdüşt dininin qədim Azərbaycan mədəniyyətinin formalaşmasında təsiri nədən ibarət idi? Fikirlərinizi faktlara istinadən təhlil edin.

IV qrup – Qədim dövr insanların həyat tərzindəki dəyişikliklərin mədəniyyətdə əks olunmasını mənbələr əsasında təqdim edin.

V qrup – Qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından dəyərləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlər qrup işlərini bu mərhələdə təqdim edirlər. Təqdimat üçün zaman ayırmağı unutmayın. Yoxsa vaxta qənaət edə bilməzsiniz. Qrup liderleri təqdimat zamanı hər hansı bir məlumatı ötürərlərsə və ya hansısa problem olarsa, qrup üzvləri ona yardım edə bilərlər. Hər bir qrupun cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı dərslikdə verilmiş digər suallar sizin üçün yardımçı ola bilər. Bu sualların vasitəsilə aydın olmayan hissələrə aydınlıq gətirilir. İnteraktivliyi qorumaq üçün dünya sivilizasiyası ilə Azərbaycanın qədim dövr mədəniyyəti arasında əlaqə yaradılması və ya müqayisəli şərhlər aparılması əsas məqsədlərdən biridir. Ellin mədəniyyətinin təsirləri, bu mədəniyyətin qoyduğu iz və s. müzakirənin maraqlı obyektlərindən ola bilər. Qrupların mübadiləsi və müzakirəsi bitdikdən sonra mütləq meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Fərdi iş. Azərbaycanın qədim dövr mədəniyyətini əks etdirən sxem tərtib edin.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Bəzən müəllimlər nəticənin çıxarılması dedikdə gəldikləri nəticəni şagirdlərə çatdırmağı və ya dərslikdəki mövzuda yazılmış nəticəni təqdim etməyi başa düşürlər. Düzdür, ənənəvi təlim zamanı bu cür nəticə həyata keçirilirdi. Amma şəxsiyyətyönümlü təhsilin əsas götürüldüyü bir vaxtda bu cür

nəticə çıxarmaq müəllimyönümlü olacaqdır. Nəticələrin çıxarılmasında mövzu və müəllim yardımçı qüvvə olsa da, əsas məqsəd şagirdin gəldiyi nəticədir və o, müəllimin qarşıya qoyduğu məqsədə uyğun olaraq şagirdlərdə formalşdırdığı bilik və bacarıqların inikası olmalıdır. Bu mövzunun tədrisi zamanı məqsədəmüvafiq nəticə şagirdlərin qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etmələri, eləcə də qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından dəyərləndirmə bacarığının formalaşdırılması ilə yekunlaşmalıdır. Şagirdlər bununla qədim dövr Azərbaycan mədəniyyətinin özünəməxsus xüsusiyyətlərini, inkişaf dinamikasını, dünya mədəniyyəti sferasında inkişafını araşdırıb öyrənmiş olurlar. Dövrün aparıcı dini olan zərdüşt dininin əhalinin həyat tərzinə təsirini, yaxud da bu dinin formalaşmasında əhalinin təsirini aydınlaşdırmaq da olar.

Yaradıcı tətbiqetmə: “Azərbaycan zərdüştiliyin vətənidir” mövzusunda esse yazın.

Ev tapşırığı: Əlavə resurslara istinad etməklə Qədim dövr Azərbaycan mədəniyyəti haqqında məruzə hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, təqdimetmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri dərslikdəki materiallar əsasında təqdim edir.	Sualların köməyi ilə Qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edərkən bəzi mənbələrin təhlilində səhvə yol verir.	Qədim dövr insanlarının həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.
Qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından dəyərləndirərkən ciddi səhvlər edir.	Qədim dövr mədəniyyətinin inkişafını dəyərləndirir.	Qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından dəyərləndirir.	Qədim dövr mədəniyyətinin inkişafını tarixi şərait baxımından faktlara əsasən dəyərləndirir.

AZƏRBAYCANIN QƏDİM DÖVLƏTLƏRİ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Məsləhət gördüyümüz ümumiləşdirici dərsdə sizə 1.1.1., 1.2.1., 1.2.2. standartlarından istifadə etməyi tövsiyə edərdik. Bu zaman dərsinizi mənbə ilə işə sərf etməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən şagirdlərlə hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almağınız yaxşı olardı. Bununla belə, siz məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan istifadə edə bilərsiniz.

MÖVZU 8

AZƏRBAYCAN SASANİLƏR DÖVRÜNDƏ

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
2. Sasanilər dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim forması: cütlərlə iş

Təlim üsulu: BİBÖ, müzakirə

İnteqrasiya: Ü.t. 3.1.1., Coğ. 3.2.1.

Resurslar: Sasanilər dövlətinin xəritəsi, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, dərslik və s. Aşağıdakı internet saytlarından istifadə etmək olar:

http://www.anl.az/el/Kitab/2014/Azf-276189.pdf

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_tarixi#Sasanil.C9.99rin_t.C9.99rkibind.C9.99

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiyanın reallaşdırılması üçün müxtəlif vasitələrdən istifadə edə bilərsiniz. Bu vasitələrdən biri Sasanilər dövlətinin xəritəsi ola bilər. Şagirdlərin diqqətini xəritə üzərinə cəlb edin. Onlardan gördükləri ərazilərin tərkibində Azərbaycan torpağının olub-olmadığını soruşa bilərsiniz. Dövrün siyasi mənzərəsinin açılmasına istiqamət verən suallardan istifadə etmək mümkündür. Bu zaman suallara cavab vermək üçün şagirdlər öz fərziyyələrini irəli sürə bilərlər. Sual verərkən dərslikdəki suallar yardımınza çatmış olacaq. Əgər dərslikdəki suallar sizi qane etmirsə, o zaman şagirdlərə istədiyiniz sualı ünvanlaya bilərsiniz.

Motivasiyanın yaradılmasına digər bir istiqamət şəkillərdən istifadə ola bilər. Yaxud da mövzulara aid elektron disklərdən istifadə edib təqdimat keçirməniz mümkündür.

Motivasiyanın hansı yollarla reallaşdırılmasından asılı olmayaraq əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, eləcə də motivasiya uzun vaxt aparmasın. Motivasiya

düşündürücü olacaqsa və ya 3–5 dəqiqəyə baş tutacaqsa, daha səmərəlidir. Motivasiya reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

Bu kimi sualları şagirdlərə ünvanlamaqla onlardan araşdırılacaq mövzu ilə bağlı fərziyyələr ala bilərsiniz. Bu zaman BİBÖ üsulunun tətbiqi həyata keçirildiyi üçün BİBÖ cədvəlini lövhədə və ya flipçartda çəkə bilərsiniz.

Bilirəm	İstəyirəm biləm	Öyrəndim

Əgər motivasiyanız uğurlu alındısa, deməli, artıq tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin tapşırıqların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir.

Tədqiqat sualı: Azərbaycan Sasanilər dövründə hansı tarixi prosesi keçdi?

Tədqiqat sualına cavab tapmaq üçün cütlərlə iş vermək olar.

Dərsin gedişi zamanı mütləq inteqrasiya olunmuş fənlərin standartının tələbinə baxın. Verilən tələbi nəzərə almaqla inteqrasiyanı həyata keçirin.

Cütlərə tapşırıq olaraq aşağıdakıları vermək olar:

I cüt – Sasani dövlətinin tərkibinə daxil olan Albaniya dövlətinin mövqeyini şərh edin.

II cüt – Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.

III cüt – Azərbaycanda feodalizim dövrünün xüsusiyyətləri haqqında məlumat verib özünəməxsusluğunu dəyərləndirin.

IV cüt – Feodalizm quruluşunu quldarlıqla müqayisə edin.

V cüt – Xəritə əsasında Albaniyanın ayrı-ayrı qavar və əyalətlərindən ibarət cədvəl tərtib edin.

VI cüt – Atropatenanın Sasani dövləti üçün əhəmiyyətini faktlara əsasən təhlil edin.

VII cüt – Aquen kilsə məclisi Albaniya dövlətçiliyi üçün hansı əhəmiyyətə malik idi? Şərh edin.

VII cüt – Sasanilər dövründə Sasani-Azərbaycan münasibətlərində Azərbaycanın mövqeyini şərh edin.

VIII cüt – Zərdüşt dininin Sasani və Albaniya münasibətlərinə təsirini dəyərləndirin.

IX cüt – Mani təlimi və Məzdək hərəkatı nəyin sübutudur? Bu hadisələrin baş vermə səbəbini nədə görürsünüz? Şərh edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Cütlərə verilmiş tapşırıqlar müəyyən edilmiş vaxt bitdikdən sonra mübadilə edilir. Mübadilə zamanı aydın olmayan hissələrə aid suallar verin. Bu suallar yönləndirici, düşündürücü və ya faktoloji suallar ola bilər. Cütlərin işlərinin mübadiləsi baş tutduqdan sonra müzakirə mərhələsini həyata keçirə bilərsiniz. Aparılan müzakirə zamanı nəticələrin çıxarılması üçün istiqamət verilməli, şagirdlərin fikirləri alınmalı, səhv və düz cavablar vurğulanmalı, cütlər qiymətləndirilməlidir.

Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əməkdaşlıq etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə etmə	Ümumi rəyə gəlmə
Mahirə					
Anar					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər Sasani dövlətinin yaranmasını, bu dövrdə feodal cəmiyyətinin qurulmasını, feodal münasibətlərin dövlətin idarə olunmasına, eləcə də cəmiyyətin həyatına təsir etməsini şərh edir. Azərbaycan torpaqlarının Sasanilər tərəfindən işğalı, bu torpaqlarda öz idarəçilik sisteminin tətbiqinə cəhdi, qonşuluq münasibətləri araşdırılaraq dəyərləndirilir. Torpaqlarımızın geosiyasi mövqeyinin maraq dairəsində olması qiymətləndirilir.

Ümumiyyətlə, standartdan çıxan məqsədə müvafiq olaraq şagirdlər sonda Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir, dövlətlərarası münasibətlərdə bu mövqeyi şərh edə bilirlər.

Yaradıcı tətbiqetmə: Sasani dövrünün (III–VII əsrlər) xronoloji cədvəlini qurun.

Ev tapşırığı: “Azərbaycanda feodal münasibətlərinin yaranması dövlətçilik tariximizdə iz qoydu” mövzusunda referat yazın.

Qiymətləndirmə meyarları: dəyərləndiirmə, şərhetmə

Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi üçün aşağıdakı səviyyələr müəyyən edilib.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirərkən səhvlər edir.	Sasanilər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
Sasanilər dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Sasanilər dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	Sasanilər dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edərkən səhvlərə yol verir.	Sasanilər dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

MÖVZU 9

GİRDİMAN DÖVLƏTİ. CAVANŞİR

Alt standartlar:

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirir.
2. Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.
3. Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

İnteqrasiya: Ü.t. 1.1.2., Az.d. 1.2.4.

Təlim forması: kollektiv iş, qruplarla iş

Təlim üsulu: beyin həmləsi, İNSERT, müzakirə

Resurslar: Girdiman dövlətinin xəritəsi, Cavanşirin portreti, dövrə aid sxemlər, şəkillər, audiovizual vasitələr, mənbələr, dərslik, iş vərəqləri

https://az.wikipedia.org/wiki/Girdiman_knyazl%C4%B1%C4%9F%C4%B1

http://www.azerbaijans.com/content_362_az.html

http://girdimandovleti.jimdo.com/

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Mövzunun tədrisi zamanı müxtəlif sualların köməyi ilə şagirdlərin diqqətini Azərbaycanda baş vermiş proseslərə, Girdiman dövlətinin yaranmasına və onun siyasi həyatına, daxili və xarici siyasətinə cəlb etmək olar. Motivasiya zamanı dərslikdəki giriş hissədən və ya açar sözlərdən istifadə etməklə dövr haqqında müxtəlif suallar vermək məqsədəuyğundur. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək mümkündür. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğundur. Cavablar alındıqdan sonra İNSERT üsulundan istifadə edərək mətnlə şagirdləri tanış edə bilərsiniz. İNSERT üsulu zamanı şagirdlər bildikləri hissələri qeyd edə, yeni informasiyanı təhlil edə bilərlər.

Şəkillərin köməyi ilə şagirdlər dövr haqqında təsəvvürə malik olmaqla yanaşı, Cavanşir obrazını təsəvvürlərində canlandıracaq, bu obrazın tarixdəki rolunu müəyyən etməyə çalışacaqlar. Xəritədən istifadə edərək Girdiman dövlətinin ərazilərini müəyyən etməklə bu dövlətin geosiyasi əhəmiyyətini dərk edəcəklər. Bütün bunlarla yanaşı, şagirdlərdə bacarıqlar formalaşdırmaqda praktik tapşırıqların əhəmiyyəti böyükdür. Tədqiqat sualı və tədqiqatdan sonra qruplara verilən tapşırıqlar biliyin təcrübə əsasında ortaya çıxarılmasına zəmin yaradan proseslərdəndir.

Tədqiqat sualı: Girdiman dövləti və Cavanşir Azərbaycan tarixində hansı izi qoya bilmişdir?

Tədqiqat aparmaq üçün dərslikdə mövzuya aid verilmiş suallardan istifadə edə bilərsiniz.

Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Qrupu 5 yerə bölməklə onların adını da mövzu ilə alaqələndirə bilərsiniz. Bu zaman aşağıdakı tapşırıqlar sizin üçün vasitə olacaq.

I qrup – Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirin.

II qrup – Girdiman dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirin.

III qrup – Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edin və dəyərləndirin.

IV qrup – Albaniyanın İran-Bizans və İran-ərəb müharibələri dövrünü xarakterizə edin.

V qrup – Faktlara əsasən Girdiman knyazlığının Alban dövləti kimi qiymətləndirilməsini izah edin.

VI qrup – Cavanşirin xarici siyasətini müasir Azərbaycanın xarici siyasəti ilə müqayisə edin. Oxşar və fərqli cəhətləri müəyyənləşdirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlər qrup liderləri vasitəsilə öz işlərini təqdim edirlər. Hər bir qrupun cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı dərslikdə verilmiş digər suallar sizin üçün yardımçı ola bilər:

- Sizcə, ərəb xəlifəsi Müaviyə vaxtilə Cavanşirin ərəblərə qarşı vuruşmasına baxmayaraq, onu nə üçün yüksək səviyyədə qəbul etmişdi?
- Sizcə, Cavanşirin məhz bizanspərəst yerli hakimlər tərəfindən öldürülməsinin səbəbi nə ola bilərdi?
- Alban dövləti, kiçik fasilələr nəzərə alınmazsa, təxminən neçə əsr mövcud olmuşdur?
- Cavanşir hansı dövlətlərlə əvvəl düşmən, sonra isə dost münasibətlərdə olmuşdur?

Bu suallar vasitəsilə aydın olmayan hissələrə aydınlıq gətirilir. Təlim zamanı inteqrasiya imkanlarını nəzərə alsanız, daha səmərəli nəticə əldə etmiş olarsınız. Qrupların mübadiləsi və müzakirəsi bitdikdən sonra meyar əsasında qiymətləndirilmə aparılmalıdır. Qrupun meyar cədvəli öncədən sinifdən asıla və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilə bilər.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əmək-daşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					
VI					

Qrupun özünüqiymətləndirmə vərəqi

- Qrupun iş ovqatı necədir? Bunu rənglə ifadə etmək olar.

- Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bilibmi?

- Kimlər passiv, kimlər fəal olub?

- Qrupun işi hamını təmin edibmi?

- Qrup öz vəzifəsinin öhdəsindən gələ bilib, ya yox?

Ümumiləşdirmə və nəticənin çıxarılması: Bu mövzunun tədrisi zamanı şagirdlər Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirir, bununla yanaşı, Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirirlər. Cavanşirin idarəçilikdə, eləcə də diplomatik münasibətlərdəki mövqeyini təhlil edərək dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirirlər.

Yaradıcı tətbiqetmə: “Cavanşir görkəmli sərkərdədir” adlı esse yazın.

Ev tapşırığı: Əlavə resurslara istinad etməklə Girdiman dövləti haqqında referat hazırlayın.

Qiymətləndirmə meyarları: müəyyənləşdirmə, dəyərləndirmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirir.	Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirərkən bəzi səhvlərə yol verir.	Cavanşirə aid yazılı mənbədə müəllifin mövqeyini müəyyənləşdirir.
Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Girdiman dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini mənbələrə əsasən dəyərləndirir.
Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir.	Müəllimin köməyi ilə Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirərkən səhvlər edir.	Cavanşiri dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

MÖVZU 10

AZƏRBAYCANIN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNƏ DAXİL OLMASI

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə müqayisə edir, təqdimatlar hazırlayır.

2. Azərbaycanın ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında təqdim edir.

3. Ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

İnteqrasiya: Ü.t. 1.1.2., Az.d. 1.2.4.

Təim forması: qrup işi

Təlim üsulu: əqli hücum, debat

Resurslar: dərslik, ərəb yürüşlərinə aid xəritə və sxem, ərəblərə və islam dininin yaranması ilə bağlı videomaterial, slayd, mənbələrdən hazırlanmış paylama materialı, iş vərəqləri.

Əlavə olaraq aşağıdakı internet resurslarından da istifadə edə bilərsiniz:

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_%C6%8Fr%C9%99b_Xilaf%C9%99tinin_t%C9%99rkibind%C9%99

http://www.anl.az/down/meqale/ses/2012/sentyabr/261065.htm

https://az.wikipedia.org/wiki/%C4%B0slam

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün müxtəlif suallardan istifadə etmək olar. Bu zaman şagirdlərə keçmiş bilikləri əsasında suallar verə bilərsiniz. Azərbaycanda yaşayan əhalinin əksəriyyətinin islam dininə sitayiş etməsi nə ilə əlaqəlidir? İslam bir çox xalqların mənəvi həyatına nüfuz etmişdir. Bəs, görəsən, Azərbaycana necə nüfuz etdi? İslam dini necə yaranmışdır? Əsasını kim qoymuşdur? İslam nə üçün belə sürətlə dünya dininə çevrilə bildi? Necə oldu ki, Azərbaycanda əsas dini inanca çevrildi?

Suallarla yanaşı, dərsliyin girişində təqdim olunan açar sözlərdən istifadə etməklə də motivasiya yaradılarkən şagidlərin marağına səbəb ola bilər. Bununla belə, mövzuya uyğun materiallar əsasında onu daha da rəngarəng və maraqlı edə bilərsiniz. Ərəblərdə islam dininin yayılmasına aid istədiyiniz filmlərdən fraqment göstərib şagirdlərə yönləndirici suallar da vermək olar. Motivasiyanı reallaşdırdıqdan sonra tədqiqata başlamaq üçün tədqiqat sualının elanı zəruridir. Bəzən tədqiqat sualını tapşırıq sualı ilə eyniləşdirirlər. Tədqiqat sualı araşdırılacaq problemin həlli yollarını tapmaq üçün verilmiş sualdır. Şagirdlərə verilmiş suallar isə tədqiqat sualına cavab tapmaq üçün istifadə edilir.

Tədqiqat sualı: Azərbaycan Ərəb xilafətinin tərkibinə necə daxil oldu?

Tədqiqatın aparılması üçün debat üsulunu seçmək daha uğurlu addım olar. Debat üçün tapşırıqlar şagirdlərin müzakirəsinə verilir.

I qrup – Ərəb xilafətinin xristianlara olan münasibətini müasir tolerantlıq siyasəti ilə müqayisə edin.

II qrup – Ərəblərin islamın yayılmasının ilk dövrlərindəki uğurlarının səbəblərini müəyyənləşdirin.

III qrup – Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə müqayisə edib təqdimatlar hazırlayın.

IV qrup – Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında təqdim edin.

V qrup – Ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində cütlər tapşırığın icrasını başa vuraraq öz hazırladıqları cavabları təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qrupların cavabları qiymətləndirilir.

Qrupun özünüqiymətləndirmə vərəqi

- Qrupun iş ovqatı necədir (bunu rənglə ifadə etmək olar)?

_____

_____

- Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bilibmi?

_____

_____

- Kimlər passiv, kimlər fəal olub?

_____

_____

- Qrupun işi hamını təmin edibmi?

_____

_____

- Qrup öz vəzifəsinin öhdəsindən gələ bilib, ya yox?

_____

_____

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər mənbələr əsasında islam dininin ərəb yürüşləri zamanı yayıldığını araşdırır, Azərbaycan əhalisinin əsas hissəsini müsəlmanlar təşkil edən müasir Azərbaycanla müqayisə edərək təqdimatlar hazırlayır. Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olması dövründəki dəyişiklikləri mənbələr əsasında təqdim edir. Bununla yanaşı, ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirərək mülahizələr irəli sürür.

Yaradıcı tətbiqetmə: “Ərəblərin Azərbaycana yürüşləri” mövzusunda esse yazın.

Ev tapşırığı: “Ərəb-Azərbaycan münasibətləri müasir dövrdə” adlı referat hazırlayın.

Qiymətləndirmə meyarları: təqdimat hazırlama, təqdimetmə, dəyərləndirmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə müqayisə edir, təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə müqayisə edir, təqdimatlar hazırlayır.	Mənbələr əsasında Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə bəzi səhvlərlə müqayisə edir, təqdimatlar hazırlayır.	Mənbələr əsasında Azərbaycanın ərəb yürüşləri dövrünü müasir dövrlə müqayisə edir, təqdimatlar hazırlayır.
Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında təqdim edir.	Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında bəzi səhvlərlə təqdim edir.	Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olduğu dövrdə baş verən prosesləri mənbələr əsasında təqdim edir.
Ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	Ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini bəzi səhvlərlə dəyərləndirir.	Ərəb yürüşləri dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

MÖVZU 11

XİLAFƏTİN AZƏRBAYCANDAKI SİYASƏTİ

Alt standartlar:

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. Ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

2. Yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirir.

3. Ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

İnteqrasiya: İnf. 1.1.3., Əd. 1.1.4.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: anlayışın çıxarılması, diskussiya

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya zamanı anlayışın çıxarılması üsulundan istifadə edə bilərsiniz.

Motivasiya baş tutduqdan sonra tədqiqat sualını elan edib bu suala əsasən tapşırıqlar verin.

Tədqiqat sualı: Ərəblərin Azərbaycanda tətbiq etdiyi idarəçilik sistemi nədən ibarət olmuşdu?

I qrup – Ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirin.

II qrup – Ərəb idarəçiliyinə aid yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirin.

III qrup – Ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edin.

IV qrup – Ərəblərin köçürmə siyasəti, ilk növbədə, hansı məqsədi güdürdü? Bu barədə məlumatları sistemləşdirib fikirlərinizi bildirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə şagirdlər öz qrup işlərini nümayiş etdirirlər. Qrup liderləri verilmiş tapşırığın təqdimatını qrup adından müəllimə təqdim edirlər. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilə bilər.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Bu mərhələni həyata keçirmək üçün diskussiya təşkil etmək tövsiyə olunur.

Diskussiya prosesində şagirdlər müzakirə olunan məsələ barədə fikirlərini söyləməklə onu əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli fikirlərə dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.

Müəllim şagirdlərə təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını özləri tərtib etsinlər.

Qaydalar aşağıdakılardan ibarət ola bilər:

- eyni vaxtda yalnız bir nəfər danışa bilər;
- danışanı dinləmək;
- sözü kəsməmək;
- tənqid edəndə danışanı deyil, fikri tənqid etmək;
- reqlamenti nəzərə almaq;
- heç kəsi məsxərəyə qoymamaq;
- söz demək istədikdə əl qaldırmaq və s.

Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə lövhədən asa bilər. Bu qaydalar dərs ilinin axırına qədər qalmalıdır ki, sonralar ona istinad etmək və ya əlavələr və düzəlişlər etmək mümkün olsun.

Diskussiyanı həyata keçirdikdən sonra ümumiləşdirmə aparıb nəticə çıxarmaqda şagirdləri yönləndirə bilərsiniz. Onlar ərəblərin həyata keçirdiyi siyasəti araşdırır, onların idarəçilik sisteminin ədalətli və ədalətsiz tərəflərini vurğulayırlar. Bunun üçün şagirdlər ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir, yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu aydınlaşdırır, ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Yaradıcı tətbiqetmə: Ərəb islahatlarını əks etdirən cədvəl tərtib edin.

Ev tapşırığı: Ərəblərin idarəçilik quruluşu haqqında əlavə məlumat toplayıb təqdimat hazırlayın.

Sonda sual verməklə şagirdləri fərdi şəkildə qiymətləndirə bilərsiniz.

Bütün işlərin başında ərəblərin olması nədən xəbər verir?

Xəlifənin torpaq siyasətinə nələr daxil idi?

Ərəblərin köçürmə siyasəti, ilk növbədə, hansı məqsədi güdürdü?

Ərəblər niyə məhz bütpərəstləri müsəlmanlaşdırmağa çalışırdılar?

Fərdi qiymətləndirmə zamanı özünüqiymətləndirmə vərəqlərindən istifadə edə bilərsiniz.

Qiymətləndirmə meyarları: müəyyənləşdirmə, tərtibetmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir, lakin fikrini ifadədə çətinlik çəkir.	Ərəb idarəçiliyinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.
Yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirir.	Yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirir, fikrini ifadə edərkən çətinlik çəkir.	Yazılı mənbələrin, yaxud tarixi sənədin ərəblər dövrünə aid olduğunu müəyyənləşdirir.
Ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin koməyi ilə ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.	Ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir, lakin bəzi səhvlər edir.	Ərəb idarəçiliyi dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

MÖVZU 12

AZADLIQ HƏRƏKATI. BABƏK

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair xronoloji cədvəllər hazırlayır.

2. Babək haqqında topladığı materiallara əsasən referat hazırlayır.

İnteqrasiya: İnf. 4.1.2., Az.d. 3.1.2., Ü.t. 4.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

Resurslar: dərslik, Babəkin şəkli, Azərbaycanın xəritəsi, elektron təqdimat, iş vərəqləri, audiovizual vasitələr, mənbələrdən ibarət paylama materialı və s.

Təqdim olunan internet saytlarından də istifadə edə bilərsiniz.

https://az.wikipedia.org/wiki/Bab%C9%99k

https://az.wikipedia.org/wiki/X%C3%BCrr%C9%99mil%C9%99r_h%C9%99r%C9%99kat%C4%B1

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun tədrisi zamanı ən uğurlu həyata keçirə biləcəyiniz motivasiya "Babək" filmindən fraqment göstərməkdir. Bu, Cavidanla Əbu İmranın döyüş səhnəsi və ya ərəblərə qarşı Babəkin döyüş səhnəsi ola bilər. Göstərilən parçalar şagirdlərə təqdim olunduqdan sonra filmdən göstərilmiş epizodlar müzakirə edilir. Müzakirə zamanı yönləndirici suallardan istifadə etməklə motivasiyanı həyata keçirin. Bu zaman şagirdləri tədqiqata sövq edin. Tədqiqatı həyata keçirmək üçün tədqiqat sualı elan edilməlidir.

Tədqiqat sualı: Babəkin başçılıq etdiyi azadlıq hərəkatının tarixdəki rolu və izi nədən ibarət olmuşdur?

Bu suala cavab axtarmaq üçün şagirdlər qruplara bölünür və onlara tapşırıqlar verilir, paylama materialları və iş vərəqləri paylanır. Tapşırıqlar verilərkən dərslikdə sizə təqdim olunmuş sual və tapşırıqlar köməyinizə çata bilər. Dərslikdəki şəkillər, illüstrasiya və xəritələr də şagirdlərin dövr haqqında daha geniş məlumat almasına yardım edəcəkdir.

I qrup – Müxtəlif materiallara əsasən Babək haqqında referat hazırlayın.

II qrup – Ərəblərin işğalçı siyasətinə qarşı baş vermiş etirazlara aid referat hazırlayın.

III qrup – Xürrəmi hərəkatının ilk mərhələsi haqqında referat təqdim edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə zamanı araşdırılmış problemləri qrup üzvlərinin seçdikləri lider təqdim edə bilər. Qrupların təqdimatı zamanı cavablar diqqətlə dinlənilir, səhv fikirlər qeydə alınır, müzakirə olunur və əlavələr edilir.

Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

İnformasiyanın təqdim edilməsi

Həmişə dəqiqdir	
Əsasən dəqiqdir	
Kifayət qədər dəqiq deyil	
Qeyri-dəqiqdir	
İnformasiya yoxdur	

Kollektiv iş: Mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair xronoloji cədvəl hazırlayın.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər ərəblərin işğalçı siyasətinə aid xronoloji cədvəllər hazırlayır, Babək hərəkatı haqqında geniş məlumata əsasən referat təqdim edir və əvvəllər Cavidanın olması, sonra isə igid və cəsurluğu ilə seçilən Babəkin Xürrəmi hərəkatının rəhbəri olması haqqında öz bildikləri faktları müzakirəyə çıxarırlar.

Mövzunun tədrisi planlaşmada qeyd olunan inteqrasiya imkanları ilə də həyata keçirilməlidir. Bu mövzu üçün İnformatika fənninin standartlarına uyğun cədvəllərin hazırlanması

və s. hazırlanması mümkündür. Həmçinin Ümumi tarixlə əlaqəli standart referat hazırlama bacarığını üzə çıxarmaqda yardımçı olacaqdır.

Yaradıcı tətbiqetmə: Babəkin dövlət başçısı sayılmasının lehinə və əleyhinə fikirlər yürüdün, faktları sxemləşdirib təqdim edin.

Ev tapşırığı: "Babək milli qəhrəmanımızdır" adlı təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: referat hazırlama, xronoloji cədvəllər hazırlama

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair bəzi səhvlərlə xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanda ərəblərə qarşı baş vermiş azadlıq hərəkatına dair xronoloji cədvəllər hazırlayır.
Babək haqqında materialları toplamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Babək haqqında topladığı materiallara əsasən referat hazırlayır, lakin planda səhvlər edir.	Babək haqqında materiallar toplayır, lakin referat hazırlamaqda çətinlik çəkir.	Babək haqqında topladığı materiallara əsasən planlı şəkildə referat hazırlayır.

AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Ümumiləşdirici dərsdə 1.1.2., 1.2.2., 1.3.1. standartlarından istifadə etməyi tövsiyə edərdik. Bu zaman dərsi sırf mənbə ilə işə sərf etməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən şagirdlərlə hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almağınız yaxşı olardı. Bununla belə, bizim məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan istifadə edə bilərsiniz.

MÖVZU 13

ŞİRVANŞAHLAR DÖVLƏTİ. DƏRBƏND ƏMİRLİYİ

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.
2. Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh edir.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: söz assosiasiyası, "birgə axtarış" sualları ətrafında diskussiya

İnteqrasiya: Ü.t. 3.1.1., Coğ. 3.2.1.

Resurslar: dərslik, Şirvanşahlar dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, elektron təqdimat, iş vərəqləri və s.

İnternet resursları siyahısından bu saytlara da müraciət edə bilərsiniz:

https://az.wikipedia.org/wiki/%C5%9Eirvan%C5%9Fahlar_d%C3%B6vl%C9%99ti

https://az.wikipedia.org/wiki/%C5%9Eirvan%C5%9Fahlar_saray%C4%B1

http://www.shirvanshah.az/?id=5&lang=1

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya Söz assosiasiyası əsasında aparılır. Şirvanşahlar adı mərkəzdə qeyd olunur. Şagirdlər bu adla bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasında seçilir və əlaqələndirilir, onlardan ideya çıxarılır. Bu yolla yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər. Müəllim Şirvanşahlar dövlətinin keçdiyi tarixi proseslərdən söz açaraq yeni mövzuya keçid ala bilər. Mövzu aydınlaşdıqdan sonra İNSERT üsulu ilə oxudulması və qeydlərin götürülməsi məqsədəuyğundur. Oxudan sonra tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın yaradılmasının digər bir yolu da Şirvanşahlar sarayına virtual səyahət etmək ola bilər. Bu virtual səyahət zamanı müəyyən informasiyaların ötürülməsi və ya suallar verilməsi mümkündür. Məqsəd şagirdlərin diqqətini araşdırılacaq problemə yönləndirməklə tədqiqata maraq yaratmaqdır.

Tədqiqat sualı: Şirvanşahlar dövlətinin tariximizdəki rolu nədən ibarətdir?

Tədqiqat sualına cavab tapmaq üçün "birgə axtarış" – suallar üzrə diskussiya üsulunu tətbiq etmək olar. Bu üsul zamanı müəllim şagirdlərə qabaqcadan hazırlanmış izahedici sualları nəzərdən keçirməyi və müzakirə aparmağı təklif edir. İzahedici suallar mətnin məzmunu ilə bağlı olur, onu həyata keçirmək üçün fərdi, qrup, kollektiv və ya cütlərlə iş formasını tətbiq etmək olar.

Kollektiv işin təşkili üçün aşağıdakı sualları verə bilərsiniz:

Şirvanşahlar dövləti hansı tarixi şəraitdə yarandı?

Bu dövlətin yarandığı ərazilərə haralar daxil idi?

Şirvanşahlar öz müstəqilliyini necə əldə etdi?

Ərəb xilafətinin zəifləməsinin Şirvanşahlar dövlətinin yaranması ilə əlaqəsi varmı?

IX əsrdə Azərbaycanda feodal dövlətlərinin yaranması nəyin nəticəsi idi?

Şirvanşahlar dövlətində idarəçilk necə aparılırdı?

Dərbənd əmirliyinin Şirvanşahlara tabe edilməsinin əhəmiyyəti nə oldu?

"Birgə axtarış" üsuluna əsasən suallar əsasında diskussiyanı həyata keçirin.

Diskussiyanın həyata keçirilməsi zamanı aşağıdakı qaydaları elan etməyi unutmayın:

- eyni vaxtda yalnız bir nəfər danışa bilər;
- danışanı dinləmək;
- sözü kəsməmək;
- tənqid edəndə, danışanı deyil, fikri tənqid etmək;
- reqlamenti nəzərə almaq;
- heç kəsi məsxərəyə qoymamaq;
- söz demək istədikdə əl qaldırmaq və s.

Diskussiya bitdikdən sonra şagirdləri qrup işi üçün qruplara bölün.

I qrup – Şirvanşahlar dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirin.

II qrup – Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh edin.

III qrup – Dərbənd əmirliyinin yaranmasını və Şirvanşahlara tabe olmasını təhlil edin.

IV qrup – Albaniya dövləti ilə Şirvanşahlar dövlətini müqayisə edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlər müəyyən edilmiş zaman ərzində cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə vaxtı araşdırılmış problemləri qrup üzvlərinin seçdikləri lider təqdim edir. Təqdimat ərəfəsində cavablar diqqətlə dinlənilir, səhv fikirlər qeydə alınır, müzakirə olunur və əlavələr edilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müəllim dərsi hansı qaydada yekunlaşdıracağını qabaqcadan müəyyən etməlidir. Müəllimin məqsədinə çatmaq üçün tətbiq etdiyi üsul və formanın nəticəsi olaraq şagirdlər Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməyi bacarmaqla yanaşı, dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini şərh etməlidir.

Yaradıcı tətbiqetmə: Təsəvvür edin ki, Şirvanşahlar dövlətinin tarixi haqqında istədiyiniz tarixçi alimdən, professordan müsahibə götürürsünüz. Bu müsahibə az vaxtda alınmalı, lakin dolğun cavab üçün yetərli olan sualları əhatə etməlidir. Sizin müsahibə üçün hazırladığınız suallar necə olardı?

Ev tapşırığı: Müasir Azərbaycan Respublikası ilə Şirvanşahlar dövlətinin coğrafi mövqeyini müqayisə edin.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, şərhetmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, lakin nitqində qüsurlara yol verir.	Şirvanşahlar dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.
Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh edir.	Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh edir, lakin bəzi faktlarda yanlışlığa yol verir.	Şirvanşahlar dövlətinin dövlətlərarası münasibətlərdə mövqeyini şərh edir.

MÖVZU 14

SACİ, SALARİ VƏ RƏVVADİ DÖVLƏTLƏRİ

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanda orta əsrdə mövcud olan müstəqil dövlətlərə dair xronoloji cədvəllər hazırlayır.
2. Müstəqil dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

İnteqrasiya: Ü.t. 3.1.1.

Təlim forması: cütlərlə iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

Resurslar: iş vərəqi qismində kontur xəritələr, cədvəl, Saci, Salari və Rəvvadi dövlətlərinin xəritəsi, paylama materialı

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya: Lövhədə asılmış xəritədə Azərbaycan ərazisini göstərin və sualla müraciət edin: Tarixi Azərbaycan torpaqları burada nə dərəcədə əks olunub? (Şagirdlər Dərbənddən Həmədana qədər olan torpaqları göstərməlidirlər). Sonra yenə də müraciət edin: Necə oldu ki, X–XI əsrlərdə Azərbyacanda müstəqil dövlətlər yarandı? ("Ərəb xilafətinin dağılması nəticəsində" cavabı verilməlidir. Əgər cavabı ala bilməsəniz, yönləndirici sual verməyinizi davam edin). Bəs xilafət dağılandan sonra hansı dövlətlər yaranmışdı?



(Bu zaman siz lövhədəki sxemin tamamlanmasını xahiş edin).

Tədqiqat sualı: X–XI əsrlərdə Azərbaycanda yaranmış Sacilərin, Salarilərin, Rəvvadi dövlətlərinin Azərbaycan tarixində nə kimi rolu olmuşdur?

Tədqiqatın aparılması:

Hər bir cütə 3 kontur vərəqi paylayın.

Tapşırıq 1. Kontur xəritələrdə Saci, Salari və Rəvvadi dövlətlərinin sərhədlərini, paytaxt şəhərlərini müəyyənləşdirin.

Tapşırıq 2. Cədvəldə Saci, Salari və Rəvvadi dövlətlərinin banilərini və paytaxtlarını yazın.

Sacilər	Salarilər	Rəvvadilər

Tapşırıq 3. Ərdəbil və Təbriz şəhərlərinin siyasi mövqeyini müəyyənləşdirin. Fikirlərinizi əsaslandırın.

Tapşırıq 4. Saci və Salari dövlətini müqayisə edin. Bu dövlətlərin taleyində hansı oxşar cəhətlər var? Venn diaqramını tərtib edin.

Tapşırıq 5. Nə üçün slavyanların Bərdəyə yürüşü faciə adlanır? Bərdə faciəsi ilə Xocalı faciəsi arasında eyniyyət tapın və cədvəldə qeydlərinizi aparın.

Tapşırıqlara müəyyən vaxt qoyun. Sadədən mürəkkəbə prinsipini nəzərinizdən qaçırmayın. Bu şəkildə şagirdlər tapşırıqları daha tez yerinə yetirə biləcəklər.

Məlumatın mübadiləsi və müzakirəsi

Müzakirə sualları:

- Sacilərin müstəqil dövlət olduğunu hansı amillər sübut edirdi?
- Mərzban ibn Məhəmməd dövlətin möhkəmləndirilməsi üçün hansı addımlar atır?
- Sizcə, nə üçün Rəvvadilər paytaxtı Təbrizə köçürdülər?
- Nə üçün Rəvvadi hökmdarı öz ərazisində oğuzların məskunlaşmasına razılıq verdi?
- Slavyan yürüşlərinin intensiv xarakteri ilə Azərbaycanın sosial-iqtisadi inkişafı arasında əlaqə tapın.
- Bu dövlətlərin süqutunda başlıca amil nədən ibarət idi?
- Bununla belə, bu dövlətlərin mühüm tarixi əhəmiyyəti olub. Onu necə izah edə bilərsiniz?

Müzakirə bitdikdən sonra meyarlar əsasında cütlər qiymətləndirilir.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əməkdaşlıq etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə etmə	Ümumi rəyə gəlmə
Murad					
Dəniz					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Beləliklə, Ərəb xilafətinin dağılmasından sonra Azərbaycanda dövlətçilik ənənələri yenidən bərpa edilir. Müstəqil dövlətlər yaranmağa başlayır. Saci və Salari dövlətləri Azərbaycanın tarixi torpaqlarını əhatə edirlər. Bu dövlətlərin zamanında Azərbaycanda sosial-iqtisadi münasibətlər daha da inkişaf etmişdir. Şəhər həyatı yüksəliş dövrünü yaşayırdı. Bunu "Arranın anası" Bərdənin timsalında göstərmək olar. Bu da ölkənin xarici basqınlara məruz qalmasına səbəb olur. Dövlətlər xarici düşmənə qarşı çıxmağa çalışmışlar. Bu mənada, müstəqil dövlətlərin tarixi rolu dövlətçilik ənənələrinin bərpası ilə bərabər, Azərbaycan xalqının formalaşması prosesinin sürətlənməsinə də gətirib çıxardı. Bununla belə, daxili çəkişmələr onların ömrünü qısa etdi.

Yaradıcı tətbiqetmə: "Mən ..... dövlətin hökmdarı olsaydım" adlı esse yazın. Nöqtələrin yerinə bu dərsdə keçdiyimiz hər hansı bir dövlətin adını yaza bilərsiniz.

Qiymətləndirmə meyarları: cədvəllər hazırlama, dəyərləndirmə

Standarta uyğun olaraq qiymətləndirmə meyarları tərtib edin və səviyyələri müəyyənləşdirin. Topladığınız iş vərəqlərini dərsdənkənar vaxtda səviyyələrə uyğun olaraq qiymətləndirin.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın feodal dövlətlərinə dair xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Sinif yoldaşlarının köməyi ilə mənbələr əsasında Azərbaycanın feodal dövlətlərinə dair xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanın feodal dövlətlərinə dair xronoloji cədvəllər hazırlayır, lakin sistemsizlik edir.	Mənbələr əsasında Azərbaycanın feodal dövlətlərinə dair xronoloji cədvəllər hazırlayır.
Böyük Azərbaycanın feodal dövlətlərinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirərkən ciddi səhvlər edir.	Sualların köməyi ilə Azərbaycanın feodal dövlətlərinin imperiyasının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Azərbaycanın feodal dövlətlərinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir, lakin bəzi faktlarda yanlışlıq edir.	Azərbaycanın feodal dövlətlərinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

MÖVZU 15

ŞƏDDADİLƏR DÖVLƏTİ. TİFLİS MÜSƏLMAN ƏMİRLİYİ

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir.
2. Fəzl ibn Məhəmməd haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

İnteqrasiya: Ü.t. 3.1.1., 4.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: BİBÖ

Resurslar: Şəddadilər dövlətinin, Tiflis müsəlman əmirliyinin xəritəsi, sxem və təsvirlər, Xudafərin körpüsü, Gəncə darvazaları və s. şəkilləri, dərslik, iş vərəqləri, mənbələr və s.

İnternet resursları siyahısından bu saytlara da müraciət edə bilərsiniz:

https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99ddadil%C9%99r

https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99ddadil%C9%99r_s%C3%BClal%-C9%99si

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Siz dərslikdə verilmiş açar sözlərin vasitəsilə motivasiya yarada bilərsiniz. Yaxud da dövrə aid şəkillərdən ibarət slayd hazırlayıb təqdim etməyiniz mümkündür. Aşağı siniflərdə şagirdlərin bu mövzu haqqında məlumatı olduğu üçün motivasiyanı BİBÖ üsulu ilə də başlamaq olar. Bu zaman BİBÖ cədvəli hazırlanıb sinif otağından asılır.

Bilirəm	İstəyirəm biləm	Öyrəndim

Bu cədvəlin "Bilirəm" hissəsi dərsin ilk mərhələsində şagirdlər tərəfindən doldurulur. Bu zaman şagirdlər bildiklərini şifahi şəkildə təqdim edə, siz isə qeydlərinizi apara bilərsiniz. Yaxud da şagirdlər öz bildikləri məlumatları rəngli stikerlərdə yazıb BİLİRƏM hissəsinə yapışdıra bilərlər.

Tədqiqat sualı: Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin ölkəmizin tarixində nə kimi rolu olmuşdur?

Mövzu reallaşdırılarkən dərs qruplarla iş aparılmaqla həyata keçirilərsə, məqsədəuyğun olar. Bunun üçün dərslikdə sizə təqdim olunmuş sual və tapşırıqlardan və ya mənbələrdən istifadə edə bilərsiniz. Əgər şagirdlərin referat hazırlamasını istəyirsinizsə, o zaman bu mövzu ilə bağlı araşdırmanı 1 həftə əvvəl versəniz, daha münasib olar.

Tapşırıqları şagirdlərə verməmişdən öncə onları qruplara bölmək üçün mütləq maraqlı və çevik üsullara əl atın. Qrup bölgüsü vaxt aparmamalıdır. Tapşırıqları payladıqdan sonra şagirdlərə nə edəcəkləri barədə izahat vermək yerinə düşər. Tövsiyəmizdən biri də budur ki, verəcəyiniz tapşırıqlar aydın olmalı və şagirdlər tez-tez sizə suallarla müraciət etməməlidirlər. Bu həm dərsin gedişinə mane olur, həm də vaxta qənaət etmənizi məhdudlaşdırır.

I qrup – Şəddadilər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirib təqdimat hazırlayın.

II qrup – Tiflis müsəlman əmirliyi haqqında referat hazırlayın.

III qrup – Fəzl ibn Məhəmməd haqqında topladığınız materiallara əsasən referat yazın.

IV qrup – Tiflis müsəlman əmirliyi və Şəddadilər dövlətinin tarixi bağları adlı referat hazırlayın.

V qrup – “Azərbaycan xalqının formalaşmasında oğuzların rolu Şəddadilər dövlətinin siyasi uğurunun nəticəsi kimi” adlı təqdimat hazırlayın.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları təqdim edirlər. Qruplar işlərini təqdim edərkən nəticələri ümumiləşdirmək vacibdir. Bu işi lövhədə edin ki, qruplar bir-birinin əldə etdiyi nəticələri görüb qiymətləndirə bilsinlər. Həmçinin şagirdlərə özünüqiymətləndirmə vərəqləri də paylayın ki, özlərini qiymətləndirməni həyata keçirsinlər.

Qrup aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Özünüqiymətləndirmə vərəqi

Ad, soyad, ata adı: İsmayılova Ləman Ramil qızı Tarix: 12 yanvar 2017					
Tapşırığı tam və düzgün yerinə yetirdim.	Dərsdə diqqətli idim.	Məntiqli yanaşmam var idi.	Sual-cavabda aktiv idim.	Əməkdaşlıq etdim.	Etiket qaydalarına riayət etdim.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Şagirdlər araşdırmanın sonunda Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirməklə yanaşı, Fəzl ibn Məhəmməd haqqında topladıqları materiallara əsasən referatlar və təqdimatlar hazırlayırlar. Bu bacarıqları formalaşdırmaqla yanaşı, standartın bilik hissəsinə aid olan məqamları da gözdən qaçırmaq olmaz. Şagird bacarığını formalaşdırarkən düzgün informasiya və ya fakta əsaslanması daha yaxşı nəticə verə bilər.

Ümumiləşdirmə və nəticələrin çıxarılmasını həyata keçirərkən aşağıdakı suallardan istifadə etmək olar:

- Şəddadilərin qüdrətlənməsinə şərait yaradan səbəb nə oldu?
- Şəddadi Məhəmmədin Salarilərə qarşı çıxmasının əsas səbəbi nə idi? Onu bu qədər cəsarətli edən amillər hansılardır?
- Azərbaycana oğuz ailələrinin axınının ölkəmiz üçün əhəmiyyəti nə idi?
- Gəncə qala qapılarını düzəltdirilməsində məqsəd nə idi?
- Şəddadi dövlətinin səlcuqlardan asılı hala düşməsinin səbəbi nə idi? Xudafərin körpüsünün tarixi əhəmiyyəti nədir?
- Tiflis müsəlman əmirliyi nə üçün yaradıldı? Bu əmirliyin ölkəmiz üçün nə kimi önəmi vardır?

Yaradıcı tətbiqetmə: “Oğuz axınları” adlı esse yazın.

Ev tapşırığı: “Müasir Tiflis və tarixin yaddaşı Tiflis müsəlman əmirliyi və ya Fəzl ibn Məhəmməd Şəddadilərin güclü hökmdarı” adlı təqdimat hazırlayın.

Qiymətləndirmə meyyarları: dəyərləndrmə, referatlar və təqdimatlar hazırlama

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Köməkdən istifadə etməklə Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir.	Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirərkən bəzi nüanslarda səhvə yol verir.	Şəddadilər dövləti və Tiflis müsəlman əmirliyinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir.
Fəzl ibn Məhəmməd haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Köməkdən istifadə etməklə Fəzl ibn Məhəmməd haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.	Fəzl ibn Məhəmməd haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır, lakin bəzi faktlarda yanlışlıqlara yol verir.	Fəzl ibn Məhəmməd haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

MÖVZU 16

ERKƏN ORTA ƏSRLƏRDƏ SOSİAL-İQTİSADİ HƏYAT

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın İntibah dövr həyatını müasir dövrlə müqayisə edib təqdimat hazırlayır.

2. Erkən orta əsr dövrünə aid Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

3. Erkən Orta əsrlərdə sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini dəyərləndirir.

İnteqrasiya: Ü.t. 3.1.3., İnf. 4.1.2.

Təlim forması: fərdi və qruplarla iş

Təlim üsulu: əqli hücum, fasiləli oxu

Resurslar: Sosial-iqtisadi həyatı əks etdirən sxem, iş vərəqləri, dərslik, dövrə aid şəkil və illüstrasiyalar, müxtəlif növ bitkilərin nümunəsi (pambıq, sünbül və s. ola bilər) və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiyanı suallar əsasında həyata keçirə bilərsiniz. Bir ölkədə əmin-amanlığın, əhalinin yaxşı yaşamasının mövcud olmasını nə ilə əlaqələndirirsiniz?

Sizcə, bir dövlətin əsas dayağı nədir? İnsanların rifahını necə təmin etmək olar? və s. suallardan istifadə edib şagirdlərə araşdırılacaq problemlə bağlı ilkin mülahizə söyləmək imkanı verin.

Tədqiqat sualı: Erkən Orta əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatında nələr baş verir?

Bu suala cavab axtarmaq üçün qruplara tapşırıqlar verilir. Bundan əvvəl isə fasiləli oxu üsulunu tətbiq etməklə mövzu ilə tanışlığı həyata keçirin. Fasiləli oxu zamanı aydın olmayan və ya maraqlı olan hissələri müzakirə edib oxuya davam edin. Oxu zamanı dərslikdə verilmiş mövzuarası suallara cavab tapmağa çalışın. Bu üsul üçün ayrılmış vaxt bitdikdən sonra qrupların tapşırıqlarını paylayın. Qrup işi meyarlarının təqdim olunmasını da unutmayın.

I qrup – Mənbələr əsasında III–IX əsrlərdə mövcud olan əhalinin təsərrüfat həyatını müasir dövrlə müqayisə edib təqdimat hazırlayın.

II qrup – IX–X əsrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib edin.

III qrup – Azərbaycanda orta əsr şəhər memarlığının xarakterik cəhətləri hansılar idi? Onların mədəniyyətə təsirini dəyərləndirin.

IV qrup – Azərbaycanın IX–X əsr şəhər həyatını Avropanın şəhər həyatı ilə müqayisə edib təqdimat hazırlayın.

V qrup – Torpaq və vergi siyasətini təhlil edib dövr baxımından dəyərləndirin.

VI qrup – ərəb coğrafiyaşünaslarının verdiyi məlumatı şərh edib becərilən məhsulların dünya bazarına çıxarılması prosesini müasir dövrlə müqayisə edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlər cavabları müəyyən olunmuş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdim etmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					
VI					

Qrupun işini qiymətləndirmək üçün aşağıda təqdim olunan özünüqiymətləndirmə vərəqini də verə bilərsiniz.

Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi

Qiymətləndirmə zamanı 1-dən 5-dək ballar verin.

Qrupun üzvləri	Anar, Azər, Mənzər, Xanım, Aqil, Mahirə
Təqdimatın adı	
Qrup üzvlərinin hazırlığı və təşkili	

Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi.	
Hamı əlbir və ahəngdar işləyirdi.	
Qrup bütün sinfi fəal olmağa sövq edirdi.	
Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi.	
Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etdi.	

Fərdi iş. Erkən Orta əsrlərdə iqtisadi həyat mövzusunu sxemləşdirin.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Dərslikdə verilən sualların köməyi ilə dərsinizi ümumiləşdirə və nəticə çıxara bilərsiniz.

Yaradıcı tətbiqemə. Orta əsr Azərbaycan şəhərlərinin memarlığını odövrkü Avropa şəhərlərinin memarlığı ilə müqayisə edin.

Ev tapşırığı: Orta əsrlədəki Azərbaycan şəhərlərində əhalinin həyat tərzini müasir dövrlə müqayisə edən təqdimat hazırlayın.

Fərdi qiymətləndirməni həyata keçirmək üçün aşağıdakı meyarlardan istifadə edin.

Qiymətləndirmə meyarları:

təqdimathazırlama, qrafik və diaqram tərtibetmə, dəyərləndirmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın İntibah dövr həyatını müasir dövrlə müqayisə edib təqdimat hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycanın İntibah dövr həyatını müasir dövrlə mənbələr əsasında müqayisə edib təqdimat hazırlayır.	Mənbələr əsasında Azərbaycanın İntibah dövr həyatını müasir dövrlə müqayisə edib bəzi səhvlərlə təqdimat hazırlayır.	Mənbələr əsasında Azərbaycanın İntibah dövr həyatını müasir dövrlə müqayisə edib təqdimat hazırlayır.
Erkən Orta əsr dövrünə aid Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Erkən Orta əsr dövrünə aid Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.	Erkən Orta əsr dövrünə aid Azərbaycanın sosial-iqtisadi inkişafına dair texniki səhvlərlə qrafik və diaqramlar tərtib edir.	Erkən Orta əsr dövrünə aid Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.
Erkən Orta əsrlərdə sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Erkən Orta əsrlərdə sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini dəyərləndirir.	Erkən Orta əsrlərdə sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini bəzi səhvlərlə dəyərləndirir.	Erkən Orta əsrlərdə sosial-iqtisadi vəziyyətin mədəniyyətə təsirini dəyərləndirir.

MÖVZU 17

MƏDƏNİYYƏT

Alt standartlar:

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. III–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.

2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirir.

3. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdırır, referatlar və təqdimatlar hazırlayır.

İnteqrasiya: Ü.t. 5.1.3., Əd. 1.1.4.

Təlim forması: kollektivlə və qrup işi

Təlim üsulu: fasiləli oxu, müzakirə

Resurslar: dərslik, şəkillər, iş vərəqləri, paylama materialları, sxemlər və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Boş vaxtlarınızda nə ilə məşğul olursunuz? (Şagirdlər sadalayırlar.) Siz həyatınızın bu hissəsini necə daha səmərəli keçirə bilərsiniz? İnsanın elm, təhsil, teatr, kino, kitab, televiziya, idman və s. məşğuliyyəti hansı həyatın bir hissəsidir? (Şagirdlər "mədəni həyat" deməlidirlər.) Şagirdlərdən verdiyiniz suallara cavab almağa çalışın. Onların fikirlərini lövhədə və ya flipçartda qeydə alın ki, fikirlərini nəzərə aldığınızı və onları diqqət mərkəzində saxladığınızı hiss etsinlər.

Fərziyyələr dinlənildikdən sonra tədqiqat işinə başlamaq olar. Aşağıdakı tədqiqat sualını tövsiyə olaraq sizə təqdim edirik.

Tədqiqat sualı: III–X əsrlərdə Azərbaycanın mədəni həyatında nələr baş vermişdi?

Tədqiqatın aparılması: Tədqiqat fasiləli oxu üsulu ilə başlayır. Hər dəfə fasilədə müvafiq suallar və şəkillər göstərilir. Aşağıdakı suallardan istifadə edərək müzakirə xarakterli dərs təşkil edə bilərsiniz:

- III–X əsrdə Azərbaycanın mədəni dirçəlişi nə ilə bağlı idi?
- Sasanilərin tərkibində olması Azərbaycan xalqının mədəni həyatına necə təsir göstərdi?
- Alban əlifbasının olmasını nə sübut edir?

- Alban əlifbasının tarixdən silinməsi hansı amillərlərlə bağlı idi?
- Alban memarlığı daha çox hansı tikili nümunələrini əhatə edirdi?
- Hansı şəhərlər daha da inkişaf edirdi?
- Hansı türk axınlarını tanıyırsınız?
- Türk amilinin Qafqazda güclənməsi nə ilə bağlı idi?
- Dədə Qorqud dastanının yaşı nə qədərdir?
- Oğuzların məkanı hansı torpaqlar hesab olunur?
- Dini amillər mədəni həyata necə təsir göstərirdi?
- İslamın aparıcı dinə çevrilməsi ilə elm və təhsil sahəsində hansı dəyişikliklər baş verir?
- Memarlıqda hansı yeniliklər meydana gəlir?
- Ədəbiyyatda hansı yeniliklər olmuşdur?
- Mədəniyyət insanların həyat tərzinə necə təsir edir?
- Tədqiqatın növbəti mərhələsini qrup işi ilə davam etdirə bilərsiniz.

I qrup – III–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafına təsir göstərən amilləri təhlil edərək dəyərləndirin.

II qrup – III–X əsr mədəniyyətini dövrlərə bölməklə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirin.

III qrup – VII əsrdən etibarən Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi referat hazırlamaqla təqdim edin.

IV qrup – "III–X əsrlərdə Azərbaycanda memarlığın inkişafı" adlı təqdimat hazırlayın.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər hazırladıqıları referat və təqdimatları təqdim edirlər. Onların cavabları dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Qrup işi zamanı qrup üzvlərinin özünü qiymətləndirməsi üçün aşağıdakı kimi özünüqiymətləndirmə vərəqi paylaya bilərsiniz.

Qrupun işində fəaliyyətinizi müvafiq balla (1-dən 5-dək) qiymətləndirin:

Tapşırığı başa düşdüm və başqalarına izah etdim.	
Başqaları ilə əməkdaşlıq edirdim.	
İşin müəyyən hissəsini yerinə yetirdim.	
Fəallıq göstərir və vaxtdan səmərəli istifadə edirdim.	
İdeyalarımı qrupla bölüşdürürdüm.	
Mənbələrdən istifadə edirdim.	

Ümumiləşdirmə və nəticənin çıxarılması: Suallara verilən cavabları ümumiləşdirərək nəticələri çıxara bilərsiniz. Azərbaycanın tarixi qədər onun mədəni həyatı da rəngarəng və qədimdir. Əgər III–VII əsr mədəniyyəti Alban və xristian amili ilə bağlıdırsa, sonrakı əsrlər islam və türk amili ilə sıx bağlıdır. Azərbaycan mədəniyyəti Türk-islam

sivilizasiyasının bir hissəsidir. Azərbaycan xalqının əcdadları dünyaya görkəmli adlar və tanınmış tarixi abidələr irs qoymuşlar. Bu gün həmin mədəniyyətin ənənələri davam etməkdədir. Nəticədə şagirdlər bu dövr mədəniyyətini dəyərləndirməklə yanaşı, referat və təqdimat hazırlamaq bacarıqlarını da nümayiş etdirirlər. Bu zaman onlar günümüzədək gəlib çıxmış nadir inciləri qiymətləndirərək dövrün abidələri haqqında referat və təqdimat hazırlayırlar. Bununla yanaşı, III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirib Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayırlar.

Yaradıcı tətbiqetmə: alban əlifbası, ərəb əlifbası və latın qrafikalı Azərbaycan əlifbasını müqayisə edin. Oxşar və fərqli cəhətləri müəyyən edib cədvəl tərtib edin.

Ev tapşırığı: Divar qəzeti üçün ""Kitabi-Dədə Qorqud" nadir mədəniyyət incimizdir" adlı material hazırlayın.

Qiymətləndirmə bütün dərs boyunca fərdi şəkildə aparılır. Əvvəlcədən meyarlar hazırlanır və səviyyələr müəyyənləşir.

Qiymətləndirmə meyarları: qiymətləndirmə, dəyərləndirmə, referatlar və təqdimatlar hazırlayır

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
III–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə III–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	II–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Mənbələr göstərməklə III–X əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.
III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir, lakin bəzi səhvlər edir.	III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.
III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimat hazırlamaqda çətinlik çəkir.	Şagirdlərin köməyi ilə III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır.	III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır, təqdim etmədə çətinlik çəkir.	III–X əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır.

MÖVZU 18

AZƏRBAYCAN VƏ SƏLCUQLAR

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəllər hazırlayır.

2. Böyük Səlcuq imperiyasının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

İnteqrasiya: Coğ. 3.2.4., Ü.t. 2.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: müzakirə, xronoloji cədvəl

Resurslar: dərslik, xəritə, dövrə dair şəkillər, "Dədə Qorqud" filmindən fraqment, iş vərəqləri

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Məlumdur ki, Səlcuqlar da azərbaycanlılar kimi oğuz türklərindəndir. Buna görə də motivasiyanı bu elementin üzərində qoymaq məqsədəuyğun olar. "Dədə Qorqud" filmindən oğuz ellərinin düşmənə qarşı mübarizəsini əks etdirən bir kadr seçin və şagirdlərə suallarla müraciət edin.

Yönləndirici suallar:

- Oğuzlar hansı dil qrupuna daxildirlər?
- Onların neçə qolu var?
- Türklər hansı qüdrətli imperiyaları yarada bilmişlər?
- Bəs XI əsrdə oğuzların yaratdığı imperiya necə adlanırdı? (Siz şagirdlərin aşağı siniflərdən bu barədə məlumatlı olduqlarını nəzər alaraq sualınıza "Səlcuq imperiyası" cavabini almalısınız).
- Nə üçün tarixçilər bu dövlətə Böyük Səlcuq imperiyası deyirdilər?
- Bu imperiyanın hüdudları nə qədər böyük idi?

Fərziyyələr dinlənildikdən sonra tədqiqata başlamaq olar.

Tədqiqat sualı: Nə üçün Böyük Səlcuq imperiyasının yaradılması Şərqin, o cümlədən ölkəmizin tarixində böyük bir hadisə hesab edilir?

Tədqiqatın aparılması: Əvvəlcə sinfi təşkil edin. Tədqiqata başlamamışdan əvvəl elektron lövhədə Böyük Səlcuq imperiyasının xəritəsini göstərə bilərsiniz (Əgər bu imkanınız yoxdursa, adi xəritədən də istidafə edə bilərsiniz.). Bu zaman Səlcuqların haradan gəldiyini də xatırladın. Sonra müraciət edin: Xatırlayın, XI əsrin əvvəllərində Mərkəzi Asiyada səlcuqlara qədər hansı dövlətlər mövcud idi? Sizcə, nə üçün onlar Xorasanda məskunlaşmaq məcburiyyətində qalmışlar. Bu suallar müzakirə xarakteri aldıqdan sonra qruplara iş təqdim edilir.

I qrup – Səlcuq dövlətinin yaranmasına dair xronoloji cədvəl tərtib edin.

II qrup – Səlcuq axınına məruz qalan əraziləri kontur xəritədə ardıcıl rəqəmlərlə göstərin.

III qrup – Azərbaycan dövlətlərinin səlcuqlar tərəfindən işğalının xronoloji cədvəlini tərtib edin.

IV qrup – Böyük Səlcuq imperiyasının yaranması və inkişafına təsir edən dövrün xüsusiyyətlərini dəyərləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup liderləri hazırladıqları qrup işlərini təqdim edirlər. Təqdimat zamanı hər kəs diqqətli olur ki, müzakirə mərhələsində sual doğuran məqamlar aydınlaşdırılsın.

Müzakirə sualları:

- İlk Səlcuq dövləti hansı şəraitdə meydana gəldi?
- Xəlifə "Şərqin və Qərbin hökmdarı" titulunu I Toğrula niyə vermişdi? Bununla o nə demək istəyirdi? Fikirlərinizi əsaslandırmağa çalışın.
- Oğuz tayfaları hansı hökmdarın dövründə Azərbaycan torpaqlarına köçürülmüşlər?
- O dövrdə Azərbaycan ərazisində yerləşən hansı dövlət Səlcuq imperiyasının tərkibində öz müstəqilliyini saxlaya bilmişdir?
- Necə bilirsiniz, regionda türk amilinin üstünlüyü Səlcuqların siyasəti ilə bağlı ola bilərdimi?
- Səlcuqların Bizans imperiyasının hərbi qüvvələrini darmadağın etməsinin Azərbaycan üçün əhəmiyyəti nədən ibarət idi?
- Böyük Səlcuq imperiyasında mövcud olan Azərbaycanın siyasi vəziyyəti ilə Sasani imperiyasının tərkibində olan Azərbaycanın siyasi vəziyyətini necə müqayisə edə bilərsiniz?

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Qrupun işini qiymətləndirmək üçün aşağıda təqdim olunan özünüqiymətləndirmə vərəqini də verə bilərsiniz.

Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi

Qiymətləndirmə zamanı 1-dən 5-dək ballar verin.

Qrupun üzvləri	Daşqın, Coşqun, Qoşqar, Aynurə, Nuranə, Vüsalə
Təqdimatın adı	
Qrup üzvlərinin hazırlığı və təşkili	
Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi.	
Hamı əlbir və ahəngdar işləyirdi.	
Qrup bütün sinfi fəal olmağa sövq edirdi.	
Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi.	
Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi.	

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirələrdən sonra fikirləri ümumiləşdirin və nəticələri şagirdlərdən almağa çalışın. Yaxşı olar ki, sonda elektron nümunəsini lövhədə də göstərəsiniz. Ümumilikdə bu dərsin məqsədi şagirdlərdə mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəl hazırlamaq, Böyük Səlcuq imperiyasının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirmək bacarıqlarını fomalaşdırmaq idi. Nəticədə siz şagirdlərdən bu bilik və bacarıqları bu və ya digər formada ala bilmisinizsə, deməli, nəticəyə nail olmusunuz.

Yaradıcı tətbiqetmə: Nizami Gəncəvinin "Sultan Səncər və qarı" hekayəsini (bu hekayə uşaqlara tanışdı, buna baxmayaraq, onu paylama materialı kimi sinfə gətirməlisiniz) oxuyun və Böyük Səlcuq imperiyasının tənəzzülü səbəblərini açıqlamağa çalışın, qeydlərinizi hekayəyə əsaslandıraraq yazın.

Ev tapşırığı: "Səlcuqlar Azərbaycanda" adlı referat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, cədvəllər hazırlama

Standarta uyğun olaraq qiymətləndirmə meyarları tərtib edin və səviyyələri müəyyənləşdirin. Topladığınız iş vərəqlərini dərsdənkənar vaxtda səviyyələrə uyğun olaraq qiymətləndirin.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Sinif yoldaşlarının köməyi ilə mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəllər hazırlayır, lakin sistemsizlik nümayiş etdirir.	Mənbələr əsasında Azərbaycanın Səlcuqlar tərəfindən işğalına dair xronoloji cədvəllər hazırlayır.
Böyük Səlcuq imperiyasının yaranması və inkişafını sualların köməyi ilə dərk edir.	Müəllimin koməyi ilə Böyük Səlcuq imperiyasının yaranması və inkişafında, müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Böyük Səlcuq imperiyasının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Böyük Səlcuq imperiyasının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

MÖVZU 19

AZƏRBAYCAN ATABƏYLƏRİ (ELDƏNİZLƏR) DÖVLƏTİ

Alt standartlar:

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

2. Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir.

3. Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

İnteqrasiya: Coğ. 3.2.4., Ü.t. 2.1.2.

Təlim forması: kollektiv və cütlərlə iş

Təlim üsulu: beyin həmləsi, müzakirə, BİBÖ

Resurslar: Atabəylər dövlətinin xəritəsi, Z.Bünyadovun "Atabəylər dövləti" kitabı, şəkillər, Eldənizin, Cahan Pəhləvanın portretləri, dərslik, cütlər üçün iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün dərsliyin girişində verilmiş hissəni şagirdlərə söyləyə bilərsiniz. Bu zaman onların diqqətini Atabəy sözünə cəlb edin. Atabəy sözünün gələcəkdə tariximiz üçün əhəmiyyətinin nə olacağı düşüncəsini onlardan almağa çalışın. Yaxud da belə bir sualla motivasiya qura bilərsiniz: İnsanın ağlı və zəkası nələrə qadir ola bilər? Şagirdlər müəyyən fikirlər söylədikdən sonra sualı davam etdirin. Sizcə, adi bir həyatdan yüksək bir mərtəbəyə qalxmaq çoxmu çətindir? Bir qulun dövlət başçısı vəzifəsinə ucalmasının səbəbini nədə görürsünüz? Sualları verdikcə şagirdlərin fərziyyələri dinlənilməli və lövhədə qeyd olunmalıdır. Şagirdlər Atabəylər dövlətinin yaranması, inkişafı və süqutuna aparan yolları araşdırmağa sövq edildikdən sonra tədqiqat sualını elan edin.

Yaxud da bu mövzunun tədrisi zamanı BİBÖ üsulundan da istifadə edə bilərsiniz. Bu vaxt şagirdlər Atabəylər dövləti haqqında bildikləri məlumatları söyləyəcəklər. Bildiyiniz kimi, BİBÖ üsulu dərsin əvvəlindən sonunadək olan bir mərhələni əhatə edir. Və bu zaman cədvəlin doldurulması prosesi sonadək həyata keçirilir.

Tədqiqat sualı: Atabəylər dövlətinin Azərbaycanın tarixində rolu və yeri nədən ibarət olmuşdur?

Bu suala cavab axtarmaq üçün cütlərə tapşırıqlar verilir.

I cüt – Şəmsəddin Eldənizin hakimiyyətə gedən yolunu təsvir edib qiymətləndirin.

II cüt – Eldənizlər dövlətinin geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edin.

III cüt – Eldənizlər dövlətinin qonşuluq münasibətlərini dövr baxımından dəyərləndirin.

IV cüt – XII əsrin 30-cu illərində Atabəylər dövlətinin geosiyasi mövqeyini dəyərləndirin.

V cüt – Məhəmməd Cahan Pəhləvanın hakimiyyət illərini uğurlu siyasətin nəticəsi kimi qiymətləndirin.

VI cüt – Mənbələr əsasında Eldənizlər dövlətinin qonşu dövlətlərlə siyasətini əks etdirən cədvəl hazırlayıb müasir Azərbaycanın qonşuluq siyasəti ilə müqayisə edin.

VII cüt – Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirib qrafik və ya diaqram tərtib edin.

VIII cüt – Özbəyin uğursuz idarəçiliyini dövr baxımından qiymətləndirin.

IX cüt – Atabəylər dövlətinin inkişafında XII əsrin 70-ci illərindəki xüsusiyyətləri dəyərləndirin.

X cüt – Əbu Bəkr və Özbəyin hakimiyyəti dövrlərini müqayisəli təhlil edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı aşağıdakı suallardan da istifadə edə bilərsiniz.

- Necə oldu ki, Atabəylər dövləti yarandı?
- Eldənizin gördüyü ilk tədbirlər hansılar idi?
- Nə üçün Eldəniz Şirvanşahlar dövləti ilə münasibətləri tənzimləməyə çalışırdı?
- Məhəmməd Cahan Pəhləvan hakimiyyəti möhkəmləndirmək üçün hansı tədbirləri gördü?
- Qızıl Arslanın hakimiyyəti illərində hansı hadisələr baş verdi?
- Nə üçün hakimiyyət uğrunda mübarizə baş verdi?
- Dövlətin süqut etməsinə hansı amillər təsir göstərdi?

Müzakirə bitdikdən sonra meyarlar əsasında cütlər qiymətləndirilir.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əməkdaşlıq etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə etmə	Ümumi rəyə gəlmə
Ayxan					
Orxan					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər Eldənizlər dövlətinin yaranmasını zəruri edən səbəbləri araşdırmaqla Şəmsəddin Eldənizin dövlət üçün gördüyü tədbirləri dəyərləndirir, onun Şirvanşahlarla, eləcə də qonşu dövlətlərlə münasibətlərini müqayisəli təhlil edir, qonşu dövlətlərlə diplomatik münasibətləri dövr baxımından dəyərləndirirlər. Bununla onlar həmçinin Cahan Pəhləvan və Şəmsəddin Eldənizi dünya dövlətlərində aparıcı mövqeyə sahib şəxsiyyətlər ilə müqayisə edir,

fəaliyyətinə qiymət verirlər. Məhəmməd Cahan Pəhləvanı Eldənizlər dövlətinin uğurlu dövlət başçısı kimi təhlil edir, mənbələr əsasında bu dövlətin qonşu dövlətlərlə siyasətini əks etdirən cədvəl hazırlayıb müasir Azərbaycanın qonşuluq siyasəti ilə müqayisə edirlər. Özbəyin uğursuz idarəçiliyini dövr baxımından qiymətləndirirlər. Eldənizlər dövlətinin zəifləməsinin səbəblərini təhlil edirlər.

Kollektiv iş: I Toğrulla Eldənizin fəaliyyətini Venn diaqramı əsasında müqayisə edin.

Yaradıcı tətbiqetmə: Eldənizlər dövləti haqqında buklet hazırlayın.

Ev tapşırığı: *Məhəmməd Cahan Pəhləvan haqqında material toplayın və* ona əsasən referat və ya təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: tərtibetmə, dəyərləndirmə, müqayisə edib dəyərləndirmə

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.	Bəzi səhvlər etməklə Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.	Eldənizlər dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.
Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirərkən səhvlər edir.	Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini dəyərləndirir.	Eldənizlər dövlətinin yaranması və inkişafında dövrün xüsusiyyətlərini mənbələrə əsasən dəyərləndirir.
Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir, lakin şərhində qüsura yol verir.	Eldəniz və Cahan Pəhləvanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

MÖVZU 20

ŞİRVANŞAHLAR XI–XIV ƏSRLƏRDƏ

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Şirvanşahlar dövlətinin XI–XIV əsrlərdəki geosiyasi mövqeyini dəyərləndirir.

2. XI–XIV əsrlərdə dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.

3. Şirvanşahlar dövlətinin tarixi şəxsiyyətlərini (I Axsitan) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

İnteqrasiya: Ü.t. 3.1.1., Az.d. 3.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: mühazirə, debat, cədvəl

Resurslar: dərslik, xəritə, Şirvanşahlar dövlətinin xəritəsi, Azərbaycan Respublikasının xəritəsi, Azərbaycanın atlası, iş vərəqləri

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Nə üçün Orta əsrlərdə, eləcə də müasir dövrdə Azərbaycan xarici dövlətlər üçün belə maraqlıdır? (Şagirdlər torpaqlar, sərvətlər və ticarət yolları anlayışlarını ortaya qoymalıdırlar).

Azərbaycanın hansı dövləti ticarət yollarının üzərində yerləşirdi? (Şirvanşahlar dövlətinin adı çəkilməlidir).

Siz bilirsinizmi ki, bu dövlət Azərbaycan torpaqlarında yaranmış ən uzunömürlü dövlət olmuşdur? Nə üçün Şirvanşahlar Azərbaycanın uzunömürlü dövlətinə çevrilə bildi?

Tədqiqat sualı: XI–XIV əsrlərdə Şirvanşahlar dövlətinin tarixi rolu nə olmuşdur?

Şirvanşahlar dövlətinin yaranması haqqında bir qədər qısa məlumat vermək olar. Yaxşı olar ki, bu, elektron nümunədə olsun.

I qrup – Tapşırıq. Kəsrani hakim və hökmdarlarının şəcərəsini tərtib edin. Hər bir hökmdarın qarşısında gördüyü tarixi işi qeyd edin.



II qrup – Necə oldu ki, Səlcuq yürüşləri zamanı Şirvanşahlar digərlərindən fərqli olaraq öz müstəqilliyini saxlaya bildilər? Şirvanşah I Fəribürzün siyasətini qiymətləndirin. Fikirlərinizi əsaslandıraraq yazın.

III qrup – Nə üçün Gürcü çarı IV Davidin Şirvana yürüşlləri III Mənuçöhrün zamanında daha da artdı? Səbəbləri qeyd edin.

IV qrup – Şirvanşahların Eldənizlərlə münasibətlərini iki dövrə ayırın. Siz bu dövrləri necə adlandıra bilərsiniz? Fikirlərinizi əsaslandıraraq qeyd edin.

Eldənizlər	Şirvanşahlar

Məlumatın mübadiləsi və müzakirəsi: Qruplar öz işlərini nümayiş etdirirlər. Bu zaman bəzi müzakirə suallarından istifadə edə bilərsiniz:

- Şirvasnşahlar dövlətinin ərazisi hansı torpaqları əhatə edirdi?
- Nə üçün bu dövlət "Şirvanşahlar" adlanırdı?
- Bu dövlət nə üçün xarici müdaxilələrə, xüsusən də gürcülərin basqınlarına məruz qalırdı?
- III Mənuçöhrlə I Axsitanın siyasi mövqeyində əsas fərq nədən ibarət idi?

(Müzakirələr bitdikdən sonra sinfə müraciət edərək yenidən tədqiqatı davam edin).

Tədqiqatın II mərhələsi:

- Monqol yürüşləri zamanı Şirvan şahları hansı tədbirlərə əl atdılar? (2 dəqiqə vaxt verin).
- III Fəribürz necə oldu ki, monqol dövlətinin tərkibində müstəqil Şirvanşahlar dövlətinin varlığını saxlaya bildi? (2 dəq).
- Cavablardan sonra yenə müzakirə suallarına müraciət edin:
- Şirvan şahlarının müstəqillik uğrunda mücadiləsini necə qiymətləndirirsiniz?
- Diplomatiya nədir? Siz Şirvanşahların bu siyasətini diplomatiya kimi dəyərləndirə bilərsinizmi? (Qısa debat aparılır).

Dərs boyu fəaliyyətlərini qiymətləndirməsi üçün şagirdlərə özünüqiymətləndirmə vərəqləri paylaya bilərsiniz.

Ad, soyad, ata adı: Əhədova Ləman Şahin qızı Tarix: 27 noyabr 2017-ci il					
Tapşırığı başa düşdüm və fikrimi izah etdim.	Dərsdə diqqətli idim.	Məntiqli yanaşmam var idi.	Sual-cavabda aktiv idim.	Əməkdaşlıq etdim.	Etiket qaydalarına riayət etdim.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirələri ümumiləşdirərək belə qərara gəlirsiniz ki, Şirvanşahların diplomatik münasibətləri onun öz müstəqilliyini, qismən də olsa, qoruyub saxlamasına səbəb oldu. Şirvanşahların coğrafi və strateji mövqeyi onu böyük yürüşlərin hədəfinə çevirdi. Bununla belə, ağıllı siyasətin nəticəsində bu dövlət uzun müddət tarix səhnəsində qala bildi.

Yaradıcı tətbiqetmə: "I Axsitan tarixi şəxsiyyət kimi" adlı məruzə hazırlayın.

Ev tapşırığı: Şirvanşahların daxili və xarici siyasətini bəyəndiyiniz şəxsiyyətləri haqqında referat hazırlayın.

Qiymətləndirmə meyarları: şərhetmə, müqayisəetmə, dəyərləndirmə

Meyarlar tərtib edib səviyyələri müəyyənləşdirin. Qrupları meyarlarla fərdi səviyyələrə görə qiymətləndirin.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Şirvanşahlar dövlətinin XI–XIV əsrlərdəki geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə Şirvanşahlar dövlətinin XI–XIV əsrlərdəki geosiyasi mövqeyini dəyərləndirir.	Şirvanşahlar dövlətinin XI–XIV əsrlərdəki geosiyasi mövqeyini dəyərləndirir.	Şirvanşahlar dövlətinin XI–XIV əsrlərdəki geosiyasi mövqeyini xəritə və sxem əsasında dəyərləndirir.
XI–XIV əsrlərdə dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir, lakin əksər faktlarda səhv edir.	Suallar vasitəsilə XI–XIV əsrlərdə dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.	XI–XIV əsrlərdə dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.	XI–XIV əsrlərdə dövlətlərarası münasibətlərdə Şirvanşahlar dövlətinin mövqeyini mənbələrə əsasən şərh edir.
Şirvanşah I Axsitanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir.	Şirvanşah I Axsitanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir, dəyərləndimədə çətinlik çəkir.	Şirvanşah I Axsitanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Şirvanşah I Axsitanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və faktlar göstərməklə dəyərləndirir.

MÖVZU 21

İNTİBAH MƏDƏNİYYƏTİ

Alt standartlar:

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. İntibah dövrünün şəxsiyyətləri haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır.

2. İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

3. İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır.

İnteqrasiya: Əd. 3.1.2., Az.d. 1.1.2., 2.2.3., Ü.t 5.1.3.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, təqdimat

Resurslar: dərslik, İntibah dövrünün memarlıq abidələrinin şəkilləri, Memar Əcəminin portreti, dövrün digər şəxsiyyətlərinin portretləri, slayd və s.

Motivasiya. Motivasiya üçün intibah dövrünün mədəniyyət incilərini slayd şəkilində təqdim edə bilərsiniz. Yaxud İKT resurslarından istifadə etməklə Azərbaycan Dövlət Tarix Muzeyinə İntibah dövrünə aid virtual səyahət edə bilərsiniz. Bu səyahət zamanı şagirdləri diqqətli olmağa çağırın. Çünki onun böyük əhəmiyyəti vardır. Bu zaman şagirdlər şifahi sual-cavabdan sonra (bu yazılı da həyata keçirilə bilər) dövrə aid abidələr haqqında danışa bilərlər. Verilən cavabların əsasında İntibah dövrü incilərinin Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi müasir dövrümüzədək öz izini qorumasının səbəblərini müəyyənləşdirməyə çalışın. Əgər məktəbinizdə İKT imkanları yoxdursa, sualları şagirdlərin əvvəlki biliklərinə və təcrübələrinə əsasən şifahi şəkildə verməklə də cavablandırılmasını istəyə bilərsiniz. Şagirdlər müxtəlif fərziyyələr söylədikdən sonra onlara tədqiqat sualını verin.

Tədqiqat sualı: İntibah mədəniyyəti tariximizdə hansı izi qoya bildi?

Bu suala cavab tapmaq üçün tapşırıqlar verilir. Sualın cavabını referat və ya təqdimat şəklində almaq mümkündür. Şagirdlərə elan edin ki, sizə ayrılan vaxtda təqdimatlar yekunlaşdırılmalıdır. Bu mövzunun tədrisi üçün qabaqlayıcı tapşırıq verməniz daha uğurlu nəticə əldə etmənizə kömək edəcəkdir.

I qrup – Memar Əcəmi haqqında topladığınız materiallara əsasən referat hazırlayın.

II qrup – Nizami Gəncəvi yaradıcılığı əsasında təqdimat hazırlayın.

III qrup – İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirib təqdimat hazırlayın.

IV qrup – UNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınmış Azərbaycan xalçaları haqqında referat yazıb təqdim edin.

V qrup – İntibah dövründə elm və incəsənətin inkişafını özündə əks etdirən referat hazırlayıb təqdim edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş zaman ərzində şagirdlər hazırladıqıları referat və təqdimatları təqdim edirlər. Onların cavabları dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar meyarlar əsasında qiymətləndirilir.

Qruplar	Mübadilədən düzgün istifadə	Təqdimetmə	Tapşırıq vaxtında yerinə yetirilib	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Qrup işi zamanı qrup üzvlərinin özünü qiymətləndirməsi üçün aşağıdakı kimi özünüqiymətləndirmə vərəqi paylaya bilərsiniz.

Qrupun işində fəaliyyətinizi müvafiq balla (1-dən 5-dək) qiymətləndirin:

Tapşırığı başa düşdüm və başqalarına izah etdim.	
Başqaları ilə əməkdaşlıq edirdim.	
İşin müəyyən hissəsini yerinə yetirdim.	
Fəallıq göstərir və vaxtdan səmərəli istifadə edirdim.	
İdeyalarımı qrupla bölüşdürürəm.	
Mənbələrdən istifadə edirdim.	

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər İntibah dövr mədəniyyətini dəyərləndirməklə yanaşı, referat və təqdimat hazırlayırlar. Bu zaman onlar Nizami yaradıcılığının bəhrəsi olan "Xəmsə"ni dövrün incisi kimi dəyrləndirir, Memar Əcəmi məktəbinin nadir nümunələrini qiymətləndirərək günümüzə qədər gəlib-çıxmış abidələr haqqında referat və təqdimat hazırlayırlar. Bununla yanaşı, XI–XII əsrlər mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirib Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayırlar.

Yaradıcı tətbiqetmə: "Azərbaycan mədəniyyətinin inciləri" adlı buklet hazırlayın.

Ev tapşırığı: "İntibah mədəniyyətimiz dünya intibah mədəniyyətinin tərkib hissəsidir" adlı esse yazın.

Qiymətləndirmə meyarları: referatlar və təqdimatlar hazırlayır

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
İntibah dövrünün şəxsiyyətləri haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə İntibah dövrünün şəxsiyyətləri haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır.	İntibah dövrünün şəxsiyyətləri haqqında topladığı materiallara əsasən bəzi səhvlərlə referat və təqdimatlar hazırlayır.	İntibah dövrünün şəxsiyyətləri haqqında topladığı materiallara əsasən referat və təqdimatlar hazırlayır.
İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməkdə çətinlik çəkir.	Sualların köməyi ilə İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir, lakin bəzi səhvlər edir.	İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.
İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Şagirdlərin köməyi ilə İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır.	İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır, təqdimetmədə çətinlik çəkir.	Intibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi araşdıraraq referat və təqdimatlar hazırlayır.

MÖVZU 22

AZƏRBAYCAN MONQOL YÜRÜŞLƏRİ DÖVRÜNDƏ

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. Verilmiş mətn əsasında Azərbaycanın XIII əsrin əvvəllərinə dair xronoloji cədvəllər hazırlayır.

2. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

3. XIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.

İnteqrasiya: Ü.t. 1.1.3., 2.1.2., Az.d. 3.1.2., Coğ. 3.2.4.

Təlim forması: böyük və kiçik qruplarla iş

Təlim üsulu: beyin həmləsi, anlayışın çıxarılması, müzakirə, Venn diaqramı

Resurslar: kompüter, proyektor, iş vərəqləri, paylayıcı material, dərslik, monqol işğallarını əks etdirən xəritə, şəkillər, “Böyük monqol Çingiz xan” və ya "Çingiz xan” filmlərindən bir fraqment və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu dərsdə motivasiyanı bir neçə formada qurmaq olar. İmkan olduğu halda “Böyük monqol Çingiz xan” və ya “Çingiz xan” filmlərindən bir fraqmenti şagirdlərə göstərin, sonra verəcəyiniz yardımçı suallarla onu dərsə kökləyin. Yaxud digər bir yolla – mövzunun əvvəlində verilmiş məlumatı, açar sözləri şifahi şəkildə şagirdlərə çatdırdığınız sualların köməyi ilə motivasiya yarada bilərsiniz.

Əvvəlki siniflərdə keçilmiş materiallara əsaslanaraq anlayışın çıxarılması üsulundan istifadə etməklə də motivasiya qurmaq olar. Bu zaman aşağıdakı cümlələrdən istifadə edə bilərsiniz:

1. Çinin şimalında məskunlaşmışdılar.
2. XIII əsrədək icma halında yaşayırdılar.
3. XIII əsrin əvvəllərində Azərbaycan onların dağıdıcı hücumlarına məruz qalmışdı.
4. İlk dövlətləri 1206-cı ildə yaradıldı.
5. Bu xalqı və qonşuluqdakı türk tayfalarını vahid dövlət şəklində birləşdirən Çingiz xan olmuşdur.

Hər hansı bir motivasiya formasından istifadə edildikdən, şagirdlərin fərziyyələri dinlənildikdən sonra dərsin növbəti mərhələsinə keçid üçün tədqiqat sualını şagirdlərə verin.

Tədqiqat sualı: XIII əsrin əvvəllərində Azərbaycana edilən dağıdıcı hücumların hansı nəticələri olmuşdur?

Bu mövzunu keçərkən dərsin tədqiqatlara həsr olunan hissəsini kiçik qruplarla iş formasında keçmək məqsədəmüvafiqdir. Bu zaman şagirdlər araşdırma aparar və tədqiqat sualına cavab taparlar. Qruplara verilən tapşırıqlar aşağıdakı formada ola bilər:

I qrup – Monqol yürüşlərinin ərəfəsində Azərbaycanın siyasi vəziyyətini özündə əks etdirən xronoloji cədvəllər hazırlayın.

II qrup – Monqolların Azərbaycana birinci yürüşünün səbəb və nəticələrini araşdırın.

III qrup – Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü nəticəsində insanların həyat tərzindəki dəyişiklikləri şərh edin.

IV qrup – Monqolların Azərbaycana etdikləri yürüşlərə dair diaqramlar tərtib edin.

Qrup işinə verilən vaxt bitdikdən sonra növbəti mərhələ həyata keçirilir.

Məlumatın mübadiləsi və müzakirəsi: Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif məlumatlarla tanış olurlar. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir. Bu zaman dərsin məqsədinə və tədqiqat sualına nəzər salınmalıdır. Müəllim bu deyilənləri nəzərə almaqla öz yekun sözlərini söyləyir və şagirdləri son nəticələrə yönləndirir. Bu zaman siz aşagıdakı suallardan istifadə edə bilərsiniz:

- Mərkəzləşmiş dövlətin əlamətləri hansılardır?
- Monqolların birinci yürüşünün Azərbaycan üçün nəticələri necə oldu?
- Cəlaləddinə qarşı əhalinin narazılıqlarının səbəbi nə idi?
- Nə üçün monqollar ikinci yürüşdə Azərbaycanın işğalını başa çatdıra bildilər? Fikrinizi əsaslandırın.
- Vassallar öz sahiblərinə hansı xidmətləri göstərməli idilər?

Cavablar alındıqdan sonra tətqiqat sualının cavabı araşdırılır.

Yaradıcı tətbiqetmə: Bu mərhələdə şagirdlərin yaradıcı təfəkkürünün inkişafına kömək olacaq hər hansı bir tapşırıq verilə bilər.

1. Azərbaycanın Xarəzmşah Cəlaləddinin yürüşü ərəfəsindəki siyasi vəziyyəti ilə yürüşdən sonrakı siyasi vəziyyətinə dair qrafik hazırlayın.
2. Sasani mərzbanları ilə Monqol canişinlərini müqayisə edən cədvəl hazırlayın.
3. Monqolların birinci yürüşü və Xarəzmşah Cəlaləddinin yürüşünə aid Venn diaqramını tərtib edin.
4. Monqol yürüşlərinin ərəb yürüşlərindən fərqinə aid cədvəl tərtib edin.

Ev tapşırığı:

1. Monqol döyüşçüsü ilə indiki Azərbaycan əsgərinin geyim və sursatını müqayisə edin.
2. “Monqollar Azərbaycanda” adlı referat hazırlayın.

Qiymətləndirmə meyarları: xronoloji cədvəllər hazırlama, təqdimetmə, qrafik və diaqramlar tərtib etmə

Məqsədəmüvafiq meyarlar əsasında səviyyələr əsasında formativ qiymətləndirməni həyata keçirin. Bu zaman sinfin bir neçə şagirdini formativ qiymətləndirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Verilmiş mətn əsasında Azərbaycanın XIII əsrin əvvəllərinə dair xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə verilmiş mətn əsasında Azərbaycanın XIII əsrin əvvəllərinə dair xronoloji cədvəllər hazırlayır.	Verilmiş mətn əsasında Azərbaycanın XIII əsrin əvvəllərinə dair bəzi səhvlərlə xronoloji cədvəllər hazırlayır.	Verilmiş mətn əsasında Azərbaycanın XIII əsrin əvvəllərinə dair xronoloji cədvəllər hazırlayır.
İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Suallar əsasında insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.
XIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edərkən ciddi səhvlərə yol verir.	Şagirdlərin köməyi ilə XIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XIII əsrin əvvəllərində Azərbaycanın geosiyasi mövqeyinə dair sistemli şəkildə diaqramlar tərtib edir.

MÖVZU 23

AZƏRBAYCAN HÜLAKÜLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ

Alt standartlar:

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. XIII əsrin Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.
2. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.

İnteqrasiya: Ü.t. 2.1.2., 3.1.3., Coğ. 3.2.4., İnf. 4.1.2.

Təlim forması: kollektiv iş

Təlim üsulu: beyin həmləsi, söz assosiasiyası, mətn əsasında cədvəlin doldurulması

Resurslar: proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun motivasiyasını bundan əvvəl keçilmiş dərsə qoyulmuş sualların köməyi ilə qura bilərsiniz. Əgər imkanınız varsa, mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən istifadə edin. Bunun üçün İnternet resurslarından da yararlana bilərsiniz.

Motivasiya qurmaq üçün söz assosiasiyasına da müraciət etmək olar. Bunun üçün şagirdlərə Hülakü xan, Qazan xan, monqol hücumları, islahatlar, Qızıl Ordu və s. bu kimi açar sözlər verə bilərsiniz. Bu zaman açar sözləri lövhədə yazıb şagirdlərdən soruşursunuz: *"Bu sözlər sizə nə deyir?, Bu sözlərdən hansı sizə tanışdır və onun haqqında nə deyə bilərsiniz?"* Şagirdlər öz fərziyyələrini bildirirlər. Əldə edilən düşüncələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Tədqiqat sualı: Monqolların Azərbaycana 3-cü hücumu nə ilə nəticələndi?

Dərsi mətn əsasında cədvəlin doldurulması üsulu ilə keçməyi məqsədəuyğun hesab edirik. Bunun üçün lövhədə aşağıdakı formada bir cədvəl qurulur və onu doldurmaq şagirdlərə tapşırılır.

S/s	Qazan xanın keçirtdiyi islahatlar	İslahatın keçirilmə səbəbləri	Keçirilmə forması	Nəticə

Bu cədvəli doldurub qurtardıqdan sonra şagirdlərə monqolların hər üç yürüşünə aid Venn diaqramı qurmağı tapşıra bilərsiniz.

Məlumatın mübadiləsi və müzakirəsi: Verilmiş müddət başa çatdıqdan sonra cədvəl və diaqram müzakirə olunur. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır. Bununla dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıdakı yönləndirici sual və tapşırıqlar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz.

– Azərbaycanın Hülakülər dövlətinin tərkibinə qatılmasının əhəmiyyəti nədə idi?

– Məhkəmə və rabitə islahatlarının mütərəqqi cəhətləri nədə idi?

– Hülakülər dövlətinin tənəzzülünün səbəblərini göstərin.

– Qazan xanın islahatlar keçirməkdə məqsədi nə idi?

– Hülakülər və Qızıl Ordu dövlətləri arasındakı müharibələr XIII əsrdə nə ilə nəticələndi?

Yaradıcı tətbiqetmə:

– Qazan xanın vergi islahatı ilə müasir dövrdə mövcud olan vergiləri müqayisə edin.

– Erkən orta əsrlərdə islahatlar keçirmiş daha hansı hökmdarları tanıyırsınız?

Ev tapşırığı:

1. Xəritəyə əsasən Hülakülər və Qızıl Ordu dövlətlərinin yürüşlərini qeyd edin.
2. XIII əsr Azərbaycanının sosial-iqtisadi inkişafına dair qrafik tərtib edin.
3. XIII əsr Azərbaycanının geosiyasi mövqeyinə dair fikirlərinizi şərh edin.

Qiymətləndirmə meyarları: diaqramlar tərtibetmə, qrafik tərtibetmə

Qiymətləndirmə zamanı hər meyarı səviyyələr üzrə bölməli olduğunuzu yaddan çıxartmamalısınız.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XIII əsrdə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XIII əsrdə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XIII əsrdə Azərbaycanın geosiyasi mövqeyinə dair bəzi səhvlərlə diaqramlar tərtib edir.	XIII əsrdə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.
Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.	Azərbaycanın sosial-iqtisadi inkişafına dair bəzi səhvlərlə qrafik tərtib edir.	Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.

AZƏRBAYCAN XI–XIII ƏSRLƏRDƏ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Məsləhət gördüyümüz ümumiləşdirici dərsdə 2.1.2., 3.1.3. standartlarından istifadə etməyi tövsiyə edərdik. Bu dərsi keçərkən əsas diqqəti şagirdlərdə qrafik və diaqram tərtib etmək bacarıqlarının formalaşdırılmasına yönəltməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən şagirdlərlə hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almalısınız. Bununla belə, bizim məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan istifadə edə bilərsiniz.

MÖVZU 24

AZƏRBAYCAN CƏLAİRİLƏR VƏ TEYMURİLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. XIV əsrdə Azərbaycan ərazisində baş vermiş yadelli hücumları barədə xronoloji cədvəllər hazırlayır.
2. XIV əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.
3. Hülakülər dövlətinin inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

İnteqrasiya: Ü.t. 3.1.1.

Təlim forması: kollektiv və fərdi iş

Təlim üsulu: beyin həmləsi, "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi", Venn diaqramı

Resurslar: İKT vasitələri, "Nəsimi" filmi, CD disk, XIV əsrə aid Azərbaycanın xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker, rəngli karandaşlar və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Məlum olduğu kimi, motivasiyanın reallaşdırılmasının müxtəlif yolları və vasitələri var. Bunlardan biri İKT-dən istifadə etməkdir. Proyektor vasitəsilə ağ lövhədə "Nəsimi" filmindən kiçik həcmli bir fraqment göstərə bilərsiniz. O nümayiş olunandan sonra şagirdlərə yönləndirici suallarla müraciət etmək olar. Filmdə nədən bəhs edilir? Film hansı ölkənin tarixinə aiddir?

Başqa bir variant isə XIV əsrə aid Azərbaycan xəritəsindən, müxtəlif şəkillərdən istifadə etməklə slayd hazırlamaqdır. Bu zaman slaydlar göstərilərək onlara müxtəlif yönləndirici suallar vermək və motivasiya yaratmaq olar. Əgər sizin İKT resurslarından istifadə etmək imkanınız yoxdursa, motivasiyanı məktəbinizdə olan xəritə, şəkillər və ya jurnallar, kitablar hesabına da qura bilərsiniz. Təbii ki, bu zaman da siz şagirdi dərsə motivə etmək üçün yönləndirici suallar verməlisiniz. Əsas odur ki, quracağınız motivasiya sizin sinfin xüsusiyyətlərinə uyğun olsun. Belə ki, şagirdlərin bilik və bacarıqlarına daha yaxından bələd olduğunuz halda səmərəli motivasiya qurmaq imkanına malik olacaqsınız.

Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi" üsulundan istifadə edərək dərsin tədqiqat mərhələsinə keçə bilərsiniz.

Tədqiqat sualı: XIV əsr Azərbaycanın geosiyasi vəziyyətində nələr baş verirdi?

Şagirdlərə dərsin qaydalarını qısaca izah edib tədqiqat bölməsinə keçə bilərsiniz. Tədqiqat sualına cavab tapmaq üçün "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi" metodunu seçmək məqsədəuyğun olardı. Bu metod şagirdlərdə suallar quraşdırmaq vərdişini inkişaf etdirir. Şagirdlər növbə ilə mətni abzasla oxuyur, birlikdə bu abzasdan açar sözlər seçir və onu dəftərə yazırlar. Sonra termin sözlər adlandırdığımız sözlərdən suallar tərtib edilir. Onları çox da böyük olmayan vərəqlərə yazırlar.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş vaxt bitdikdən sonra məlumatlar mübadilə və müzakirə edilir. Bu zaman şagirdlərdən yığdığınız vərəqləri təkrarən onlara (lakin müxtəlif şagirdlərə) verirsiniz. Bu zaman onlardan biri bu vərəqdəki sualı oxumalı, digəri isə ona cavab verməlidir. Əgər cavabın düzgün olduğu qəbul edilərsə, o, vərəqin arxa tərəfinə yazılır. Bu kart-cavabı şagirdlər sonradan mövzu üzrə öz biliklərini yoxlamaq üçün istifadə edə bilərlər.

Bu zaman aydın olmayan hissələrə suallar verin. Bu suallar yönləndirici, düşündürücü və ya faktoloji suallar ola bilər. Aparılan müzakirə nəticələrin çıxarılması üçün istiqamət verməli, şagirdlərin fikirləri alınmalı, səhv və düz suallar və cavablar vurğulanmalı, qiymətləndirilməlidir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Ümumiləşdirmə və nəticə mərhələsini siz aşağıdakı suallarla apara bilərsiniz:

– Hülakülər dövlətinin tənəzzülü dövründə Azərbaycan uğrunda mübarizədə hansı sülalələr iştirak edirdi?

– Əmir Teymurun Azərbaycana ilk yürüşlərinin nəticələri nədən ibarət idi?

– Nə üçün Çobanilər Azərbaycanda ayrıca dövlət yarada bilmədilər?

– Təbriz şəhəri hansı Azərbaycan dövlətlərinin paytaxtı olmuşdur?

– Azərbaycanda Cəlairi hakimiyyəti dövrünü necə səciyyələndirirsiniz?

Yaradıcı tətbiqetmə: Bu mərhələdə şagirdlərə aşağıdakı sual-tapşırıqları verə bilərsiniz:

– Mənbəyə əsasən müəyyənləşdirin: Əmir Teymur Təbriz şəhərini kimin zülmündən azad etdi?

– Əmir Teymur və Qızıl Ordu xanı Toxtamışı Venn diaqramında müqayisə edin.

– XIV əsrdə Azərbaycan ərazisinə baş vermiş yadelli hücumları barədə xronoloji cədvəl hazırlayın.

Ev tapşırığı:

Xəritəyə əsasən Qızıl Ordu xanı Toxtamışın Azərbaycana yürüşünün sxemini qurun.

Qiymətləndirmə meyarları: xronoloji cədvəllər hazırlama, diaqramlar tərtib etmə, dəyərləndirmə

Yuxarıda qeyd olunan meyarlar əsasında fomativ qiymətləndirməni həyata keçirin. Bu zaman əvvəlcədən nəzarətə götürdüyünüz bir neçə şagirdi formativ qiymətləndirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XIV əsrdə Azərbaycan ərazisində baş vermiş yadelli hücumları barədə xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Kömək vasitəsilə XIV əsrdə Azərbaycan ərazisində baş vermiş yadelli hücumları barədə xronoloji cədvəllər hazırlayır.	XIV əsrdə Azərbaycan ərazisində baş vermiş yadelli hücumları barədə cədvəllər hazırlayır.	XIV əsrdə Azərbaycan ərazisində baş vermiş yadelli hücumları barədə xronoloji cədvəllər hazırlayır.
XIV əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edərkən çətinlik çəkir.	XIV əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edərkən səhvlər edir.	XIV əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XIV əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramları sistemli tərtib edir.
Hülakülər dövlətinin inkişafını dəyərləndirərkən shvlər edir.	Hülakülər dövlətinin inkişafını dəyərləndirir.	Hülakülər dövlətinin inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Hülakülər dövlətinin inkişafında müvafiq dövrün xüsusiyyətlərini faktlarla dəyərləndirir.

MÖVZU 25

QARAQOYUNLU DÖVLƏTİ

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. XV əsrin I yarısında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
2. Qaraqoyunlular dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.
3. Qara Yusifi Hülakü xanla müqayisə edir və dəyərləndirir.

Təlim forması: kollektiv və cütlərlə iş

Təlim üsulu: iş vərəqləri ilə iş

İnteqrasiya: Ü.t. 2.1.2., 3.1.1., Coğ. 3.2.1.

Resurslar: Qaraqoyunlu dövlətinin xəritəsi, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, İKT avadanlıqları, dərslik və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiyanın reallaşdırılması üçün müxtəlif vasitələrdən istifadə edə bilərsiniz. Bu vasitələrdən biri dövrün siyasi mənzərəsinin açılmasına istiqamət verən suallardan yararlanmaqdır. Suallara cavab vermək üçün şagirdlər öz fərziyyələrini irəli sürə bilərlər. Bu zaman dərslikdə olan suallar yardımınıza çatacaq. Əgər dərslikdəki suallar sizi qane etmirsə, istədiyiniz şəkildə yeni suallar tərtib edə bilərsiniz.

Motivasiyanın yaradılması üçün digər bir istiqamət şəkillərdən istifadə ola bilər. Yaxud da mövzulara aid elektron disklərdən istifadə edib təqdimat keçirməyiniz mümkündür.

Motivasiyanın hansı yollarla reallaşdırılmasından asılı olmayaraq, əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, eləcə də motivasiya uzun vaxt aparmasın. Onlar düşündürücü və 3-5 dəqiqəyə baş tutarsa, daha səmərəli olar. Motivasiya reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

Əgər motivasiyanız uğurlu alınıbsa, deməli, artıq tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin tapşırıqların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir.

Tədqiqat sualı: Azərbaycan Qaraqoyunluların dövründə hansı tarixi prosesi keçdi?

Tədqiqat sualına cavab tapmaq üçün cütlərə iş vermək olar. Dərsin gedişi zamanı mütləq tövsiyə edilən inteqrasiya olunmuş fənlərin standart tələbinə baxın. İnteqrasiyanı verilən tələbi nəzərə almaqla həyata keçirin. Cütlərə verilən tapşırıq aşağıdakı formada mümkün ola bilər.

I cüt – Dövlətini yaradana qədər Qaraqoyunluların siyasi fəaliyyətini dəyərləndirin.

II cüt – Qaraqoyunlu dövlətinin yaranmasını dəyərləndirin.

III cüt – Qaraqoyunlu-Şirvanşah münasibətlərini təhlil edin.

IV cüt – Qara Yusifin hakimiyyəti dövrünü şərh edin.

V cüt – Mənbəyə əsasən Qara Yusifin hökmdar kimi üstün xüsusiyyətlərini müəyyən edin.

VI cüt – "Azərbyacan qoşununun tüğyanını yalnız bahadırların həmləsi yatıra bilər" ifadəsini şərh edin.

VII cüt – Cahanşahın hakimiyyəti dövrünü dəyərləndirin.

VIII cüt – Qaraqoyunlu dövlətinin süqutu səbəblərini araşdırın.

Məlumatın mübadiləsi və müzakirəsi: Cütlərə verilmiş tapşırıqlar müəyyən edilmiş vaxt bitdikdən sonra mübadilə edilir. Mübadilə zamanı aydın olmayan hissələrə suallar verin. Bu suallar yönləndirici, düşündürücü və ya faktoloji suallar ola bilər. Cütlərin işlərinin mübadiləsi baş tutduqdan sonra müzakirə mərhələsini həyata keçirə bilərsiniz. Aparılan müzakirə nəticələrin çıxarılması üçün istiqamət verməli, şagirdlərin fikirləri alınmalı, səhv və düz cavablar vurğulanmalı, cütlər qiymətləndirilməlidir.

Cütlərin işini aşağıdakı meyarlar əsasında dəyərləndirə bilərsiniz.

Cütlərdə işləyən şagirdlərin adı	Fəallıq səviyyəsi (zəif, orta, yüksək)	Əməkdaşlıq etmə	Qaydalara əməl olunması	Tapşırığın icrası zamanı müzakirə etmə	Ümumi rəyə gəlmə
Günay					
Arif					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Nəticədə şagirdlər Qaraqoyunlu dövlətinin yaranmasını, inkişafını, Qaraqoyunlu Şirvanşah münasibətlərini, Qaraqoyunluların siyasi fəaliyyətini, Qara Yusifin və Cahanşahın hakimiyyəti dövrünü, Teymuri Şahruxun Azərbaycana etdiyi hücumlarını, eləcə də bütün bunların cəmiyyətin həyatına təsir etməsini şərh edib dəyərləndirirlər. Torpaqlarımızın geosiyasi mövqeyinin maraq dairəsində olması qiymətləndirilir.

Yaradıcı tətbiqetmə:

– Qara Yusifin Şirvanşahlar üzərində qələbəsinin əhəmiyyətini necə qiymətləndirirsiniz?

– Azərbaycanın coğrafi strateji mövqeyinin XIV əsrin sonları – XV əsrdə regionda baş verən hadisələrlə bağlılığını izah edin.

– Qaraqoyunlu dövlətini o vaxta qədər mövcud olmuş orta əsr Azərbaycan dövlətləri ilə müqayisə edin, oxşar və fərqli cəhətləri aydınlaşıdırın.

– Qara Yusifi Hülakü xanla müqayisə edin.

Ev tapşırığı:

1. Qaraqoyunlu dövlətinin Azərbaycan tarixində oynadığı rol barəsində referat hazırlayın.

2. Qara Yusifn şəxsiyyəti və dövlətçilik fəaliyyəti haqqında təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, şərhetmə, müqayisə edib dəyərləndirmə

Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətlndirilməsini müəyyən etdiyiniz səviyyələr üzrə həyata keçirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XV əsrin I yarısında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XV əsrin I yarısında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XV əsrin I yarısında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XV əsrin I yarısında Azərbaycanın geosiyasi mövqeyini faktlarla dəyərləndirir.
Qaraqoyunlular dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Qaraqoyunlular dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	Qaraqoyunlular dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	Qaraqoyunlular dövründə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini faktlarla şərh edir.
Qara Yusifi Hülakü xanla müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Qara Yusifi Hülakü xanla müqayisə edir və dəyərləndirir.	Qara Yusifi Hülakü xanla müqayisə edir və dəyərləndirir.	Qara Yusifi Hülakü xanla müqayisə edir və faktlarla dəyərləndirir.

MÖVZU 26

AĞQOYUNLU DÖVLƏTİ

Qeyd:

Hörmətli müəllimlər, məlum olduğu kimi, Azərbaycan tarixi fənni kurikulumunun tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələrinə diqqət yetirəndə 10-cu sinfin sonunda şagirdin hansı bacarıqlara yiyələnməli olduğu açıqlanmışdır. Kurikulum standartlarının dövlət tələbi olduğunu nəzərə alsaq, onda bu tələblərin yerinə yetirilməsi məsələsinə də olduqca diqqətlə yanaşmaq lazımdır. Məlum olduğu kimi, bəzi standartların bir 45 dəqiqə ərzində tam reallaşdırılması mümkün olmadığından biz bəzən

bu standartların (məsələn, 1.1.1., 1.2.1., 2.1.2., 3.1.3., 4.1.2., 5.1.3.) reallaşdırılması üçün evə tapşırıq verməyi məsləhət görürük. Bu zaman siz şagirdlərin:

- *mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, xronoloji cədvəllər hazırlayır;*
- *yazılı mənbənin aid olduğu dövrü və müəllifin mövqeyini müəyyənləşdirir;*
- *müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir, qrafik və diaqramlar tərtib edir;*
- *görkəmli tarixi şəxsiyyətlər haqqında referat və təqdimatlar hazırlayır*

kimi bacarıqlarının formalaşdırılması məsələlərində yaxından köməklik edə bilmirsiniz. Mövcud paraqrafı keçmək üçün sizə 2 saat verilməsi bu boşluğu aradan qaldırmağa əla fürsət verir. Buna görə də siz dərsinizi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dərsin bir saatını kiçik qruplarla iş, digər bir saatını isə 1.2.1. (*Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.*), 1.2.2. (*Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.*), 3.1.3. (*Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.*), 4.1.2. (*Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.*) standartlarını nəzərə almaqla kollektiv, cütlərlə və ya fərdi iş formasında keçməyi məsləhət görərdik. Bu zaman siz standartdan çıxış edərək şagirdlərdə ***mənbə müəllifinin mövqeyini və mənbələrin aid olduğu dövrü müəyyənləşdirmək, qrafik və diaqramlar tərtib etmək, referatlar və təqdimatlar hazırlamaq*** bacarıqlarını formalaşdırıb inkişaf etdirə bilərsiniz. Bununla belə, nəzərə alın ki, siz məsləhət gördüyümüz standartları və məqsədləri artıra və azalda, eləcə də hər hansı standartı dəyişə bilərsiniz.

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. Ağqoyunlu dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

2. Uzun Həsəni Qara Yusif və II Mehmetlə müqayisə edir və dəyərləndirir.

İnteqrasiya: Ü.t. 3.1.1., 4.1.1., Coğ. 3.2.1.

Təlim forması: böyük və kiçik qruplarla iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

Resurslar: XV əsrə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, kompüter, proyektor və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş sözlərini açar sözlər kimi vermək olar. Mövzunun əvvəlində yazılanlar və açar sözlər səsləndirildikdən sonra şagirdlərə suallarla müraciət edə bilərsiniz. Beləliklə, çətinlik çəkmədən dərsin motivasiyasını qurmaq mümkündür. Motivasiya yaratmaqdan ötrü şagirdlərin diqqətini Qaraqoyunlu dövlətinin dağılması səbəblərinə, XV əsrin ortalarında bu dövlətin düşdüyü ağır sosial, iqtisadi və siyasi vəziyyətə cəlb etmək lazımdır. Bu məqsədlə elə suallar verməlisiniz ki, bu, şagirdlərdə fərziyyə söyləyə bilmək imkanı yaratsın. Beləliklə, verəcəyiniz suallardan sonra onlar öz düşüncələrini bildirirlər. Əldə edilən fərziyyələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Motivasiya qurmaqdan ötrü şagirdlər üçün anlayışın çıxarılması üsulundan (Zənnimizcə, bu üsulla şagirdləri Uzun Həsən və ya Ağqoyunlu dövlətinə motivə etmək heç də çətin olmamalıdır. Çünki onlar 5-ci və 8-ci siniflərdə Ağqoyunlu dövləti ilə yaxından tanış olublar) istifadə edə və ya slaydlar hazırlaya bilərsiniz. Motivasiyanı hansı üsulla quracağınızdan asılı olmayaraq, əsas odur ki, o, tədqiqat sualına xidmət etmiş olsun.

Tədqiqat sualı: Avropanı lərzəyə salan Osmanlı dövləti ilə mübarizə aparmağa qadir olan Azərbaycan dövlətinin tarixdə nə kimi rolu olmuşdur?

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman fəal təlimin müzakirə üsulundan istifadə etsəniz, daha yaxşı olar. Bunun üçün qruplara tədqiqat məqsədilə aşağıdakı sualları verə bilərsiniz.

I qrup – Ağqoyunlu dövlətinin yaranmasında Uzun Həsənin rolunu dəyərləndirin.

II qrup – Ağqoyunlu-Osmanlı münasibətlərinin kəskinləşməsini şərh edin.

III qrup – Ağqoyunlularla Avropa dövlətləri arasında qurulan diplomatik mübasibətləri qiymətləndirin.

IV qrup – Uzun Həsənin ölümündən sonra Ağqoyunlu dövlətinin siyasi vəziyyətini dəyərləndirin.

V qrup – XV əsrdə dövlət idarəçilik sistemini təhlil edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları təqdim edirlər. Onlar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra siz əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları qiymətləndirməlisiniz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Verdiyiniz yönləndirici suallar vasitəsilə şagirdlər Ağqoyunlu dövləti yaranmasında Uzun Həsənin rolunu, onun ölümündən sonra dövlətin siyasi vəziyyətini dəyərləndirir, Ağqoyunlu-Osmanlı münasibətlərinin kəskinləşməsini, Ağqoyunlularla Avropa dövlətləri arasında qurulan diplomatik münasibətləri şərh edir və qiymətləndirirlər. Bu da, öz növbəsində, sizə tədqiqat sualına cavab tapmaqda kömək etmiş olacaq.

Yaradıcı tətbiqetmə:

Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz:

– Sizcə, Ağqoyunlu və Osmanlı dövlətləri arasında baş verən müharibədən yayınmaq mümkün olardımı? Fikirlərinizi əsaslandırın.

– Ağqoyunlu və Qaraqoyunlu dövlətində mövcud olan vəzifələrə başqa hansı dövlətlərdə rast gəlmisiniz?

– Coğrafi biliklərinizə əsasən Ağqoyunlu dövlətinə daxil olan ərazilərdə hansı dövlətlərin yerləşdiyini müəyyənləşdirin.

– Uzun Həsən və Qara Yusifin dövlətçilik fəaliyyətlərini Venn diaqramında müqayisə edin.

Ev tapşırığı:

1. Uzun Həsən haqqında əlavə məlumat toplayın və onu Fateh II Mehmetlə müqayisə edin.

2. Saray xatun haqqında təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, müqayisə edərək dəyərləndirmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdləri yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Ağqoyunlu dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Ağqoyunlu dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini müəllimin köməyi ilə dəyərləndirir.	Ağqoyunlu dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Ağqoyunlu dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini faktlarla dəyərləndirir.
Uzun Həsəni Qara Yusif və II Mehmetlə müqayisə etməkdə və dəyərləndirməkdə çətinlik çəkir.	Uzun Həsəni Qara Yusif və II Mehmetlə müəllimin köməyi ilə müqayisə edir və dəyərləndirir.	Uzun Həsəni Qara Yusif və II Mehmetlə müqayisə edir və dəyərləndirir.	Uzun Həsəni Qara Yusif və II Mehmetlə müqayisə edir və faktlarla dəyərləndirir.

MÖVZU 27

ŞİRVANŞAHLAR DÖVLƏTİ XIV ƏSRİN SONLARI – XV ƏSRİN ƏVVƏLLƏRİNDƏ

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. XIV əsrin axırlarında Şirvanşahlar dövlətinin geosiyasi mövqeyini dəyərləndirir.
2. Teymurilərlə münasibətdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.

İnteqrasiya: Az.d. 1.1.1., Ü.t. 2.1.2., 3.1.1., Coğ. 3.2.1.

Təlim forması: kollektiv iş

Təlim üsulu: anlayışın çıxarılması, dəyirmi masa

Resurslar: İKT avadanlıqları, fərdi sorğu vərəqləri, dərslik, Şirvanşahlar dövlətinin xəritəsi, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya yaratmaq üçün şagirdlərin Şirvanşahlar dövlətinə dair əvvəlki dərslərdə öyrəndikləri bilgilərə əsaslanaraq beyin həmləsi üsulundan istifadə edə bilərsiniz. Eləcə də bu dərs üçün anlayışın çıxarılması metodundan yararlanmaq yerinə düşərdi. Bunun üçün şagirdlərə aşağıdakı məlumatları vermək tövsiyə olunur:

1. Haqqında danışacağımız dövlət Azərbaycanın şimalında yerləşir.
2. Bu dövlətin mövcudluğu dövrundə bir neçə sülalə hakimiyyətdə olmuşdur.
3. Bu dövlət Ərəb xilafətinin dağılması nəticəsində meydana çıxmışdır.
4. Azərbaycanın ən uzunömürlü bu dövlətinin əsası 861-ci ildə qoyulmuşdur.

Məlumatlar verildikdən və münasibət öyrənildikdən sonra tədqiqat sualını elan edə bilərsiniz.

Tədqiqat sualı: XIV əsrin sonlarında Şirvanşahlar dövləti öz müstəqilliyini hansı yollarla qoruyub saxladı?

Dərsi dəyirmi masa üsulu ilə keçməyi məsləhət görərdik. Bunun üçün sinif əvvəlcədən elə hazırlanmalıdır ki, şagirdlər dərs üsuluna oxşar formada otura bilsinlər. Diskussiya müsahibənin spesifik forması olub kollektiv müzakirə deməkdir. Müəllim və şagirdlər üçün əlverişli olan bu üsul onların tarixi hadisə, təzahür və proseslərə münasibətlərinin necə olduğunu öyrənməyə imkan verir. Bu zaman şagirdlərin diskussiya mədəniyyəti (danışanı dinləmək, sözünü kəsməmək, çıxış etmək istədikdə icazə istəmək və s.) aşkara çıxır. Diskussiya zamanı aşağıdakı vəzifələr həyata keçirilir:

1. Diskussiya iştirakçıları tərəfindən real şərait təhlil edilir;
2. Qoyulmuş problem ətrafında bacarıqlar formalaşdırılır;

3. Digər iştirakçılarla əlaqəli fəaliyyət vərdişləri inkişaf etdirilir;

4. Müxtəlif problemlərin həllinə dair çoxvariantlı qərarlar qəbulu nümayiş etdirilir.

Diskussiyaya başlayan zaman hökmən şagirdlərə riayət etməli olduqları qaydaları xatırlatmalısınız:

– danışanı dinləmək;

– eyni zamanda bir nəfər danışa bilər;

– çıxış etmək istədikdə əlini qaldırmaq;

– danışanın sözünü kəsməmək;

– razılaşmadıqda sinif yoldaşının fikirinə tənqidi münasibət bildirmək;

– hamını diskussiyada iştiraka həvəsləndirmək.

Dəyirmi masada müzakirə üçün aşağıdakı tapşırıqları problem kimi qoya bilərsiniz:

1. Teymuri-Şirvan münasibətlərini şərh edin.

2. Dərbəndlilər sülaləsinin hakimiyyətə gəlməsini dəyərləndirin.

Şagirdlər diskussiya qurub mövcud problemin həllinə öz töhfələrini verirlər. Bununla da siz, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Dəyirmi masada müzakirə zamanı şagirdlər müxtəlif məlumatlarla tanış olurlar. Müzakirə bitdikdən sonra şagirdlərə əlavə suallar verə bilərsiniz. Verilən cavablar dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir, nəticələr ümumiləşdirilir. Bununla da şagirdlər verəcəyiniz yönləndirici suallar vasitəsilə tədqiqat sualına cavab tapa biləcəklər.

Nəticəni yekunlaşdırarkən şagirdlərə sorğu vərəqi paylayıb onu doldurmağı tapşıra bilərsiniz.

S/s	Suallar	Bəli	Xeyr
1	Mövzunu bəyəndinmi?		
2	Dərsdə aldığın yeni informasiya çox idimi?		
3	I İbrahim haqqında əlavə məlumat almaq istərdinmi?		
4	Diskussiyada rolun oldumu?		
5	Diskussiyalar aparmaq xoşuna gəlirmi?		
6	Mövzunu oxuyarkən tarixi dövrü təsəvvür edə bildinmi?		

Yaradıcı tətbiqetmə: Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz:

– I İbrahimin Əmir Teymurla münasibətini necə qiymətləndirirsiniz?

– Xəritəyə əsasən Şirvanşahlara birləşdirilən əraziləri göstərin.

– Şirvanşah I İbrahimin və Əmir Teymurun siyasətini müqayisə edin.

Ev tapşırığı:

1. İnternet resurslardan istifadə edərək Dərbəndilər sülaləsi haqqında əlavə məlumat toplayın.

2. Şirvanşah I İbrahimin işğalçıların birindən istifadə edərək digəri ilə mübarizə aparmaq siyasətinə oxşar siyasət aparan hökmdarları araşdırın.

Qiymətləndirmə meyyarları: dəyərləndirmə, şərh etmə

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Bu zaman da siz hər bir meyarı səviyyələr üzrə bölməlisiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XIV əsrin axırlarında Şirvanşahlar dövlətinin geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XIV əsrin axırlarında Şirvanşahlar dövlətinin geosiyasi mövqeyini dəyərləndirir.	XIV əsrin axırlarında Şirvanşahlar dövlətinin geosiyasi mövqeyini dəyərləndirir.	XIV əsrin axırlarında Şirvanşahlar dövlətinin geosiyasi mövqeyini faktlarla dəyərləndirir.
Teymurilərlə münasibətdə Şirvanşahlar dövlətinin mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Teymurilərlə münasibətdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.	Teymurilərlə münasibətdə Şirvanşahlar dövlətinin mövqeyini şərh edir.	Teymurilərlə münasibətdə Şirvanşahlar dövlətinin mövqeyini faktlarla şərh edir.

MÖVZU 28

ŞƏKİ HAKİMLİYİ. SƏFƏVİLƏRİN ƏRDƏBİL HAKİMLİYİ

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Şəki hakimliyi və Səfəvilərin Ərdəbil hakimliyi haqqında təqdimatlar hazırlayır.

2. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

3. Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

İnteqrasiya: Az.d. 1.2.4., Ü.t. 1.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, biz tarix dərsliyi yazırıq

Resurslar: mənbələr və müxtəlif tarixi əsərlərdən hissələr, paylayıcı material, elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Şagirdi mövzuya motivə etmək üçün müxtəlif sualların köməyi ilə onların diqqətini Azərbaycanda baş vermiş proseslərə, Azərbaycanın siyasi həyatına, eləcə də ölkədəki gərginliyə yönləndirin. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək olar. Onların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirin. Eləcə də mənbə nədir, onlardan nə üçün istifadə olunur suallarını verməklə diqqəti mənbələrə və elmi əsər, dərslik, tarixi roman və s. yazılmasına və yazılma yollarına yönəltmək olar. Suallara cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt verilməsi daha düzgündür. Onların verdiyi cavabların lövhədə, yaxud da flipçartda qeyd olunması daha məqsədəuyğundur. Cavablar alındıqdan sonra "biz tarix dərsliyi yazırıq" üsulundan istifadə edərək dərsinizi keçə bilərsiniz.

Motivasiya baş tutduqdan sonra tədqiqat sualı elan edilir.

Tədqiqat sualı: Mənbələrin köməyi ilə tarixi əsər necə yazılır?

Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə qrup işi vermək olar. Onları qruplara bölmək lazımdır. Sonra dərsi "biz tarix dərsliyi yazırıq" formasında keçəcəyinizi və bunun üçün onların nə etməli olduqlarını izah edir və əvvəlcədən hazırladığınız paylama materiallarını verirsiniz. Paylama materialı dərsinizi keçməyə yararlı ola biləcək müxtəlif qəzet, jurnal, məqalə və kitablardan müəyyən etdiyiniz hissələr ola bilər. Həmçinin Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti", Əlisa Nicatın "Qızılbaşlar" əsərlərindən, 7 cildlik Azərbaycan tarixinin 3-cü cildindən, elmi və elmi-publisistik əsərlərdən yararlana bilərsiniz. Dərsliyin müvafiq yerlərini də seçib şagirdlərə verə bilərsiz. Mənbələrin öyrənilməsi və onlar əsasında tarixi hadisənin müəyyənləşdirilməsi olduqca vacibdir. Bu dərs müxtəlif mənbələrlə işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləşdirilməsini və öz mövqeyinin əsaslandırılmasını öyrənməyə təkan verir. Belə dərslər şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırır. Onlara müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında dərsliyin bir paraqrafını və ya kiçik bir hissəsini müstəqil şəkildə yazmaq təklif olunur: bunun üçün siz şagirdləri qruplara böldükdən sonra hər qrupun işləyəcəyi mövzunu və ya tapşırığı elan edirirsiniz.

I qrup – Şəki hakimliyinin yaranması və Əmir Teymurla münasibətləri mövzusunda təqdimat hazırlayın.

II qrup – Səfəvilərin Ərdəbil hakimliyinin yaranması üçün tarixi şəraitin yetişdiyini əsaslandırın.

III qrup – "Səfəvilərin Ərdəbil hakimliyi Şeyx Cüneydin dövründə" adlı təqdimat hazırlayın.

IV qrup – "Səfəvilərin Ərdəbil hakimliyi Şeyx Heydərin dövründə" adlı təqdimat hazırlayın.

V qrup – Səfəvilər Sultanəli və ondan sonrakı dövrdə (1499-cu ilədək) hadisələrini işıqlandırın.

İşləyərkən qrupların aşağıdakı qaydalara riayət etməsi önəmlidir:

1. Paraqrafın başlığını və ya planını dürüst ifadə etmək, mövzunun açılması üçün yarımbəndlər nəzərdən keçirmək;
2. Qisa müəllif mətni yazmaq;
3. Xronoloji hadisə sırasını açmaq;
4. Məqsədəuyğun sayılsa, mənbələrdən parçalar götürmək;
5. "Zaman oxu"nu tərtib etmək.

Məlumatın mübadiləsi və müzakirəsi: Verilmiş müddət başa çatdıqdan sonra qruplar öz işlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır. Bununla siz məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra ayrı-ayrı qrup işlərinin nəticələri ümumiləşdirilir. Bunun üçün də sinfə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

1. Paraqrafın başlığını və ya mövzunun yarımbəndlərini hansı əsaslarla seçdiniz?
2. Qısa müəllif mətni yazarkən hansı çətinliklərlə üzləşdiniz?
3. Xronoloji hadisə sırasını qoruya bildinizmi?
4. Mənbələrdən parçalar götürməkdə məqsədiniz nə idi?

Yaradıcı tətbiqetmə: Bu zaman siz şagirdlərə "Ərdəbil hakimlərini Şirvan və Şəkinin hakimləri ilə müqayisə edərək onların daxili və xarici siyasətlərində fərqli cəhətləri müəyyənləşdirin" tapşırığını verə bilərsiniz.

Ev tapşırığı:

1. Ağqoyunlu Sultan Yaqub və Rüstəm Mirzənin Ərdəbil hakimliyi ilə bağlı yürütdükləri siyasətin oxşar cəhətlərinə aid cədvəl qurun.
2. http://www.anl.az/down/meqale/ses/2012/sentyabr/266209.htm linkindən istifadə edərək öz yazdıqlarınızla orada yazılanları müqayisə edin.

Qiymətləndirmə meyarları: təqdimatlar hazırlama, müəllifinin mövqeyini müəyyənləşdirmə, dövrü müəyyənləşdirmə.

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Şəki hakimliyi və Səfəvilərin Ərdəbil hakimliyi haqqında təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Şəki hakimliyi və Səfəvilərin Ərdəbil hakimliyi haqqında təqdimatlar hazırlayır.	Mənbələr əsasında Şəki hakimliyi və Səfəvilərin Ərdəbil hakimliyi haqqında təqdimatlar hazırlayır.	Mənbələr əsasında Şəki hakimliyi və Səfəvilərin Ərdəbil hakimliyi haqqında təqdimatları faktlarla hazırlayır.
Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini faktlarla müəyyənləşdirir.
Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü faktlarla müəyyənləşdirir.

MÖVZU 29

XIII–XV ƏSRLƏRDƏ MƏDƏNİYYƏT

Alt standartlar:

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Azərbaycanın XIII–XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.

2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar hazırlayır.

İnteqrasiya: Ü.t. 5.1.1., 5.1.3.

Təlim forması: kollektiv iş

Təlim üsulu: beyin həmləsi, ardıcıl suallar üsulu

Resurslar: elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Siz motivasiyanı şəkillərin köməyi ilə qura bilərsiniz. Əgər imkanınız varsa, mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən istifadə etməklə (şəkilləri internetdən yükləyib adi A4 vərəqlərdə də çıxartmaq mümkündür) və bu şəkillərə suallar qoymaqla motivasiya quramaq olar. Bu imkan yoxdursa, şagirdin diqqətini dərslikdəki şəkillərə və onlara qoyulmuş suallarla yönəltməklə dərsə motivə edə bilərsiniz.

Motivasiya açar sözlərdən istifadə etməklə də qurula bilər. Bunun üçün siz açar sözləri (Nəsrəddin Tusi, Marağa rəsədxanası, Təbriz Universiteti, Bərdə türbəsi, Şirvanşahlar sarayı) şagirdlərə çatdırır və sual verirsiniz: Bu sözlər sizə nə deyir, onları birləşdirən ümumi cəhət nə ola bilər? Cavablar alınır, fərziyyələr ümumiləşdirilir və tədqiqat sualı elan olunur.

Tədqiqat sualı: Türk-islam mədəniyyətinin tərkib hissəsi olan Azərbaycanın mədəniyyətində XIII–XV əsrlərdə nələr baş vermişdi?

Tədqiqat sualına cavab tapmaq üçün dərsin ardıcıl suallar üsulu ilə keçilməsini tövsiyə edərdik. Bu zaman mətni abzaslara bölərək hər abzası bir şagirdə ucadan oxudub digər şagirdi, bir növ, ona apponent təyin edirsiniz. Abzasın oxunması bitdikdən sonra apponent şagird mətni oxuyana oxuduğu abzasla bağlı bir və ya bir neçə sual verir, birinci şagird isə bu sualları cavablandırır. Bu zaman siz inteqrasiya imkanlarını

da dəyərləndirə bilərsiniz. Bunun üçün şagirdlərə Azərbaycan dilinin və ədəbiyyat fənninin standartlarının tələblərini (Mətnin məzmununu xülasə şəklində ifadə edir. Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır. Görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə rəy, məruzə hazırlayır) reallaşdırmaq üçün imkanlar yaratmalısınız. Sonra sual verən şagird oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona sual verir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub analma vərdişləri ilə yanaşı, sual qoymaq, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi, məlumatın mübadiləsi və müzakirəsi mərhələsi ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Siz aşağıdakı yönləndirici sual və tapşırıqlar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz:

– Siyasi hadisələrin mədəniyyətin inkişafına təsirini izah edin.

– Sizcə, elmin, təhsilin inkişafı memarlıq və incəsənətin tərəqqisinə nə kimi töhfələr vermişdir?

– XIII–XIV əsr və XV əsrlərdə elmin inkişafına təsir edən səbəbləri müəyyənləşdirin.

Yaradıcı tətbiqetmə:

– XIII–XIV əsr Azərbaycanın memarlıq abidələrini şərh edin.

– XV əsr Azərbaycanın memarlıq abidələrinin təsnifatını verin.

– XIII–XIV əsr və XV əsr Azərbaycanın memarlıq abidələrinin ümumi cəhətlərinə dair cədvəl qurun.

Ev tapşırığı:

Ərk qalasının müasir taleyi ilə bağlı məlumat toplayın və referat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, qiymətləndirmə, referat hazırlama

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Sonuncu meyarı dərsdə reallaşdırmaq mümkün olmadığı üçün şagirdlərə bu meyara uyğun ev tapşırığı verilməsi nəzərdə tutulmuşdur. Bunun üçün də siz bu meyarla qiymətləndirilməni şagirdlər ev tapşırığını təhvil verən zaman apara bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Azərbaycanın XIII–XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycanın XIII–XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycanın XIII–XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycanın XIII–XV əsrlər mədəniyyətinin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından faktlarla dəyərləndirir.
Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi faktlarla qiymətləndirir.
Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatları faktlarla hazırlayır.

AZƏRBAYCAN XV ƏSRDƏ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Məsləhət gördüyümüz ümumiləşdirici dərsdə 4.1.2., 5.1.3. standartlarından istifadə etməyi tövsiyə edərdik. Bu dərsi keçərkən əsas diqqəti şagirdlərdə referat və təqdimat hazırlamaq bacarıqlarının formalaşdırılmasına yönəltməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən şagirdlərlə hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almalısınız. Bununla belə, bizim məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan istifadə edə bilərsiniz. Dərsi keçmək üçün təklif olunan standartlardan biri şəxsiyyət, digəri isə mədəniyyət məzmun xəttinə aid olduğundan şagirdlərə verəcəyiniz tapşırıqları iki qismə bölə və sinfi iki istiqamətdə “işlədə” bilərsiniz.

MÖVZU 30

SƏFƏVİLƏR DÖVLƏTİNİN YARANMASI VƏ YÜKSƏLİŞİ

Qeyd:

Mövcud paraqrafı keçmək üçün sizə 2 saat verilir. Bunun üçün dərsinizi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dərsin bir saatını kiçik qruplarla iş, digər bir saatını isə 1.1.1. (Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.), 1.2.1. (Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.), 3.1.3. (Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.), 4.1.2. (Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.) standartlarını nəzərə almaqla kollektiv, cütlərlə və ya fərdi iş formasında keçməyi məsləhət görərdik. Bu zaman siz standartdan çıxış edərək şagirdlərdə Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edib təqdimatlar hazırlamaq, mənbə müəllifinin mövqeyini müəyyənləşdirmək, qrafik və diaqramlar tərtib etmək, referatlar və təqdimatlar hazırlamaq bacarıqlarını formalaşdırıb inkişaf etdirə bilərsiniz. Bununla belə, məsləhət gördüyümüz standartları və məqsədləri artıra və azalda, eləcə də hər hansı standartı dəyişə bilərsiniz.

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. Səfəvi dövlətinin yaranması və inkişafında müvafiq dövrü dəyərləndirir.

2. XVI əsrdə Osmanlı, Avropa ölkələri ilə münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

3. I İsmayılı Uzun Həsən və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.

İnteqrasiya: Az.d. 1.1.1., Ü.t. 3.1.1., 4.1.1., Coğ. 3.2.1.

Təlim forması: böyük və kiçik qruplarla iş

Təlim üsulu: beyin həmləsi, karusel, Venn diaqramı

Resurslar: kompüter, proyektor, dərslik, XV–XVI əsrə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş sözlərini istifadə edə bilərsiniz. Bunun üçün həmin yazılar səsləndirilməlidir. XIII əsrdə Bağdadın tutulması ilə Abbasilər xilafəti süqut etdi. Dini liderin olmaması islam cəmiyyətini ciddi sınaq qarşısında qoydu. Monqolların ilk vaxtlar islam dinini sıxışdırması müsəlman cəmiyyətlərində çoxsaylı təriqətlərin və cərəyanların yaranmasına səbəb oldu. Ərdəbildə şiəliyi təbliğ edən Səfəviyyə təriqəti də məhz bu vaxtdan formalaşmağa başladı.

Bundan sonra şagirdlərə suallarla müraciət edə bilərsiniz. Beləliklə də, siz çətinlik çəkmədən dərsin motivasiyasını qurmuş olacaqsınız.

Motivasiya yaratmaq məqsədilə şagirdlərin diqqətini Səfəvilərin Ərdəbil hakimliyi dərsinə və ya Ağqoyunlu dövlətinin dağılması səbəblərinə, XV əsrin sonlarında bu dövlətin düşdüyü ağır sosial, iqtisadi və siyasi vəziyyətə cəlb etmək lazımdır. Bu məqsədlə şagirdlərə elə suallar verməlisiniz ki, bu onlarda fərziyyə söyləyə bilmək imkanı yaratsın. Motivasiya kimi açar sözlərdən də istifadə etmək mümkündür. Bunun üçün mövzunun əvvəlində verilmiş açar sözlərdən (Ərdəbil hakimliyi, Ərzincan müşavirəsi, İsmayıl, qızılbaş yürüşləri, mərkəzləşmiş dövlət, şah) və ya sizin müəyyənləşdirdiyiniz əlavə açar sözlərdən istifadə etmək olar. Beləliklə, verəcəyiniz suallardan sonra şagirdlər öz fərziyyələrini bildirirlər. Əldə edilən fikirləri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Tədqiqat sualı: Bir təriqət ardıcılları qüdrətli, mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq üçün hansı yolu keçdilər?

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz fəal təlimin karusel üsulundan istifadə etsəniz daha yaxşı olar. Bu üsul şagirdlərə tanış olsa da, dərsə başlamazdan əvvəl qrup işi qaydalarını bir daha (qısaca da olsa) xatırlatsanız yaxşıdır. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

I qrup – Səfəvilər dövlətinin yaranmasında Şah I İsmayılın rolunu dəyərləndirin.

II qrup – Şah I İsmayılın dövründə Səfəvi-Osmanlı münasibətlərini şərh edin.

III qrup – Vahid Azərbaycan dövlətinin yaradılması prosesinin başa çatdırılmasını dəyərləndirin.

IV qrup – Səfəvilər dövlətinin siyasi quruluşunun idarə sistemini və hərbi qüvvələri şərh edin.

V qrup – I Təhmasibin dövründə Səfəvi-Osmanlı münasibətlərini şərh edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Şagirdlər təqdimatlar edərkən siz dərsə qoyulmuş standartların və məqsədlərin reallaşdırılmasını sona çatdırmaq üçün dərslikdə verilmiş suallardan istifadə edə bilərsiniz.

Təqdimatlar bitdikdən sonra siz əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları qiymətləndirməlisiniz.

Qruplar	Tapşırığın vaxtında yerinə yetirilməsi	Əməkdaşlıq	Təqdimetmə	Verilən cavabın tapşırığa uyğunluğu	Ümumi nəticə
I					
II					
III					
IV					
V					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Dərsin nəticə və ümumiləşdirmə mərhələsini suallarla apara bilərsiniz. Bu zaman verilən suallar ümumiləşdirici səpkidə olmalıdır. Cavablar müzakirə edilir. Fikirlər ətrafında ümumiləşdirmələr aparılır və mərhələ başa çatır. Bu, öz növbəsində, sizə tədqiqat sualınıza cavab tapmağa kömək etmiş olacaq.

Yaradıcı tətbiqetmə:

Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz:

– Şah I İsmayılın dövlətçilik fəaliyyətini və Səfəvilər dövlətinin yaradılmasını necə qiymətləndirə bilərsiniz?

– Sizcə, nə üçün hər iki qüdrətli türk-müsəlman dövləti müharibə ərəfəsində Avropa ölkələri ilə münasibətlərini tənzimləməyə çalışırdı?

– Yeniçəri əsgərlərinin I Səlimə ərizəsini şərh edin.

– Sizcə, bu müharibəni daha erkən dayandırmaq olardımı? Fikrinizi əsaslandırın.

– Səfəvilər dövlətinin siyasi quruluşunu Ağqoyunlu dövləti ilə müqayisə edin.

– I İsmayıl, Uzun Həsən və Əmir Teymuru Venn diaqramında müqayisə edin.

Ev tapşırığı:

1. Şah I İsmayılın fəaliyyətini təhlil edib əvvəlki Azərbaycan hökmdarları ilə müqayisələr aparın.
2. Şah I Təhmasib ilə bağlı referat hazırlayın.
3. XVI əsrin birinci yarısında Səfəvi-Osmanlı müharibəsinin səbəblərini araşdırın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, şərh etmə, müqayisə edərək dəyərləndirmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Səfəvi dövlətinin yaranması və inkişafında müvafiq dövrü dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Səfəvi dövlətinin yaranması və inkişafında müvafiq dövrü dəyərləndirir.	Səfəvi dövlətinin yaranması və inkişafında müvafiq dövrü dəyərləndirir.	Səfəvi dövlətinin yaranması və inkişafında müvafiq dövrü faktlarla dəyərləndirir.
XVI əsrdə Osmanlı, Avropa ölkələri ilə münasibətlərdə Azərbaycanın mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVI əsrdə Osmanlı, Avropa ölkələri ilə münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	XVI əsrdə Osmanlı, Avropa ölkələri ilə münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	XVI əsrdə Osmanlı, Avropa ölkələri ilə münasibətlərdə Azərbaycanın mövqeyini faktlarla şərh edir.
I İsmayıl Uzun Həsən və Əmir Teymurla müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə I İsmayıl Uzun Həsən və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.	I İsmayıl Uzun Həsən və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.	I İsmayıl Uzun Həsən və Əmir Teymurla müqayisə edir və faktlarla dəyərləndirir.

MÖVZU 31

SƏFƏVİLƏR DÖVLƏTİ XVI ƏSRİN SON RÜBÜNDƏ

Alt standartlar:

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbə müəllifinin mövqeyini müəyyənləşdirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Təlim məqsədi:

1. Səfəvi dövlətini zəiflədən səbəblərə dair İskəndər bəy Münşinin mövqeyini müəyyənləşdirir.

2. Səfəvi dövlətinin inkişafında XVI əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.

İnteqrasiya: Ü.t. 1.1.2, Az.d. 1.2.4.

Təlim forması: kollektiv və fərdi iş

Təlim üsulu: beyin həmləsi, “açar sözlər əsasında dərsliyin mətninə dair suallar tərtib edilməsi”

Resurslar: kompüter, proyektor, CD disk, Azərbaycanın XVI əsrə aid xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Mövcud dərsə motivasiyanı qurmaq üçün əvvəlki dərslərə müraciət edə bilərsiniz. Bu məqsədlə Ağqoyunlu dövlətində gedən hakimiyyət uğrunda mübarizəni və ya Səfəvi-Osmanlı müharibəsini şagirdlərin diqqətinə çatdıra və məqsədinizdən asılı olaraq onları sadaladığımız problemlərdən birinə yönəldə bilərsiniz.

Motivasiyanın reallaşdırılmasının müxtəlif yolu və vasitələri olduğundan digər yollardan istifadə etməklə də dərsə motivasiya qura bilərsiniz. Bu vasitələrdən biri İKT-dir. Proyektor vasitəsilə motivasiya üçün hazırladığınız slaydları ag lövhədə göstərə bilərsiniz. Onlar göstərilərkən şagirdlərə yönləndirici suallarla müraciət etmək mümkündür. Əgər İKT resurslarından istifadə etmək imkanınız yoxdursa, onda siz motivasiyanı məktəbinizdə olan xəritə, şəkillər və ya jurnallardan, kitablardan tapdığınız əyani vəsait hesabına qura bilərsiniz. Təbii ki, bu zaman yönləndirici suallardan istifadə etməli olacaqsınız. Əsas odur ki, quracağınız motivasiya sizin sinfin xüsusiyyətlərinə uyğun gəlsin. Belə ki, siz onların bilik və bacarıqlarına daha yaxından bələd olduğunuzdan səmərəli motivasiya qurmaq imkanına malik ola bilərsiniz.

Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra "açar sözlər əsasında dərsliyin mətninə dair suallar tərtib edilməsi" üsulundan istifadə edərək dərsinizin tədqiqat mərhələsinə keçə bilərsiniz.

Tədqiqat sualı: Şah I Təhmasibin ölümündən sonra taxt-tac uğrunda çəkişmələr nəyə gətirib çıxartdı?

Dərsin tədqiqat mərhələsinə keçməzdən öncə şagirdlərə dərsin qaydalarını qısaca izah etmək məsləhətdir. Tədqiqat sualına cavab tapmaq üçün "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi" metodunu seçmək məqsədəuyğun olardı. Bu metod şagirdlərdə sual quraşdırmaq vərdişini inkişaf etdirir. Onlar növbə ilə mətni abzasla oxuyur, birlikdə açar sözləri seçir və dəftərə yazırlar. Sonra "termin sözlər" adlandırdığımız həmin sözlərdən suallar tərtib edirlər. Onları çox da böyük olmayan vərəqlərə yazırlar.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş vaxt bitdikdən sonra məlumatlar mübadilə və müzakirə edilir. Bu zaman şagirdlərdən yığdığınız vərəqləri təkrarən onlara (lakin müxtəlif şagirdlərə) verirsiniz – biri bu vərəqdəki sualı oxumalı, digəri isə ona cavab verməlidir. Əgər cavabın düzgün olduğu qəbul edilərsə, o, vərəqin arxa tərəfinə yazılır. Bu kart-cavabı şagirdlər sonradan mövzu üzrə öz biliklərini yoxlamaq üçün istifadə edə bilərlər. Bu zaman aydın olmayan hissələrlə bağlı suallar verin. Bu suallar yönləndirici, düşündürücü və ya faktoloji ola bilər. Bu zaman dərslikdə verilmiş suallara müraciət etmək yerinə düşər.

Aparılan müzakirə nəticələrin çıxarılması üçün istiqamət verməli, şagirdlərin fikirləri alınmalı, səhv və düz suallar və cavablar vurğulanmalı, qiymətləndirilməlidir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Nəticədə şagirdlər sizin verəcəyiniz yönləndirici suallar vasitəsilə tədqiqat sualına cavab tapa bilərlər.

Yaradıcı tətbiqetmə:

Bu mərhələdə şagirdlərə aşağıdakı tapşırıqları verə bilərsiniz:

– İskəndər bəy Münşinin yazdıqları əsasında dövləti zəiflədən səbəbləri müəyyənləşdirin.

– Sizcə, qızılbaş əmirləri nə üçün Məhəmməd Xudabəndəni müdafiə edirdilər? Fikrinizi əsaslandırın.

– Həmzə Mirzə və Şah I Abbasın fəaliyyətində oxşarlıqlar nədə idi?

– Xəritəyə əsasən Səfəvilərin XVI əsrin son rübündə itirdiyi əraziləri müəyyən edin.

Ev tapşırığı:

1. "Şah Məhəmməd Xudabəndə dövründə Səfəvilər dövləti" mövzusunda referat hazırlayın.

2. Səfəvilər dövləti ilə Ağqoyunluların XV əsrin sonlarındakı vəziyyəti arasında müqayisələr aparın, oxşar və fərqli cəhətləri müəyyən edin.

3. Şah I Abbasın Osmanlılarla ağır şərtlərlə sülh bağlamasını zəruri edən amilləri müəyyənləşdirin.

Qiymətləndirmə meyarları: müəyyənləşdirmə, dəyərləndirmə

Yuxarıda qeyd olunan meyarlar əsasında formativ qiymətləndirməni həyata keçirin. Bu zaman qiymətləndirmək üçün əvvəlcədən nəzarətə götürdüyünüz bir neçə şagirdi səviyyələr üzrə forrmativ qiymətləndirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Səfəvi dövlətini zəiflədən səbəblərə dair İskəndər bəy Münşinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir..	Müəllimin köməyi ilə Səfəvi dövlətini zəiflədən səbəblərə dair İskəndər bəy Münşinin mövqeyini müəyyənləşdirir.	Səfəvi dövlətini zəiflədən səbəblərə dair İskəndər bəy Münşinin mövqeyini müəyyənləşdirir.	Səfəvi dövlətini zəiflədən səbəblərə dair İskəndər bəy Münşinin mövqeyini faktlarla müəyyənləşdirir.
Səfəvi dövlətinin inkişafında XVI əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Səfəvi dövlətinin inkişafında XVI əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.	Səfəvi dövlətinin inkişafında XVI əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.	Səfəvi dövlətinin inkişafında XVI əsrin son rübünün xüsusiyyətlərini faktlarla dəyərləndirir.

MÖVZU 32

SƏFƏVİLƏR DÖVLƏTİ ŞAH I ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

Qeyd:

Kurikulum standartlarının dövlət tələbi olduğunu nəzərə alsaq, tələblərin yerinə yetirilməsi məsələsində olduqca diqqətli olmaq lazımdır. Bəzi standartların bir 45 dəqiqə ərzində tam reallaşdırılması mümkün olmadığından şagirdlərin:

• mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, xronoloji cədvəllər hazırlayır;

• yazılı mənbənin aid olduğu dövrü və müəllifin mövqeyini müəyyənləşdirir;

• müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir, qrafik və diaqramlar tərtib edir;

• görkəmli tarixi şəxsiyyətlər haqqında referat və təqdimatlar hazırlayır

kimi bacarıqlarının formalaşdırılması məsələlərində yaxından köməklik edə bilmirsiniz. Mövcud paraqrafı keçmək üçün sizə 2 saat verilməsi bu boşluğu aradan qaldırmağa geniş imkanlar verir. Bunun üçün də siz dərsinizi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dərsin bir saatını kiçik qruplarla iş, digər bir saatını isə 1.1.1. (Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.), 1.1.2. (Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.), 1.2.2. (Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.), 4.1.2. (Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.) standartlarını nəzərə almaqla kollektiv, cütlərlə və ya fərdi iş formasında keçməyi məsləhət görərdik. Bununla belə, siz məsləhət gördüyümüz standartları və məqsədləri artıra və azalda, eləcə də hər hansı standartı dəyişə bilərsiniz.

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar və b.) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

Təlim məqsədi:

1. XVI əsrin sonlarında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
2. XVI əsrin sonlarında Səfəvi dövlətinin inkişafı xüsusiyyətlərini dəyərləndirir.
3. I Abbası I Pyotrla müqayisə edir və dəyərləndirir.

İnteqrasiya. Ü.t. 4.1.1.

Təlim forması: Böyük və kiçik qruplarla iş

Təlim üsulu: Beyin həmləsi, iş vərəqləri ilə iş, Venn diaqramı

Resurslar: XVI–XVII əsrlərə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, kompüter, proyektor və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edə və ya slaydlar hazırlaya bilərsiniz. Motivasiyanı hansı üsulla yaradacağınızdan asılı olmayaraq əsas olan onun tədqiqat sualına xidmət etməsidir. Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş sözləri və açar sözlərdən də yararlana bilərsiniz. Mövzunun əvvəlindəki yazılanlar və açar sözlər səsləndirildikdən sonra şagirdlərə suallarla müraciət etməlisiniz. Beləliklə, çətinlik çəkmədən dərsin motivasiyasını quracaqsınız. Motivasiya qurmaqdan ötrü şagirdlərin diqqətini əvvəlki dərsə, şah I Təhmasibin ölümündən sonra Səfəvilərdə qızışan hakimiyyət uğrundakı mübarizəyə, ara müharibələrinə, Səfəvi-Osmanlı müharibələrinə və bunun nəticəsində itirilmiş əraziyə cəlb etmək lazımdır. Bu məqsədlə də siz şagirdlərə elə suallar verməlisiniz ki, bu onlarda fərziyyə söyləyə bilmək imkanı yaratsın. Suallardan sonra şagirdlər fərziyyələrini bildirirlər. Əldə edilən fərziyyələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Bunun ardınca tədqiqat sualını elan etməlisiz.

Tədqiqat sualı: Dövləti güclü edən güclü hökmdardırmı?

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz fəal təlimin iş vərəqləri ilə iş üsulundan istifadə etsəniz, daha yaxşı olar. Qruplara verilən tədqiqat sualları:

I qrup – Güclü hökmdar – güclü dövlət anlayışını dəyərləndirin.

II qrup – Şah I Abbasın inzibati islahatnı şərh edin.

III qrup – Şah I Abbasın hərbi islahatını dəyərləndirin.

IV qrup. Osmanlı hakimiyyəti altında olan Azərbaycan ərazilərinin durumunu şərh edin.

V qrup – Şah I Abbasın xarici siyasətini və Səfəvi-Osmanlı müharibəsinin növbəti mərhələsini təhlil edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra siz əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları qiymətləndirməlisiz.

Ümumiləşdirmə və nəticə: Bunun üçün şagirdlərə verdiyiniz yönləndirici suallar vasitəsilə onlar Səfəvi dövlətinin yenidən güclənməsində Şah I Abbasın rolunu, keçirtdiyi hərbi islahatını dəyərləndirmiş, Şah I Abbasın xarici siyasətini və Səfəvi-Osmanlı müharibəsinin növbəti mərhələsini təhlil etmiş və bu kimi digər məsələləri şərh etmiş olacaqlar. Bu da öz növbəsində sizə tədqiqat sualına cavab tapmağa kömək edəcək.

Yaradıcı tətbiqetmə. Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz.

– Şah I Abbas ilə Ağqoyunlu hökmdarı Uzun Həsənın xarici siyasəti arasında hansı oxşarlıqlar vardır?

– Səfəvi-Osmanlı münasibətlərində Avropa dövlətlərinin rolunu necə qiymətləndirə bilərsiniz?

– Sərab sülhünün Səfəvilər üçün əhəmiyyətini qiymətləndirin.

– Şah I Abbasın dövlətçilik fəaliyyətini hansı hökmdarlarla müqayisə etmək olar?

– Dövlətin güclü olması üçün hökmdar hansı keyfiyyətlərə malik olmalıdır?

– Səfəvi və Ağqoyunlu ordularını Venn diaqramı əsasında müqayisə edin, oxşar və fərqli cəhətləri tapın.

Ev tapşırığı:

1. Xəritəyə əsasən Şah I İsmayılın zamanındakı Səfəvi sərhədləri ilə I Abbasın dövründəki sərhədləri müqayisə edin.

2. I Abbasın dövlətçilik fəaliyyətini əks etdirən referat hazırlayın.

3. I Abbası I Pyotrla Venn diaqramı əsasında müqayisə edin.

Qiymətləndirmə meyarları: mövqeyini dəyərləndirmə, müqayisə edərək dəyərləndirmə, xüsusiyyətlərini dəyərləndirmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XVI əsrin sonlarında Azərbaycanın coğrafi mövqeyini dərk edir.	Müəllimin köməyi ilə XVI əsrin sonlarında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XVI əsrin sonlarında Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XVI əsrin sonlarında Azərbaycanın geosiyasi mövqeyini faktlarla dəyərləndirir.
XVI əsrin sonlarında Səfəvi dövlətinin inkişaf xüsusiyyətlərini anlayır.	Müəllimin köməyi ilə XVI əsrin sonlarında Səfəvi dövlətinin inkişaf xüsusiyyətlərini dəyərləndirir.	XVI əsrin sonlarında Səfəvi dövlətinin inkişaf xüsusiyyətlərini dəyərləndirir.	XVI əsrin sonlarında Səfəvi dövlətinin inkişaf xüsusiyyətlərini faktlarla dəyərləndirir.
Müəllimin köməyi ilə I Abbası I Pyotrla müqayisə edir.	I Abbası I Pyotrla müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	I Abbası I Pyotrla müqayisə edir və dəyərləndirir.	I Abbası I Pyotrla müqayisə edir və faktlarla dəyərləndirir.

MÖVZU 33

SƏFƏVİLƏR DÖVLƏTİ XVII ƏSRİN II YARISI XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Səfəvi dövlətinin XVII–XVIII əsr tarixinə dair təqdimatlar hazırlayır.

2. Xalq çıxışlarına aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

3. Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

4. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

İnteqrasiya: Ü.t. 1.1.2., Əd. 1.1.4., İnf. 1.1.3.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, biz tarix dərsliyi yazırıq

Resurslar: mənbələr və müxtəlif tarixi əsərlərdən hissələr, paylayıcı material, elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Şagirdləri mövzuya motivə etmək üçün müxtəlif sualların köməyi ilə onların diqqətini bəhs edəcəyiniz dövrdə Azərbaycanda baş vermiş proseslərə, siyasi həyata, eləcə də ölkədəki gərginliyə yönləndirin. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək mümkündür. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək olar. Eləcə də şagirdlərə: “Mənbə nədir?, Ondan nə üçün istifadə olunur?” suallarını verməklə diqqətlərini mənbələrə və elmi əsər, dərslik, tarixi roman və s. yazılmasına və onun yazılması yollarına yönəltmək olar. Suallara cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt verilsə, daha düzgündür. Verilən cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğun olar. Cavablar alındıqdan sonra “biz tarix dərsliyi yazırıq” üsulundan istifadə edərək dərsinizi keçə bilərsiniz. Motivasiya baş tutduqdan sonra tədqiqat sualı ortaya qoyulur.

Tədqiqat sualı: Mənbələrin köməyi ilə XVIII əsrin əvvəli tarixini necə yaza bilərik?

Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə qrup işi vermək olar. Bu məqsədlə onları qruplara bölmək lazımdır. Onlara dərsin “biz tarix dərsliyi yazırıq” formasında keçəcəyini, bunun üçün nə etməli olduqlarını və dərsin qaydalarını izah edir, əvvəlcədən hazırladığınız paylama materiallarını verirsiniz. Paylama materialı qismində dərsinizi keçməyə yararlı ola biləcək müxtəlif qəzet, jurnal, məqlalə və kitablardan müəyyən

etdiyiniz hissələr ola bilər. Eləcə də Elnur Hüseynovun "Azərbaycan Nadir Əfşarın hakimiyyəti dövründə", Yan Kruşinskinin "Xristian səyyahın tarixi", Molla Məhəmməd əl Carinin "Car salnamələri", Elçin Qarayevin "Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində" əsərlərindən, 7 cildlik Azərbaycan tarixinin 3-cü cildindən, həmçinin elmi və elmi-publisistik əsərlərdən yararlana bilərsiniz. Dərsliyin mövzulara müvafiq hissələrindən də parçalar seçib şagirdlərə vermək olar.

Mənbələrin öyrənilməsi və onlar əsasında tarixi hadisənin müəyyənləşdirilməsi olduqca vacibdir. Həmin dərs müxtəlif bilik mənbələri ilə işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləşdirilməsini və öz mövqeyinin əsaslandırılmasını öyrənməyə təkan verir. Həmçinin onların tədqiqat fəaliyyətini stimullaşdırır. Şagirdlərə müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında müstəqil şəkildə dərsliyin bir paraqrafını və ya kiçik bir hissəsini yazmaq təklif olunur: bunun üçün də siz onları qrupa böldükdən sonra hər qrupun işləyəcəyi mövzunu və ya tapşırığı elan edirsiniz.

I qrup – Səfəvilər dövləti XVII əsrdə mövzusunda təqdimat hazırlayın.

II qrup – XVII əsrin sonlarına doğru Səfəvilər dövlətinin düşdüyü ağır iqtisadi böhranı araşdırın.

III qrup – Şah Sultan Hüseynin dövləti böhrandan çıxarmaq cəhdləri adlı təqdimat hazırlayın.

IV qrup – XVIII əsrin ilk rübündə Azərbaycanda olan xalq çıxışları və üsyanları mövzusunda təqdimat hazırlayın.

V qrup – Səfəvilər dövlətinin XVII əsr ictimai-iqtisadi həyat və idarəetmə məsələlərini işıqlandırın.

Qrupların işləyərkən aşağıdakı qaydalara riayət etməsi önəmlidir:

1) Paraqrafın başlığını və ya planını dürüst ifadə etmək, mövzunun açılması üçün yarımbəndləri nəzərdən keçirmək.

2) Qısa müəllif mətni yazmaq.

3) Xronoloji hadisə sırasını açmaq.

4) Məqsədəuyğun sayılsa, mənbələrdən parçalar götürmək.

5) "Zaman oxu"nu tərtib etmək.

Məlumatın mübadiləsi və müzakirəsi: Verilmiş müddət başa çatdıqdan sonra qruplar öz işlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır. Bununla da siz dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir və nəticə çıxarılır. Bunun üçün sinfə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

1. Mənbələr əsasında mətn yazarkən diqqətinizi əsasən nəyə yönəltməyə çalışdınız?
2. Mənbələrdən parçalar götürməkdə məqsədiniz nə idi?
3. Xronoloji hadisə sırasını qoruya bildinizmi?
4. Qısa müəllif mətni yazarkən hansı çətinliklərlə üzləşdiniz?
5. Paraqrafın başlığını və ya mövzunun yarımbəndlərini hansı əsaslarla seçdiniz?

Yaradıcı tətbiqetmə: Bu zaman siz şagirdlərə XVII əsrdə Səfəvilər dövlətinin zəifləməsi səbəblərinə dair sxem tərtib etməyi, Səfəvi dövlətinin xəritəsində XVIII əsrin ilk rübündə üsyanların baş verdiyi əraziləri müəyyən etməyi tapşırıq kimi verə bilərsiniz.

Ev tapşırığı: Şah II Abbas və Şah I Süleymanın fəaliyyətləri arasındakı oxşar cəhətləri müəyyən edin.

Qiymətləndirmə meyarları: təqdimatlar hazırlama, müəllifin mövqeyini müəyyənləşdirmə, aid olduğu dövrü müəyyənləşdirmə, təqdimetmə

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Səfəvi dövlətinin XVII–XVIII əsr tarixinə dair təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Səfəvi dövlətinin XVII–XVIII əsr tarixinə dair təqdimatlar hazırlayır.	Mənbələr əsasında Səfəvi dövlətinin XVII–XVIII əsr tarixinə dair təqdimatlar hazırlayır.	Mənbələr əsasında Səfəvi dövlətinin XVII–XVIII əsr tarixinə dair təqdimatları faktlarla hazırlayır.
Xalq çıxışlarına aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə xalq çıxışlarına aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Xalq çıxışlarına aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Xalq çıxışlarına aid yazılı mənbənin müəllifinin mövqeyini faktlarla müəyyənləşdirir.
Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü faktlarla müəyyənləşdirir.
İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında faktlarla təqdim edir.

MÖVZU 34

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Qeyd: Mövzuya iki saat verilir.

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın XI–XVII əsr sosial-iqtisadi həyatını müqayisə edir, təqdimatlar hazırlayır.

2. XI–XVII əsr Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqramlar tərtib edir.

İnteqrasiya: Az.d. 1.2.4., Ü.t. 1.1.2., İnf. 4.1.2.

Təlim forması: kollektiv iş

Təlim üsulu: beyin həmləsi, mətn əsasında cədvəlin doldurulması

Resurslar: proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun motivasiyasını bundan əvvəl keçilmiş dərslərdə qoyulmuş sualların köməyi ilə qura bilərsiniz. Əgər imkanınız varsa, mövzuya aid müxtəlif şəkillərdən və ya slaydlardan istifadə edin. Bunun üçün İnternet resursları faydalı ola bilər.

Motivasiya qurmaq üçün söz assosiasiyasından da yararlana bilərsiniz. Bunun üçün şagirdlərin maldarlıq, əkinçilik, elat, rəiyyət, ticarət, sənətkarlıq və s. sözlərdən istifadə etməsi mümkündür. Bu zaman açar sözləri lövhədə yazıb şagirdlərdən soruşursunuz: “Bu sözlər sizə nə deyir? Bu sözlərdən hansı sizə tanışdır və haqqında nə deyə bilərsiniz?” Şagirdlər fərziyyələrini bildirirlər. Əldə edilən fərziyyələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Tədqiqat sualı: XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatında nələr baş verdi?

Motivasiya mərhələsi bitdikdən, tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən biri olan tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün “bir dəqiqə” üsulundan istifadə etmək məqsədəmüvafiq olar. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verib onlara bu dərs üsulunun qaydalarını xatırlada (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə bildiriləcək. Siz də öz növbənizdə səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz) bilərsiniz. Bu zaman inteqrasiya imkanlarını da dəyərləndirməniz mümkündür. Bunun üçün dərsin əvvəlində müəyyənləşdirilmiş inteqrasiya imkanlarını, yəni inteqrasiya edə-

cəyiniz hər hansı bir fənnin və ya fənlərin standartlarını nəzərə almağınız vacibdir. Bu zaman şagirdlərin inteqrasiya edəcəyiniz fənlə bağlı bilik və bacarıqları yardımçınız olacaq.

Üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı:

– Mərkəzləşdirilmiş dövlətin yaradılmasının xalqa xeyrini dəyərləndirin.

– XI–XVII əsrlərdə əkinçiliyin inkişafını şərh edin.

– Maldarların vəziyyətini dəyərləndirin.

– Ticarət əlaqələrini qiymətləndirin.

– Torpaq mülkiyyəti formalarını şərh edin.

– Vergi və mükəlləfiyyətlərin xarakteristikasını verin.

– "Həsən padşahın qanunları"nı təhlil edin.

– Şəhər həyatını qiymətləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra fərdi işlərin nəticələri ümumiləşdirilir. Müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldir. Bütün bunlar həyata keçirildikdən sonra tədqiqat sualına cavab tapılır.

Yaradıcı tətbiqetmə: Bu mərhələdə şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Sizcə, sənətkarlığın və ticarətin inkişafı daha çox nədən asılı idi?

– Elxani hökmdarı Qazan xan ilə Ağqoyunlu Uzun Həsənın arasında hansı oxşarlıqları tapa bilərsiniz?

Eləcə də bu mərhələdə şagirdlərə Ağqoyunlu və Səfəvi dövlətində olan torpaq mülkiyyəti və vergiləri Venn diaqramında müzakirə etmək tapşırığını da vermək olar.

Ev tapşırığı:

1. Azərbaycanın sosial-iqtisadi həyatına dair dərslikdə verilmiş mənbələrdən (əvvəlki dərslərdə verilmiş mənbə parçası da ola bilər) və əldə etdiyiniz digər məlumatlardan istifadə edərək müqayisəli təqdimat hazırlayın.

2. Uzun Həsən və Şah I Təhmasiblə bağlı mətndə verilmiş mənbələri təhlil edin, nəticələr çıxarın.

Qiymətləndirmə meyarları: təqdimat hazırlama, qrafik tərtib etmə

BU MÖVZUYA DAİR İKİNCİ DƏRS

Qeyd: Bu dərsə ayrılmış ikinci saatı da eyni standartlar və məqsədlərlə, lakin fərqli interaktiv üsulla keçməyi məsləhət görərdik. Müxtəlif formada keçilməsi şagirdlərin də bir problemə müxtəlif prizmadan yanaşmasına yardımçı olacaq.

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın XI–XVII əsr sosial-iqtisadi həyatını müqayisə edir, təqdimatlar hazırlayır.

2. Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqramlar tərtib edir.

İnteqrasiya: Ü.t. 1.1.2., Az.d. 1.2.4.

Təlim forması: kollektiv və fərdi iş

Təlim üsulu: beyin həmləsi, BİBÖ, bir dəqiqə, Venn diaqramı

Resurslar: dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu dərsə iki saat verildiyindən bu dəfə motivasiyanın qurulması elə də vacib deyil. Çünki əvvəlki dərsdə şagirdlər hazırkı dərsə motivə edilmişlər. Bununla belə, dərsə giriş kimi BİBÖ üsulundan istifadə etmək olar. Bunun üçün BİBÖ cədvəlini lövhədə və ya flipçartda çəkə, sonra şagirdlərdən Səfəvi dövlətinin sosial-iqtisadi vəziyyətinə dair cədvəlin doldurulmasını istəyə bilərsiniz.

Bilirəm	Bilmək istəyirəm	Öyrəndim

Tədqiqat sualı: XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatında nələr baş verdi?

Dərsi mətn əsasında cədvəlin doldurulması üsulu ilə keçməyi məqsədəuyğun hesab edərdik. Bunun üçün lövhədə aşağıdakı formada bir cədvəl qurulur və şagirdlərə bunu doldurmaq tapşırılır:

s/s	Azərbaycan-da hakimiy-yətdə olan dövlət	Yadelli ağalıq dövründə				
		Ver-gilər	Verginin toplanma forması	Torpaq mülkiyyəti	Torpaq mülkiyyətinin forması	Əhalinin vəziyyəti

Bu cədvəli doldurub qurtardıqdan sonra şagirdlərə XI–XVII əsr Azərbaycanının sosial-iqtisadi inkişafını diaqramda təsvir etməyi tapşırın.

Məlumatın mübadiləsi və müzakirəsi: Verilmiş müddət başa çatdıqdan sonra şagirdlər tərəfindən doldurulan cədvəl və diaqram müzakirə olunur. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır. Bununla da məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Bu zaman dərsin əvvəlində doldurulmağa başlanılmış BİBÖ cədvəlinə qayıtmaq və onu doldurmaq vacibdir. Sonda bir neçə yönləndirici sual vermək yolu ilə tədqiqat sualına cavab ala bilərsiniz.

Yaradıcı tətbiqetmə: Bu mərhələdə erkən orta əsrlərdən başlayaraq XVIII əsrədək olan dövrdə Azərbaycanda olan şərti torpaq mülkiyyəti formasına dair cədvəl qurmağı tapşıra bilərsiniz. Həmçinin şagirdlərdən aşağıdakı sualların cavablandırılmasını da istəmək olar:

– Nə üçün Uzun Həsəndən fərqli olaraq Şah I Təhmasib tamğa vergisini ləğv edə bilmişdi? Mənbələrə əsasən fikirlərinizi bildirin.

– Nəyə görə Azərbaycan hökmdarları sənətkarlıq və ticarətin inkişaf etdirilməsinə xüsusi diqqət göstərmişlər?

Ev tapşırığı:

1. XIII–XIV əsrlərdə Azərbaycanda əhalinin həyat tərzindəki dəyişikliklərə dair məlumat toplayın və təqdimat hazırlayın.
2. “İslahatçı hökmdarlar” adlı referat hazırlayın.
3. Şəhərlərin inkişafına təsir göstərən amillərlə bağlı cədvəl tərtib edin.

Qiymətləndirmə meyarları: təqdimat hazırlama, diaqramlar tərtib etmə

Qiymətləndirməni yuxarıda yazılmış meyarlar əsasında aşağıdakı səviyyələr üzrə həyata keçirə bilərsiniz:

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi haqqında sərbəst fikir söyləyir.	Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrünü şərh edir, təqdimat hazırlamaqda çətinlik çəkir.	Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında təqdimatlar hazırlayır.	Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.
XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafını təhlil edir.	XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair yoldaşlarının köməyi ilə diaqramları tərtib edir.	XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqramlar tərtib etsə də, müəyyən səhvlər buraxır.	XI–XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqramlar tərtib edir.

MÖVZU 35

SƏFƏVİLƏR DÖVRÜNDƏ MƏDƏNİYYƏT

Alt standartlar:

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. XVI–XVII əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

2. XVI–XVII əsrlərdə Səfəvi mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Səfəvi mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referat hazırlayır.

İnteqrasiya: Az.d. 1.1.2, 2.2.3., Əd. 3.1.2., İnf. 4.1.2., Ü.t. 5.1.1., 5.1.3.

Təlim forması: kollektiv iş

Təlim üsulu: beyin həmləsi, dəyirmi masa

Resurslar: proyektor, kompüter, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun motivasiyasını dərslikdəki şəkillərlə, açar sözlərdən (Məhəmməd Füzuli Həqiri, Oruc bəy Bayat, Şeyx Cüneyd məqbərəsi, "Koroğlu", "Aşıq Qərib" və s.) istifadə etməklə və bu şəkillərə, açar sözlərə qoyulmuş sualların köməyi ilə qura bilərsiniz. Əgər imkanınız varsa, mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən yararlanın. Bunun üçün İnternet resursları da faydalı ola bilər.

Motivasiya qurmaq məqsədilə çox sadə bir üsuldan da istifadə edə bilərsiniz. Bunun üçün bir lövhə, bir də təbaşir və ya marker lazım olacaq. Beləliklə, lövhədə Səfəvilər dövləti sözünü ortadan yazır və aşağıya doğru oxlar çəkib yaranması, siaysi inkişafı, idarə edilməsi, şəhər və kənd həyatı, vergi və mükəlləfiyyətlər sözlərini yazır və bir oxun qarşısında sual işarəsi qoyursunuz. Sonra isə üzünüzü şagirdlərə tutaraq soruşursunuz: "Biz burada Səfəvilər dövlətinin hansı sahəsinə toxunmamışıq?" Şagirdlər fərziyyələrini bildirirlər. Əldə edilən fərziyyələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Tədqiqat sualı: Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi XV–XVI əsr Azərbaycan mədəniyyətinin inkişafına Səfəvilər dölətinin mövcudluğu necə təsir göstərdi?

Təqdiqat sualına cavab tapmaq üçün dərsi dəyirmi masa üsulu ilə keçməyi məsləhət görərdik. Buna görə sinif əvvəlcədən elə hazırlanmalıdır ki, şagirdlər dərs üsuluna oxşar formada otura bilsinlər. Diskussiya müsahibənin spesifik forması olub kollektiv müzakirə deməkdir. Müəllim və şagirdlər üçün əlverişli olan bu üsul onların tarixi hadisə, təzahür və proseslərə münasibətlərinin necə olduğunu öyrənməyə imkan verir. Bu zaman şagirdlərin diskussiya mədəniyyəti (danışanı dinləmək, sözünü kəsməmək, çıxış etmək istədikdə icazə istəmək və s.) aşkara çıxır. Bu dərsdə siz inteqrasiya imkanlarını da dəyərləndirə bilərsiniz. Bunun üçün dərsin əvvəlində müəyyənləşdirilmiş inteqrasiya imkanlarını, yəni inteqrasiya edəcəyiniz hər hansı bir fənnin və ya fənlərin standartlarını nəzərə almağınız vacibdir. Bu zaman şagirdlərin inteqrasiya edəcəyiniz fənlə bağlı bilik və bacarıqları sizə yardımçı olacaq.

Diskussiya zamanı aşağıdakı vəzifələr həyata keçirilməlidir:

1. Müxtəlif problemlərin həllinə dair çoxvariantlı qərarlar qəbulu nümayiş etdirilir;
2. Qoyulmuş problem ətrafında bacarıqlar formalaşdırılır;
3. Digər iştirakçılarla əlaqəli fəaliyyət vərdişləri inkişaf etdirilir;
4. Diskussiya iştirakçıları tərəfindən real şərait təhlil edilir.

Diskussiyaya başlayan zaman siz hökmən şagirdlərə riayət etməli olduqları qaydaları xatırlatmalısınız:

– eyni zamanda bir nəfər danışa bilər;
– çıxış etmək istədikdə əlini qaldırmaq;
– danışanın sözünü kəsməmək;
– danışanı dinləmək;
– razılaşmadıqda sinif yoldaşının fikrinə tənqidi münasibət bildirmək;
– deyilən tənqidi fikri qəbul etmək və ya ona elmi cavab vermək;
– hamını diskussiyada iştiraka həvəsləndirmək.

Siz dəyirmi masada müzakirə üçün aşağıdakı tapşırıqları problem kimi qoya bilərsiniz:

1. XVI–XVII əsr Azərbaycan ədəbiyyat nümayəndələrini qiymətləndirin;

2. XIV–XV əsr və XVI–XVII əsr Azərbaycan memarlığı və incəsənətini müqayisə edin;

3. XIV-XV əsrə nisbətdə XVI–XVII əsrdə Azərbaycanda elm və təhsilin inkişafını dəyərləndirin.

Şagirdlər diskussiya qurub mövcud problemin həllinə öz töhfələrini verirlər. Bununla da siz, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıdakı yönəldici sual və tapşırıqlar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz:

– Səfəvilər dövlətinin yaranmasının elm və təhsilin inkişafına təsirini qiymətləndirin;

– Mərkəzləşdirilmiş dövlətin yaranmasının XVI–XVII əsr Azərbaycan memarlığının və incəsənətinin inkişafına hansı təsiri oldu?

– Bu dövrdə ədəbiyyatın inkişafına təsir edən səbəbləri müəyyənləşdirin.

– Səfəvilər dövlətində hansı tarixçilər yaşayıb-yaradıblar?

– “Koroğlu” dastanı hansı tarixi hadisənin nəticəsində meydana gəlmişdir?

Yaradıcı tətbiqetmə:

– İstanbuldakı Sultan Əhməd məscidi ilə Gəncədəki Şah Abbas məscidini müqayisə edin.

– Kartli çarı VI Vaxtanq ilə Səfəvi hökmdarı II Şah Abbasın mədəniyyət sahəsindəki fəaliyyətlərini müqayisə edin.

– Sizcə, XVI–XVIII əsrlərdə Avropadan fərqli olaraq Səfəvilər dövlətində heykəltəraşlıq və rəssamlığın zəif inkişaf etməsinin səbəbi nədir?

Ev tapşırığı:

1. Şeyx Səfi xalçasına dair referat hazırlayın.

2. XVI–XVII əsrlər Səfəvi dövrü mədəniyyətinin Türk-islam mədəniyyətinin inkişafına verdiyi töhfələri araşdırın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, qiymətləndirmə, referat hazırlama

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Hər bir meyarı səviyyələr üzrə bölməli olduğunuzu yaddan çıxarmayın. Unutmaq lazım deyil ki, dərs 45 dəqiqədir. Dəyirmi masa zamanı açılmış diskussiya dərsin çox hissəsini apardığından referat hazırlama meyarını reallaşdırmağa vaxt az qalır. Ona görə də şagirdlərə bu meyara uyğun ev tapşırığı verilməsi nəzərdə tutulmuşdur. Onlar ev tapşırığını yerinə yetirib sizə təhvil verdikdən sonra qiymətləndirmə apara bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Azərbaycanın XVI–XVII əsrlər dövründə mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycanın XVI–XVII əsrlər dövründə mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycanın XVI–XVII əsrlər dövründə mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycanın XVI–XVII əsrlər dövründə mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından faktlarla dəyərləndirir.
XVI–XVII əsrlər Səfəvi dövr mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVI–XVII əsrlər Səfəvi dövr mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	XVI–XVII əsrlər Səfəvi dövr mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	XVI–XVII əsrlər Səfəvi dövr mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi faktlarla qiymətləndirir.
Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Səfəvi dövr mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referat hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Səfəvi dövr mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referat hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Səfəvi dövr mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referat hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Səfəvi dövr mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatı faktlarla hazırlayır.

SƏFƏVİLƏR DÖVLƏTİ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Məsləhət gördüyümüz ümumiləşdirici dərsdə 4.1.2., 5.1.3. standartlarından istifadə etməyi tövsiyə edərdik. Bu dərsi keçərkən əsas diqqəti şagirdlərdə referat və təqdimat hazırlamaq bacarıqlarının formalaşdırılmasına yönəltməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən şagirdlərlə hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almağınız yaxşı olardı. Bununla belə, bizim məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan yararlana bilərsiniz. Dərsi keçmək üçün təklif olunan standartlardan biri şəxsiyyət, digəri isə mədəniyyət məzmun xəttinə aid olduğundan şagirdlərə verəcəyiniz tapşırıqları iki qismə bölə və sinfi iki istiqamətdə "işlədə" bilərsiniz.

MÖVZU 36

AZƏRBAYCAN TORPAQLARININ AZAD OLUNMASI UĞRUNDA MÜBARİZƏ. NADİR ŞAH

Qeyd: Mövcud paraqrafı keçmək üçün sizə 2 saat verilir. Bunun üçün də siz dərsinizi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dəsin 2 saata keçiləcəyini nəzərə alaraq sizlərə 4 standart seçməyi və müvafiq şəkildə dərsə 4 məqsəd qoymağı məsləhət görürük. Bununla belə, məsləhət gördüyümüz standartları və məqsədləri artıra və azalda, eləcə də hər hansı standartı dəyişə bilərsiniz. Bu deyilənləri və keçiləcək mövzunu hissələrə bölən zaman gözlənilən lazımi nəticənin alınmasında effekt olmayacağını nəzərə alaraq birinci dərsi mühazirə formasında keçməyi məsləhət görürük. Təbii ki, müəllim mühazirəsindən sonra dərsin ümumiləşdirmə və nəticə, yaradıcı tətbiqetmə, ev tapşırığı mərhələsini keçirmək vacibdir. Bu mərhələlərlə müəllim mühazirəsini həm möhkəmləndirə, həm şagirdləri dərsə yaradıcı yanaşmağa sövq edə, həm də növbəti dərsdə aparılacaq tədqiqata hazırlaya bilər. Bu zaman şagirdlərə aşağıdakı sual və tapşırıqları vermək olar:

– Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edin.

– Azərbaycan torpaqlarının Rusiya ilə Osmanlı imperiyası arasında bölüşdürülməsinə münasibət bildirin.

– Sizcə, nəyə görə Rusiya bu dövrdə Osmanlı imperiyası ilə toqquşmaq istəmirdi?

– Gəncə sülhü ilə Peterburq sülhü arasında hansı oxşarlıqlar var?

– Nadirin aqrar siyasəti nəyə qarşı yönəlmişdi?

– Nadir şah hakimiyyətinə qarşı baş qaldıran üsyanın səbəbləri hansılar idi?

– Nadir şah haqqında materiallar toplayıb referat hazırlayın.

– “Azərbaycan Şərqlə Qərb arasında ticarətin inkişaf etdirilməsi üçün mühüm vasitə rolunu oynayırdı” və “Tarixi İpək Yolunun bərpa olunması” cümlələri arasında hansı bağlılığı görmək olar?

Alt standartlar:

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.

2. XVIII əsrin II rübündə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3. Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.

4. Nadir şah haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

İnteqrasiya: Az.d. 3.1.2., Ü.t. 2.1.2., 4.1.2., Əd. 3.1.2., Coğ. 3.2.1.

Təlim forması: böyük və kiçik qruplarla iş

Təlim üsulu: beyin həmləsi, mühazirə, müzakirə

Resurslar: XVIII əsrə aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, kompüter, proyektor və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş sözləri və açar sözləri vermək olar. Bunlar səsləndirildikdən sonra suallarla şagirdlərə müraciət edə bilərsiniz. Beləliklə, çətinlik çəkmədən dərsin motivasiyasını qurmaq olar. Motivasiya yaratmaqdan ötrü şagirdlərin diqqətini Səfəvilər dövlətinin dağılması səbəblərinə, əfqan hücumlarına, bir sözlə, XVIII əsrin əvvəllərində bu dövlətin düşdüyü ağır sosial, iqtisadi və siyasi vəziyyətə cəlb etmək lazımdır. Bundan sonra şagirdlərin diqqətini belə ağır durumda "xilaskar" qismində çıxış edə biləcək "möhkəm bir əl"in lazım olmasının vacibliyinə yönəltmək zəruridir. Bu məqsədlə elə suallar verməlisiniz ki, bu onlarda fərziyyə söyləyə bilmək imkanı yaratsın. Suallardan sonra şagirdlər fərziyyələrini bildirirlər. Əldə edilən fikirləri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Dərs üçün motivasiya qurmaqdan ötrü şagirdlər üçün slaydlar da hazırlamaq olar.

Tədqiqat sualı: Güclü bir dövlət yaradan Nadir şah şəxsiyyətinin Azərbayan tarixində rolu və yeri nədən ibarət olmuşdur?

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz fəal təlimin müzakirə üsulundan istifadə etsəniz, daha yaxşı olar. Tədqiqat üçün qruplara aşağıdakı sualları verə bilərsiniz:

I qrup – XVIII əsrin əvvəllərində Azərbaycan torpaqlarının mübarizə meydanına çevrilməsini şərh edin.

II qrup – Nadir xan Əfşarın Səfəvilər dövlətini xilas etməsini dəyərləndirin.

III qrup – Nadir şahın daxili siyasətini qiymətləndirin.

IV qrup – Nadirə qarşı Azərbaycanda baş qaldıran üsyanları dəyərləndirin.

V qrup – Nadir şahın yerində siz olsaydınız, dövləti daxilən möhkəmləndirmək üçün hansı addımı atardınız?

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qiymətləndirilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Bunun üçün siz şagirdlərə bu suallarla müraciət edə bilərsiniz:

– Sizcə, nə üçün Nadir xan Əfşar şah II Təhmasibi hakimiyyətdən devirdi?

– Səfəvilər dövlətinin tənəzzülünün səbəbləri hansılar idi? (Əvvəlki paraqrafa istinadən).

– Rusiya ilə Osmanlı dövlətinin Azərbaycana maraqlarında hansı oxşarlığı tapmaq olar?

– Belə qısa müddətə ruslar və osmanlıların Səfəvi torpaqlarını ələ keçirə bilməsinin səbəbi nə ola bilərdi?

– Məmurların öz maaşlarını torpaq bəxşişi şəklində deyil, pul şəklində alması əmri feodalların nüfuzunun sarsıdılmasına necə kömək edə bilərdi?

– Vəqf torpaqlarının gəlirinin hökumətin xeyrinə zəbt olunması kimləri hakimiyyətdən narazı sala bilərdi?

– Sizcə, Nadir şahın keçirtdiyi hansı islahat doğru deyildi?

Yaradıcı tətbiqetmə: Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı sual və tapşırığı verə bilərsiniz.

– XVIII əsrin 20-ci illərində Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.

– Müasir dövrdə Azərbaycan dövləti hansı problemini Rəşt və Gəncə sülhü ilə həll edilən yolla nizamlamaq istəyir?

–Verilmiş yazılı mənbə müəlliflərinin mövqeyini müəyyənləşdirin.

Ev tapşırığı:

1. XIII, XVI və XVIII əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqram tərtib edin.

2. XVIII əsrin 20-ci illərində dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edin.

3. Nadir şah dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.

4. Verilmiş mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edin.

5. Nadir şah haqqında təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: təqdimatlar hazırlama, dəyərləndirmə, müqayisə edərək dəyərləndirmə, referatlar və təqdimatlar hazırlama

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələdə müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmayın.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.	Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatlar hazırlayır.	Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edir, təqdimatları faktlarla hazırlayır.
XVIII əsrin ikinci rübündə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin ikinci rübündə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XVIII əsrin ikinci rübündə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.	XVIII əsrin ikinci rübündə Azərbaycanın geosiyasi mövqeyini faktlarla dəyərləndirir.
Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.	Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edir və dəyərləndirir.	Nadir şahı Makedoniyalı İsgəndər və Əmir Teymurla müqayisə edir və faktlarla dəyərləndirir.
Nadir şah haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Nadir şah haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.	Nadir şah haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.	Nadir şah haqqında topladığı materiallara əsasən referatlar və təqdimatları faktlarla hazırlayır.

MÖVZU 37

QUBA XANLIĞININ BİRLƏŞDİRMƏ SİYASƏTİ

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

4.1.1. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərini (I Axsitan, Qara Yusif, Uzun Həsən, Şah I İsmayıl, Şah I Abbas, Nadir şah, Cavad xan, Ağaməhəmməd şah Qacar) dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında topladığı materiallara əsasən referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini dəyərləndirir.

2. Quba xanı Fətəli xanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.

3. Quba xanı Fətəli xan haqqında topladığı materiallara əsasən təqdimat hazırlayır.

İnteqrasiya: Az.d. 1.2.4., Coğ. 3.2.1., Ü.t. 4.1.1., İnf. 4.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

Resurslar: İKT avadanlıqları, Quba xanlığının xəritəsi, Azərbaycanın xanlıqlar dövrü xəritəsi, şəkillər, Quba xanlığı haqqında mənbələrdən nümunələr, iş vərəqləri, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya kimi mövzunun əvvəlində giriş sözlərdən ("Hiyləgər siyasətin, dostluq və nikah ittifaqının köməyi ilə bir sıra döyüşlərdən sonra Dərbənd və Şamaxı xanlıqlarını işğal etdi") istifadə etmək olar. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək mümkündür. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönəltmək olar. Suallara cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt verilsə, daha doğrudur. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəmüvafiqdir.

Alınan cavabları sistemləşdirib keçiləcək dərslə əlaqələndirdikdən sonra tədqiqat sualını elan edə bilərsiniz.

Tədqiqat sualı: Fətəli xan Quba xanlığının inkişafında hansı rolu oynadı?

Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə qrup işi vermək olar. Bunun üçün onlar qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olacaq. Eyni zamanda bu şəkildə vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çatar. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması məqsədilə, daha

yaxşı olardı ki, müxtəlif rənglərdən, məsələn, qırmızı, sarı, yaşıl, mavi, çəhrayı və s. rənglərdən istifadə edəsiniz. Qrupu 4 yerə bölməklə onların adını mövzu ilə bağlı qoymaq məqsədəuyğun olardı. Bu zaman qruplara tədqiqat üçün aşağıdakı sualları verə bilərsiniz:

I qrup – Nadir şahın ölümündən sonra Azərbaycanda çox sayda feodal dövlətlərin yaranmasının səbəblərini şərh edin.

II qrup – Xanlığın əhalisinin artırılmasında Fətəli xanın maraqlarını dəyərləndirin.

III qrup – Fətəli xanın yürütdüyü birləşdirmə siyasətini vergi islahatını keçirmədən reallaşdırmaq mümkün olub-olmadığını əsaslandırın.

IV qrup – Fətəli xanın yürütdüyü siyasətlər arasında əlaqələri təhlil edin.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə şagirdlər öz qrup işlərini təqdim edirlər. Qrup liderlərinin təqdimatı zamanı hər hansı bir məlumatın ötürülməsində problem olarsa və lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Qrup meyar cədvəli öncədən sinifdə asılır. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qrup bu meyar əsasında qiymətləndirilir.

Qruplar	Tapşırıqların vaxtında yerinə yetirilməsi	Müzakirədə fəallıq	Təqdimetmə	Əməkdaşlıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Ümumilşədirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Nəticədə şagirdlər sizin verəcəyiniz yönləndirici suallar vasitəsilə tədqiqat sualına cavab tapa bilərlər.

Yaradıcı tətbiqetmə: 8-ci sinif Azərbaycan tarixində əldə edilmiş məlumatlar əsasında Quba xanlığının qonşu dövlətlərlə əlaqələrini əks etdirən aşağıdakı cədvəli doldurun.

Quba xanlığının münasibət saxladığı dövlətlər	Münasibətin tipi		Fikrinizi bir faktla əsaslandırın
	Dostluq	Düşmənçilik	

Ev tapşırığı:

1. İnternet resurslardan istifadə edərək Quba xanları haqqında əlavə məlumat toplayın.
2. Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini dəyərləndirin.
3. Quba xanı Fətəli xan haqqında təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, müqayisə edib və dəyərləndirmə, təqdimat hazırlama

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Bu zaman siz hər bir meyarı səviyyələr üzrə bölməlisiniz. Sonuncu meyarı dərsdə reallaşdırmaq mümkün olmadığı üçün şagirdlərə ona uyğun ev tapşırığı verilməsi nəzərdə tutulmuşdur. Bunun üçün də siz şagirdlərin qiymətləndirilməsini onlar ev tapşırığını təhvil verən zaman apara bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini dəyərləndirir.	Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini dəyərləndirir.	Quba xanlığının yaranması və inkişafında həmin dövrün xüsusiyyətlərini faktlarla dəyərləndirir.
Quba xanı Fətəli xanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Quba xanı Fətəli xanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Quba xanı Fətəli xanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və dəyərləndirir.	Quba xanı Fətəli xanı dünyanın görkəmli tarixi şəxsiyyətləri ilə müqayisə edir və faktlarla dəyərləndirir.
Quba xanı Fətəli xan haqqında topladığı materiallara əsasən təqdimat hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Quba xanı Fətəli xan haqqında topladığı materiallara əsasən təqdimat hazırlayır.	Quba xanı Fətəli xan haqqında topladığı materiallara əsasən təqdimat hazırlayır.	Quba xanı Fətəli xan haqqında topladığı materiallara əsasən təqdimatı faktlarla hazırlayır.

MÖVZU 38

ŞƏKİ XANLIĞI. CAR-BALAKƏN CAMAATLIĞI

Alt standartlar:

1.2.1. Tarixi hadisəyə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.

2. Şəki xanlığının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3. XVIII əsrin II yarısında Azərbaycan Gürcüstan münasibətlərində Şəki xanlığının mövqeyini şərh edir.

İnteqrasiya: Az.d. 1.1.1., Ü.t. 3.1.1., Coğ. 3.2.1.

Təlim forması: kollektiv və fərdi iş

Təlim üsulu: beyin həmləsi, BİBÖ, bir dəqiqə

Resurslar: dərslik, xəritə, şəkillər, portretlər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiyanı qurmaq üçün BİBÖ üsulundan istifadə etmək olar. Bunun üçün BİBÖ cədvəlini lövhədə və ya flipçartda çəkə, sonra Şəki xanlığı ilə bağlı cədvəli doldura bilərsiniz.

Bilirəm	Bilmək istəyirəm	Öyrəndim

Motivasiyanın qurulmasında əsas diqqət yetiriləcək məsələ motivasiyanın tədqiqat sualının müəyyən edilməsinə xidmət etməsi olmalıdır. Motivasiya kimi mövzunun əvvəlində Nadir şahın Hacı Çələbi haqqında dediyi sözlərdən ("Mənim hüzurumda bir kəsin həddi yoxdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi imiş ki, boğazında kəndir cürət eləyib bu ərzləri mənə elədi. Heç sözündə yanılmadı. Əlbəttə, bundan bir xəta əmələ gələcək. Mənim zənnim xəta olmaz") istifadə etmək mümkündür. Nadir şahın fikirləri səsləndikdən sonra şagirdlərə yönləndirici suallarla müraciət edə bilərsiniz. Şagirdlər fərziyyələr irəli sürdükdə onların fikrini əsas hədəfə cəmləyin. Şagirdlərin fərziyyələrini lövhədə və ya flipçartda qeyd edin ki, onlar bu fikirlər əsasında araşdırılacaq problemi müəyyən edə bilsinlər. Verilmiş cavablar sistemləşdirilərək tədqiqat sualı elan olunur.

Tədqiqat sualı: Azərbaycanın şimal-qərb torpaqlarının gürcü çarları tərəfindən tutulmasının qarşısı necə alındı?

Motivasiya mərhələsi bitdikdən və tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən biri olan tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "bir dəqiqə" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verib onlara bu dərs üsulunun qaydalarını xatırlada (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə veriləcək. Siz də öz növbənizdə səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz) bilərsiniz. Bu zaman inteqrasiya imkanlarını da dəyərləndirmək olar. Bunun üçün dərsin əvvəlində müəyyənləşdirilmiş inteqrasiya imkanlarını, yəni inteqrasiya edəcəyiniz hər hansı bir fənnin və ya fənlərin standartlarını nəzərə almağınız vacibdir. Bu vaxt şagirdlərin inteqrasiya edəcəyiniz fənlə bağlı bilik və bacarıqları yardımçı ola bilər.

Üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı.

– Şəki xanlığının yaranması üçün tarixi dövrü qiymətləndirin.

– Hacı Çələbi qonşu əraziləri xanlığa qatmaq üçün hansı əlverişli vəziyyətdən istifadə etməyi qərarlaşdırdı?

– Bayat savaşını şərh edin.

– Qızıl Qaya xəyanətini qiymətləndirin.

– Xanlığın zəifləməsini şərh edin.

– Kərim Ağa Fatehin "Şəki xanlarının müxtəsər tarixi" əsərindən verilmiş mənbəyə münasibətinizi bildirin.

– Hakimiyyət uğrunda mübarizənin dövlətin zəifləməsində oynadığı rolu şərh edin.

– Çıldır valisi Süleyman paşanın Osmanlı sultanına 1784-cü ildə göndərdiyi məktubuna əsasən Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərini qiymətləndirin.

– Car-Balakən camaatlığın idarəetmə xüsusiyyətlərini açıqlayın.

Məlumatın mübadiləsi və müzakirəsi: Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra fərdi işlərin nəticələri ümumiləşdirilir. Müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldir. Eləcə də bu zaman dərsin əvvəlində doldurmağa başlanılmış BİBÖ cədvəlinə qayıtmaq və onu doldurmaq vacibdir. Bütün bunlar həyata keçirildikdən sonra tədqiqat sualına cavab tapılır.

Yaradıcı tətbiqetmə: Bu mərhələdə şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– Çıldır valisi Süleyman paşanın 1784-cü ildə Osmanlı sultanına göndərdiyi 2 məktubu müqayisəli formada təhlil edin.

– Kərim Ağa Fatehin "Şəki xanlarının müxtəsər tarixi" əsərindən verilmiş mənbə parçasını mətndəki müvafiq yerlərlə uzlaşdırın və fikrinizi bildirin.

– Car-Balakən camaatlığında hansı demokratik təsisatları sezmək olar? (Fikrinizi əsaslandırın).

– Hacı Çələbinin birləşdirdiyi torpaqları, hücum etdiyi əraziləri kontur xəritədə təsvir edin.

Ev tapşırığı:

1. Birləşdirmə siyasəti yürüdən xanlıqların fəaliyyəti ilə bağlı 5-7 cümləlik esse yazaraq onlara haqq qazandırın.

2. Mətndə verilmiş mənbələrdən istifadə edərək təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: müəyyənləşdirmə, dəyərləndirmə, şərh etmə

Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsini həyata keçirin. Siz formativ qiymətləndirməni müxtəlif vasitələrdən istifadə etməklə də apara bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərinə aid yazılı mənbənin müəllifinin mövqeyini müəyyənləşdirir.	Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətlərinə aid yazılı mənbənin müəllifinin mövqeyini faktlarla müəyyənləşdirir.
Şəki xanlığının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Şəki xanlığının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Şəki xanlığının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.	Şəki xanlığının yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini faktlarla dəyərləndirir.
XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətlərində Şəki xanlığının mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətlərində Şəki xanlığının mövqeyini şərh edir.	XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətlərində Şəki xanlığının mövqeyini şərh edir.	XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətlərində Şəki xanlığının mövqeyini faktlarla şərh edir.

MÖVZU 39

QARABAĞ XANLIĞI

Alt standartlar:

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

3.1.3. Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. XVIII əsrin II yarısında Qarabağ xanlığının geosiyasi mövqeyini dəyərləndirir.
2. Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.

İnteqrasiya: Ü.t. 2.1.2., Coğ. 3.2.1., İnf. 4.1.2.

Təlim forması: kollektiv və qruplarla iş

Təlim üsulu: beyin həmləsi, iş vərəqləri üzərində iş

Resurslar: Qarabağ xanlığının xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün şagirdə beyin həmləsi edə bilərsiniz. Bu məqsədlə mövzunun əvvəlində Qarabağ xanı İbarhimxəlil xanın qızı Ağabəyim ağanın yazdığı şeiri oxumaq və ya açar sözləri onlara çatdırmaq, sonra isə köməkçi suallar vermək lazımdır.

Mən aşiqəm qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Açar sözləri – Ziyadoğullar, Kəbirli eli, Pənahəli, İbrahimxəlil, Şahbulaq qalası, Şuşa, və s.

Motivasiyanı "Qarabağ şikəstəsi"ni sinifdə səsləndirməklə də qurmaq olar. Musiqi parçasından sonra şagirdlərə "Bu mahnı sizə hansı təsiri bağışladı? Qarabağ adı eşidəndə sizdə hansı təəssürat oyanır? Sizcə, hazırkı Qarabağ probleminin kökü nə qədər dərin ola bilər?" kimi suallar verin. Suallarınıza müxtəlif fərziyyə formasında cavab verilə bilər. Bundan çəkinmək lazım deyil. Şagirdlərin cavabını eşidin və onlara "sən düz demədin" və ya "sən tamamilə haqlısan" ifadələrini deməkdən çəkinin. Şagirdlərə yalnız ümumi cavablar verməniz məqsədəuyğundur. Sizə lazım olan cavabları alandan sonra dərsin növbəti mərhələsinə keçə bilərsiniz.

Tədqiqat sualı: Qarabağ xanları separatçı qüvvələrlə və xarici təhlükəyə qarşı necə mübarizə apardılar?

Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə qrup işi vermək olar. Buna görə şagirdləri qruplara bölmək lazımdır. Bundan sonra dərsin qaydalararını izah edin, dərslikdən müvafiq yerlərlə tanış olmağı tapşırın. Eləcə də əvvəlcədən hazırladığınız paylama materiallarını da onlara verə bilərsiniz. Paylama materialı qismində dərsinizi keçməyə yararlı ola biləcək müxtəlif qəzet, jurnal, məqalə və kitablardan müəyyən etdiyiniz hissələr ola bilər. Materialla tanış olmaq üçün verilən vaxt bitdikdən sonra şagirdlərə qrup işləri üçün tapşırıqları elan edə bilərsiniz.

I qrup – Pənahəli xanın yürütdüyü mərkəzləşdirmə siyasətini şərh edin.

II qrup – Qarabağ xanlığının yaranması üçün tarixi şəraitin yetişdiyini və bu xanlığın yaradılmasının əhəmiyyətini qiymətləndirin.

III qrup – İbrahimxəlil xanın dövründə xanlığın daha da güclənməsini dəyərləndirin.

IV qrup – Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafik tərtib edin.

Qrup işləri bitdikdən sonra dərsin növbəti mərhələsinə – məlumatın mübadiləsi və müzakirəsinə keçmək olar.

Məlumatın mübadiləsi və müzakirəsi: Bu mərhələdə şagirdlər öz qrup işlərini təqdim edirlər. Onların liderləri verilmiş tapşırığın təqdimatını qrup adından həyata keçirir. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar qiymətləndirmə meyarı əsasında qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır ki, şagirdlər nəyin əsasında qiymətləndiriləcəklərini bilsinlər.

Qruplar	Tapşırıqların vaxtında yerinə yetirilməsi	Əməkdaşlıq	Təqdimetmə	Müzakirədə fəallıq	Ümumi nəticə
I					
II					
III					
IV					

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir. Bunun üçün sinfə aşağıdakı suallarla müraciət edə bilərsiniz.

– Nadir şahın Qarabağ bəylərbəyliyini cəzalandırmaq üçün gördüyü tədbirlər sonradan hansı mənfi fəsadlara yol açdı?

– Pənahəli xan xanlığı möhkəmləndirmək üçün hansı tədbirləri gördü?

– Qarabağ xanlığının separatçı qüvvələri kimə və nəyə güvənirdilər?

– Sizcə, Qarabağ xanlığı hansı xanın dövründə daha qüvvətli idi – Pənahəli xanın, yoxsa İbrahimxəlil xanın? Fikrinizi əsaslandırın.

Yaradıcı tətbiqetmə:

– Yuxarıdakı mənbələrdə verilən məlumatı mövzuda verilən dəqiq faktlarla tutuşdurun və uyğunsuzluğun olub-olmadığını aşkar edin.

– Fətəli xanın II Yekaterinaya göndərdiyi məktub əsasında İbrahimxəlil xanın xarici siyasətini səciyyələndirin.

– Qarabağ xanlığına münasibətdə mənbə müəllifləri Mirzə Adıgözəl bəylə Əhməd bəy Cavanşirin mövqeyini müəyyənləşdirin.

Ev tapşırığı:

1. İbrahimxəlil xan haqqında topladığınız materiallara əsasən referat hazırlayın.

2. Birləşdirmə siyasəti yürüdən xanlıqları (birləşdirdiyi əraziyə görə) diaqram vasitəsilə göstərin.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, qrafik tərtib etmə

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Bu zaman hər bir meyarı səviyyələr üzrə bölmək lazımdır.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının geosiyasi mövqeyini dəyərləndirir.	XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının geosiyasi mövqeyini dəyərləndirir.	XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının geosiyasi mövqeyini faktlarla dəyərləndirir.
Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafik tərtib tməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.	Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafik tərtib edir.	Qarabağ xanlığının sosial-iqtisadi inkişafına dair qrafiki faktlarla tərtib edir.

MÖVZU 40

NAXÇIVAN VƏ İRƏVAN XANLIQLARI

Alt standartlar:

1.2.2. Yazılı mənbələrin, yaxud tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.

2. Naxçıvanın və İrəvan xanlığının əhalisinin həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

3. XVIII əsrin ikinci yarısında Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.

İnteqrasiya: İnf.1.1.3., Əd.1.1.4., Ü.t. 2.1.2., Coğ. 3.2.4.

Təlim forması: kollektiv və cütlərlə iş

Təlim üsulu: beyin həmləsi, müzakirə

Resurslar: dərslik, xanlıqlar dövrü xəritələri, şəkillər, mövzuya aid slayd, portretlər, sxem və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiyanın reallaşdırılması üçün müxtəlif vasitələrdən istifadə edə bilərsiniz. İlk olaraq motivasiyanı dərslikdə verilmiş mövzunun giriş hissəsi əsasında qurmaq olar. Bunun üçün mövzunun giriş hissəsini şagirdlərə çatdırmaq lazımdır. İndiki Ermənistan ərazisi ermənilərin deyil e.ə. VIII–VII əsrlərdən başlayaraq əsasən türk mənşəli etnosların yaşadığı və idarə etdiyi ölkə olmuş və sonralar, XIX əsrin əvvəllərinə qədər burada türklər aparıcı rol oynamışlar. Bu fikirlər şagirdlərə çatdırıldıqdan sonra onlara beyin həmləsi üsulu vasitəsilə suallar verilməlidir.

Motivasiya vasitələrindən biri kimi Azərbaycanın XXI və XVIII əsr xəritələrindən istifadə etmək olar. Bu zaman onların diqqətini İrəvan və Naxçıvan istiqamətinə cəlb edin. Xəritədə gördükləri ərazidə hansı dəyişikliklərin baş verdiyini soruşun. Bu fərqin nədən ibarət olduğuna dair suallar verin. Cavab alınandan sonra xəritələrdə olan dəyişikliklərə münasibətinizi bildirib bu ərazilərdə baş vermiş dəyişikliklərin səbəblərini qısaca söyləyərək onları motivasiya sualına yönləndirin.

Motivasiyanın hansı yollarla rellaşdırılmasından aslı olmayaraq əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, eləcə də bu, uzun vaxt aparmasın. Düşündürücü və 4-5 dəqiqəyə baş tutacaq olarsa, daha səmərəlidir. Motivasiya reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

Tədqiqat sualı: XVIII əsrdə tarixi Azərbaycan torpaqlarının toxunulmazlığını təmin edə bildikmi?

Tədqiqat suallına cavab tapmaq üçün cütlərlə iş forması seçdiyimizdən tapşırıqlar cütlərə verilir. Onların bu zaman dərslikdən və ya paylama materiallarından istifadə etmələri zəruridir. Çünki dərs sinifdə reallaşır, şagirdlər qoyulan problemlə yaxın tanış olmaq məcburiyyətindədirlər. Əgər sizin məktəbin İKT imkanları varsa, şagirdlər internet axtarış sistemindən istifadə edə bilərlər. Bu zaman siz onlara istiqamət vermək üçün konkret internet ünvanları (linklər) söyləsəniz, daha məqsədəuyğun olar. İnternet resurslarından, əlavə paylayıcı materiallardan, müxtəlif mənbələrdən istifadə sizə inteqrasiya imkanları yaradır. Dərsin icmalında bu dərs üçün müxtəlif fənn standarları ilə inteqrasiya imkanları verilmişdir. Mövcud dərsi keçən zaman əvvəlcədən müəyyən edilmiş bu imkanlardan dərsinizin məqsədinə uyğun gələni seçə və reallaşdıra bilərsiz.

Biz sinfin 9 cüt şagirdinin tədqiqat aparması üçün tapşırıqlar müəyyən etmişik. Sinifdə onların sayı çox olduğu halda birbaşa dərsin məqsədini açmağa yaxın olan tapşırıqları təkrar olaraq diğər cütlərə verə bilərsiniz.

I cüt – Mənbəyə söykənərək fikrinizi əsaslandırın: II İraklinin İbrahim xanın Naxçıvanda möhkəmlənməsini istəməməsi nə ilə bağlı ola bilərdi?

II cüt – Naxçıvan xanlığının yaradılmasını şərh edin.

III cüt – Rusiya Azərbaycana sahib olmaqla nə “qazana” bilərdi?

IV cüt – Üçkilsə monastrı ilə Gürcü çarlarını birləşdirən nə idi?

V cüt – İrəvan xanlığının əsasının qoyulmasını şərh edin.

VI cüt – Sizcə, II İrakli nə üçün Hüseynəli xanı tam özünə tabe edə bilmədi?

VII cüt – XVIII əsrin ikinci yarısında Azərbaycanın qərb torpaqlarında gedən geosiyasi proseslərə dair diaqram tərtib edin.

VIII cüt – Naxçıvan və İrəvan xanlıqlarında gedən siyasi proseslərdə hansı oxşarlığı görmək olur?

IX cüt – Osmanlı dövlətinin Azərbaycan xanlıqlarını müdafiə etmək istəyini verilmiş mənblər əsasında araşdırın.

Cütlərin işi bitdikdən sonra onun təqdim edilməsi reallaşdırılmalıdır. Vaxt bölgüsünü əvvəlcədən elan etməniz zəruridir ki, şagirdlər vaxt itkisinə şərait yaratmasınlar.

Məlumatın mübadiləsi və müzakirəsi: Cütlər iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra cütlərin işlərinin nəticələri ümumiləşdirilir. Bu zaman dərsin məqsədlərinə və tədqiqat sualına nəzər salınmalıdır. Deyilənləri nəzərə almaqla müəllim şagirdləri öz yekun sözləri ilə son nəticələrə yönəldir. Tətqiqat sualına cavab tapılır.

Yaradıcı tətbiqetmə. Bu mərhələdə şagirdlərə yaradıcı təfəkkürün inkişafına kömək olacaq hər hansı bir tapşırıq verə və ya dərslikdə olan sual və tapşırıqlardan istifadə edə bilərsiz.

1. Mövzuya dair verilmiş mənbələri uzlaşdırıb təhlil edin.
2. Mövzuya aid mənbə müəlliflərinin mövqeyini müəyyənləşdirin.

Ev tapşırığı:

1. Xanlıqlar dövrünə dair əvvəlki mövzuları bir də nəzərdən keçirin və gürcü çarlarının Azərbaycan xanlıqlarına qarşı yürütdüyü siyasəti təhlil edin.
2. “İrəvan tarixi Azərbaycan torpağıdır” mövzusunda təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: müəyyənləşdirmə, təqdim etmə, diaqramlar tərtib etmə

Məqsədəmüvafiq meyarlar əsasında fomativ qiymətləndirməni həyata keçirin. Bu zaman sinfin bir neçə şagirdini bir və ya bir neçə meyar əsasında formativ qiymətləndirə bilərsiniz. Bunun üçün əvvəlcədən yuxarıdakı meyar səviyyələrini müəyyənləşdirməlisiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü müəyyənləşdirir.	Tarixi sənədin aid olduğu dövrü faktlarla müəyyənləşdirir.
Naxçıvanın və İrəvan xanlığının əhalisininn həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Naxçıvanın və İrəvan xanlığının əhalisininn həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Naxçıvanın və İrəvan xanlığının əhalisininn həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	Naxçıvanın və İrəvan xanlığının əhalisininn həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında faktlarla təqdim edir.
XVIII əsrin ikinci yarısında Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin ikinci yarısında Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XVIII əsrin ikinci yarısında Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	XVIII əsrin ikinci yarısında Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramları faktlarla tərtib edir.

MÖVZU 41

CƏNUB XANLIQLARI

Alt standartlar:

1.1.2. Mənbələr əsasında Azərbaycanın keçmiş və müasir dövrünə dair xronoloji cədvəllər hazırlayır.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Mənbələr əsasında Azərbaycanın xanlıqlar dövrünə dair xronoloji cədvəllər hazırlayır.

2. XVIII əsrin ikinci yarısında İran, Osmanlı, rus və gürcü münasibətlərində Azərbaycanın mövqeyini şərh edir.

İnteqrasiya: Az.d. 1.1.1., Ü.t. 1.1.3., 3.1.1.

Təlim forması: kollektiv iş

Təlim üsulu: əqli hücum, dəyirmi masa

Resurslar: İKT avadanlıqları, fərdi sorğu vərəqləri, dərslik, Azərbaycanın xanlıqlar dövrü xəritəsi, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Motivasiya üçün mövzunun əvvəlində verilmiş XVI əsr tarixçisi Oruc bəy Bayatın yazdıqlarından istifadə etmək olar:

"Necə ki biz izah edirdik, Türkmənlər (azərbaycan türkləri – red.) ölkəsi nə İran dövlətinin əyaləti deyil, nə də onun şəhərlərindən biri deyil, buna görə də biz onun haqqında əyalət kimi danışmırdıq. Lakin onlar başqa İran xanədanı xalqları arasında çox böyük əhəmiyyətə malikdirlər, çünki onlar ən igid xalqdırlar və yetərincə çoxsaylıdırlar".

Motivasiyanı dərsə aid slaydlar hazırlamaqla da qurmaq mümkündür. Və ya Azərbaycanın Xanlıqlar dövrü xəritəsini lövhədən asıb yönləndirici suallar verməklə də şagirdlərin diqqətini Cənubi Azərbaycanın xanlıqlarına cəmləyə bilərsiniz. Motivasiyanı uğurla qurduqdan sonra tədqiqat sualını elan etmək mümkündür.

Tədqiqat sualı: XVIII əsrin ikinci yarısında Azərbaycanın Şimalına nisbətdə Cənubda siyasi proseslər necə cərəyan edirdi?

Bu dərsi dəyirmi masa üsulu ilə keçməyi məsləhət görərdik. Bunun üçün partalar əvvəlcədən şagirdlərin sərbəst diskussiya qurmasına yardım edə biləcək formada düzülməlidir. Diskussiya zamanı onların diskussiya mədəniyyəti inkişaf edir. Diskussiyanın daha canlı və dərsin məqsədini açmağa yardım edəcək formada qurulması üçün şagirdlərə aşağıdakı vəzifələri xatırlatmalısınız:

1. Müxtəlif problemlərin həllinə dair çoxvariantlı cavablar verin.
2. Cavab verərkən real şəraiti təhlil edin.

Bununla yanaşı, diskussiyaya başlayan zaman siz hökmən şagirdlərə riayət etməli olduqları qaydaları xatırladın.

– danışanı dinləmək;
– eyni zamanda bir nəfər danışa bilər;
– çıxış etmək istədikdə əlini qaldırmaq;
– danışanın sözünü kəsməmək;
– razılaşmadıqda sinif yoldaşının fikirinə tənqidi münasibət bildirmək;

Dəyirmi masada müzakirə üçün aşağıdakı tapşırıqları problem kimi qoya bilərsiniz.

1. Urmiya xanlığının yaranmasının tarixi şəraitini şərh edin.
2. Fətəli xan Əfşar və Kərim xan Zənd rəqabətini dəyərləndirin.
3. Xoy xanlığının Cənubi Azərbaycan xanlıqları arasında yerini və rolunu şərh edin.

Şagirdlər diskussiya qurub mövcud problemin həllinə öz töhfələrini verirlər. Bununla da siz, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də reallaşdırmış olursunuz.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Dəyirmi masada müzakirə zamanı şagirdlər müxtəlif məlumatlarla tanış olurlar. Müzakirə bitdikdən sonra onlara əlavə sual və tapşırıqlar verə bilərsiniz:

– Kərim xan Zəndin Fətəli xan Əfşarı məğlub edə bilməsinin səbəbi nə idi?

– Kərim xan Zəndin bir sıra Azərbaycan xanlarını Şiraza aparıb orada girov kimi saxlamağı ona nə verə bilərdi?

– Mənbə məlumatına söykənərək Xoy xanlığının güclü xanlıq olduğunu demək olarmı? Fikrinizi əsaslandırın.

– XVIII əsrin ikinci yarısındakı Azərbaycan ərazisini və onun qonşuluğunda olan dövlətləri kontur xəritədə göstərin. Verilən cavablar dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir, nəticələr ümumiləşdirilir. Nəticədə şagirdlər sizin verəcəyiniz yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab tapa bilərlər.

Yaradıcı tətbiqetmə:

1. Mövzuya aid mənbələr arasında hansı oxşarlığı görmək olur?
2. Xanlıqlar dövrünə dair xronoloji cədvəl hazırlayın.
3. Xanlıqlar dövrü mənbələrinə əsaslanaraq qonşu dövlətlərin Azərbaycan xanlıqlarına münasibətini şərh edin.

Ev tapşırığı:

1. İnternet resurslardan istifadə edərək Urmiya xanları haqqında əlavə məlumat toplayın.
2. XVIII əsrdə Azərbaycanda gedən ara müharibələrinə münasibətdə yazılı mənbə müəlliflərinin mövqeyini müəyyənləşdirin.
3. Urmiya xanlığından asılı olan xanlıqları kontur xəritə üzərində işarələyin.

Qiymətləndirmə meyarları: xronoloji cədvəllər hazırlama, şərhetmə

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Bu zaman hər bir meyarı səviyyələr üzrə bölməlisiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Mənbələr əsasında Azərbaycanın xanlıqlar dövrünə dair xronoloji cədvəllər hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə mənbələr əsasında Azərbaycanın xanlıqlar dövrünə dair xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanın xanlıqlar dövrünə dair xronoloji cədvəllər hazırlayır.	Mənbələr əsasında Azərbaycanın xanlıqlar dövrünə dair xronoloji cədvəlləri faktlarla hazırlayır.
XVIII əsrin ikinci yarısında İran, Osmanlı, rus və gürcü münasibətlərində Azərbaycanın mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin ikinci yarısında İran, Osmanlı, rus və gürcü münasibətlərində Azərbaycanın mövqeyini şərh edir.	XVIII əsrin ikinci yarısında İran, Osmanlı, rus və gürcü münasibətlərində Azərbaycanın mövqeyini şərh edir.	XVIII əsrin ikinci yarısında İran, Osmanlı, rus və gürcü münasibətlərində Azərbaycanın mövqeyini faktlarla şərh edir.

MÖVZU 42

AĞA MƏHƏMMƏD ŞAH QACARIN MƏRKƏZLƏŞDİRMƏ SİYASƏTİ

Alt standartlar:

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

Təlim məqsədi:

1. Azərbaycan xanlıqların inkişafında XVIII əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.

2. XVIII əsrin son rübündə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

İnteqrasiya. Az.d. 1.1.1., Ü.t. 3.1.1.

Təlim forması: kollektiv və fərdi iş

Təlim üsulu: beyin həmləsi, "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi"

Resurslar: kompüter, proyektor, CD disk, XVIII əsrə aid Azərbaycanın xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart,marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Mövcud dərsə motivasiyanı qurmaq üçün əvvəlki dərslərə müraciət edə bilərsiz. Bu məqsədlə XVIII əsrin II yarısında Azərbaycanda vahid dövlətin olmamasını, xanlıqlar arasında gedən mübarizəni və bu mübarizənin ölkənin müdafiə qabiliyyətinə mənfi təsir göstərməsini şagirdlərin diqqətinə çatdırmaq olar.

Motivasiyanın reallaşdırılmasının müxtəlif yolu və vasitələri olduğundan siz digər yollardan istifadə etməklə də dərsə motivasiya qura bilərsiniz. Bunlardan biri İKT vasitələridir. Proyektor vasitəsilə motivasiya üçün hazırladığınız slaydları göstərmək olar. Bu slaydları göstərərkən şagirdlərə yönləndirici suallarla müraciət etməlisiniz. Əgər sizin İKT resurslarından istifadə etmək imkanınız yoxdursa onda motivasiyanı məktəbinizdə olan xəritə və əyani vəsait hesabına da qura bilərsiniz. Təbii ki, bu zaman da siz şagirdi dərsə motivə etmək üçün yönləndirici suallardan istifadə etməlisiz. Əsas odur ki, quracağınız motivasiya sizin sinfin xüsusiyyətlərinə uyğun olsun. Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi" üsullardan istifadə edərək dərsinizin tədqiqat mərhələsinə keçə bilərsiniz.

Tədqiqat sualı: Azərbaycana hücum edən Ağaməhəmməd şah Qacarın məqsədi nə idi?

Dərsin tədqiqat mərhələsinə keçməzdən öncə şagirdlərə dərsin qaydalarını qısaca izah etmək məsləhətdir. Tədqiqat sualına cavab tapmaq üçün "açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi" metodunu seçmək məqsədəuyğun olardı. Siz tapşırığı verəndə eyni zamanda dərsin məqsədlərini də yaddan çıxarmamalısınız. Dərsin məqsədlərindən çıxış edərək şagirdlərə suallar tərtib edərkən XVIII əsrin son rübünün xüsusiyyətlərini və dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini nəzərə almalarını tapşıra bilərsiniz. Bu metod şagirdlərdə suallar quraşdırmaq vərdişini inkişaf etdirir. Şagirdlər növbə ilə mətni abzasla oxuyurlar, birlikdə bu abzasdan açar sözlər seçir və onu dəftərə yazırlar. Sonra termin sözlər adlandırdığımız bu sözlərdən suallar tərtib edirlər. Onları çox da böyük olmayan vərəqlərə yazırlar.

Məlumatın mübadiləsi və müzakirəsi: Müəyyən edilmiş vaxt bitdikdən sonra məlumatlar mübadilə və müzakirə edilir. Bu zaman şagirdlərdən yığdığınız vərəqləri təkrarən onlara (lakin fərli fərqli şagirdlərə) verirsiniz – biri bu vərəqdəki sualı oxumalı, digəri isə ona cavab verməlidir. Əgər cavab düzgün variant kimi qəbul edilərsə, cavab vərəqin arxa tərəfinə yazılır. Bu kart-cavabı şagirdlər sonradan mövzu üzrə öz biliklərini yoxlamaq üçün istifadə edə bilərlər. Bu zaman aydın olmayan hissələrə suallar verin. Bu suallar yönləndirici, düşündürücü və ya faktoloji suallar ola bilər. Dərslikdə suallar qismində verilmiş suallara müraciət etmək yerinə düşərdi. Aparılan müzakirə nəticələrin çıxarılması üçün istiqamət verməli, şagirdlərin fikirləri alınmalı, səhv və düz suallar və cavablar vurğulanmalı, qiymətləndirilməlidir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Nəticədə şagirdlər sizin verəcəyiniz yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab tapa bilərlər.

Yaradıcı tətbiqetmə.

Bu mərhələdə şagirdlərə aşaıdakı tapşırıqları verə bilərsiz:

– Ağaməhəmməd xan Qacarla İbrahimxəlil xan arasındakı münasibətləri şərh edin.

– Qacarın Cənubi Qafqazı tutmaq istəyinə haqq qazandırın.

– Qacarın elmi biliklərinin onun hərbi uğurlarındakı rolu barədə fikir yürüdün.

– Rusiyanın XVIII əsrdə işğal etdiyi əraziləri yadınıza salıb onları xəritədə göstərin.

– Sizcə, Qacarın ölümündə hansı qüvvələr maraqlı idi. Fikrinizi əsaslandırmağa çalışın.

Ev tapşırığı:

1. Şuşanın Qacar tərəfindən tutulmasına dair esse yazın.
2. Alınmaz Şuşa qalasına dair təqdimat hazırlayın.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, şərh etmə

Yuxarıda qeyd olunan meyarlar əsasında fomativ qiymətləndirməni həyata keçirin. Bu zaman əvvəlcədən nəzarətə götürdüyünüz bir neçə şagirdi səviyyələr üzrə formativ qiymətləndirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Azərbaycan xanlıqlarının inkişafında XVIII əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycan xanlıqlarının inkişafında XVIII əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.	Azərbaycan xanlıqlarının inkişafında XVIII əsrin son rübünün xüsusiyyətlərini dəyərləndirir.	Azərbaycan xanlıqlarının inkişafında XVIII əsrin son rübünün xüsusiyyətlərini faktlarla dəyərləndirir.
XVIII əsrin son rübündə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə XVIII əsrin son rübündə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	XVIII əsrin son rübündə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.	XVIII əsrin son rübündə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini faktlarla şərh edir.

MÖVZU 43

XANLIQLAR DÖVRÜNDƏ SOSİAL-İQTİSADİ HƏYAT

Alt standartlar:

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.

2.1.2. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edir.

Təlim məqsədi:

1. İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.
2. Xanlıqlar dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.

İnteqrasiya: Ü.t. 2.1.2., Az.d. 3.1.2., Coğ. 3.2.4.

Təlim forması: böyük və kiçik qruplarla iş

Təlim üsulu: beyin həmləsi, iş vərəqləri ilə iş

Resurslar: İKT, CD disk, Azərbaycanın xanlıqlar dövrünə aid xəritəsi, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Şagirdlərə proyektor vasitəsilə kənd təsərrüfatına – əmək alətlərinə, şəhər həyatına, ticarətə və s. bu kimi sosial-iqtisadi məsələlərə aid bir neçə slayddan ibarət təqdimat nümayiş etdirə bilərsiniz. Bu nümayişdən sonra onlara yönləndirici suallar verməlisiniz. Suallar təqribən bu formada ola bilər: Slaydları birləşdirən ümumi cəhət nədir? Bəhs edilən məsələlər və ya şəkillər (bu sizin slaydlarda şəkil və ya qrafik, çertyoj üzrə izahatınızla bağlıdır) dövlətin hansı tarixi sahəsi ilə bağlı ola bilər?

Əgər məktəbdə İKT-dən istifadə etmək imkanları yoxdursa, onda sinfə məktəbdə olan bel, dırmıx, balta, mişar və s. bu kimi alətlər gətirib göstərə bilərsiniz. Sonra şagirdlərə yönləndirici suallarla müraciət etməlisiniz. Bununla da dərsin motivasiyasını qurmaq mümkündür.

Tədqiqat sualı: Dövlətin iqtisadi gücü nə ilə bağlı ola bilər?

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz "iş vərəqləri ilə iş" metodundan yararlana bilərsiniz. Bu iş üsulu üçün aşağıdakı suallardan istifadə etmək mümkündür.

I qrup – Xanlıqların kənd həyatını şərh edin.

II qrup – Xanlıqlar dövründəki sosial zümrələri təhlil edin.

III qrup – Xanlıqlar dövründəki vergi və mükəlləfiyyətləri qiymətləndirin.

IV qrup – Xanlıqların idarə edilməsini dəyərləndirin.

Məlumatın mübadiləsi və müzakirəsi: Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə şagirdlər müəyyən edilmiş vaxt ərzində, verilmiş iş vərəqlərində hazırladıqları cavabları təqdim etməlidirlər. Sonra qrupların qiymətləndirilməsini qrup qiymətləndirmə meyarına əsasən müəyyən edin. Bu meyar əvvəlki dərslərin icmallarında verilmişdir. Siz ya onlardan hər hansı birini olduğu kimi (təbii ki, əgər bu sizin keçdiyiniz dərsə tam uyğundursa) və ya müəyyən dəyişikliklə qrup qiymətləndirmə meyarı qismində istifadə edə bilərsiniz. Qrupların qiymətləndirilməsi prosesində şagirdlərin iştirakı zəruridir. Meyar cədvəli 5 və ya 10 ballıq sistemlə, müxtəlif işarələr və s. ilə qiymətləndirilə bilər. Alınmış ballar əsasında qalib qrup elan edilir.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Dərsin sonunda əldə olunan nəticələri müəyyən edin. Şagirdlər verdiyiniz yardımçı sualların köməyi ilə xanlıqlar dövründə kənd təsərrüfatının vəziyyəti, mühüm sahələri, vergi və mükəlləfiyyətlərin ağırlıq dərəcələri, xanlıqların idarə edilməsi, inzibati bölgünün hansı formada olması kimi məsələləri qiymətləndirə bilərlər. Bunun üçün dərslikdə olan sual və tapşırıqlardan da istifadə etməyiniz mümkündür.

Yaradıcı tətbiqetmə: Bu mərhələdə onlara öyrəndiklərini yaradıcı şəkildə reallaşdırırlar. Bunun üçün onlara aşağıdakı sual və tapşırıqları verə bilərsiniz:

– Feodal pərakəndəliyi və natural təsərrüfatın hökmranlığı iqtisadi inkişafa hansı formada təsir göstərə bilərdi?

– XVIII əsrdə İngiltərə ilə Azərbaycanın toxuculuq sahəsində hansı fərqlər var idi?

– Rəncbərlər kimlərə deyilirdi? Rəncbəri qulla müqayisə etmək olarmı? Fikrinizi əsaslandırın.

– “Qeyri-məhdud səlaliyyətlərə malik” ifadəsini necə başa düşürsünüz?

– Fransız səyyahın yazdıqlarını təhlil edin.

Ev tapşırığı:

1. XVI–XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqram tərtib edin.

2. Xanlıqlar dövründə mövcud olmuş vergi və mükəlləfiyyətləri Səfəvilər dövlətində mövcud olmuş vergi və mükəlləfiyyətlərlə müqayisə edin.

3. Xanlıqlar dövründə mövcud olan vəzifələri cədvəl formasında qurun.

4. Xanlıqlar dövrü və Səfəvilər dövlətindəki inzibati idarə sistemini müqayisə edin.

Qiymətləndirmə meyarları: təqdimetmə, diaqramlar tərtibetmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə insanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında təqdim edir.	İnsanların həyat tərzindəki dəyişiklikləri mənbələr əsasında faktlarla təqdim edir.
Xanlıqlar dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib etməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə xanlıqlar dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	Xanlıqlar dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramlar tərtib edir.	Xanlıqlar dövründə Azərbaycanın geosiyasi mövqeyinə dair diaqramları faktlarla tərtib edir.

MÖVZU 44

XANLIQLAR DÖVRÜNDƏ MƏDƏNİYYƏT

Alt standartlar:

5.1.1. Mədəniyyətin inkişafını tarixi şərait və sosial-iqtisadi vəziyyət baxımından dəyərləndirir.

5.1.2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

5.1.3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, referatlar və təqdimatlar hazırlayır.

Təlim məqsədi:

1. Xanlıqlar dövründə Azərbaycanın mədəniyyətinin inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.

2. Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.

3. Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, təqdimat hazırlayır.

İnteqrasiya: Az.d. 3.1.2., İnf. 4.1.2., Ü.t. 5.1.3.

Təlim forması: kollektiv iş

Təlim üsulu: beyin həmləsi, ardıcıl suallar üsulu

Resurslar: elektron resurslar, dərslik, şəkillər, flipçart, marker və s.

DƏRSİN MƏRHƏLƏLƏRİ

Motivasiya. Bu mövzunun motivasiyasını dərslikdəki şəkillər və açar sözlərdən (Göy məscid, Şəki Xan sarayı, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Saib Təbrizi və s.) istifadə etməklə və bu şəkillərə, açar sözlərə qoyulmuş sualların köməyi ilə qura bilərsiniz. Əgər imkan varsa, mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən istifadə edin.

Motivasiya qurmaq üçün bu dərsə aid slaydlar da hazırlamaq mümkündür. Şagirdlərə xanlıqlar dövründə Azərbaycanın mədəni nailiyyətlərindən bəhs edən bir neçə slayddan ibarət təqdimat nümayiş etdirmək olar. Bu slaydların nümayişindən sonra onlara yönləndirici suallar verməlisiniz. Motivasiyanın hansı yollarla reallaşdırılmasından asılı olmayaraq, əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, həmçinin motivasiya uzun vaxt aparmasın. Motivasiya düşündürücü və 4-5 dəqiqəyə baş tutacaq olarsa, daha səmərəlidir. O reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

Tədqiqat sualı: Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dövrün ictimai-iqtisadi vəziyyəti necə təsir göstərdi?

“Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dövrün ictimai iqtisadi vəziyyəti necə təsir göstərdi” adlı tədqiqat sualına cavab tapmaq üçün dərsin ardıcıl suallar üsulu ilə keçilməsi məqsədəmüvafiqdir. Bu zaman mətni abzaslara bölərək hər abzası bir şagirdə ucadan oxudursunuz. Sinif diqqətlə dinləyir. Şagirdlərdən birinə isə yoldaşı abzası oxuyub bitirdikdən sonra ona verəcək sualı fikirləşmək tapşırılır. Bu zaman siz inteqrasiya imkanlarını da dəyərləndirə bilərsiniz. İnteqrasiya edəcəyiniz hər hansı bir fənnin və ya fənlərin standartlarını nəzərə almağınız vacibdir. Bu zaman şagirdlərin inteqrasiya ediləcək fənlə bağlı bilik və bacarıqları sizə yardımçı ola bilər. Abzasın oxunması bitdikdən sonra sual verəcək şagird mətni oxuyana bir və ya bir neçə sual verir, birinci şagird onu cavablandırır. Sonra sual verən şagird oxumağa davam edir, ikinci isə ona oxunan abzasdan sual hazırlayır.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi, məlumatın mübadiləsi və müzakirəsi mərhələsi ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur. Bu da sizə dərsin yaradıcı tətbiqetmə mərhələsində əlavə suallar verməyə imkan yaradar.

Ümumiləşdirmə və nəticənin çıxarılması: Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Siz aşağıdakı yönləndirici sual və tapşırıqlar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz:

– Azərbaycanın xanlıqlara parçalanmasının mədəniyyətin inkişafına təsirini izah edin.

– Molla Pənah Vaqifə hansı məşhur dram əsəri həsr olunmuşdur?

– Şəki Xan sarayının tikintisinin digər abidələrdən fərqi nədir?

– Xanlıqlar dövründə Azərbaycanda elm, təhsil, ədəbiyyat, şifahi xalq yaradıcılığı, memarlıq, incəsənətin inkişafı hansı səviyyədə idi?

– Bu dövrdə elmin inkişafına təsir edən səbəbləri müəyyənləşdirin.

Yaradıcı tətbiqetmə:

– Müasir dövrün məktəbini və XVIII əsr mədrəsəsini Venn diaqramında müqayisə edin.

– Hansı şəhərlərdə Göy məscidlərin inşa edildiyini xəritədə göstərin.

– Paraqrafdakı faktlar əsasında XVIII əsr mədəniyyətinə dair xronoloji cədvəllər hazırlayın.

– Xanlıqlar dövründə Azərbaycanın memarlıq abidələrini şərh edin.

Ev tapşırığı:

1. Xalça nümunələrinə əsasən Azərbaycan xalçaçılığının tarixi keçmişini və müasir dövrünü müqayisə edin, təqdimatlar hazırlayın.

2. Molla Pənah Vaqifin ölümü haqqında araşdırma aparın.

3. İnsanların həyat tərzindəki dəyişikliklərin xalça nümunələrində necə əks olunduğunu nümunələr əsasında təqdim edin.

Qiymətləndirmə meyarları: dəyərləndirmə, qiymətləndirmə, təqdimat hazırlama

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlədiyiniz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Bu zaman hər meyarı səviyyələr üzrə bölməli olduğunuzu yaddan çıxarmayın. Təqdimat hazırlama meyarını bir 45 dəqiqə ərzində reallaşdırmaq mümkün olmadığı üçün şagirdlərə meyara uyğun ev tapşırığı verilməsi nəzərdə tutulur. Beləliklə, ev tapşırığı sizə təhvil verildikdən sonra qiymətləndirilmə apara bilərsiniz.

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Azərbaycan mədəniyyətinin xanlıqlar dövründə inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycan mədəniyyətinin xanlıqlar dövründə inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycan mədəniyyətinin xanlıqlar dövründə inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından dəyərləndirir.	Azərbaycan mədəniyyətinin xanlıqlar dövründə inkişafını tarixi şərait və sosial iqtisadi vəziyyət baxımından faktlarla dəyərləndirir.
Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirməkdə çətinlik çəkir.	Müəllimin köməyi ilə Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirir.	Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsini faktlarla qiymətləndirir.
Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, təqdimat hazırlamaqda çətinlik çəkir.	Müəllimin köməyi ilə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, təqdimat hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, təqdimat hazırlayır.	Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan mədəniyyətinin inkişafına dair araşdırmalar aparır, təqdimatı faktlarla hazırlayır.

AZƏRBAYCAN XANLIQLAR DÖVRÜNDƏ (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

Məsləhət gördüyümüz ümumiləşdirici dərsdə 1.1.2., 2.1.2., 3.1.3. standartlarından istifadə etmək tövsiyə olunur. Bu dərsi keçərkən əsas diqqəti şagirdlərdə xronoloji cədvəllər hazırlamaq, qrafik və diaqram tərtib etmək bacarıqlarının formalaşdırılmasına yönəltməlisiniz. Mövcud dərs üçün forma və üsulu seçərkən hansı materiallar əsasında işləyəcəyinizi nəzərə almağınız yaxşı olardı. Bununla belə, bizim məsləhət gördüyümüz standartları dəyişə, ixtisar edə və ya əlavə standartlardan istifadə edə bilərsiniz.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.// "Azərbaycan məktəbi" jurnalı, 2013, № 5.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası.// "Kurikulum", 2009, № 2.
3. Abbasov Ə. Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir. "Təhsil Problemləri" qəzeti, 11–20 iyun, 2009.
4. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. "Kurikulum" jurnalı, 2008, № 1.
5. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri. "Azərbaycan məktəbi" jurnalı.
6. Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009.
7. Bəylərov E. Formativ qiymətləndirmə. "Kurikulum" jurnalı, 2011, №3.
8. Bəylərov E. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair. "Kurikulum" jurnalı, 2011, №2.
9. Cavadov İ. Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsinə dair. "Kurikulum" jurnalı, 2012, №2.
10. Cavadov İ. Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar. "Azərbaycan məktəbi" jurnalı, 2014, №4.
11. Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. "Azərbaycan müəllimi" qəzeti, 2014, 30 may.
12. Əhmədov A. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. "Kurikulum" jurnalı, 2008, №1.
13. Əhmədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi. "Kurikulum " jurnalı, 2008, №1.
14. Əliyeva K. Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları. "Azərbaycan məktəbi" jurnalı, 2011, №5.
15. Əliyeva T. Yeni qiymətləndirmə təhsildə inkişaf deməkdir. "Azərbaycan müəllimi" qəzeti, 2013, 5 aprel.
16. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
17. Əsədova M. Diaqnostik qiymətləndirmənin əsas mahiyyəti və ədəbiyyat dərslərində ondan istifadə. "Azərbaycan müəllimi" qəzeti, 2012, 28 sentyabr.
18. Əsgərov R., Qurbanov M. Qiymətləndirmə prosesi. "Təhsil problemləri" qəzeti, 2015, 24-30 noyabr.
19. Əsgərov R., Qurbanov M. Qiymətləndirmə vasitələri. "Təhsil problemləri" qəzeti, 2014, 1 yanvar.
20. Əsgərov Ş. Qiymətləndirmənin yeni kriteriyası, şagird-müəllim nisbəti prosesi. "Azərbaycan məktəbi" jurnalı, 2012, №2.
21. Hacıyeva T. İbtidai təhsil pilləsində qiymətləndirmənin aparılması barədə. "Azərbaycan müəllimi" qəzeti, 2010, 29 oktyabr.

22. Hacıyeva T. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti. “Azərbaycan müəllimi” qəzeti, 2011, 18 mart.
23. Hüseynov R. Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair. “Azərbaycan məktəbi” jurnalı, 2010, №1.
24. Hüseynov R. Formativ qiymətləndirmə sahəsində mövcud olan bəzi problemlər və onların aradan qaldırılması yolları. “Azərbaycan məktəbi” jurnalı, 2013, №4.
25. Qəniyeva N. “Təlimdə səviyyəyə görə qiymətləndirmə”. “Təhsil problemləri” qəzeti, 2015, 8 mart.
26. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, “Azmaşkom-Tex” Ltd. MMC, 2007, 184 s.
27. Paşayev T. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi. Bakı, 2011.
28. Təhsil Qanunu. Bakı, 2009.
29. Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat. “Təhsil problemləri” qəzeti, 2013, 08–15 sentyabr.
30. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları. “Kurikulum” jurnalı, 2009, №4.

Rus dilində

31. Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. Учебник стандарты школ России (государственнные общеобразовательные стандарты начального общего, основного общего и среднего (полного) общего образования). Книга первая. М., “Прометей”, 1998 г.
32. Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М., Педагогика, 1984. 296 с.
33. Амонашвили Ш.А. Основы гуманной педагогики. Книга четвертая. Об оценках, Москва, Амрита-Русь, 2012.
34. Величко В.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001.
35. Вяземский Е.Е. Историческое образование в современной России. Справочно-методическое пособие для учителей. М., 2002 г.
36. Крикунова Т.К. Практическая педагогика. М., 2001 г.
37. Никулина Н.Ю. Методика преподавания истории в средней школе: Учебное пособие, М., 2000 г.
38. Радугин А.А. Психология и педагогика. М., 2001 г.

İngilis dilində

39. Borich.G.D. Effective teaching methods/Upper Saddle River, 1996.
40. Chris Husbands. What is History Teaching? Bristol, USA.1996.
41. History-social science framework for California Public schools. Education with Criteria for Instructional materials. Sacramento, 2005.
42. History 7–11 developing primary teaching skills. London, 1997.
43. Linda S. Levistik, Keith C. Barton. Doing history, New York, 2011.
44. Thomas G. Devine. Teaching student skills, Boston,1997.

AZƏRBAYCAN TARİXİ 10

Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün
Azərbaycan tarixi fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

Tərtibçi heyət:

Müəlliflər:	**Elnur Hüseynov**
	Niyaməddin Quliyev
Buraxılışa məsul	**Sevil İsmayılova**
Baş redaktor	**Gültəkin Cəfərova**
Üz qabığının dizaynı	**Zaur Abbasov**
Səhifələyici	**Yeganə Rüstəmova**
Redaktor	**Nərgiz Cabbarlı**
Korrektor	**Nübar Qarayeva**
Texniki redaktor	**Fəridə Səmədova**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Kəmalə Qarayeva**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:
2017-099

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2017

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 12. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 192. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 7000. Pulsuz. Bakı – 2017.

“Şərq-Qərb” ASC
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.

Pulsuz